# 20 il Qubadlı həsrəti ilə

- 14952 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-2013


TBİLİSİ
GÜRCÜSTAN RESPUBLİKASI
RUSİYA FEDERASİYASI
SUMQAYIT
BAKI
XƏZƏR DƏNİZİ
ERMƏNİSTAN RESPUBLİKASI
İRAN İSLAM RESPUBLİKASI


Məlikəhmədli
Başarat
Əliquluuşağı
Muradxanlı
Teymur Müskanli
Qaracallı
Novlu
Sarıyataq
Göyərcik
Qayalı
Mahmudlu
Bala Soltanlı
Çardaqlı
Xocik
QUBADLI
Yuxarı Mollu
Dondarlı
Həmzəli
Həkəri
Fərcan
Hal
Xanlıq
Çərəli
Uləşli
Mahrızlı
Xocahan
Zilanlı
Tatar



... O torpaqlar əməksevər insanların qeyrət, bərəkət ünvanı idi. Qubadlılar Qarabağa, Laçına, Kəlbəcərə Ermənistandan gələn yolun üstündə möhtəşəm qala kimi dayanmışdılar.

**Heydər ƏLİYEV,**
***Ümummilli lider.***



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bunun başqa yolu yoxdur. Mən əminəm ki, o vaxt gələcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti.***

*Məsləhətçi:* ***Rasim Xalıqverdiyev, Qubadlı r-n, İH başçısının müavini***

*Kompyuter yığımı və tərtibatçısı:* ***Qafqaz Əvəzoğlu, şair S.Rəhimov adına Qubadlı rayon Ədəbi – ictimai Birliyinin sədri***

*Redaktor:* ***Xan Rəsuloğlu (Siqurd) S.Rəhimov adına Qubadlı rayon Ədəbi – ictimai Birliyinin sədr müavini***

*«20 il Qubadlı həsrəti ilə», "Bilik" nəşriyyatı 2013, 280 səhifə*

Qubadlı rayonunun Ermənistan Respublikası tərəfindən işğal edilməsindən artıq 20 il keçir. Ötən illər ərzində yurd həsrəti və doğma ocaqların nisgili rayon əhalisini bir an da olsa, tərk etməyib.

Oxuculara təqdim olunan bu kitabda Qubadlı yanğılı insanların fikir və duyğuları poetik ifadəsini tapmışdır.

Kitab Qubadlı rayon İcra Hakimiyyətinin başçısı cənab Malik İsaqovun təşəbbüsü və dəstəyi ilə nəşr olunub.

$$D\frac{525000-239}{289-09}M$$

© ***«Bilik» nəşriyyatı, 2013***



# *Ö N S Ö Z*



**MALİK XIZIR OĞLU İSAQOV**

***Qubadlı rayon İcra Hakimiyyətinin başçısı***

## BU HƏSRƏT DƏ BİR GÜN BİTƏR

***«Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir»***

**Heydər ƏLİYEV**

Tarix, əlbəttə, baş vermiş irili-xırdalı bütün hadisələrin salnaməsi ola bilməz. Maddi gerçəklik sonsuz və tükənməzdir, ictimai həyat hadisələri də həmçinin. Nəinki hər bir dövlətin, hər bir xalqın, tayfanın, şəhərin, kəndin, hətta hər bir insanın yaşadığı həyat, iştirak etdiyi hadisələr sonsuz dərəcədə müxtəlif və zəngindir. Lakin tarixi gündəlik fəaliyyətdə daha yaxşı nəzərə ala bilmək üçün, onu olduğu kimi və dərindən mənimsəmək tələb olunur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bir kəlamında deyildiyi kimi: «Xalq gərək daim öz kökünü xatırlasın».

Bu kəlama istinad edərək düşünürəm ki, indi atılan hər hansı addım minillik inkişaf meyillərinə uyuşmasa, uğur gətirə bilməz.

Sərhədləri şimalda Dərbənd, cənubda isə Qəzvin, Həmədan olan Azərbaycanın tarixi ərazisinə səpələnmiş memarlıq abidələri böyük kitabların verə bilmədiyi tarixi həqiqətləri qoruyub saxlayır.

Dünyada ən qədim yaşayış məskənlərindən biri sayılan 1,5 milyon yaşlı Azıx mağarası, 1,2 milyon illik Quruçay mədəniyyəti, 5-6 min il əvvəlin izlərini saxlayan Kür-Araz mədəniyyəti bugünkü Azərbaycanımızın ulu keçmişinin yadigarlarıdır.

Arxeoloji cəhətdən vaxtilə kifayət qədər öyrənilməsə də, Qubadlı ərazisi əcdadlarımızın qoyub getdiyi qədim abidələrlə zəngin bir bölgədir. Burada tarixi min illəri aşan abidələrin mövcudluğu bu diyarın qədimliyindən xəbər verir.

Tarixən məskunlaşmanın əsas şərti təbii şərait hesab olunur. Əsrarəngiz təbiəti ilə seçilən Qubadlı ərazisində bu cəhətdən bütün amillər vardır. Təbii sığınacaqlar, yabanı meyvələrlə zəngin meşələr, saf sulu bulaqlar, bərəkətli torpaqlar, qiymətli balıq növlərinin bol olduğu Həkəri və Bərgüşad çayları, dağ, meşə və çöllərinin fauna və florası, mülayim iqlim şəraiti ilkin məskunlaşmanı şərtləndirən amillərdir.

Şübhəsiz ki, belə əlverişli şəraiti olan diyar bu yerlərə göz dikənlərin nəzərindən də kənarda qalmamışdır. Zaman-zaman vətən seçdikləri bu torpaqları yağı təcavüzündən qoruyan əcdadlarımız onu abadlaşdırmış, oba-oba, kənd-kənd inkişaf etdirmiş, dünya tarixinin sivil dövrü sayılan XX əsrə çatdırmışlar.

İnzibati struktur kimi 1930-cu ildə yaradılan Qubadlı rayonunun ərazisi 802 kvadrat kilometrdir. O, Qarabağ yaylasının cənub şərqində yerləşir. Ermənistan Respublikası ilə o vaxtkı Dağlıq Qarabağ Muxtar vilayəti arasındakı ərazini əhatə edir. Şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan Zəngilan rayonları ilə həmsərhəddir.

Tarixən Qubadlının iqtisadiyyatı yerləşdiyi coğrafi şəraitlə əlaqədar olub. Bol sulu Həkəri və Bərgüşad çayları vadisində yerləşən kəndlərin əhalisi münbit torpaqlardan əkinçilik məqsədilə istifadə edib. Burada taxılçılıq, xüsusilə çəltikçilik əhalinin əsas məşğuliyyət sahəsi olub.

Dağətəyi zona geniş örüş-otlaq sahəsi ilə heyvandarlığın inkişafına imkan verib. Mal-qara naxırları, qoyun-keçi sürüləri, at ilxıları Qubadlının var-dövləti sayılıb. Azərbaycan torpaqları olan Zəngəzur Ermənistana veriləna qədər heyvandarlığın əsas dolanışıq sahəsi kimi imkanları böyük olub. Belə ki, ilkin yaz mövsümü başa çatan kimi sürülər Zəngəzur dağlarına aparılıb, qar düşənə qədər Salvartı yaylaqlarında, Sisyan dağlarında





yaylaq mövsümü başa vurulub. Bu proses sovet hakimiyyətinin ilk dövründə də davam edib.

Lakin ötən əsrin 50-60-cı illərində Ermənistan rəhbərliyi Zəngəzur dağlarından Azərbaycanın istifadəsini müxtəlif bəhanələrlə əngəlləyib, nəinki Qubadlıdan, digər Aran rayonlarından da buraya köçü qadağan edib. Bu amil rayonda heyvandarlığın məhdudlaşmasına səbəb olmuş, sonradan ictimai təsərrüfatlarda qoyunçuluğun az qala tamamilə ləğv edilməsinə gətirib çıxarmışdır.

Qubadlının sosial-iqtisadi yüksəlişinin təməli Ümummilli Lider Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu dövrdə rayonda böyük infrastruktur yaradılmış, magistral və kəndarası yollar əsaslı şəkildə yenidən qurulmuş, asfalt yollar salınmış, körpülər inşa edilmişdir. Yazı və Gəyən düzünə Həkəri və Bərgüşad çayından nasos stansiyaları vasitəsilə su çıxarılması, burada avtomatlaşdırılmış suvarma şəbəkəsi yaradılması, suvarılan əkin dövrüyyəsini xeyli genişləndirmişdi. Maldarlıq bütünlüklə sənaye təməli üzərinə keçirilmiş, bu sahənin vəziyyəti yüksək məhsuldar cins heyvanlar hesabına kökündən yaxşılaşdırılmış, 21 süd əmtəə ferması, irihəcmli kökəltmə birliyi yaradılmışdı. 80-cı illərin əvvəllərindən başlayaraq bu sahə respublikada qabaqcıl təcrübə məktəbi kimi tanınır və təbliğ edilirdi. Görülən əsaslı tədbirlər ilbəil məhsul artımını təmin edir, Qubadlının məhsul istehsalının artımı sahəsində respublikanın rayonları arasında ön mövqedə durmasına imkan yaradırdı.

1981-1982-ci il qışlamasının yekunlarına görə Qubadlı heyvandarlıq məhsullarının artımı sahəsində o vaxtkı İttifaqda ən yüksək nəticəyə nail olan rayonlar sırasına çıxmışdı.

Qubadlı respublikada yeganə rayon idi ki, 1980-1985-ci illər üçün müəyyənləşdirilmiş 5 illik tapşırıqları tam bir il əvvəl yerinə yetirmişdi.

Taxılçılıq, baramaçılıq, tütünçülük sahələrinin inkişafı ilə yanaşı, rayonun iqtisadiyyatı üçün yeni sahə olan üzümçülük geniş vüsət almışdı. Qısa vaxtda 468 hektar üzüm plantasiyası salınmış, 2 üzümün ilkin emalı zavodu inşa olunmuşdu.

Rayon mərkəzi və ətraf kəndlər bütünlüklə qazla təmin olunmuşdu. 10 kilometrlərlə içməli su xətti çəkilmişdi. 6,2 milyon kubmetrlik mişar daşı karxanası açılmışdı.

Son illər sənaye sahəsinin inkişafı istiqamətində də xeyli iş görülmüşdü. Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun, Bakı Tikiş Fabrikinin rayonda filialları açılmış, Mərmər emalı sexi, Asfalt zavodu, İnkubator-quşçuluq fabriki, Farel balıqyetişdirmə vətəgəsi fəaliyyətə başlamışdı.

Ümumiyyətlə, işğala qədər rayonda 62 idarə və müəssisə, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərirdi. 180 mədəni-maarif müəssisəsi, o cümlədən 84 kitabxana, 12 mədəniyyət evi, 44 klub, 7 avtoklub, 23 kino qurğusu, 5 mindən artıq dəyərli eksponatı olan Tarix Diyarşünaslıq Muzeyi və s. vardı. 125 ticarət, 96 iaşə, 25 məişət xidməti müəssisəsi, 21 rabitə müəssisəsi, 8 avtomat telefon qurğusu, 4 xəstəxana, 4 aptek, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 digər səhiyyə müəssisəsi fəaliyyət göstərirdi.

Rayon tarixi-mədəni abidələrlə zəngin bölgə idi. Burada 4-cü əsrə aid "Gavur dərəsi" ibadətgahı, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, "Dəmirçilər türbəsi" və digər tarixi abidələr vardı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əhalinin güzəranı müqayisəyə gəlməz dərəcədə yaxşılaşmışdı. Rayon mərkəzi və kəndlər abadlaşdırılmış, yaraşıqlı ictimai binalar və fərdi evlər tikilmişdi.

Həkəri və Bərgüşad boyu kəndlər abadlaşdırılmış, dağ kəndlərinə asfalt yollar çəkilmiş, özünə yaraşıqlı evlər tikənlərin, minik avtomaşınları alanların sayı coxalmışdı.

Təkcə onu demək kifayətdir ki, o illərdə rayon sakinlərinin əmanət banklarında 6,8 milyon rubldan çox vəsaiti var idi.

Yeni səhiyyə və mədəniyyət ocaqları inşa olunurdu. Rayonun əlverişli təbiətinin verdiyi imkanlar hesabına sanatoriya-kurort şəbəkəsinin yaradılmasına başlanmışdı.

Məktəblərin maddi bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparılmışdı. Təhsilə göstərilən qayğı nəticəsində respublikanın ali məktəblərində və respublikadan kənarda oxuyan tələbələrin sayı ilbəil artırdı.

Qubadlının sürətli inkişafı daha gözəl perspektivlər vəd edirdi.

Lakin bədnam qonşularımızın torpaq iddiası üzündən cəlb olunduğumuz münaqişə quruculuq işlərinə əngəl törətdi, rayonu müharibə meydanına çevirdi.

1988-ci ilin fevral ayından, havadarları tərəfindən Dağlıq Qarabağın erməni əhalisinin separatçı hərəkatına rəvac verildikdən sonra, mütəmadi olaraq Qubadlı ərazisinə ermənilər tərəfindən təcavüz edilmişdi. Erməni silahlı dəstələri yaşayış məskənlərimizi atəşə tutmuş, dinc əhaliyə qarşı terror və qətllər törətmişlər. Onların məqsədi Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Qubadlının əhalisini köçürtmək yolu ilə bu əraziləri birləşdirmək idi. Lakin torpaqlarımıza soxulmağa cəhd edən düşmən qüvvələri Qubadlı döyüşçülərinin sərt müqaviməti ilə üzləşmiş, hər dəfə ciddi tələfat verərək, burunları ovularaq geri oturdulmuşlar.





Qubadlı əhalisi erməni silahlılarının daimi hücumuna məruz qalsalar da, güllə və mərmi yağışı altında yaşasalar da, dözüm və mətanət nümayış etdirmiş, həm düşmən hücumlarını dəf etmiş, həm də gündəlik təsərrüfat işləri ilə məşğul olmuşlar.

Bu hal 24 noyabr 1988-ci ildən, rayonun işğal edildiyi 31 avqust 1993-cü ilədək 1737 gün beləcə davam etmişdir.

Müqayisə üçün qeyd edim ki, faşist Almaniyasına qarşı 1941-1945-ci illər müharibəsi, bütövlükdə 1415 gün davam etmişdir.

Bu müddət ərzində itkilərimiz də az olmamışdır. Qarabağ münaqişəsi başlanandan Qubadlı 237 şəhid vermiş, döyüşlərdə yaralanmış 190 nəfər əlil olmuşdur.

Qaçaq Nəbinin, Qaçaq Həcərin qəhrəmanlıq ənənələrini davam etdirən igid döyüşçülərimiz Əliyar Əliyev, Kazımağa Kərimov, Aqil Məmmədov, Vasili Əliyev, Kərəm Mirzəyev, Bəylər Ağayev, Aslan Atakişiyev, Ələkbər Əliyev, Səfa Axundov şəhidlik zirvəsinə qalxaraq göstərdikləri şücaətə görə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşlər. Həmyerlimiz Azərbaycan Respublikasının Milli Qəhrəmanı Fəxrəddin Cəbrayılov bu gün vətənə sədaqətlə xidmət edən qürur və iftixar duyduğumuz qəhrəmanlarımızdandır.

Ardı-arası kəsilməyən hücumlar qubadlıların döyüş əzmini qıra bilməsə də, Şuşa və Laçının, Ağdam, Füzuli və Cəbrayılın işğal edilməsi Qubadlını mühasirə vəziyyətinə saldığından 1993-cü il avqust ayının 31-də əhali yurd-yuvasını tərk etmək məcburiyyətində qaldı.

Qubadlının işğalının acısını yaşayan Ulu Öndər Heydər Əliyev Azərbaycanın bu bölgəsinə və buranın sakinlərinə münasibətini belə ifadə edirdi: "O torpaqlar əməksevər insanların qeyrət, bərəkət ünvanı idi. Qubadlılılar Qarabağa, La-

çına, Kəlbəcərə Ermənistandan gələn yolun üstündə möhtəşəm qala kimi dayanmışdılar".

Öz fədakar əməkləri ilə illər boyu qurduqları güzəranın tar-mar edilməsi, toplanan ictimai və şəxsi mülkiyyətin işğalçı erməni ordusu tərəfindən talan edilməsi, əhalinin dədə-baba yurdundan didərgin düşməsi onlara böyük mənəvi zərbə oldu. Lakin itirilən mülkün, varın sahiblərinin köçkün vəziyyətinə düşməsi adamlarımızı sındırmadı. Çünki onların güvəndiyi, uzaqgörən və müdrik ölkə başçımız, xalqın taleyinə biganə qalmayan Ümummilli Liderimiz vardı. Ağır günlərdə yurd-yuvalarından didərgin düşmüş insanların yanında olduğunu bildirən Ulu Öndər qubadlılılara deyirdi: "Bu mülkün, bu varın sahibləri qaçqın vəziyyətində respublikanın cürbəcür bölgələrində çadırlarda yaşayırlar. Bu, şübhəsiz ki, sizi də incidir, amma bilin ki, məni də həddən artıq incidir".

Erməni işğalı nəticəsində Qubadlı rayonuna 1,5 mlrd. ABŞ dolları dəyərində maddi ziyan dəydiyi müəyyənləşdirilmişdir. Lakin 5 il müddətində düşmən hücumlarını mətanətlə dəf edən, güllə yağışı altında mübarizə aparan, 20 il ərzində məcburi köçkünlük həyatı yaşayan insanlara dəyən mənəvi ziyanın ölçüsü yoxdur. İnsanlara dəyən zərbələrin ən böyüyü vətən itkisi, yurd-yuva həsrətidir. Köçkünlük dövründə 4476 nəfər həmyerlimiz vətən nisgili ilə dünyasını dəyişmişdir. Lap qədim zamanlardan hər kəndin, hər obanın yaşayış məskəni yanında qəbiristanlığı olmuş, insanlar dünyasını dəyişmiş əcdadlarını, əzizlərini, el-obada sayılıb-seçilən ağsaqqal və ağbirçəklərini mütəmadi yad etmiş, ruhlarına dualar oxutdurmuşlar.

Məzarları doğma yurdda qalan yaxınlarını ziyarət etmək imkansızlığından əlavə, bir kəndin, bir elin, hətta bir tayfanın respublikanın 40-dan çox qəbirstanlığında uyuyan yaxınları vardır. Bəzən 20 il müddətində dünyasını dəyişən əzizlərini ziyarət etmək üçün bir ailə bir neçə rayonun qəbiristanlığına üz tutmalı olur.

Rayonda hörmət və nüfuz sahibləri olan insanların, hamının gözəl tanıdığı, təqdimata belə ehtiyacı olmayan Qulu Quluyevin, Tofiq Quliyevin, Bayram Aslanovun, Hüseynqulu Şahmuradovun, Həmid Cabbarovun, Xizir İsgəndərovun, Bəhlul Muradxanovun, Əvəz Babayevin, Mahmud Abbasovun, Məhəmməd Novruzovun, Atlıxan Cahangirovun, Məsudə Rüstəmovanın, Qulam Rüstəmovun, Nəsib Məmmədovun, Həsən Hacıyevin, Nəriman Allahverdiyevin, Əli-Ağa Aslanın, Məhyəddin Qasımovun, Nuşirəvan Əliyevin, Nümayış Mehdiyevin, Fərhad Namazovun, Məhəmmədəli Süleymanovun, Əmirxan İsgəndərovun, Elbəyi Səmədovun, İbrahim Əliyevin, Məhərrəm Fərəcovun, Səfər Fətiyevin, Bayandur Cabbarovun, Yəhya Kazımovun, Sabir Rüstəmovun, Əkbər Hümmətovun, Seyfəddin Hüseynovun, Oruc Abasquliyevin və onlarca başqalarının uyuduğu məkanın çoxlarına məlum olmaması köçkünlük həyatının acı "hədiyyəsidir".





Məcburi köçkünlüyün ilk vaxtlarında ciddi problemlər qarşısında qalan rayonun 30 minə yaxın əhalisinə dövlət qayğısı, xüsusilə Ümummilli Lider Heydər Əliyevin şəxsi diqqət və qayğısı olmasaydı, bu insanların sonrakı taleyinin necə olacağı məlum deyildi.

Ötən 20 il müddətində soydaşlarımızın mənzil-kommunal, sosial, təhsil, səhiyyə və digər problemləri ilə bağlı davamlı tədbirlər həyata keçirilmişdir.

Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması istiqamətində qəbul olunmuş dövlət proqramlarının uğurla icra edilməsi bütün qaçqın və məcburi köçkünlərin, o cümlədən həmyerlilərimizin həyat şəraitinə müsbət təsir göstərmişdir.

Camaatımız əməksevərdir. Onlar köçkünlük dövründə, necə deyərlər, əllərini-əllərinin üstünə qoyub oturmamışlar. Dövlət tərəfindən verilən iqtisadi azadlıqlardan istifadə edən əksər adamlarımız gecə-gündüz çalışaraq özlərinə güzəran qurmuşlar. Onlar çətin dövrlərdə mümkün qədər dövlətə yük olmamaq üçün əllərindən gələn işdən yapışmışlar.

İnsanların xarakterində olan çatışmazlıqlar çox vaxt çətin duruma düşdükləri zaman üzə çıxır, ictimai sosial münasibətlərdə gərginlik yaşanır. Bəzən bunlar birgəyaşayış qaydalarının pozulmasına, ailədaxili münaqişələrə və digər mənfi hallara səbəb olur. Razılıq hissi ilə qeyd olunmalıdır ki, köçkünlük dövrünün çətinlik və problemlərinə baxmayaraq, həmyerlilərimiz təmkinlərini pozmamış, "Aclıq, çətinlik bir il gedər, töhmət min il" el kəlamını unutmayaraq, çətinliklərin dəf edilməsinə səbir və dəyanətlə yanaşmışlar. Yaxşı haldır ki, bu illər ərzində köçkünlərimiz arasında kimsəyə əl açma, oğurluq etmə və digər mənfi hallara təsadüf olunmamışdır. Qocalar evində, uşaq evlərində bizim rayon sakinləri yoxdur. Bunlar həm dövlətin qayğısı və həm

də adamlarımızın biri-birinə əl tutması, dayaq durmasının nəticəsidir.

İndi rayonumuzun 35,2 min nəfər əhalisi respublikanın 42 şəhər və rayonunda məskunlaşmışdır. Əhalinin əksər hissəsi Bakı, Sumqayıt və Abşeron rayonunda məskunlaşdığından rayonun icra strukturları, idarə, müəssisə və təşkilatları Sumqayıt şəhərində yerləşir. Fəaliyyətləri bərpa edilmiş idarə müəssisə və təşkilatların bu illər ərzində başlıca qayğısı köçkün soydaşlarımıza xidmət göstərmək olmuşdur. Buraya kommunal, sosial, səhiyyə, mədəniyyət, təhsil və digər problemlər aiddir. Səhiyyə və mədəniyyət sahələrinin maddi bazasının möhkəmləndirilməsi üçün əsaslı tədbirlər görülmüşdür.

Köçkünlük dövründə diqqət yetirilən əsas problemlərdən biri təhsillə bağlıdır. Bu təsadüfi deyildir. Axı rayonun zəngin təhsil ənənələri olmuşdur. Qubadlıda əsası hələ 1882-ci ildə qoyulan dünyəvi məktəb bu bölgənin mədəni inkişafında mühüm rol oynamışdır. İlkin təhsilini burada alan məktəbin məzunları arasında respublikamızın ictimai-siyasi, mədəni, elmi həyatında yaxından iştirak etmiş ictimai xadimlər, yazıçılar və alimlər vardır.

SSRİ Elmlər Akademiyasının ilk azərbaycanlı muxbir üzvü Əli Əmiraslanovun, yaradıcı ziyalılar arasında ilk Sosialist Əməyi Qəhrəmanı, xalq yazıçısı Süleyman Rəhimovun, ilk qadın nazir Zəhra Kərimovanın, görkəmli ictimai, dövlət xadimləri Kamran Hüseynovun, Nəzər Heydərovun, Möhbalı Əmiraslanovun, Mirağa Əliyevin, Baykonur Kosmanovtika Mərkəzinin tibbi işlər üzrə sədr müavini Marlen Məhərrəmovun və onlarca digər tanınmış şəxsiyyətlərin başlanğıc təhsili Qubadlı məktəbləri ilə bağlıdır. Təsadüfi deyildir ki, 1882-ci ildən təməli qoyulan Qubadlı təhsil sisteminin 125 illik yubileyinin qeyd olunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Qara İlyasov adına 1 saylı Qubadlı şəhər məktəbinin timsalında dövlət proqramına daxil edilmiş, 2007-ci ildə Sumqayıt şəhərində bayram əhvali-ruhiyyəsi ilə qeyd olunmuşdur. Prezident İlham Əliyevin məktəb kollektivinə göndərdiyi təbrikdə deyilirdi: "Regionda təhsil şəbəkəsinin inkişaf etdirilməsində bu tədris müəssisəsinin xüsusi xidmətləri olmuşdur. Hazırda Sumqayıt şəhərində məskunlaşan bu tədris müəssisəsi vətənpərvər ruhlu övladlar yetişdirilməsində qüvvə və bacarığını əsirgəmir. Ümidvaram ki, məktəbiniz ölkəmizin





maarifçilik ənənələrinə sadiq qalaraq Azərbaycan təhsil sisteminin inkişaf etdirilməsi işinə bundan sonra da öz töhfəsini verəcəkdir."

Onu da qeyd edim ki, köçkünlük dövründə Qubadlının təhsil şəbəkəsinin bərpası, təhsil ənənələrinin qorunub yaşadılması üçün əsaslı işlər görülmüşdür. Qısa müddətdə məcburi köçkün soydaşlarımızın daha sıx məskunlaşdığı Sumqayıt və Bakı şəhərlərində, Abşeron rayonu ərazisində müasir tələblərə cavab verən 10 yeni məktəb inşa olunmuş, 22 məktəb əsaslı təmir edilərək yenidən qurulmuşdur. Hər cür avadanlıqla təchiz olunmuş həmin məktəblərdə 6 mindən artıq şagird təhsil alır. Müqayisə üçün deyim ki, işğaldan əvvəl Qubadlı məktəblərində cəmi 5852 nəfər şagird təhsil alırdı. Görülmüş işlər öz bəhrəsini verməkdədir. Hər il 100-120 nəfər məzunumuz ali məktəblərə daxil olur. Qubadlı təhsil şəbəkəsi qəbul imtahanlarının nəticələrinə görə neçə illərdir ki, respublikada öncül yerlərdən birini tutur. Xarici ölkələrdə, dünyanın ən qabaqcıl ali təhsil müəssisələrində oxuyan gənclərimizin sayı getdikcə artmaqdadır.

Təhsil ənənələrimizin saxlanmasına nail olmağımızdan başqa bütün bunlar bizi həm də ona görə sevindirir ki, rayonun kadr potensialı qorunur, işğaldan azad ediləcək torpaqlarımızı əkib-becərə bilən, qurub-yarada bilən Qubadlı gənclərinin böyük dəstəsi, yeni nəsli yetişir.

Gənclərimizin idman sahəsindəki uğurları da az deyil.

Köçkünlük dövründə rayonun 12 idmançısı dünya çempionu adına, 8 idmançısı Avropa çempionu adına, 54 idmançısı Pespublika çempionu adına layiq görülmüşdür.

2 nəfər idman mütəxəssimiz Respublikanın "Əməkdar məşqçisi" adına layiq görülüb.

Rayon sakinlərindən 2 nəfərinin şahmat üzrə beynəlxalq qrossmeyster adına layiq görülməsi bu idman növünə gənclərin marağını daha da artırmışdır.

Sumqayıt şəhərindəki "Şəfa" sanatoriyasında inşa olunan idman kompleksi rayonumuzun idman nailiyyətlərinin artmasına xidmət göstərəcəkdir.

Dövlət qayğısı nəticəsində köçkünlərimizin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində nə qədər iş görülsə də, adamlarımızın fikri-zikri dədə-baba yurdlarındadır, doğma Qubadlıdadır.

Bunu rayon sakinləri ilə keçirdiyimiz hər görüşdə duymamaq, hiss etməmək qeyri-mümkündür. Adamlarımızın dilinin əzbəri, sözü-söhbəti, hətta baxışlarının dərinliyində hökm sürən nisgil Qubadlı həsrəti ilə bağlıdır.

Əslən Qubadlıdan olan yazarların kitablarını oxuduqca bunu daha dərindən hiss edir, təsirlənməyə bilmirsən. Hörmətli qələm sahiblərimiz elə bil ki, bütövlükdə Qubadlını öz qəlblərinə köçürüb, özləriylə gətirmişlər. Burada nələr yoxdur: qəm, qüssə, həsrət, kin, üsyan, daha nələr, nələr...

Yazarlarımızdan Famil Süleymanov «Qana bulanmış Quran», Yaşar Fətiyev «Qubadlı, görüşünə gəlmişəm», Tarıyel Cahangirov «Vətən oğul istəyəndə», Əli İldırımoğlu «Sətirlərin sədası», Əli-Ağa Aslan "Tanrı sevgisi", Çərkəz Qubadlı «Yurd harayı», Elbrus Şahmar «Torpaq həsrəti», Xanış Məmmədov «Həkəri harayı», Qafqaz Əvəzoğlu «Xanəndənin taleyi», Sevindik Mehman «İşğal», Çingiz Salmanov «Xələc, iman yeri, möcüzələr ocağı», Firdovsi Cəfərxan «Ölmə... ölsən, məni də götür», Eyruz Məmmədov «Bir kəndin camaatı», Elbrus Qayalı «Könlüm ney səsi istəyir», Eldar Xanlaroğlu «Yurddaşlar və yaddaşlar» və bu kimi yüzlərlə kitablarda ayrı-ayrılıqda vətən yanğısı, yurd həsrəti və tarixi keçmişimizlə dolu fikir və münasibətləri ortaya qoya bilmişlər.

Həqiqətdə də, həyatda qazandıqlarımızın ən vacibi tarixi keçmişimiz, milli-mənəvi dəyərlərimiz və onların qorunub saxlanmasıdır. Əsas şərt öz vətəninə və millətinə mənsub olduğunu sübut etmək qabiliyyətidir. Əlbəttə, vətənə şüurlu sevgi, mili özünüdərk və fərdi fəaliyyətlərin bu kontekstə salınması tələbi hər bir adamın üzərinə ağır bir yük qoyur. Dərk olunmuş vətənpərvərlik, təbii ki, daha dayanıqlı, daha faydalıdır. Ona görə də düşündüm ki, Qubadlının işğalının 20 illiyi ərəfəsində qubadlılı ziyalı və yazarlarımızla görüşüb, məsləhətləşib bir kitab ərsəyə gətirib, ictimaiyyətimizə təqdim edək. Düşündüm ki, kitab Qubadlı yazarlarının yurd həsrətiylə qələmə aldıqları şeir və məqalələrdən ibarət olsa, daha yaxşı olardı.

Mənə çox xoş oldu ki, təklifim ziyalı və yazarlarımız tərəfindən yüksək səviyyədə qarşılandı. Görüşümüş çox sadə və səmimi keçdi. Düzdür, onlarla ayrı-ayrı tədbirlərdə görüşsək də, bu görüşümüz daha yaxın, daha səmimi və açıq olduğundan çox





məsələlərə aydınlıq gətirildi. Bəlkə də, Qubadlı həsrəti bizi bir daha yaxın etmişdi. Əsasən də, ağsaqqallarımızın çıxışları yaddaqalan oldu. Çünki bu çıxışlarda köhnə kişilərin hökmü və qayğıkeşliyi duyulurdu. Tanınmış elm, sənət və dövlət adamlarının adları anıldıqca hamımız qürur duyurduq. Düşünürəm ki, qarşılıqlı sevgi və hörmət əsasında Qubadlı yazarlarının zəhmətiylə bələnmiş bu kitab gələcək nəsil üçün dəyərli bir ərməğan olacaqdır.

Dağlıq Qarabağ problemi Azərbaycan üçün olduqca önəmlidir. Bu problemin həlli istiqamətində Ulu Öndərimiz Heydər Əliyev böyük səy göstərmiş, beynəlxalq ictimai rəyin dəyişdirilməsi sahəsində böyük uğurlar qazanmış, işğal edilmiş torpaqlarımızın Ermənistan tərəfindən mənimsənilməsini hüquqi cəhətdən mümkünsüz edən beynəlxalq qərar və qətnamələrin qəbul edilməsinə nail olunmuşdur.

Azərbaycanın dövlət müstəqilliyini ümummilli nailiyyət kimi qiymətləndirən Ulu Öndər bu nailiyyətin qorunub saxlanmasının və əbədi olmasının elə strategiyasını, elə təməl prinsiplərini müəyyənləşdirmişdir ki, bunlar ölkənin beynəlxalq aləmdə layiqli yer tutmasına, sürətli inkişafının təmin edilməsinə əsaslı zəmin yaratmışdır.

Bu strategiyanın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğur və yaradıcılıqla həyata keçirilməsi dünyanın böhran və tənəzzül içində çalxandığı illərdə Azərbaycana sanballı nailiyyətlər qazandırmışdır.

Bəlkə də, çoxlarının, tanınmış ekspertlərin və siyasətçilərin 10 il əvvəl heç ağlına belə gəlməzdi ki, ölkəyə başçılıq məsuliyyətini və səlahiyyətini üzərinə götürən gənc bir siyasətçi bu müddət ərzində sürətli inkişafı təmin edəcək, ölkənin beynəlxalq nüfuzunun gücləndirilməsinə, hərbi potensialının bu dərəcədə möhkəmləndirilməsinə nail olacaqdır.

BMT kimi nüfuzlu bir təşkilatın Təhlükəsizlik Şurasına Azərbaycanın qeyri-daimi üzv seçilməsi və ona sədrlik etməsi, dünyanın 11-ci kosmos ölkəsinə çevrilməsi görünməmiş nailiyyət kimi tarixə düşən uğurlarımızdandır.

Şübhəsiz ki, bu uğurları təmin edən Prezident İlham Əliyev cənablarının torpaqlarımızın işğaldan azad edilməsi istiqamətindəki siyasəti də öz nəticələrini verəcəkdir.

Çünki dövlət başçımızın Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı prinsipial və dəyişməz mövqeyi vardır: "Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıbdır, heç vaxt olmayacaqdır. Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Bu münaqişənin həlli beynəlxalq hüquq normaları əsasında olmalıdır. İşğalçı qüvvələr torpaqlarımızdan çəkilməlidir. Məndə heç bir şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir." Bu mövqe həmişə dövlətə və dövlətçiliyə sədaqəti ilə seçilən, Azərbaycanın xoşbəxt gələcəyini Ulu Öndərin müdrik strategiyasından ayrı təsəvvür etməyən qubadlılılar tərəfindən birmənalı şəkildə dəstəklənir və müdafiə olunur.

Soydaşlarımız möhkəm əmindirlər ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi sahəsində ölkə başçımızın siyasəti tezliklə gerçəkləşəcək, yüz minlərlə qaçqın və köçkünümüz doğma yurd-yuvalarına dönəcəklər.

İnanın ki, bu həsrət də bir gün bitər!..




***Qubadlı yazarlarından bir qrupu Rayon İcra Hakimiyyətində***





## KAMRAN HÜSEYNOV



*Kamran Əsəd oğlu Hüseynov* – *15 dekabr 1913-cü ildə Qubadlı rayonunun Çərəli kəndində anadan olmuşdur.*

*Əmək fəaliyyətinə gənc yaşlarından başlamış, Xarkov İnşaat Mühəndisləri İnstitutunu (1938-1940), Azərbaycan Sənaye Akademiyasını (1940-1941), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini (1949) və Respublika Ali Partiya Məktəbini bitirmişdir.*

*1934-cü ildən Bakıda neft sənayesində müxtəlif vəzifələrdə çalışmış, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərmiş (1941-1944), Sumqayıt Rayon Partiya Komitəsinin (RPK) sənaye və kadr işləri üzrə katibi (1944-1945), indiki Binəqədi RPK-nin I katibi (1945-1947), Neftçala RPK-nin I katibi (1952-1953), Sumqayıt Şəhər PK-nin I katibi (1953-1958), Respublika Həmkarlar İttifaqları Şurasının sədri (1958-1961), Moskva şəhərində Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının katibi (1961-1968), Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini (1968-1980), Respublika Ticarət və Sənaye Palatasının sədri (1980-1993) vəzifələrində çalışmışdır. 1993-cü ildən Ticarət və Sənaye Palatasının müşaviri idi.*

*Mingəçevirdə aparılan inşaat işlərinin (1949-1952) rəhbərlərindən biri olmuşdur.*

*1967-ci ildə tarix elmləri doktoru elmi dərəcəsi almışdır.*

*Uzun illər Azərbaycan Respublikası Ali Sovetinin, eləcə də RSFSR Ali Sovetinin deputatı kimi səmərəli fəaliyyət göstərmişdir. Bir sıra orden və medallara layiq görülmüş, o cümlədən müstəqil Azərbaycan Respublikasının ali mükafatı - «Şöhrət» ordeni ilə təltif edilmişdir.*

*Tanınmış ictimai xadim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Kamran Əsəd oğlu Hüseynov 2006-cı il aprelin 20-də ömrünün 93-cü ilində vəfat etmişdir. Ruhu şad olsun!*

*Bir neçə kitab müəllifidir.*

***

Neçə yaşa çatsan da, ömründə nə qədər əyri-dolama yollardan keçsən də, ilk növbədə anadan olduğun yerlər, həmin mühit, oradakı insanlar sənə hər şeydən əzizdir. Doğulduğun yerlərin coğrafi iqlimi, təbiətinin gözəlliyi ömrün uzunu xatirələrindən silinmir..

Mən də xatirəyə, elə anadan olduğum, orada boya-başa çata bilməsəm də, yadımdan çıxmayan Çərəli kəndindən başlamaq istəyirəm. Qədim zamanlarda bu kəndin adı Çiyələkli olub. Çünki yazağzı kəndin ətraf yamaclarında çiyələk əlindən tərpənmək olmazdı. Kəndin kənarına çıxanda adama elə gəlirdi ki, otların üstünə qırmızı yaylıq səriblər. Çiyələyin ətri adamı bihuş edərdi.

Kənd Hərtiz dağının ətəyində yerləşmişdi. Buralar çox mənzərəli yerlər idi. Bu dağ dəniz səviyyəsindən 1073 metr hündür, arxası qalın meşəlik, güney tərəfi otluq, çəmənlik idi. Yazağzı adamı tamaşaya çağıran, çiçək-çiçəyə qovuşan bir yer idi. Hamı çalışırdı ki, orada bir parça torpaq götürüb çəpərə salsın, biçənək düzəltsin. Mən də uşaq vaxtı gedib həmin biçənəklərə tamaşa edərdim... Xudaya, biçənəklərə, çiçəklərə nə qədər kəpənək qonardı! Necə də gözəl, alabəzək kəpənəklər idi. Elə bil rəssam çəkmişdi onları, tamaşasından doymaq olmurdu.

Qar yağanda kəndin kişiləri kəklik, qırqovul, dovşan ovuna gedərdilər. Heç kəs quşa güllə atmazdı. Onları uçurub, yorana qədər qovub, diri tutardılar.

Uşaqlığım təbiəti bu cür gözəl olan yerlərdə keçib.

Torpağı şabalıdı rəngə çalırdı. Buranın suyu az da olsa, kəndin torpağı məhsuldar, əkin-biçin üçün yararlı idi. Hər kəs çalışardı ki, əksin, biçsin, çoxlu heyvan, mal-qara saxlasın.

Kəndin camaatı bir-birinin hörmətini saxlardı, bir iş görəndə ağsaqqallarla məsləhətləşərdi. Demək olar ki, kəndi ağsaqqallar dolandırardı, ona görə də hamı yaşlıların adını uca tutub, hörmətini qaldırardı...

...Doğma diyar, doğulduğum Çərəli kəndi, onun mehriban, böyüyə, kiçiyə hörmət edən zəhmətkeş adamları, yamyaşıl dağları, bar-bəhrəli bağları bir an belə gözlərim önündən getmirdi.





Xeyli vaxtdı, el-obadan ayrı düşmüşdüm. Örpəyi sis dumanlı, başı bəyaz qardan çalmalı Hərtiz dağı yadıma düşəndə arzularım ilhama gəlirdi. Gündüzlər başım işə qarışdığından, gecələr tez-tez yadıma düşərdi Hərtiz dağı. Çərəli kəndinin çiyələkli yal-yamacaları gecələr yuxuma girərdi. Hər daşına, torpağına bələd olduğum, hər gülünün, çiçəyinin ətri hələ də yaddaşımda olan doğma el-obanın həsrəti güc gələndə əlimə qələm aldım, ömrümdə ilk və son şeirimi yazdım:

Yaz gələndə yaşıl atlaz geyirsən,
Ucalıb göylərə, nazla deyirsən:
Dürlü bahar, qönçə güllərməndədir,
Tərlanın oylağı göy sinəmdədir.

Sənin yaşın bəlli deyil kimsəyə,
Öz vətən oğluna demirsən niyə.
Hansı əsrlərin yadigarısan?
Sən elə əzəldən şux yaranmısan.

Ucasan, yüksəksən, səfalısan sən,
Əzizsən, doğmasan, vəfalısan sən.
Səndədir kəndimin meşəsi, bağı,
Şanlı diyarımsan, ey Hərtiz dağı!

Kollarında kəklik, xoruz səslənir,
Arxaclarda qoyun-quzu bəslənir.
Yadıma düşdükcə Güney yatağı,
Xəyala dalıram, ey Hərtiz dağı!

Buludlar dolanıb naz ilə gedir,
Əliklər otlayıb hərdən səs edir.
Bəzənirsən tovuz quşu sayağı,
Hər ilin yaz vaxtı, ey Hərtiz dağı!

Bahar vaxtı bülbüllərin oxuyur,
Çiçəklərin min bir ətir qoxuyur.
Bir tutursan həm dostu, həm qonağı,
Laləzər vaxtında, ey Hərtiz dağı!

14952
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Qara buludların hey oynaşdığı,
Göyün guruldayıb, şimşək çaxdığı,
Sellərin coşaraq ağac yıxdığı,
Yaxşı yadımdadır, ey Hərtiz dağı!

Atamın, babamın məskənisən sən,
Onlar səni seçib eyləmiş vətən.
Yazın oğlan çağı, bayram qabağı,
Tamam al geyirsən, ey Hərtiz dağı!

Kəklikotu, tər bənövşə, qızılgül,
Maralotu, xəzəz, bir də ki, sünbül,
Səndə bitir bunlar, vətən torpağı,
Nə qədər zənginsən, ey Hərtiz dağı!

Günəşlə üzbəüz duranda sinən,
Olduqca mənalı, şən görünürsən.
Adamın sinəndə çax-çax uçmağı,
Nə qədər şirindir, ey Hərtiz dağı!

Yay çıxanda saralırsan, solursan,
Dəyişib donunu yalçın olursan.
Anırsan vüqarla yaxın-uzağı,
O mavi göylərdən, ey Hərtiz dağı!

Payız səndə özgə büsat qurulur,
Saralır otların, güllərin solur.
Eşidilir cütcülərin hodağı,
Sənin ətəyindən, ey Hərtiz dağı!

Qayadibi sənin səfalı yerin,
Yay günləri orda keçir çox sərin.
Ağacların meyvə dolu budağı,
Bəzəyir sinəni, ey Hərtiz dağı!





Xəzan vurur ormanını saraldır,
Bunu duyan qəlbim çox intizardır.
Bu vaxtı gülməyir ömrün növrağı,
Sənin o halına, ey Hərtiz dağı!

Rüzgarın hökmündən güllərin solur,
Duyan ürəklərə qəm-qüssə dolur.
Buz bağlayıb axmır Göyyal bulağı,
Sənin firqətindən, ey Hərtiz dağı!

Qəhər gəlir, göy otların çürüyür,
Top meşəni duman, çiskin bürüyür.
Kəsilir quşların səsi, sorağı,
Sükuta dalırsan, ey Hərtiz dağı!

İlk dəfə ayrılıb səndən gələndə,
Qəlbim hicran çəkdi, könlüm ağladı.
Ayrılıq şərabın içib gələndə,
Buludlar çaxnaşıb sellər ağladı.

Çünki tərk eyləyib səni gedirəm,
Ürəyimdə sanki üsyan edirəm.
İllər arxasında qaldı o günlər.
İndi çiçək açıb arzu, əməllər.

İşgə güney, Quzu-düzü, Top meşə,
Xəyalımdan silinməzdir həmişə.
Gavır yolu, Hamar, bir də Su yeri,
Mənə xatırladır keçən günləri.

Səndən ayrıldığım xeyli müddətdir,
Vətən ayrılığı nə böyük dərddir!
Hər an, hər dədiqə səni anıram,
Səndən ilham alıb qanadlanıram.

O vaxtdan keçsə də ulduz sanı il,
Qəlbim ayrılmamış səndən, bunu bil.
Yüz illər, min illər keçsə də belə,
Yenə də qəlbimdə cavansan hələ.

Səndəki büsata vurğun olmuşam,
Qırqovul ovlayıb, kəklik vurmuşam.
Səndə keçmiş ömrün uşaqlıq çağı,
Odur ki, əzizsən, ey Hərtiz dağı!

Sən anasan bizə, doğmasan bizə,
Daim yaraşıqsan öz kəndimizə.
Sənsən el-obanın arxa-dayağı,
Müqəddəs yurdumsan, ey Hərtiz dağı!

Gölün, Çəvirmənin müqəddəs yeri,
Bəladan qurtarmış çox xəstələri.
Səndən yanmış dərdlilərin çırağı,
Qalın, sıx meşəli, ey Hərtiz dağı.
Kamran da, Gürşad da, Osman da
Səndən alıb ilhamı,
Odur ki, əzizsən, ey Hərtiz dağı!



**_Çərəli kəndi_**





# ƏLİ İLDIRIMOĞLU



*Əli İldırım oğlu Məmişov* *1927-ci il noyabr ayının 17-də Qubadlı rayonunun Əliquluuşağı kəndində anadan olub.*

*Şuşa şəhərində iki aylıq müəllimlik kursunu (1941), Laçın Pedaqoji Texnikumunu, Ağdam ikiillik Müəllimlər İnstitutunun tarix fakültəsini (1946-1948) bitirmişdir.*

*"Rəşadətli əməyə görə" (arxa cəbhədə – 1941-45) medalı, "Əmək veteranı" (1998) medalı və "Şöhrət" ordeni (2007) ilə təltif olunmuşdur. AYB-nin üzvüdür (1996). Respublikanın "Əməkdar jurnalisti" adına layiq görülüb (1988). "Qızıl qələm" (1963), "Ali Araz", "Ustad jurnalist", "Ə.Haqverdiyev adına mükafat"ların laureatıdır. "Türk Ədəbiyyatına Xidmət" beynəlxalq mükafatı ilə təltif edilib.*

*On üç kitab müəllifidir. Hazırda təqaüddədir. Bakı şəhərində yaşayır.*

## YURD NİSGİLİ VƏ YA KEÇİRDİYM HİSLƏR

Bir gün bağıma gözləmədiyim halda, bir şanapipik uçub gəlmişdi və bu hadisə mənə vaxtilə kəndlərimizin üstündən uçub keçən və gözəl səsləri ilə onlardan aşağıda dayanan varlıqlara salam göndərən durna qatarını seyr etməyi andıran bir riqqət təsiri bağışladı. Şanapipiyin kəkili Roma sərkərdələrinin dəbilqəsinin tac hissəsini yada salırdı, qanadlarının, lələklərinin rəngi isə yoxa çıxan qövsi-qüzehə bənzəyirdi. Bu quşa baxış və təəccüb məni real həyatdan ayırmış, nisgilini daim sinəmdə gəzdirdiyim bir aləmə, dəbdə olan ifadədən istifadə edilsə, virtual bir mövcudluğa çəkib apardı. Təəccüb, qəribəlik hissi adamda qeyri-adi düşüncələr meydana gətirir, məni xatirələr dənizində üzən qayığa oturdub, yaddan çıxan adalara səyahət etməyə vadar etdi.

Uşaqlığımdan bu quşa vurulmuşam, onu bir sehr, sirr mənbəyi hesab etmişəm, onunla hər dəfə rastlaşanda sevincimi gizlədə bilməmişəm və məni hansısa əcaib təsirdən müqəddəslik

haləsinə bürüyüb. Elə güman etmişəm ki, mənə nəsə məchul, başqalarından gizli saxlanan xəbər gətirib.

Bəlkə də, indi bu quş mənim həyatdan vaxtsız köçmüş, mən oğlunu bircə dəfə də olsun məktəbə yola salmağa macal tapmamış anamın, hüznlü olsa da, bu balaca uşaq üçün müqəddəs bir vəhy xarakteri daşıyan, son nəfəsini verərkən deyə bilmədiyi, ifadə etməyə gücü çatmadığı bir sözünü, vəsiyyətini gətirmişdi.

Bu quşun az qala sirr daşıyıcısı, ən məhrəm adamlar arasında müjdəçi olduğuna inam gətirilmişdi. Sonralar dini kitablara marağım artdıqda şanapipiyin peyğəmbərlərin diqqətini cəlb etdiyini öyrənə bildim.

İslam dininin ali kitabında şanapipiyin Süleyman peyğəmbərin Səba hökmdarı Bəlqisə məktubunu çatdırmaq kimi vacib bir işə xidmət etdiyi göstərilir. Axı bu ünsiyyət sonralar onların arasında məhəbbət cığırına yol açmışdı. Ona görə də həmin quş insan adı olan "Hüd-hüd" adı altında məşhurlaşmağa başlamışdır. Quranın "Ən-Nəmi" surəsinin 22-ci ayəsində deyilir: "Bir azdan Hüd-hüd gəlib (Süleymana) dedi: "Sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm". Hüd-hüd Səba əhlinə padşahlıq edən qadın haqqında məlumat verir və bu xalqın Allaha deyil, Günəşə sitayiş etdiyini bildirir. Sonra isə Süleyman peyğəmbərin düz yola qayıtmaq barədəki məktubunu Bəlqisə çatdırır. Bax, beləliklə, şanapipik peyğəmbərin tapşırığını yerinə yetirir. Görünür, rusların şanapipik quşuna verdikləri "Udod" sözü də, yəqin ki, elə "Hüd-hüd" ifadəsindən yaranmışdır.

Səmimi qaydada bildirim ki, heç müqəddəs kitaba bələd olmamışdan, bu qəribə zahiri əlamətlərə malik olan bu quşun adi varlıq olmaması qənaətinə gəlmişdim, onda daim hansısa bir qəribəlik, möcüzə əlaməti tapmağa cəhd göstərmişdim. Lakin sonralar mənim bu quşa olan aludəçiliyim uşaqlığa xas olan digər xüsusiyyətlər kimi sıradan çıxmış, təxəyyülün poetik çalarlarının yerini reallığın, gerçəkliyin amansız diqtələri, izləri tutmuşdur. İndi isə gözləmədiyim halda bu quş mənim uşaqlığımdan uzun yol qət edib, uçub bu dövrə və məkana gəlmiş, sehrli bir möcüzə kimi, həm də məni geriyə, həmin illərə, doğma yurda, vaxtilə özümün zərurətin hökmü ilə tərk etdiyim, sonralar isə bədbəxtliklər ucbatından qapısı hamının üzünə bağlı qalan, yolu itirilmiş kəndimə qaytarırdı. Bu quş unudulmuş xatirələri oyatmaqla özümə məhrəm saydığım və dünyanın hər





yerindən gözəl bildiyim təbiətin qucağına məni yenidən çatdırmış, ən azı məndə bu arzunu şiddətli qaydada canlandırmış, həmin çağırışa biganə qalmamağa səsləndirmişdi.

Bu quş əhvalatı, bu cılız varlığın mənim ruhuma güclü təsir göstərməsi əslində bir qədər qəribə görünə bilər. Bəlkə də, bu düşüncələr təkcə mənə xasdır. Ona görə də bunu başqaları mənimtək qəbul etmək istəmir, hətta belə fikirlərin yaranmasının özünə bir qeyri-adilik, qəribəlik, daha dəqiq desək, divanəlik kimi baxırlar. Mən heç kəsi qınamıram ki, niyə məni dərk etmir, axı bu idrakdakı qüsurdan hamımız əziyyət çəkirik və ya heç birimiz başqasının könlünə toxunmaqdan, ona zərbə vurmaqdan çəkinmirik. Yəqin ki, ahıl yaşımda uşaqlıq hislərinə qapıldığıma, çox sayda onilliklərin üstündən keçib, baş vermiş hadisələrin hətta xatirələrdən silindiyi aləmə yenidən səyahət etmək istəyində olmadığıma gülənlər də tapıla bilər, ruhumun haçalanıb məni əlavə əziyyətlərə düçar etdiyini güman edənlər də ola bilər. Onu da etiraf etməliyəm ki, belə düşüncələr heç də əzabsız ötüşmür, xatirələr süfrəsində şirin nemətlərlə yanaşı, acı təamları da dadmalı olursan. Şekspir Hamletin diliylə dediyi kimi, bu "yaddaş cədvəlini silib" ata bilmirsən. Bilmirəm nədəndirsə, bu quş da ilk dəfə seyr etdiyim yeri yada saldı, mənə keçən günləri, heç vaxt unutmadığım doğma yurdu, el-obanı xatırlatdı.

Hamıya yaxşı məlumdur ki, mən həyatımdan narazı deyiləm, naşükürlüyümə görə Allah məni cəzalandırardı. Ruhumun fırtınaları ram edib, lövbər saldığı kitablarım öz oxucu kütləsinə malikdir. Dahilik iddiasında deyiləm, lakin qələmimin məhsullarını rəflərdə gördükdə məmnunluq hissi keçirdiyimi də dana bilmirəm. Ömür-gün yoldaşımla yarım əsrdən artıq bir müddətdə övladlarımı, sonra nəvələrimizi böyütmüşük, indi isə nəticələrimizin nəslimizi davam etdirməsindən qürurlanırıq. Övladlarımın qayğısından şikayət etməyə də haqqım yoxdur, üstəlik də dövlət öz qayğısını, diqqətini əsirgəmir. Lakin birdən hansısa bir hiss məni bütünlükdə culğayır, özünə əsir etməyə çalışır, elə bil ki, ilahi bir səs məni doğma kəndə, onun çətinlikləri və ehtiyaclarla dolu olan yaşayışına qayıtmağa səsləyir. İllər keçdikdən sonra həmin kasıblığın, imkansızlığın acıları öz dadını dəyişib şirinləşməyə başlayır və ötən dövr öz maqnitizmi ilə yenidən səni öz ağuşuna qaytarmaq istəyir. Bu hislərə qalib gəlmək bir yana, onlara duruş gətirmək də olduqca çətindir.

Anamı, atamı qəbirə tapşırdığım gündən neçə onillikdən artıq bir vaxt keçir. Həyat çayının suları kimi insanlar ölüm adlanan dənizə axmaqda davam edirlər. Lakin insan öz əzizinin, doğmasının həyata vida deməsi ilə razılaşmaq istəmir, təskinliyi yalnız onların qəbrini ziyarət etməkdə tapır. Bu mümkün olmayanda insan öz müqəddəslərinə asi düşmüş kimi görünür. Əgər ata-ana qəbri üzərinə gedən cığırı ot basmışdırsa, bu övladların, nəvələrin qəbahətidir, günahıdır, nankorluğudur. Lakin səbəb özündən asılı deyilsə, məgər bu ruhlar qarşısındakı borcu kiçildə bilirmi, günahı azaltmaqda bəraət rolunu oynayırmı? Son iyirmi ildə valideynlərimin qəbrini – müqəddəs saydığım bu ehramı, dağlar qədər uca saydığım sadə sərdabələri ziyarət edə bilmirəm. Səbəb isə hamınınkı kimidir. Qarabağın digər gözəl guşələri kimi yaşadığım torpaqlar, doğma kəndim ermənilər tərəfindən işğal olunmuşdur. Buz bulaqların nəğmə dediyi, ot örtüyünün zəriflik nişanəsi olan süsənlərin bəzədiyi meşələr, səhər-səhər əkinçiləri salamlayan torağayların şərqisi yaddan çıxa bilərmi? Qan hərisliyi nankor qonşularımızın gözünü elə tutub ki, onlar düşmənçiliyi təkcə bütöv bir xalqa deyil, təbiət - meşələr, heyvanlar, quşlar üzərinə yaymaqdan da həzz alırlar. Təbiət, bir qayda olaraq, qoynuna gətirdiyi, böyüdüb boya-başa çatdırdığı, nəhayət, sonda öz qucağında əbədi məskən verdiyi varlıqlara ana olmağı bacarır. Yadlara, xüsusən ölüm kabusunu müşayiət edənlərə isə təbiət heç vaxt ana münasibəti, doğmalıq göstərə bilməz. Çünki onun daimi sakinlərinin həyatı kimi onun özünün də məhvinə çalışanlar ona nəinki övlad məhəbbəti bəsləyə bilmir, əksinə ona da qənim kəsilmək kimi vəhşi istəyindən bir an da olsun geri çəkilmirlər.

Qeyd edim ki, ahıl yaşa çatmaq çoxlarının arzusudur, baxmayaraq deyirlər ki, guya Allah sevdiklərini daha tez öz dərgahına aparır. İnsan yaşa dolduqca kamilləşir, dünyanın hər üzünü görmək imkanı qazanır. Bircə qüsuru odur ki, fəal həyatdan nisbətən uzaqlaşmalı olursan və bu, bir çox hallarda insanda lazımsızlıq kompleksinin yaranmasına səbəb olur.

Lakin həyata bağlılıq olduqca böyük gücə malikdir, insan yaşadığı hər gündən cismən olmasa da, ruhən həzz almaq istəyir və son sap üzülənə qədər heç kəs həyatdan ayrılmaq istəmir.

Qocalığın insana bəxş etdiyi xüsusiyyətlərdən biri onu rahat yatmaqdan məhrum etməsi, şirin yuxuya, təbiblərin dili ilə desə, dərin, sağlam yuxuya həsrət qoymasıdır.





Mən olduqca az yatıram. Mürgüləyən kimi də yuxular rahatlıq vermir. Özü də hər gecə, özü də bir neçə dəfə doğma kəndimi, onun yaddaşlardan çoxdan silinmiş adamlarını görürəm. Yuxular mənim üçün kəndimi, onun əhalisini yenidən öyrənmək dərsliyinə, kinofilmə çevrilir. Yuxuda atamı, yaxınlarımı, qonşularımızı görürəm. Onların yanında mən yenə əvvəlki uşaqlığıma qayıdıram. Qəribədir ki, heç xatirimdə olmayan hadisələr, cizgilər yuxuda reallıq qazanır, anadan yetim qaldığıma, həlim xasiyyətimə, bəlkə də atamın kənddəki böyük nüfuzuna görəmi adamlar məni əzizləyir, hətta öz uşaqlarına da məndən muğayat olmağı, meşəyə oduna gedəndə, çaydan keçəndə mənə kömək göstərmələrini tapşırırdılar.

Atamın isə nəvazişinə söz ola bilməz. Lakin bu nəvaziş leysanında mən azacıq narazılıq notları da hiss etməyə başlayıram. Bu narazılığı da heç kəsin üstünə yıxmaq istəmir, bircə onu dəfələrlə təkrar edir ki, hamımız günahkarıq, düşməni tanımamışıq, şirin dilinə uyub sayıqlığımızı itirmişik. Yuxudan ayılanda atamın sözləri qulaqlarımda zəng səsi kimi cingildəməyə başlayır: "Bu dərdə necə dözürsünüz? Yoxsa nələrəsə aldanıb, dərdi yaddan çıxarmısınız? Axı insan üzərində dünyaya gəldiyi torpağın qədrini bilməlidir, ona görə də ona, anadan da əziz səslənən Vətən adını vermişlər".

Atam bu sözləri mənə ünvanlandırır, başqa heç kəsi nəzərdə tutmur. Pis əməldə bulunan uşaq saflığı ilə mən də başımı aşağı salıb, onun tənə dadı verən sözlərinə, məzəmmətinə qulaq asıram. Atamı da qınamıram, axı yuxuda o, yalnız mənimlə görüşür, öz qayğılarını mənə söyləməyə imkan tapır. Oğlunun onu necə sevdiyinə, bir sözünə də etiraz etməyəcəyinə o, daim əmin olmaqda qalırdı və bu inamında yanılmadığını bilirdi.

Digər tərəfdən onun sözlərində nəsə qeyri-düzgün olan bir şeyi tapmaq da mümkün deyildi. Ancaq etiraf etməliyəm ki, bu yuxular mənim əsəblərimi ərş hündürlüyündəki tarıma çəkir, bir an da olsun mənə rahatlıq vermir. Belə yuxulardan sonra alabəzək, kəkilli quş onların reallıq ehtimalını bir az da artırdı.

Düşüncələrim reallıqla röya arasında hərəkət edən və fasilə verməyən bir məkikə çevrildi və mən, o quşa müraciət edirmiş kimi bədahətən gizli sözlərimi təkrarladım:

– Əgər kəndimizə uçub getsən, qəbiristana yollan, üzünü orada yatanlara tutub mənim adımdan de ki, biz dirilər siz ölülər qarşısında günahkarıq. Xahiş edə bilmərik ki, günahlarımızı əfv

edin. Bircə təvəqqəm odur ki, yuxuda bizi belə sərt qaydada mühakimə etməyin. Çəkdiyimiz ağrılar özümüzə bəsdir. Biz heç zaman bu acını unuda bilmirik. Lakin biz ruhdan düşməmişik, torpaqlarımızın tezliklə azad olacağına ümidimiz günü-gündən artır. Bu ümid xülyaya deyil, ölkəmizin real qüdrətinə, dövlətimizin düzgün siyasətinə əsaslanır. Dirilərin ümidi ruhlara da sakitlik verməlidir.

Bax, "Şanapipik" hekayəsini buna görə qələmə aldım. Ölülərə bunu, hətta sehrli quşla çatdıra bilməsəm də, ətrafdakılar qoy mənim mövqeyimlə bir daha tanış olmaq imkanı qazansınlar. Mən özlüyümdə hətta haqsız olan hər cür cəzanı çəkməyə də razılaşardım ki, təki torpaqlarımız azad olsun. Ölkəmizin ərazi bütövlüyünün bərpası onu belə arzuolunan sonluqla nəticələndirənlərə haqiqi şərəf gətirməklə, bütün günahkarlara ibrət dərsi olacaq, lakin çoxdan gözlənilən zəfərin gətirdiyi şadlıq əhval-ruhiyyəsindən doğan mərhəmətdən bəraət payı verəcək, bu isə ümumi razılıq mühitinin yaranmasına, əfvin, alicənablığın böyüklüyünə şərait yaradacaqdır.




***Əliquluuşağı kəndi (şəkildə sağdan birinci Əli İldırımoğlu)***





## OQTAY RƏHİMOV



*__Oqtay Süleyman oğlu Rəhimov__ 1929-cu ildə Qubadlı rayonunun Əyin kəndində anadan olub.*

*M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinə daxil olmuş, fərqlənmə ilə bitirmişdir (1948-1953).*

*İki dərslik kitabının, monaqrafiyaların və bir çox elmi məqalələrin müəllifidir.*

*"Rəşadətli əməyə görə" medalı (1970), Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Fəxri fərman"a (1973), "Bilik" cəmiyyəti tərəfindən "Fəxri fərman" və mükafatlara (1972-1973) layiq görülmüşdür.*

*Görkəmli alim, filosof Oqtay Rəhimov 2008-ci il dekabrın 2-də vəfat etmişdir. Ruhu şad olsun!*

### QUBADLIYA TƏLƏSİRƏM

*(Qubadlıya xor baxanlara)*
*(ixtisarla)*

Qubadlı, güc alıb səndən,
Aya, günə ucaldım mən.
Ana vətən, oldum səndən,
Çörəyindən, suyundan mən.
Varlığından doğulmuşam,
Xamırından yoğrulmuşam,
Ağuşunda boy atmışam,
Pərvaz edib ucalmışam,
Hünərindən pay almışam,
... Ay Qubadlı!
Sənə varmı,
Tay Qubadlı?!..
... Eşqin vardır, sözün vardır.
Düşməninə,
Qəzəbin var,
Nifrətin var.
Bunlar sənə,
Qədim ulu babalardan,
Babəklərdən, Nəbilərdən,
Alolardan, Safolardan,
Yadigardır.
Sən igidlik çələngisən,
Fədailər vətənisən...
...Dar günündə etibarın,
Bərk ayaqda məhəbbətin,
Dostlarına sədaqətin,
Duz-çörəyin, düz çörəyin.
Sinəsindən vuranların,
Dağ oynadan igidlərin.
Həcərin var, Qəmərin var,
Şamoların, Çingizlərin,
Süleymanın, Oktayın var.
Sərvətin var, qüdrətin də,
Əsilin var, nəsilin var.
Nəyin yoxdur?
Ay Qubadlı,

Sənə varmı,
Tay Qubadlı?
Nəfsin yox, gözün toxdur,
Heç kimsədə gözün yoxdur.
Ay gözüm Qubadlı,
canım Qubadlı,
Sənə çox sözüm var,
sözüm Qubadlı!..
...Dağın da var, aranın da,
Yoxuşun da, enişin də,
Güneyin də, Quzeyin də,
Yamacında sürülərin,
Dağ başında dumanın var,
Hələ sənə gümanım var,
Çiskinin var, yağışın var,
Bərgüşadın, Həkərin var.
Diş sızladan bulaqların,
Dadlı-dadlı balıqların,
Bərgüşadda, Həkəridə.
Əyin kimi – Şehli kimi,
Oylağın var, yaylağın var...
...Qabaqdadır istiqbalın,
Əsrarlıdır sənin halın.
Xoş gününü görəcəyəm,
Sənə qonaq gələcəyəm...
...Səndən nəğmə deyəcəyəm,
Sənə nəğmə deyəcəyəm,
Həmişə mən yorulmadan,
Bir oğlun tək,
Hey sinəndə gəzəcəyəm,
Həkərində çiməcəyəm...
...Saf suyundan içəcəyəm,
Həmişə mən, heç
doymadan... ay Qubadlı,
Möhnətimi say, Qubadlı,
Görüşünə tələsirəm!..



***Süleyman Rəhimovun doğulduğu ev***





# MİR SƏDİ MİRLƏR



***Mir Sədi Mir Məhəmməd oğlu Mirsədizadə*** *1969-cu ildə Qubadlı rayonunun Mirlər kəndində anadan olmuşdur.*

*Məlum Qarabağ hadisələri ilə əlaqədar Qubadlı rayonunun işğalından sonra Bakı şəhərində məskunlaşıbdır.*

*Azərbaycan İqtisadiyyat Universitetini bitirmiş, görkəmli ilahiyyatçı kimi ilahiyyat elmi ilə məşğuldur.*

*Dörd kitab müəllifidir.*

***Xaliqin əsmaül hüsnasının məxluqda xəlqi təzahürünə əxlaq deyilir. Bunun da əsası eşqdir ki, Allaha məhəbbətdən ibarətdir.***

***Mir Sədi Mirlər***

## ÖYÜD

Ey Ata yurd ərləri
Oğuzun öndərləri
Elin alpərənləri
Hünər göstərənləri
Oğuz eli yaşar olsun
Ərənləri coşar olsun
Qəlblərində məhəbbəti daşar olsun
Sərhədləri, zirvələri aşar olsun
Çaylar-sular çağlar olsun
Qazlıq dağı əzəmətin uca olsun
Qazanlığı el içində nurani bir qoca tutsun
Qız-gəlinlər bağlı qalsın namusuna - ərinə
Sadiq olsun ailənin sirlərinə
Ozan gəlsin məclislərdə dua etsin
Xəyanətkar ulu yurda vida desin
Dost eliniz özbək, türkmən, tatar olsun
Müxənnətlər hər bir zaman batar olsun
Ağsaqqallar dastanları yazar olsun
Ulu kəslər bu hikməti yozar olsun
Yurd yerində səslənənlər
Quran olsun, Azan olsun
Biz dünyadan gəldi-gedər
Hökmüdar Haqq Yazan olsun.

**Yurd Yerinin Naləsi...**

*(Əziz Tofiq müəllimə)*

Yurd yeri.
Gözəl təbii mənzərə.
Şırıl-şırıl axan çay,
Lay-lay deyən zümzümə.
Bülbülün, torağayın
Ecazkar zənguləsi.
Quşların hər tərəfə
Yayılan cəh-cəh səsi.
Buludlardan boylanan
Məxməri qızılgüllər.
Sökülən dan yerindən
Sonra açılan səhər.
Günəş boylanıb baxır
Köç eyləyən ellərə.
Bu köç bir başqa köçdür
Düşüb dildən-dillərə.
Bir qədər yurddan uzaq
Çılpaq çəmənli dağlar.
Güllü çiçəkli yaylaq,
Çadırlar papaq-papaq.
Ocaqlar qalaq-qalaq.
Bulud-bulud qoyunlar
Otarır aran yurddan
Gələn qara çobanlar.
Bizim bir qonşumuz var,
Onun da öz yurd yeri.
Qaratoyuq yuvası
Bizi axşam yatırdar.
Çayın gümüş ləpəsi
Oyandırar yuxudan.
Əsrarəngiz sədası
Adamı valeh edir.
Bu yerlərin havası
Sehirlərə qalanır
Könüllərin səması,
Günəşin şüasından.
Yuva dəlik-deşikdir
Anasının ağuşu
Övladına keşikdir.
Meşənin sonsuzluğu
Duyulmayan boşluğu.
Anlanmaz hənirtisi.
Şəlalənin qayadan
Axan gur nəriltisi.
Parlayan yarpaqların
Ahəstə titrəməsi.
Balaların yuvada
Kövrək, ürək nəfəsi.
Həyatilə çarpışın
Dönməz mübarizəsi,
Əyilməz iradəsi.
Qəlbində genişlənir
Yaşamağın həvəsi.
Yavaş-yavaş böyüdür
Balaların yuvada.
İstəyir qanad çalıb
Pərvaz etsin havada.
Bir gün uçub getdilər,
Yuvaya enmədilər.
Naxələflik eyləyib,
Geriyə dönmədilər.
Dərdə-qəmə büründü
Qaratoyuq nəğməsi.
Yurd yerini götürdü
Ahı, ünü, naləsi.
Fəsil döndü payıza,





Ellər köç etdi geri.
Başlı-başına qaldı
Müəmmalı yurd yeri.
Zaman keçdi, döyüşlər,
Müharibələr başladı.
İndi həmən yurd yeri
Düşməndə, işğaldadı.
Itirdik döyüşlərdə
İgid mərd oğulları.
Doğuldu vətənimin
Şəhid dərd oğulları.
Haray çəkib hayqırır,
Vətən yurda çağırır.
Hər yatanda yuxumda
Qaratoyuq bağırır.
Nə bizlərdən yarıdı,
Nə də öz balasından.
Qara qanlar süzülür
Qəlbinin yarasından.
Ruhumun qulağında
Hər bir zaman səsdədir.
Elə bil ki yurd yeri
Axır son nəfəsdədir.
Üzür şəhərdə məni
O yerlərin sədası.
Boğulur bu durumdan
Varlığımın havası.
Yetim qalıb yurd yeri,
Qaratoyuq yuvası.
Haray, ay ellər, haray!
Ay şirin dillər, haray!
Dillər, bülbüllər, haray!
Büküldü bellər, haray!
Yurd yerindən əsən meh,
Ah səpən yellər, haray.
Rahat buraxmır məni
Hayqıran bağıran səs.
Qara dünya ruhuma
Olubdur dar bir qəfəs.
Qalmayıb artıq həvəs
Tükənir canda nəfəs.
Səs...yenə də həmin səs.
Boğuluram, ölürəm,
Mən o səsi görürəm.
Qaratoyuq yuvası,
Nisgilli təranəsi,
Yetim-yetim boylanan
Yurd yerinin naləsi.

Mən aşiqəm dağlı yurd,
Dağlı oba, dağlı yurd.
Həsrət çəkib lalə tək,
Olub sinə dağlı yurd.

Mən aşiq dağlı qala,
Dağlı yurd, dağlı qala.
Vətənin sevməyəni,
Həmişə dağlı qala.

Əzizim qara fələk,
Aldım min yara, fələk.
Məni qürbətə saldın,
Yanaydın nara, fələk.

## DÜŞÜB

Varlığıma don vurubdu bu yazda,
Baharımın seyranına qar düşüb.
Dərin ağlım gedib batıb dayazda,
Xəyalımın göylərinə sar düşüb.

Dedim bəlkə əridərəm bu dərdi,
Allah mənə qəm üstünə qəm verdi.
Ayağının altına ki, sərərdim,
Çiçəyimin güllərinə xar düşüb.

Çılpaq qalıb yer üzündə günahlar,
Qırılıbdı ümid verən pənahlar.
Qarabağın ahlarıdı bu ahlar,
Torpağımın çöllərinə zar düşüb.

Can üstündə gedib-gəlir həvəsim,
Hər tərəfdən qıfıllanıb qəfəsim.
Bu dünyanı yaxıb-yaxar nəfəsim,
Ciyərimin yellərinə nar düşüb.

Miskin qəlbi yar həsrəti yaralar,
Vulkan kimi qaynar içdən yaralar.
Bu bəlanı yar üstündən yar alar,
Məhəbbətin dillərinə yar düşüb.



***Mirlər kənd qəbirstanlığı: Mir Sədi Ağanın, Mir Məhəmməd Ağanın qəbirüstü abidəsi – Ağ Hasar***





## TARIYEL CAHANGİR



***Tarıyel Məhəmmədəli oğlu Cahangirli*** *1 noyabr 1939-cu ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur.*

*ADU-nun filologiya fakültəsini (1964), Bakı Ali Partiya Məktəbini (1975) bitirmişdir. Ədəbi fəaliyyətə ötən əsrin 60-cı illərindən başlamışdır. Həmin dövrdən respublikanın qəzet və jurnallarında, radio və televiziyada əsərləri ilə müntəzəm çıxış edir.*

*"Kiçiklərin tərsliyi", "Səlbinaz nənəm" kitablarında toplanmış şeirlərində Azərbaycan gözəllikləri, vətənə, xalqa, əməyə vurğunluq hissləri, gənclərimizin saf, təmiz məhəbbət duyğuları tərənnüm olunur*

*Uzun illərdir ki, nəsr və publisistika sahəsində fəaliyyət göstərir. Oxucular tərəfindən maraqla qarşılanan "Daş ürəklər", "Keçmə məndən", "Qubadlı", "Vətən oğul istəyəndə", "Mir Sədi Ağa", "Fədakar insan" kitablarının müəllifidir. Satira və yumor onun yaradıcılığında xüsusi yer tutur. Təmsilləri, satirik şeir və hekayələri, yumoristik novellaları geniş oxucu auditoriyası qazanmışdır. Yenicə işıq üzü görmüş, irihəcmli "Ağıl dərmanı", "Haqq yolu" kitabları diqqətlə qarşılanmışdır.*

*Yazıçı uşaqlar üçün də yazıb-yaradır. Balaca oxucuların sevə-sevə oxuduqları şeir və hekayələri, nağıl və poemaları xüsusilə "Artıq tamah", "Kirpinin hünəri", "Qisas", "Qafqaz aslanı" əsərləri onun uşaq psixologiyasına dərindən bələd olduğundan xəbər verir.*

*Hazırda trilogiya üzərində işləyir.*

### BƏNZƏMƏZ

Ustad Alı qürbətdə olduğu günlərdə yaylaqları seyr edərkən Vətənini xatırlayıb kövrəlir. "Yaylaq, bizim yaylaqlara bənzərsən" qoşmasını yazır. Mən də doğma yurdum Qubadlıdan, onun əvəzsiz təbiətindən ayrı düşəndə bir az təsəlli tapmaq məqsədilə Böyük Qafqaz dağlarına üz tutdum. Sən

demə Böyük Qafqazla Kiçik Qafqaz dağları arasında Yerlə Göy qədər fərq var imiş. Böyük də bizimdir, kiçik də. Ancaq Kiçik Qafqaz dağları ən qədim, ən ulu, Böyük Qafqaz dağları isə nisbətən yaxın dövrlərdə yaranan cavan dağlardır. Görünür, Allahtaala daha yaxşıların qədri bilinsin deyə belə yaratmışdır. Əgər bütün güllərə Qızılgül, bütün çiçəklərə Bənövşə ətri verilsəydi, onda Qızılgüllə Bənövşənin qədri bilinməzdi. Qədrini bilmədikmi, cənnət misallı Qubadlım?!..

Bu yerləri qarış-qarış dolandım,
Yaylaq bizim yaylaqlara bənzəməz.
Çox yanmışdım, bir də oda qalandım,
Oylaq bizim oylaqlara bənzəməz.

Bilən yoxdu tarixini, yaşını,
Şax tutubdu qarlı, buzlu başını,
Keçən varmı gədiyini, qaşını?
Bu dağ bizim o dağlara bənzəməz.

Bulaqları elə bil ki, Kövsərdi,
Allah bizə behiştənmi göndərdi?
Şəfalıdı, sağaldandı min dərdi,
Bulaq bizim bulaqlara bənzəməz.

Dağ çayları nə yorular, nə yatar,
Zirvələrdən dərinliyə can atar,
Nərə çəkər, ümmanlara üz tutar,
İrmaq bizim irmaqlara bənzəməz.

Meyvəsinin dadı, tamı baldadır,
Üzümü də, gilası da bal dadır,
Yurdumuzun yaşlı gözü yoldadır,
Bu bağ bizim o bağlara bənzəməz.

Öz elimiz, öz obamız gözəldi,
Öz yurdumuz, öz yuvamız gözəldi,
Öz suyumuz, öz havamız gözəldi,
Oymaq bizim oymaqlara bənzəməz.





Tanrım qüvvət, qüdrət versin orduma,
Dizin-dizin sürünərəm yurduma,
Duman olub bürünərəm yurduma,
Torpaq bizim torpaqlara bənzəməz.

## HARDASAN

Gecələr yuxumda görürəm səni,
Həsrətə dözmürəm, gəlim, hardasan?
Üzür kədər məni, üzür dərd məni,
Çatmayır əlinə əlim, hardasan?

Mənim bərəkətli, varlı torpağım,
Ruzulu, bəhrəli, barlı torpağım,
İşıqlı torpağım, nurlu torpağım,
Yazılı, Gəyənli çölüm hardasan?

Dağ üstdən dağ oldu bizə bu dağlar,
Quruyub ağaclar, sınıb budaqlar,
Yanıb külə dönüb bağçalar, bağlar,
Bülbülüm hardasan, gülüm hardasan?

Səlkin, Səngər, Hərtiz dağları qəmli,
Meşələr fikirli, dərdli, ələmli,
Bərgüşad, Həkəri gözləri nəmli,
Sularım hardasan, selim hardasan?

Aran yas saxlayır, dağ yas saxlayır,
Çaylar ayrılığa dastan bağlayır,
Yerlər ağı deyir, göylər ağlayır,
Mənim ağı deyən dilim hardasan?

Zülmət içindədir oba-oymaqlar,
Yaslı-yaralıdır sərin yaylaqlar,
Göz yaşı axıdır qaynar bulaqlar,
Hardasan qəhrəman elim, hardasan?

Görə bilərəmmi mən səni bir də,
Ölmək də şərəfdir o gözəl yerdə,
Şair, necə dözdün bu ağır dərdə?!...
Niyə çağırmadın ölüm, hardasan?!

*16 mart 2007*

## HANI

Daşnaklar yurdumu oda qalayır,
Güclüdür arxası, çapır, talayır,
Aslan məkanında bayquş ulayır,
Türküm, bəs Atillan, Osmanın hanı?

Cavan qızlar saçlarından asılır,
Sinələrə xaç damğası basılır,
Taleyimiz neçin belə yazılır?!..
Tanrım qiyamətin, tufanın hanı?

Haqsızlar haqlını salırlar tora,
Haqlı haqsız olub, çəkilir dara,
Əyri üzü ağdı, Düz üzüqara,
Ey dünya, düzəlmək gümanın hanı?

Dünyanın ağası kimlərdi, kimdi?!
Qəddardı, qatildi, ağıldan kəmdi!
Xeyir müttəhimdi, Şərsə hakimdi,
Bəs Şahimərdanın, Aslanın hanı?

İxtiyar sahibi olub iblislər,
Həcdə namaz qılır xain, xəbislər,
Şeytana daş atır şeytandan pislər,
Allahım, Sahibi Zamanın hanı?

Zülmə, haqsızlığa dözən Allahım,
Yazıq qullarından bezən Allahım,
Haqdan əlimizi üzən Allahım,
Hanı Qır qazanın, Siratın hanı?

Nə vaxt açılacaq nurlu sabahım?
Ərşə çatmayıbmı amanım, ahım?
Sənə qurban olum, Böyük Allahım,
Haqqın, ədalətin, divanın hanı?

*2006*





# XASAY CAHANGİROV



***Xasay Məmmədqulu oğlu Cahangirov*** *1930-cu ilin mart ayının 22-də Qubadlı rayonunun Məzrə kəndində anadan olmuşdur.*

*Ağdam Kənd Təsərrüfatı Texnikumunu (1950), BDU-nun jurnalistika fakültəsini bitirib (1968).*

*Uzun müddət "Sosialist Sumqayıtı" (indiki "Sumqayıt") qəzetində şöbə müdiri işləyib (1958-1993) və "Sosialist Sumqayıtı" qəzetinin redaksiyasında və S.Vurğun adına mədəniyyət sarayında fəaliyyət göstərən "Sumqayıt ədəbi birliyi"nə rəhbərlik edib (1958-1984). Sumqayıt ədəbi mühitinin formalaşması onun adıyla bağlıdır.*

*1964-cü ildən AJB-nin, 1988-ci ildən AYB-nin üzvüdür.*

*Beş kitab müəllifidir. Hazırda təqaüddədir.*

## QƏRİB KƏNDİM

Əsarətdə şah qaməti bükülən,
Qərib kəndim, bir də səni görəydim.
Gülləlikdən Bərgüşada tökülən,
Şəlalənin saçlarını hörəydim.

Bəraherdən sallanaydım Dursuna,
Dadanaydım cır meyvənin turşuna,
Qayıdaydım Daşbaşının tuşuna,
Çiyələyi şehli-şehli dərəydim.

Ziba nənəm yerdən qalxıb danüzü,
Bal yuxudan oyadaydı kal bizi.
Toplayaydım külək tökən cəvizi,
Palaz açıb qapımızda sərəydim.

İnək südü buğlanaydı sərnicdə,
Anam yenə bişirəydi ərişdə.
Leysan məni haqlayaydı örüşdə,
Qaça-qaça kahalara girəydim.

Meh əsəydi Qəbirlərin yalından,
Gün doğaydı Daranların dalından.
Ballı qaya, barınaydım balından,
Dağlar kimi uzun ömür sürəydim.

Yaz gələndə yarpız, nanə, qantəpər,
Hər tərəfə ətir səpər, nur səpər.
Qərib dağlar, zirvənizdə bir səhər,
Qollarımı üfüq boyu gərəydim.

Çömçə bulaq, dodağından su içdim,
Bənövşəylə qar içində görüşdüm.
Mən Xasayam, ay cənnətim, behiştim,
Kaş öləndə qoynunda can verəydim.

*2003*

## SORUŞUN

Şeyda bülbül fəğan etdi qəfəsdə,
Vətən eşqi haray çəkdi bu səsdə.
Buraxdılar, gedib öldü kol üstə,
Vətən nədir, vətəndaşdan soruşun.

Kim ucaltdı bu vətənin başını,
Kim axıtdı, kim qurutdu yaşını,
Necə verdik yağıların aşını,
Beş il sürən bir savaşdan soruşun.

Gözlərini zirvələrə dikəni,
Çox sınayıb dağ boranı, dağ çəni.
Şahin-şonqar zirvələrdə çəkəni,
Bahar bilməz, qarlı qışdan soruşun.

Ana Vətən əlifbamın şah səsi,
Böyüklüyün, genişliyin zirvəsi.
Harda varsa əcdadımım türbəsi,
Sərhəddimi o yaddaşdan soruşun.

Vətən burda torpağımdı, göyümdü,
Ürəyimdən havalanan heyimdi.
Bəs qürbətdə, yad ellərdə nəyimdi?
Gözlərimdən axan yaşdan soruşun!





## ELƏ BİLDİM

*(hər gün xəyalən əsarətdə qalan
doğma Qubadlıma yol gedirəm)*

Yolum düşdü Bərgüşada,
Qəfil düşdüm bərk gürşada.
Bir səs gəldi: bərki daşa,
Sellər-sular havalıdır!

Aşırımlar tiyə-tiyə,
Qayalar var bənzər iyə.
Bu gədikdən o gədiyə,
Qoç Nəbinin mahalıdır!

Ağız açdı sıldırımlar,
Əl uzatdı qaldırımlar.
Nərə çəkdi ildırımlar:
Dağlar-daşlar davalıdır!

Burda mənlə hər rastlaşan,
İgidlikdən verdi nişan.
O, dumanmı dağdan aşan,
Ya Boz Atın ağ yalıdır?!

***

Yer əsnədi, göy kişnədi,
Dağı-daşı silkələdi.
Şimşək çaxıb od ələdi,
Elə bildim Aynalıdır!

Bərgüşadı döydü leysan,
Göylər oldu yerlə-yeksan.
Dedim, bulud, sındırarsan,
Axı sular aynalıdır!

Göy açıldı gecə vaxtı,
Kəhkəşandan ulduz axdı.
Sandım Boz at şahə qalxdı,
Elə bildim Ay nalıdır!

***

Qarşımda bir uca dağ,
Yol çətin, mənzil uzaq...
Fəqət arzum, amalım,
Zirvəyə qalxmaq olub.
Heyhat...
Təkcə xəyalım
Yoluma mayak olub, –
Dərə keçir, dağ aşır,
Buludları dolaşır.
Günəşdən boylanır o,
Ulduzlarda yanır o.
Eh, xəyala nə var ki,
Məskənidir zirvələr.
Kaş xəyal zirvəsinə,
Qalxa biləydi hünər!

## VƏTƏN

İstədim adına bir nəğmə qoşam,
Gördüm başdan-başa nəğməsən, Vətən!
Mən sənin eşqinlə qanadlanmışam,
Yolumu nurlara qərq edən Vətən!

Mən körpə qartalam, sənsən qanadım,
Sənsiz puç olardı arzum, muradım.
Xoş gündə sevincim, toyum, büsatım, –
Dar gündə dadıma yetənsən, Vətən!

Baxıram göylərə, nə lalərəngdir,
Pənbə buludların çiçək-çiçəkdir.
Müqəddəs torpağın dünyada təkdir,
Hər yanı gülüstan, gülşənsən, Vətən!

Sənin şöhrətinə göz dikən yağı,
Sinəmə çəkdisə dağ üstə dağı,
Yadlara vermədim ana torpağı,
Bir də görməyəsən duman-çən, Vətən!

Sənə söz açım öz adətimdən,
Əgər lazım gəlsə ehtiyacımdan,
Keçərəm eşqimdən, səadətimdən,
Tək səndən keçmərəm, inan, mən, Vətən!



*Məzrə kəndindən*





## ÇƏRKƏZ QUBADLI



***Çərkəz Ağaşirin oğlu Məmmədov*** *18 may 1940-cı ildə Qubadlı rayonunun Alaqurşaq kəndində anadan olmuşdur. Şuşa Pedaqoji məktəbini, Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini və Bakı Ali Partiya məktəbini bitirmişdir. Bir çox məsul vəzifələrdə çalışmışdır.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində, sonra Bakı şəhərində məskunlaşıb.*

*"Qızıl döş nişanı"na (1968), "Əməkdə fərqlənməyə görə" medalına (1977), "Dövlət Qulluğunda Fərqlənməyə görə" medalına (2011), "Qızıl qələm" mükafatı laureatına, "Qalib Sultan" diplomuna layiq görülmüşdür.*

*Dörd kitab müəllifidir. 2011-ci ildən I dərəcəli Dövlət Qulluqçusu təqaüdçüsüdür. Hazırda "Nələr gördüm, nələr gəldi başıma" xatirə povestinin üzərində işləyir.*

### MƏNƏ QAÇQIN DEMƏ, QARDAŞ

Məcbur olub köç etmişəm,
Yurd-yuvamı itirmişəm,
Gəlib bura yetişmişəm,
İsinirəm yavaş-yavaş,
Mənə qaçqın demə qardaş!

Kim tərk edər obasını,
İsti yerin, yuvasını,
Qəbirstanda babasını,
Qoyub elə gedər birbaş,
Mənə qaçqın demə qardaş!

Mal-dövlətim – varım qalıb,
Bağ-bağatım – barım qalıb.
Əsəblərim tarım qalıb,
Qəribliyə düşübdü daş,
Mənə qaçqın demə qardaş!

Ermənilər doymur qandan,
Neçə igid keçib candan.
Evlər yanıb, olub viran.
Üz tutmuşam bura çaş-baş,
Mənə qaçqın demə qardaş!

Talan olub var-dövlətim.
Hədər gedib hər zəhmətim
Yoxa çıxıb şan-şöhrətim.
İstəmirəm səndən daş-qaş,
Mənə qaçqın demə qardaş!

Diş göynədən bulaqlarım,
Gedib əldən yaylaqlarım.
Cənnət kimi oylaqlarım.
Qəlbim kinli, gözlərim yaş,
Mənə qaçqın demə qardaş

## VƏTƏN, SƏNDƏN AYRILANDAN

Neçə dostu itirmişəm,
Qəm yükünü götürmüşəm.
Sinəmdə dərd bitirmişəm,
Vətən, səndən ayrılandan!

Həsrət qaldım bağça-bağa,
Qarlı dağa, buz bulağa.
Cənnət kimi xoş növrağa,
Vətən, səndən ayrılandan!

Qaçqın, köçkün adın aldım,
Evsiz yaman günə qaldım.
Özümü odlara saldım.
Vətən, səndən ayrılandan!

Hər tərəfi gəzdim, oydum,
Bir nişanə, bir iz qoydum.
Həsrətini yaman duydum,
Vətən, səndən ayrılandan!

Çərkəz dostu həmdəm sandı,
Dar günündə çox sınadı.
Nəvaziş görmədi, yandı,
Vətən, səndən ayrılandan!

## VƏTƏN, SƏNƏ GƏLƏCƏYƏM

Sənsiz gülüb-danışmıram,
İçim yanır, alışmıram.
Heç bir kəslə qonuşmuram,
Daha qədrin biləcəyəm,
Vətən, sənə gələcəyəm!

Kol-kos basan yollarını,
Barıt qoxulu kollarını.
Buz bağlayan qollarını,
Ovuşdurub əlləyəcəm,
Vətən, sənə gələcəyəm!

Köç eyləyib köçəcəyəm,
Çaylarından keçəcəyəm.
Sularından içəcəyəm,
Yenə deyib güləcəyəm,
Vətən, sənə gələcəyəm!

Çərkəz çəkir hey xəcalət,
Didir könlün namus, qeyrət,
Bir gün haqdan alıb qüvvət,
Özümü güclü biləcəyəm,
Vətən, sənə gələcəyəm!

## YÜZ İL ÖMÜR YAŞARDIM

Həkəridən, Bərgüşaddan keçəydim,
Ovuc-ovuc sularından içəydim.
Çayzəmidə dağ yurduma köçəydim,
Dəniz kimi dalğalanıb coşardım,
Tez ölməzdim, yüz il ömür yaşardım.

Qubadlıya qayıdaydım, gəzəydim,
Kol dibindən bənövşələr üzəydim,
Şəhidlərin məzarına düzəydim,
Qəmli nəğmə, bir bayatı qoşardım,
Tez ölməzdim, yüz il ömür yaşardım.





Kaş bir gedib evimizi görəydim,
Nəyim varsa nəzir-niyaz verəydim.
Ağaclardan dadlı meyvə dərəydim,
Şən qələbə nəğməsini qoşardım,
Tez ölməzdim, yüz il ömür yaşardım.

Torpağına axıdaydım göz yaşı,
Qucaqlayıb yalayaydım hər daşı.
Yad eyləyib keçmiş dostu, sirdaşı,
Vüsal nəğməsini düzüb qoşardım,
Tez ölməzdim, yüz il ömür yaşardım.

*18 noyabr 2003*

## QUBADLIM

Belə bilsəm, dağlarında qalardım,
Fürsət tapıb qisasını alardım.
Sinən üstə məzarımı salardım,
Düşmənin əlində qalan Qubadlım!

Bulud olub dağlarını gəzəydim,
Qartal olub xoş səmanda süzəydim,
Balıq olub çaylarında üzəydim,
Odlara qalanan, yanan Qubadlım!

Sel-su olub göllərinə axaydım,
Səngər dağa, "Topağaca" baxaydım,
Şimşək olub düşmən üstə çaxaydım,
Həsrətim olaydı yalan, Qubadlım!

Bərgüşadın, Həkərinin laylası,
Ağa çayı o çayların balası.
Nə biləydim düşmənlərə qalası,
Su içəydim bir doyuncan, Qubadlım!

Qayaların igidlərin səngəri,
Yas tutan biz, ağlayanın Həkəri.
Ümidlə gözlərik hər bir səhəri,
Çərkəzi yandırıb, yaxan Qubadlım!

*01.12.1999*

## SEVİMLİ VƏTƏNİM – QUBADLIM MƏNİM

Vəsf etməyə layiq səfalı özün,
Sevimli Vətənim - Qubadlım mənim.
Gözümdə əks olub yamacın, düzün.
Sevimli Vətənim - Qubadlım mənim!

Hər yanın dağlardı, verib baş-başa,
Səngər, Həртiz dağın bənzər qardaşa.
"Topağac" yaylağın cənnət, tamaşa.
Sevimli Vətənim - Qubadlım mənim!

Dağların ətəyi çəmənlik, meşə,
Zirvəsi qartallı olub həmişə.
Səndədi ətirli nərgiz, bənövşə,
Sevimli Vətənim - Qubadlım mənim!

Mir Sədi ağanın sözü səndədi,
Nəbinin, Həcərin izi səndədi,
Buz tək bulaqların gözü səndədi,
Sevimli Vətənim - Qubadlım mənim!

Nələr yetirmisən, hansını deyim,
Əli Əmiraslanov - böyük bir alim.
Dədə Süleymanla fəxr edir elim,
Sevimli Vətənim - Qubadlım mənim!

Döyüşə səsləmiş hər an, hər kəsi,
Qəhrəman Əlyarın aslan nərəsi.
Yayılıb dağlara Qorxmazın səsi.
Sevimli Vətənim - Qubadlım mənim!

Həcər hünərlidir, gəlinin, qızın,
Çərkəz səndə açmış dünyaya gözün.
Söyləmiş müqəddəs ilk ana sözün.
Sevimli Vətənim - Qubadlım mənim!

*13.09.2009*





## XANIŞ MƏMMƏDOV



*Xanış Bayram oğlu Məmmədov* *1932-ci il sentyabr ayının 29-da Qubadlı rayonunun Xocik kəndində anadan olmuşdur.*

*APİ-nin coğrafiya fakültəsini bitirmiş (1954), təyinatla Ağdam rayonuna göndərilmişdir. Qubadlı rayonunda (1959-1965) və Ağdam şəhərinin(1965-2008) bir çox məktəblərində direktor vəzifəsində çalışmışdır.*

*Məlum Qarabağ hadisələri ilə əlaqədar Sumqayıt şəhərində məskunlaşıb.*

*Səkkiz kitab müəllifidir. «Qızıl Qələm» Media Mükafatına layiq görülmüşdür.*

### KORLAR HƏMZƏLISI

Qubadlıda dörd Həmzəli kəndi var. Onlardan üçü Həkərinin sağ sahilində, biri isə sol sahilindədir. Bununla belə hər kəndin boyaması da var, - Muradxanlı kəndi ilə qabaq-qarşı olan Həmzəliyə - Korlar Həmzəlisi, bir qədər ondan aşağıda olana Dəlilər Həmzəlisi, ondan da aşağıda olana Şıxavənd Həmzəlisi deyirlər, dördüncü Həmzəli Həkərinin sol sahilində yerləşir, onlardan 14-15 km aralı, ona da Aşağı Həmzəli deyirlər.

Deyirlər, qədim keçmişdə Həkəri çayı daha çox aşıb-daşar, ətrafda nə var hamısını yuyub apararmış, əhali çox çətinliklə bu taydan o taya keçirmiş. Deyirlər, bir dəfə də bu yerlərin hökmdarı Həkəri sahilində bir neçə gün qalmalı olur, sonralar hökmdar başda olmaqla memarlar, ustalar da Həmzəliyə gəlir, baxırlar, məsləhətləşirlər. Həkərinin üstündən daşla tikilən möhtəşəm bir körpü salırlar. Körpü tikilib başa çatanda hökmdarın əmri ilə ətraf kəndlərin bütün adamları yığılır, körpünü təntənə ilə açanda hökmdar başındakı qızıl tacı qaldırır, əhali baxır ki, neçə vaxtlar burada körpü saldıran, ancaq özünü kişi kimi aparan hökmdar, sən demə, qız imiş, heç kim tanımayıb, elə həmin vaxtdan da həmin kəndə Korlar Həmzəlisi deyirlər.

## QUBADLI BAYATILARI

Yol gedir Qubadlıya,
Neçə şəhid adlıya.
Deyin Vətənə dönsün,
O gedən ağ atlıya.

Dolub-daşıb Həkəri,
Bəndi aşıb Həkəri.
Görən, geri dönərmi,
Tariximin təkəri?

Aşıbdı «Dəvə gölü»,
Daşıbdı «Dəvə gölü»,
Ziyarət edəni yox,
Çaşıbdı «Dəvə gölü».

Xocikdən gələn hanı?
Duman tutub hər yanı.
Elim düşmən əlində,
Heyif, yoxdu həyanı.

Hərə minsin bir ata,
Yön tutaq Başarata.
Bu il məhsul olmadı,
Yeri qoyaq arata.

Qızılgülü əkərəm,
Dəstə-dəstə biçərəm.
Qubadlının yolunda,
Şirin candan keçərəm.

Qaçqının gözü gülməz,
Sohbəti-sözü gülməz.
Yurdu viran olubsa,
Ömründə üzü gülməz.



***Həkəri çayı***





## RAFİQ YUSİFOĞLU



***Rafiq Yusif oğlu Əliyev*** *1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmuşdur.*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir (1966-1970).*

*1986-cı ildən Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1984), filologiya elmləri doktoru (2007), professor (2008), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi (2005), Azərbaycan Yazıçılar Birliyi Qəbul Komissiyasının üzvü, «İlin ən yaxşı kitabı», «Vətən», «Qızıl qələm», «Araz», «Tofiq Mahmud» ədəbi mükafatlarının laureatı, bir çox kitab müəllifidir.*

*1997-ci ildən «Göyərçin» jurnalının baş redaktorudur. Eyni zamanda 2007-ci ildən Sumqayıt Dövlət Universitetinin, 2008-ci ildən isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur.*

### ÖZ DƏRDİNƏ GÜLƏN XALQ

***Nərimanov klubunun qarşısında toplaşan qaçqınlar öz zarafatlarından da qalmırdılar...***

Elə dərd görürəm ki, bədənimdə qan donur,
Az qalır ki, yer qaça ayağımın altından.
Bir-birini görəndə üzə təbəssüm qonur,
Gözü yaşlı adamlar qalmır zarafatından.

Hamı durub dərdinə həyan olan gözləyir,
Bilmir ki, nə gələcək başına bu gün-sabah.
Ancaq gördüklərini hərə bir cür bəzəyir,
Xalq öz faciəsinə gülə bilərmiş, Allah?!

Nə oyunlar açıldı gör millətin başına? –
Dar gündə səsinə səs verməyənlərə gülür.
Beləmi girərdilər azadlıq savaşına? –
Xalq burnundan uzağı görməyənlərə gülür.

Tanrı yerdə qoyarmı anaların ahını?
Qiyamət qabaqdadır, bu millət bilməlidir.
Bu müsibət içində anlayıb günahını,
Öz dərdinə gülən xalq, nə vaxtsa, gülməlidir...

## QƏLBİMƏ DAMMIŞDI Kİ...

Mən bu gün getməliyəm, etibar yox sabaha,
Qubadlını görməyə fürsət də qalmayacaq.
Qəlbimə dammışdı ki, bu yerlərə bir daha
Dönmək bəlkə də mənim qismətim olmayacaq.

Bu torpaqda ən ağır günlər mənə xoş olub,
Qısılmışam dağlara gah qarda, gah gürşadda.
Nəvəm yerində olan uşaqlara qoşulub,
Çimdim gah Həkəridə, gah da ki, Bərgüşadda.

Gəzdiyim cığırları keçib qurtarammadım,
Gah Mistan, Qızıl qaya, gah Səngər dağı qaldı.
Bulaqların suyunu içib qurtarammadım,
Ürəyimin başında yenə bir yanğı qaldı.

Qəbristana yollandım, gəldi qəbirlər dilə,
Için-için ağladım, od götürdüm, alışdım.
Son dəfə vidalaşıb doğma qəbirlər ilə
Ruhlarını qəlbimdə gətirməyə çalışdım.

Nə vaxtdır ərşə çıxıb anaların yuxusu,
O uca zirvələrə qar yağmamış, üşüdük.
Vallah, özümüzdədi günahların çoxusu,
Milləti düşünmədik, özümüzü düşündük...

Döz Tanrı cəzasına, öz döşünə döymə çox,
Acizsən, süd əmsən də bu dağların döşündən.
Taleyin qarşısında qüvvətin yox, gücün yox,
Heç kəs baş əyə bilməz fələyin gərdişindən...





## QUBADLIM

***Əziz Turala***

Yadıma dağların, düzlərin düşür,
Kül altda uyuyan közlərin düşür,
Yoluma dikilən gözlərin düşür,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Qızıldaş əzəldən sinə dağlıdı,
Çayzəmiyə gedən yollar bağlıdı,
Bu miskin görkəmin məni ağrıdır,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Qoca Sak hirsələnib Xocamsaxlıda,
Dönüb Ballıqaya qara buluda.
Unuda bilmərik, səni unuda,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Çardaxlı dağları kövrəlib, dinib,
Əyinin, Göyyalın işığı sönüb,
Başarat – həşarat yurduna dönüb,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Zəhərə çevrilib ömrün şəkəri,
Hönkürür Bərgüşad, dinir Həkəri
Söndümü bəxtimin tale ülkəri?
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Darıxma, qoynuna qayıdacağıq!

## YUXUMDA BOZ QURD ULAYIR

Üstümüzü alıb bəla,
Xatirələr dönüb bala.
Qocalar dalıb xəyala,
Ömür-günü xırdalayır.

Ötən günlər oldu talan,
Yıxdı bizi yalan-palan,
Yad tapdağı altda qalan
Uluca bir yurd ulayır.

Zəmimizdən başaq gəlib,
Gözümüzə işıq gəlib,
Körpəcə bir uşaq gəlib,
Sönən közü qurdalayır.

Üstümüzə tufan əsdi,
Ruzumuzu Tanrı kəsdi,
Deyir: – Uyuduğun bəsdi, –
Yuxumda Boz qurd ulayır…

## ANANIN SƏSİ

Dişi şaqqıldayır qoca qurdların,
Müqəddəs torpaqdan olmaz pay, oğul!
Bizdən ayrı düşən qərib yurdların
Gözləri yol çəkir, oğul, ay oğul!

Dünyanın zülmətli gecələrində
Şimşəyə bənzəyən ahlar sayrışır.
Xaraba kəndlərin küçələrində
Nigaran-nigaran ruhlar dolaşır.

Bizsiz qəribsəyib yamaclarımız,
Cığırlar içində tikanlar bitib.
Bizsiz çiçəkləyir ağaclarımız,
Doğma ocaqlara gedən yol itib.

Səbrim tükənibdir sözün qısası,
Qoyma evimizin çırağı sönə.
Düşməndən almasan sən bu qisası,
Halal edərəmmi südümü sənə?!





## ELDAR BAXIŞ



*Eldar Baxış oğlu Ağayev* *1947-ci ilin iyun ayının 22-də Qubadlı rayonunun Diləli Müskanlı kəndində anadan olmuşdur.*

*ADU-nun tarix fakültəsində təhsil almışdır (1965-1969).*

*1981-ci ildən AYB-nin üzvü idi. Özbəkistanın "Ürək dostları klubu"nun fəxri üzvü seçilmiş (1992), bir çox təltiflərə layiq görülmüşdür.*

*Doqquz kitab, dörd tərcümə müəllifidir. Haqqında beş filmoqrafiya çəkilmiş, çoxlu yazılar – rəylər verilmişdir.*

*1996-cı il mayın 22-də Bakıda vəfat etmiş, Xırdalan qəbristanlığında dəfn olunmuşdur. Ruhu şad olsun!*

## VƏTƏN

Pişik istədiyindən
yeyir balasını,
mən də səni yeyirəm
istədiyimdən
təndirindən çıxan çörəyi
yeyirəm,
ağacın gətirən barı yeyirəm,
pətəyindən süzülən balı
yeyirəm,
yemişəm,
yeyəcəyəm,
axırda səndən
bir qarış yer,
bir ovuc torpaq istəyəcəyəm,
canımla,
ətimlə,
qanımla
təndirindən çıxan çörəyin,
ağacın gətirən barın,
pətəyindən süzülən balın
yerini verməkdən yana.
Vətən,
uşaq anasını,
yetim göz yaşını,
kasıb balasını
nə qədər istəyirsə,
mən də səni o qədər
istəyirəm!..

# TOFIQ ƏHMƏD NİZAMMÜLK



**Tofiq Əhməd** *1942-ci ildə Qubadlı rayonunun Kavdadıq kəndində anadan olub.*

*ADU-nun filologiya fakültəsini bitirib. Uzun muddət müəllim işləyib. 1960-cı illərdən dövrü mətbuatda elmi - publisistik və metodik yazılarla çıxış edir, araşdırmalar aparır, tədqiqatla məşğul olur. Elmi tədqiqatı fəlsəfi araşdırmalardır.*

*Bir çox kitabların müəllifidir.*

## ÜRƏK

Bir el qoyub gəlmişdim,
Dağətəyi çayqırağında.
Qayaqaşqayla üzbəüz,
Bərguşadın amanında.

Amansız, imansız qarı düşmən
zavalına gəldi elim-obam.
Xain qonşuları görüm gəlsin zavala.
Gavurlar taladılar obamızı,
Söndürdülər qədim-qayim çırağımızı.
İyirmi ildir yurdumuz "məhbəsdə",
Ziyarətgah ocağımız
dinsizlərin əlində, qəfəsdə.
Ana torpaq, dogma yurdum,
Səndən hec olarmı ayrı qalmaq?!
Anam mənə beşiyimdə
bu ocaqda layla calıb,
Gecəsini gündüz edib,
başım ustə oyaq qalıb.
Kim qarğadı beləcə, bu torpağa, bu ocağa?
Səpələndi ocağımın kösövləri künc-bucağa
Şeytan dönüb oldu "mələk",
Bu şeytana, iblisə,
Nədən rəvac verdi fələk,
Niyə belə etdi fələk?!
Üz çevirdi bizdən Tanrı, Ürək!





# SABİR YAQUB



***Sabir Ağakişi oğlu Yaqubov** 1948-ci ildə Qubadlı rayonunda anadan olmuşdur.*

*Şuşa Pedaqoji Texnikumunu, Bakı Dövlət Universitetini və Ali Partiya Məktəbini bitirib. İxtisasca filoloq və politoloqdur.*

*Uzun illər Qubadlıda mətbuat, komsomol, sovet və partiya orqanlarında müxtəlif vəzifələrdə çalışıb. 1984-85-ci illərdə Əfqanıstanda diplomat kimi fəaliyyət göstərib və "Rəşadətli əməyə görə" dövlət mükafatı ilə təltif edilib. Vətənə döndükdən sonra o, Mərkəzi Komitədə inspektor və Yevlaxda birinci katib işləyib.*

*1991-ci ildən bu yana əsasən mətbuat sahəsində və nəşriyyat-poliqrafiya müəssisələrində çalışıb.*

*Bədii yaradıcılığa ötən əsrin yetmişinci illərində başlayıb. "Yad adam", "Töhmət", "Şübhə", "Zarafat əmri" kimi hekayə və novellaları bu illərdə dərc olunub. "Nahaq qan" (1992), "Qisas" (1998) və "Qaranlığın gözləri" (2010) adlı bədii kitabların müəllifidir.*

*Müxtəlif vaxtlarda mətbuatda xeyli sayda publisistik yazıları çap olunub. "Hər çeşmədən bir damla", "Zərdabi yurdunun övladları", "Raykom katibi" və "Zəmanəmizin möcüzəsi" adlı nəşrlərin müəllifləri öz kitablarında onun da xatirə və portret oçerklərinə yer ayırmışlar.*

*"Təlatüm" adlı ikihissəli romanı, "Xatirə çələngi" adlı publisistik yazılar və xatirələrdən ibarət kitabı, "İllərdən qalan izlər" adlı şeir toplusu çap gözləyir.*

*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır.*

*Hazırda "Ömrüm bir kitabdır" adlı xatirə-roman üzərində işləyir.*

## YURD YANĞISI

Ürəyimdə bir yanğı var: ilğımlı səhralarda damla-damcı su üçün dodaqları cadar-cadar olan bir zavallının ürək yanğısından betər! İçimdə bir ah-aman var: dərd əlindən nalə çəkib dili qabar-qabar olan bir bəxtikəmin ah-amanından betər! Yandıqca-yanan, cismimi-ruhumu əldən salan bu yanğı Yurd yanğısıdır. Ərşə qalxdıqca-qalxan, məni yandırıb-yaxan bu nalə-nifrin isə Yurd həsrətindən doğan bir fəryad, ah-amandır. İçimdəki Yurd yanğısı o vaxt səngiyib-sönəcək ki, Yurd həsrətindən doğan nalə-nifrinim o vaxt kəsib-kiriyəcək ki, yağı tapdağında olan nə ki yurd-yuvamız var işğaldan azad olacaqdır. İnşallah!

* * *

Bütün varlığımla sevdiyim doğma Azərbaycanı gəzdikcə sehrindən illər uzunu ayrıla bilmədiyim yer-yurdlar qoy məndən inciməsinlər, doğulub boya-başa çatdığım Qubadlımın cazibəsini mən heç yanda duyub hiss etməmişəm. Buranın havası müşk-ənbər qoxuyurdu. Buranın suyu bal-şəkər tamında idi. Buranın torpağı şumlanıb-sırımlananda, elə bil, təndirə yapılan təzə fətir ətri aləmi bürüyürdü. Allah-taala buradan heç nəyi əsirgəməmişdi. Alagöz bulaqların, dəli nərəli çayların, qalın meşələrin, ucsuz-bucaqsız düzlərin, sərt-sıldırım qayaların, buludpapaq dağların və bu yaraşıqdan, zənginlikdən də qat-qat üstün olan insanların yurd-yuvasıdır Qubadlı!..

Hələ ötən yüzilliyin səksəninci illərinin əvvəllərində doğma el-obaya hədsiz vurğunluğum belə şeirləşmişdi:

***Ər igidlər oylağıdır bu yerlər,***  
***Ad-sanını xəzinə-vara dəyişməm.***  
***Həyatımın növrağıdır bu yerlər,***  
***Zərrəsini min diyara dəyişməm.***

***Qartalları zirvələrə həyandı,***  
***Nəbiləri, Həcərləri bəyandı,***  
***Bir tarixdi, min hikmətə dəyəndi,***  
***Qalaq-qalaq kitablara dəyişməm.***





***Gəyən, Yazı düzü geniş qucağı,***  
***Görünmür yan-böyrü, ucu-bucağı,***  
***Səngər, Həртiz dağı piri, ocağı,***  
***Türbələrin min hasara dəyişməm.***

***Bərgüşad, Həkəri axırlar qoşa,***  
***Can atırlar Xan Araza birbaşa,***  
***Vadiləri başdan-başa tamaşa,***  
***Bu çayları dəryalara dəyişməm.***

***Ağ saçına, birçəyinə qurbanam,***  
***Gözəlinə, göyçəyinə qurbanam,***  
***Çəmən dolu çiçəyinə qurbanam,***  
***Tirmə şala, zərli xara dəyişməm.***

***Meşələri yamaclara yaraşıq,***  
***Burda yer-göy bir-birinə yar- aşiq,***  
***Sərt qayalar qalalarla qarışıq,***  
***Füsunkardı, bir dildara dəyişməm.***

***Sabirin əzəli vətəni burda,***  
***Əbədi uyuyub-yatanı burda,***  
***Böyüyüb ərsəyə yetəni burda,***  
***Qubadlımı mən heç hara dəyişməm.***

Sən demə, qürurlu kəlmələrimin misra düzümü tarixindən on il keçər-keçməz Qubadlı qarı düşmənin əsiri olacaqmış. Və mən də əli qoynunda ürək ağrısı ilə yazacaqmışam:

***Şöhrətli el idim ellər içində,***  
***Gül idim, bitmişdim güllər içində,***  
***Bir qara gün gəldi günlər içində,***  
***Bəxtəvər ömrümə son qoydu-qoydu!..***

Qubadlının ermənilər tərəfindən işğalının il tamamında bağrımın qanı ilə "Qara ilim, qara günüm" adlı ağı mayalı, qüssəkədər üstə köklənmiş və həm də kinli-qəzəbli, tənəli-töhmətli bir yazı yazıb "Respublika" qəzetində çap etdirdim. İçimdəki

Yurd yanğısının ilk publisistik inikası olan həmin yazını ixtisarla burada da verirəm:

"Qara ilim -1993. Qara günüm -31 avqust. Bu qara ilin qara günündə qara taleli Qubadlım qaldı qara niyyətli, iblis xislətli, xəyanətinə görə alnına qoca tarixin əlləriylə "satqın" damğası vurulmuş səhlı-sumbatın nəvə-nəticələrinə! O səhlı-sumbatın ki, Babək babamızı qara qəpiyə satmışdı yağıya!..

O qara ilin qara günündə Qaçaq Nəbinin oylağını, aranını-yaylağını işğal elədi andranikin "dığa"ları! O andranikin ki, xəyanətinə görə Nəbi qeyrətli, Nəbi qüdrətli bir türk babamız tutub kəsmişdi qulağını!..

Ağlar qalan gözlərimiz qarşısında 1988-ci ildən bu yana, ta bu qara ilin qara gününə kimi, düşmənlə döyüşürdü Qubadlı. Neçə dəfə el-obamıza erməni hücumu, erməni basqını olmuşdusa, hamısı yerli özünümüdafiə dəstələri və polis əməkdaşları tərəfindən dəf edilmişdi, hamısının qabağı alınmışdı. Amma alına bilmədi düşmənin dəhşətli 30-31 avqust hücumlarının qabağı. Təkcə Qubadlının deyil, bütün Azərbaycanın fəxri, başucalığı olan Milli Qəhrəmanların - Əlyarın, Aqilin, Kərəmin, Vasilinin, Aslanın, Ələkbərin, Bəylərin qanı ilə suvarılan torpaqlarımız quduz yağının vəhşi caynaqlarına keçdi.

O qara ilin qara günündə nazlı-qəmzəli qızların hörükləri kimi dağların döşündən Xan Araza uzanan Bərgüşad, Həkəri çayları, min nemət yetirən Yazı, Gəyən düzləri, bu düzlərdən apaydın görünən qalın, çətir meşələr, sinələrdə göz-göz olub paqqıldaşan çeşmələr, sıldırımlar, sal qayalar əsir düşmüşdü! Əsir düşmüşdü Ziyarət zirvəsi və bu zirvədəki türbədən bizə zillənmiş ulu əcdadımızın ruhani baxışları; əsir düşmüşdü Qoşa künbəzdə, İmamzadədə, Mirlərdə, Hacı Qaramanda... uyuyan müqəddəslərin məzarları; əsir düşmüşdü tariximizin daş yaddaşı - qalalar, türbələr, məscidlər, tağbəndli körpülər, mağara və kahalar; əsir düşmüşdü Topağac aşırımı, Səngər zirvəsi, Seytas-Novlu ucalığı, Göyyal qaşı, Hərtiz hündürlüyü, Çayzəmi sərinliyi, Qaravunun, Mistanın, Gen dərənin dərinliyi; əsir düşmüşdü uzandıqca hey uzanan zümrüd donlu tarlaların, bağça-bağın bar-bəhəri; əsir





düşmüşdü əqiqli, mərmərli yataqlar, karxanalar - yatarlar; əsir düşmüşdü tikib-qurduqlarımız - evlər, mülklər, malikanələr, mədəniyyət, səhiyyə və təhsil ocaqları, daha nələr, daha nələr!..

Fikirləşdikcə adamın tüstüsü təpəsindən çıxır: doğma torpaqda dəfn etdiyimiz doğmalarımızı ziyarətə gedə bilmirik! Qəbri əsir düşən anama üzürxahlıqla yazıram:

***Qibləgahım, bənd bərələr kəsili,***
***Səni ziyarətə gələ bilmirəm!***
***Cismim- canım fikir-xəyal əsiri,***
***Sinəm dağlı, deyib-gülə bilmirəm!***

Şəhidlərimiz üçün bu gün də göz yaşı tökürük. Öldü-qaldısından hələ də xəbər tuta bilmədiyimiz itkinlərimizi gözü yolda, qulağı səsdə hələ də axtarırıq...

...Sözün qüdrətinə şübhəm yoxdur. Uca Allah da yeri-göyü, külli-kainatı "Ol!" kəlməsiylə, sözlə yaradıb. Danışıqlar yolu ilə çox savaşlara, qanlı qırğınlara son qoyulub. Bunun tarixdə saysız-hesabsız sübutu var. Amma nəzərə almalıyıq ki, ta qədim zamanlardan bu günümüzədək nə qədər barışan, sülh sazişi bağlayan varsa, onların arasında erməni adlı bir zad olmayıb. Digər tərəfdən, onu da bilməliyik ki, Qarabağ uğrunda cəlb edildiyimiz müharibə təkcə ermənilərin əzəli Azərbaycan torpaqlarında "böyük Ermənistan" yaratmaq iddiasına deyil, həm də qara qüvvələrin müstəqilliyimiz və ərazi bütövlüyümüz əleyhinə yönəlmiş siyasətinə birbaşa xidmət edir!..

...Nüfuzlu beynəlxalq təşkilatlarda və bəzi siyasi dairələrdə hərdən Böyük Siyasi Saziş barədə danışırlar. Qoy, kim nə barədə danışırsa-danışsın, başımızın altına yastıq qoyan belə danışıqları çox eşitmişik. Biz Böyük müharibəyə hazır olmalıyıq!..

...İşğaldan düz iyirmi il keçir. Bu, zaman baxımından heç də az müddət deyil. Ötən illər ərzində ermənilərin işğalçılıq siyasətindən əl çəkməmələri nəticəsində münaqişənin həlli istiqamətində heç bir irəliləyiş olmasa da, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə qəbul edilməsi, respublikamızın dünya supergüclərinin strateji tərəfdaşına çevrilməsi, onun ragionda lider dövlət statusu

qazanması, ölkəmizin sürətli iqtisadi-sosial inkişafa nail olması hər kəsdə fəxarət hissi doğurur.

Qaçqınlara və məcburi köçkünlərə yüksək səviyyədə və hərtərəfli dövlət qayğısı göstərilir. Doğma yer-yurdlarından didərgin düşənlərin mənzil-məişət şəraitinin durmadan yaxşılaşdırılması üçün ardıcıl və məqsədyönlü iş aparılır.

Düşmənin başını əzə biləcək güclü ordumuz yaranmaqdadır. Onlarla erməni əsgərini təkbaşına məhv edə bilən şir ürəkli, Milli Qəhrəman Mübariz İbrahimov kimi döyüşçülərimiz bir deyil, beş deyil!!!

Bütün bunlara baxmayaraq, Yurd yanğısı elə həminki hərarəti, odu-atəşi ilə yandırıb-yaxır ürəyimi. Və bu yanğı ilə də içimdə üz tutub Qubadlıya yazıram:

***Sən Allah möcüzəsi,***
***Cənnətin mənzərəsi,***
***Mat qoyardın hər kəsi,***
***Qubadlım, ay Qubadlım!***

***Kim qıydı sənə belə,***
***Dağ çəkdi qədim elə,***
***Saldı çöllərdən-çölə?!***
***Qubadlım, ay Qubadlım!***

***Sabirəm, balan mənəm,***
***Həsrətdə qalan mənəm,***
***Hicrindən ölən mənəm,***
***Qubadlım, ay Qubadlım!***

Allah özü bu Yurd yanğısına, bu Yurd həsrətinə son qoysun. Amin!

***10 iyun 2013-cü il***





## YAŞAR FƏTİYEV



***Yaşar Qurban oğlu Fətiyev*** *1943-cü ildə Qubadlı rayonunda anadan olub. 1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsini bitirmişdir.*

*Qubadlının işğalından sonra Bakı şəhərində məskunlaşmışdır.*

*Müharibənin özünümüdafiə dövründə Qubadlı rayonunun Müdafiə Qərargahının rəisi, rayon Müdafiə Komitəsinin üzvü olmuşdur.*

*Beş kitab müəllifidir. Bir çox təltiflərə layiq görülmüşdür*

***

Y.Fətiyev əlinə qələm alaraq tarixin unudulmaması üçün şahidi olduğu hadisələrin şərhinə girişməzdən öncə kitablarını bu sözlərlə başlayır:

- Ehe... eyy! Ay Qubadlının ağsaqqalları, ağbirçəkləri, ömür-gün yaşamışları! Möhkəm olun, dəyanətli olun. Qubadlını görmədən, bərpa etmədən ölməyə haqqınız yoxdur. Yoxsa gələcək nəsillər bizi bağışlamaz!..

Y.Fətiyevin müşahidələri, düşüncələri, subyektiv fikirləri bütövlükdə doğma yurdu Qubadlının həsrəti ilə bağlıdır.

***

...Deyirlər vaxtı ilə ədəbiyyatdan, poeziyadan uzaq olan bir çox qubadlılılar qaçqınlıq dövründə şeir yazır, yaradıcılıqla məharətlə məşğul olur, uğurla kitab nəşr etdirir.

Məncə insanda hər hansı qabiliyyətin təzahürü üçün optimal mühit gərəkdir. Qaçqınlıq mühiti, Qubadlı həsrəti qubadlılıların kövrək qəlbini danışdırır, sızladır.

***

...Axır vaxtlarda Qaçaq Nəbinin ruhuna çox müraciət edirlər. Onu narahat etməyin. O ayağa qalxsa, birini ermənuyə vursa, beşini də bizə vuracaq ki, niyə əmanət qoyduğum torpaqları qoyub yığışmısınız Abşeron düzlərinə.

***

... Qubadlı və qubadlılıları tərənnüm etməklə ömrüm boyu yana-yana, yandıra-yandıra yazacam, söyləyəcəm. Qubadlılar

bu müharibədə Azərbaycanın qəhrəmanlıq salnaməsinin şanlı bir səhifəsini yaratdılar.

***

...Qaçqınlığın mahiyyətini duymayanlar bəxtəvərlik verirlər ki, kənddən gəlib şəhər əhli olublar. Duymurlar ki, gətirdiyimiz dağların dağı ilə bəxtəvərlik bir araya sığmaz. Qaçqının sinəsini aç, müsibətini gör!..

Mən üç ömür yaşamışam. Hər biri yüz ilə bərabərdir. Uşaqlıq – məktəbli illərim, Qubadlı illərim və dünyanın mahiyyətini mənə öyrədən qaçqınlıq illərim.

Mənə elə gəlir ki, bunların hər birini yüz il yaşamışam.

Uşaqlıq illərimdə illərimi saymamışam. Qubadlı illərində illəri yaşamışam. Qaçqınlıq illərində isə günlərimi saymışam.

Görəsən Qubadlıdan çıxan karvan geri dönəcəkmi? İnanıram! Geci-tezi var. Əgər mənsiz getsəniz, çıxarsınız Səngərin zirvəsinə və bir dəfə məni ucadan səsləyərsiniz, səsinizə səs verəcəm!

***

"...Kaş ki, torpaqlarımız azad olaydı və mən də doğma torpaqlarımızda, doğmalarımın yanında əbədiyyətə qovuşaydım!- dedi qardaşım Səfər».

Bu elə bir yanğılı istək idi ki, dağlarımızın güzeylərindən qar gətirib onun həsrətilə qovrulan ürəyinin üstə qoysaydılar, onun odundan dağlarımızın qarı əriyər, özləri də yanar, ütüm-ütüm ütülərdi.

Elə bu yerdə bir neçə bənd şeir boy atdı içimdə. Elə bildim o şeiri Səfər deyib son anda:

Zirvələri tamam ağdır,
İndi səndəki yağıdır.
Qarını sinəmə yağdır,
Səni oda yaxım, dağlar.

Əyilmədim, büzülmədim,
Yollar keçdim çətin-çətin.
Vüqarlısan uca, mətin,
Çöl, köksümdə sınan dağlar.

Sınadım qohum-qardaşı,
Ürək dərddən oldu naşı,
Köks ötürüb, sən göz yaşı,
Axıtma gəl, inan, dağlar.

Həkəriyə, Bərgüşada,
Xan Araza baxan dağlar,
Elin köçdü, yetim qaldım,
Əldə qaldı yaxan, dağlar.

Getmiş idim, indi gəldim,
Yatmısansa, oyan, dağlar.
Ölmüş idim, diri gəldim,
Toy-büsata boyan, dağlar.





# ƏLİ XANKİŞİYEV



*Əli Məmiş oğlu Xankişiyev (Əli Mirhaşım) 1934-cü il sentyabrın 20-də Qubadlı rayonunun Qaralar kəndində anadan olub.*

*Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu (indiki Dövlət Aqrar Universiteti) bitirib (1956).*

*2003-cü ildən çıxan «Həkəri» qəzetinin təsisçisi və baş redaktorudur. Doqquz kitab müəllifidir.*

*«Qızıl qələm», «Həzrəti Əli», «Vətən», «Vicdanlı qələm», «Həsən bəy Zərdabi», «Peşəkar Jurnalist», «Xalqın nüfuzlu ziyalısı», «İti qələm», «Dərin zəka sahibi», «Ustad sənətkar», «Əsrin ziyalısı», «Müqəddəs qələm» və s. fəxri media mükafat-larına layiq görülüb.*

*AYB-nin, AJB-nin, Respublika «İti qələm» Ədəbi Birliyinin və Dünya Azərbaycanlıları Yazıçılar Birliyinin üzvü, Bakı şəhər Veteranlar Şurasının Plenum üzvü, Xətai rayon Ağsaqqallar Şurası sədrinin müavinidir. Dövlət qulluqçusu təqaüdçüsüdür.*

## EL-OBAMIZ HAQQINDA

*(qısa məlumat)*

Qubadlı torpağının tarixi uludur. Bu diyarın tarixi səhifələrini vərəqləyəndə Dədə Qorqud dünyasının ətrini duyursan. Qubadlı XVI ərsin sonunda Azərbaycana köçmüş Səlcuq türklərinə mənsub Qubad nəslinin adını daşıyır.

1930-cu ildə yaradılmış Qubadlı rayonu Azərbaycanın Laçın, Cəbrayıl, Zəngilan, Ermənistanın Qafan və Gorus rayonları ilə həmsərhəddir. Ərazisi 802 km$^2$, əhalisi 30,3 min nəfərdir (01.01.1993). Rayonun ərazisindən Həkəri və Bərgüşad çayları axıb keçir. Laçın dağlarından, habelə Ermənistanın dağlıq ərazisindən süzülüb gələn bu bol sulu çaylar Hinduverd burnu adlanan yerdə birləşərək Xan Araza qovuşur.

Rayon əhalisinin əsas məşğuliyyəti tütünçülük, heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqdan ibarət idi. Son illərdə bu təsərrüfat sahələri yüksək gəlir mənbəyinə çevrilərək əhalinin firavan yaşamasına şərait yaratmışdı. Rayonun kəndlərində geniş tikinti-abadlıq işləri aparılaraq gözəl imarətlər tikil-

miş, barlı-bəhrəli cənnətməkan bağ-bağatlar, Həkəri, Bərgüşad çayları üstündən iri əsaslı körpülər salınmış, Gəyən və Yazı düzlərinə güclü nasos qurğusu vasitəsilə su çıxarılmışdı.

Rayonun müxtəlif yönümlü istehsal və tikinti obyektləri, mədəni-maarif, səhiyyə, məişət, ictimai-iaşə, ticarət müəssisələri, zəngin yeraltı sərvətləri, meşələri, istirahət güşələri, sərin bulaqları var idi.

Qubadlı rayonu tarixi abidələri, görkəmli şəxsiyyətləri ilə məşhurdur. Xalq qəhrəmanları Qaçaq Nəbi və Həcər, xalq yazıçısı Süleyman Rəhimov, yazıçı Əli Vəliyev, əmək qəhrəmanı Şəfaət Mehdiyev, dövlət və elm xadimi Kamran Hüseynov və onlarca belə dəyərli görkəmli şəxsiyyətləri vardır.

Ötən əsrdə elimizin Kərbəlayi Seyid İsaq ağa, Mir Cəlal ağa (Qaralar kəndi), Kərbəlayi Seyid Süleyman ağa, Mirhaşım ağa (Əbilcə kəndi), Mir Sədi ağa, Mir Məhəmməd ağa (Mirlər kəndi), Seyid Həmid ağa (Muğanlı kəndi), Seyid Məhyəddin ağa (Qiyaslı kəndi), Seyid İsmayıl və Seyid Məcid (Mahmudlu kəndi) kimi ağır nəfəsli, nüfuzlu və mərhəmətli seyidləri yaşamışlar və bu behiştlik müqəddəslərin haqq yolunu övladları şərəflə, ləyaqətlə davam etdirirlər.

Dəyərli ədəbi-bədii əsərləri ilə geniş oxucu kütləsinin dərin rəğbət və məhəbbətini qazanan yazıçı və şairlərimizdən C.Bərgüşad, Q.Qasımzadə, E.Şahmar, E.Baxış, R.Yusifoğlu, T.Cahangir, Ş.Arif, F.Hacıyeva, M.Abdullayeva, R.Rövşən, X.Cahangirov, Ə.Aslan, R.Əliyev, S.Yaqub, Y.Fətiyev, F.Süleyman, Q.Əvəzoğlu, D.İsmayılov, M.Qədimoğlu Həkəri və başqaları Qubadlı torpağının yetirmələridir.

Rayonun ərazisi 1993-cü ilin 30-31 avqustunda erməni təcavüzkarları tərəfindən işğal olundu. Nəticədə doğma yurdunu, varidatını itirən didərgin camaatımız əsasən Sumqayıt şəhərində, habelə Bakı və bir çox rayonlarda müvəqqəti məskunlaşaraq əzablı köçkün həyatı yaşamağa vadar oldu.

Mənfur ermənilərin törətdiyi bu ölüm-dirim müharibəsində mərdliklə, fədakarlıqla vuruşan 8 nəfər igid eloğlumuz Milli Qəhrəman adına layiq görüldü, neçə nəfər günahsız insan şəhid edildi.

İndi Vətən həsrətli soydaşlarımız didərgin həyatının hər cür çətinliyinə dözərək doğma yurda qayıdacaqları şad günü böyük ümidlə gözləyirlər.





## HACI MİRHƏSƏN HADİ



***Hacı Mirhəsən Hadi İsaq oğlu*** *25 fevral 1944-cü ildə Qubadlı rayonunun Qaralar kəndində anadan olub.*

*ADU-nun hüquq fakültəsini bitirib (1972). Həmin ildən Qubadlı rayon dövlət notariusu vəzifəsində işləyib. Kiçik ədliyyə müşaviridir. «Qanun və Zəka» qəzetinin təsisçisidir. «Qızıl qələm», «Vətən», «H.Z.Tağıyev», «İdman, izzət və iltifat», «2003-cü ilin vətənpərvər şairi», «A.Şaiq», «N.Nərimanov» və başqa mükafatlarla, fəxri fərmanlarla təltif olunub.*

*Haqqında «İlahi eşqin pərvanəsiyəm», «Bu yurdun dərdli yolçusu» filmportret çəkilmişdir.*

*Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.*

*Bir neçə kitab müəllifidir.*

### DAĞLARIN

Əzəldən yarı dost, yarı düşmənim,
Ox atdı qəlbimə sarı düşmənim,
Gələndə üstümə qarı düşmənim,
Dönmədi rüzgara yeli dağların.

Hamıdan ucaydım, başıdım belə,
Yüz ovu bərədən aşıdım belə,
Çiynimdə yurd dərdi daşıdım belə,
Axdı gözlərimdən seli dağların.

Ürəyim hər şeyi bilir, əmindi,
Xəzana düşübdü bil, İrəm indi,
Yüzü yüz söz desin, bilirəm indi,
Həsrətdən bükülüb beli dağların.

Mirhəsən, səs düşər ellərə bir gün,
Xoş avaz yayılar dillərə bir gün,
İllər calansa da illərə, bir gün,
Qayıdar qoynuna eli dağların.

## QUBADLIM

Sənin taleyini yaşayıram mən,
Adını çiynimdə daşıyıram mən.
Hər sözü səninlə başlayıram mən,
Ömrümün baharı, yazı Qubadlım.

Sən mənim taleyim, dəryam, dənizim,
Sən mənim sevimli gülüm, əzizim.
Bir sənin önündə əyilir dizim,
Dilimin ilk ata-sözü Qubadlım.

Səni yad nəfəsi soldura bilməz,
Sənə yad baxanın taleyi gülməz.
Qədir-qiymətini naxələf bilməz,
Sənsən çörəyimin duzu, Qubadlım.

## O DAĞLAR

Nə vaxtdan bəridi xəyala dalıb,
Meylini dərdlərə, qəmlərə salıb,
İllərdi yağının əlində qalıb,
Görən bağışlarmı o dağlar bizi?

Uçdu baxtımızdan vaxtı gələndə,
Həsrət qəlbimizi yaxdı gələndə,
Yurda qayıtmağın vaxtı gələndə,
Görən bağışlarmı o dağlar bizi?

Hələ çiynimizdə dərdin yüzü var,
Qəmin əriməmiş qarı-buzu var,
Üzü yurda sarı mələr quzu var,
Görən bağışlarmı o dağlar bizi?

Bəlkə ətəyində bənövşə bitmir,
Qartalın harayı kimsəyə yetmir,
Kəkliyi lal olub, bülbülü ötmür,
Görən bağışlarmı o dağlar bizi?

Kədərli gözlərin yaşını silsək,
Qeyrəti ürəkdə ayılda bilsək,
Bir də o yerlərə qayıda bilsək,
Görən bağışlarmı o dağlar bizi?





Tale zülmətlərə bir gün nur saçar,
Əl-qolum bağlanıb, qalmışam naçar,
Haçansa görəndə qolunu açar,
Görən bağışlarmı o dağlar bizi?

Vətənin bağrını oyub gəlmişik,
Elə bil o yerdən «doyub» gəlmişik,
«Göz»ünü yollarda qoyub gəlmişik,
Görən bağışlarmı o dağlar bizi?

## GÖRƏ BİLMƏDİK

Yenə həsrət qaldıq yurda, üşüdük,
Tuş gəldik dərd adlı qurda, üşüdük.
Orda boran oldu, burda üşüdük,
Bu il də dağları görə bilmədik.

Vədlər doğrulmadı, söz yalan oldu,
Qəlb elə ağladı, göz yalan oldu.
Biz necə yandıqsa, köz yalan oldu,
Bu il də dağları görə bilmədik.

Ağlaya-ağlaya dillər yoruldu,
Çağlaya-çağlaya zillər yoruldu.
Dağlaya-dağlaya illər yoruldu,
Bu il də dağları görə bilmədik.

Bizi ovutmadı dünyanın malı,
Gedəni yandırdı qalanın halı.
Düşdü qəlbimizə lalənin xalı,
Bu il də dağları görə bilmədik.

Səngərin qəlbinə qaranlıq çökdü,
Ayrılıq Kəpəzin bağrını sökdü.
Hərtiz gözlərinin yaşını tökdü,
Bu il də dağları görə bilmədik.

Bəy oldu nökəri, qulu dağların,
«Çeşməli dağlar»ın, «Sulu dağlar»ın.
Gözləri yol çəkdi, «Ulu dağlar»ın,
Bu il də dağları görə bilmədik.

Kim var qəlbimizdə dərdi əritsin?
Üzü yurda sarı bizi yeritsin!
Mirhəsən qəlbini necə kiritsin?
Bu il də dağları görə bilmədik.

## AZƏRBAYCAN, AYAĞA QALX

Qədimsən dünya yaşında,
Min tarix var hər daşında,
Yağı düşmənin başında.
İldırım tək gurulda, çax,
Azərbaycan, ayağa qalx!

Qan-qadalı illərin var,
Ağı deyən dillərin var,
Haray çəkən ellərin var.
Düşmənini yandırıb, yax,
Azərbaycan, ayağa qalx!

Bu kəsilən qol sənindir,
Dərd olduqca bol, sənindir,
Gələcəyə yol sənindir.
İgidlərin sənə dayaq,
Azərbaycan, ayağa qalx!

Daş üstündə daş qaladı,
Hər qaladan baş qaladı,
Bu odu qardaş qaladı.
Sönə bilməz bu od, ocaq,
Azərbaycan, ayağa qalx!

Qüdrətli ol, məğrur dayan,
Arxandadı zirvən, qayan,
Bu qəflətdən oyan, oyan.
Dayan namərd önündə şax,
Azərbaycan, ayağa qalx!

Şəhidlərin yoxdur canı,
Yerdə qalmaz şəhid qanı,
Ayıl, öz-özünü tanı.
Vüqarıyla öyünər dağ,
Azərbaycan, ayağa qalx!

Ölüm haqdır, bilir hamı,
Sonda sönür ömrün şamı,
Gözdə qalır arzu, kamı.
Bilmək olmaz nə verər, haqq,
Azərbaycan, ayağa qalx!

Mərd oğullar candan keçər,
El yolunda qandan keçər,
Namərd olan yandan keçər.
Müxənnətə nifrətlə bax,
Azərbaycan, ayağa qalx!

Yoxdur daha oyan, buyan,
İstəyirsən məhv ol, ya yan.
Qanımızdan içib doyan.
Zalımları süngiyə tax,
Azərbaycan, ayağa qalx!

Qoyma namərd ada çatsın,
Qıyma torpaq yada çatsın,
Qoç Koroğlu dada çatsın.
Xətaidən gəlsin soraq,
Azərbaycan, ayağa qalx!

Sahib dur torpağa, daşa,
Xətalar gəlməsin başa,
Qeyrətli ol, məğrur yaşa.
Su tək durul, qəlblərə ax,
Azərbaycan, ayağa qalx!

Səninkidir axan qanlar,
Səninkidir ölən canlar,
Nadan səni çətin anlar.
Qan ağlayır ana torpaq,
Azərbaycan, ayağa qalx!

Yaddan olmaz sənə həyan,
Mürgüləmə, oyan, oyan,
Azadlığı eylə bəyan.
Bayrağını zirvəyə tax,
Azərbaycan, ayağa qalx!





## SEVİ SEVDİMALIYEV



***Sevi İsmayıl oğlu Sevdimalıyev*** *1942-ci ildə Qubadlı rayonunun Göyyal kəndində anadan olmuşdur.*

*Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə ilə bitirib (1964).*

*Həmin ilin sentyabr ayından 1990-cı ilədək Fərcan kənd orta məktəbində müəllim, 1990-cı ilin sentyabrından 2010-cu ilin sentyabrınadək Fərcan kənd orta məktəbində direktor işləyib. Hazırda əmək təqaüdçüsüdür.*

*Respublikanın Əməkdar müəllimi, SSRİ maarif əlaçısı, Qabaqcıl maarif xadimi, AYB-nin üzvüdür. Səkkiz kitab müəllifidir.*

*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb.*

### TAMARZIYAM VƏTƏNİMƏ, ELİMƏ

Vüsal olmaz bir arzuyam dağlara,
Neçə ildir tamarzıyam dağlara,
Qan boyalı bir yazıyam dağlara,
Bu dərdləri kim şəllədi belimə?
Tamarzıyam vətənimə, elimə.

Baldırğanın suyu gəlmir burnuma,
Kəkotunun iyi gəlmir burnuma.
İli gəlmir, ayı gəlmir burnuma,
Həsrətliyəm çiçəyimə, gülümə,
Tamarzıyam vətənimə, elimə.

Ceyran-cüyür, kəklik-turac görmürəm,
Əvəlikdən dəstə tutub hörmürəm,
Üzübərkəm, yaşayıram, ölmürəm,
İsinərdim öz komamın külünə,
Tamarzıyam vətənimə, elimə.

Gözüm baxmır Gözətimə, Hərtizə,
İzim düşmür Tayıfçama, Ağdüzə,
Durammıram Qalacamla üz-üzə,
Qərib oldum Əyədimin selinə,
Tamarzıyam vətənimə, elimə.

Öz əlimlə dolaşıbdı kələfim,
Yurdsuzluq qazancım, qəriblik nəfim.
Gecəm gürzə ilan, gündüzlər əfim,
Qocalmazdım, dən düşübdü telimə,
Tamarzıyam vətənimə, elimə.

Almalığın havasına həsrətəm,
Dərmanına, davasına həsrətəm,
Qırxbuğumun savasına həsrətəm,
Düşmən saldı bizi düşmən felinə,
Tamarzıyam vətənimə, elimə.

Gözü yaşlı bir arzuyam dünyada,
Axarsızam, durğun suyam dünyada,
Doğulandan narazıyam dünyadan,
Min bir şələ şələyibdi belimə,
Tamarzıyam vətənimə, elimə!

**QUBADLIM**

Dünya həm gəlimli, həm gedimlidir,
Nəbinin, Həcərin yurdu qəmlidir.
Bu gün hamımızın gözü nəmlidir,
Ömrü baharından solan, Qubadlım,
Düşmənin əlində talan, Qubadlım.

Ömür bu dünyanın ilmə naxşıymış,
Belə ömürdənsə, ölüm yaxşıymış.
Əsir bir qəlb üçün nə bahar, nə qış,
Kafirlərə girov olan, Qubadlım,
Dünənin yalanmış, yalan, Qubadlım?!





Üç il necə keçib payızlar, yazlar,
Məhəbbət gülünü dərməyib qızlar.
Həkəri, Bərgüşad kaman tək sızlar,
Dədəsiz, nənəsiz qalan, Qubadlım,
Kimdən gəldi sənin bəlan, Qubadlım?!

Həbi Qarayurdda, Həcər Molluda,
İndi qəm səslənir "Cəngi", "Yallı"da.
Vətənsiz yetimdir qolu zorlu da,
Çıxar asimana nalan, Qubadlım,
Gözləri yollarda qalan, Qubadlım.

Yadımdan çıxmayır nə dağ, nə dərə,
Görəydim o yurdu kaş bircə kərə.
Nəbinin məskəni düşmənə bərə?
Ən istəkli varlıq – Anam, Qubadlım,
Ayrılıq yamanmış, yaman, Qubadlım.

Ölürəm dərdinlə, ölə bilmirəm,
Hardayam, özüm də hələ bilmirəm,
Üç ildi qəmdəyəm, gülə bilmirəm,
Qəlbi deşik-deşik, şan-şan, Qubadlım,
Qocalıbdı şair balan, Qubadlım.

Tale möhlət versin, ölüm vaxt versin,
Allah qarabaxta bir az baxt versin,
Göydən baxan bizə bir az haqq versin,
Qayıdıb qoynunda ölüm, Qubadlım,
Mənim qibləgahım, yönüm, Qubadlım.

*1996*

## YƏNİ BU QAN YERDƏ QALA

Əsir düşüb yüz gözəlim,
Talan olub yurdum, elim,
Alçaldılıb min qız-gəlin,
Göy də qala, yer də qala,
Yəni bu qan yerdə qala?

Nalə, fəryad gəlməz saya,
Fəğan qalxdı günə, aya.
Zülm etdilər Qubadlıya,
Övliya da, pir də qala,
Yəni bu qan yerdə qala?

Gülüstan idi Zəngilan,
Qeyrətim idi Mincivan,
Arazda batdı min cavan,
Bu dərd görgahlarda qala?
Yəni bu qan yerdə qala?

Laçın əyibdi başını,
Axıdır qanlı yaşını.
Dağlar Sultan bəy yaşıdı
Hər qayası mərdə qala,
Yəni bu qan yerdə qala?

Gileyi var yarpağın da,
Ruhlar düşmən tapdağında,
Kərəm yandı Qaf dağında,
Kafirlərə bir də qala?
Yəni bu qan yerdə qala?

Mirinin qəbri ağlayır,
Tükənib səbri, - ağlayır,
Hacətgah qara bağlayıb,
Ah-amana, dərdə qala?
Yəni bu qan yerdə qala?

Bərgüşad axarsız qalıb,
Həkəri baxarsız qalıb.
Yazı, Gəyən barsız qalıb,
İstisu, Tərtər də qala?
Yəni bu qan yerdə qala?

Natəvan saçların yolub,
Vaqif günbəgün sozalıb,
Xan Zakirin nökər olub,
Dədəmiz Şəmşir də qala?
Yəni bu qan yerdə qala?

Yaman pis gəldi rüzigar,
Satıldı namus, qeyrət, ar.
Heyif səndən, can Əliyar,
Büstün də kafirdə qala?
Yəni bu qan yerdə qala?!





## SURA XUDARQIZI



***Sura Xudar qızı Haqverdiyeva** 1927-ci ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

*APİ-nın (indiki APU) dil və ədəbiyyat fakültəsini bitirib (1945-1949).*

*Uzun müddət müəllim işləmişdir. Hazırda təqaüdçüdir.*

*Qubadlı rayonu işğal olunduqdan sonra Bakı şəhərində məskunlaşıb.*

*"Əməkdə igidliyə görə" medalla və bir çox mükafatlarla təltif olunmuşdur. Bir kitab müəllifidir.*

### ARZULAR ÇOX GECİKİR

Bu il də yurdlara qayıdammadıq,
İşlər ildən-ilə düşür çətinə.
El arzusu yaxşı olar, deyirlər,
Bəs niyə dönmürük doğma vətənə?

Arzu eləməkdən dillər yoruldu,
"Qubadlı" deməkdən dillər yoruldu.
Ayrılıq həsrəti sıxır bizləri,
Hələ gileyliyik – görən nə oldu?!

Tanrı qoy eşitsin gileyimizi,
Ta bəsdi bizləri saldığı qəmə.
Açsın bağlı yolu, biz dönək geri,
Deyək, şükür, Allah, gəlmisən rəhmə!

*Bakı – 19.03.2002*

### BƏRGÜŞADIM

Həsrətəm neçə ildi,
Bərgüşadım, mən sənə.
Kaş yol aça Allahım,
Görüşəm sənlə yenə.

Yaxşı ki, Həkəriylə,
Arazla qovuşursan.
Qucaqlaşıb Kür ilə,
Xəzərə qarışırsan.

Yan alıram Xəzərə,
Sularla danışıram.
Bircə damcın da olsa,
Səninlə görüşürəm!

*26.11.2002*

## BAYATILAR

Qubadlıyıq – dərdliyik,
Yurd-yuva həsrətliyik.
Yurdları düşmən alıb,
Hər yanda töhmətliyik.

Bir yaralı quşuq biz,
Qanadı şınmışıq biz.
Yurd-yuvamız dağılıb,
Çöllərdə qalmışıq biz.

Dağları çovğun aldı,
Bağ-bağçalar saraldı.
Yüzillik zəhmətimiz,
Bir gecədə dağıldı.

Yurd üçün ağlayırıq,
Ürəyi dağlayırıq.
Bizə bais olanı,
Həmişə qarğayırıq.

Dözərik əzablara,
Daş-kəsəkli yollara.
Qaranlıqdan çıxarıq,
İşıqlı sabahlara.

*24.12.1996*



***Mahmudlu kənd məktəbi***





## İMAMQULU ŞAHMURADOV



***İmamqulu Ramazan oğlu Şahmuradov*** *1928-ci ildə Qubadlıda anadan olub. APİ-ni bitirdikdən sonra müəllim işləyib. 1966-cı ildən Qubadlı rayon «Avanqard» qəzetində redaktor müavini, 1980-ci ildən Qubadlı Rayon Təhsil Şöbəsində inspektor kimi fəaliyyət göstərmişdir.*

*Qubadlının işğalından sonra Bakı şəhərində məskunlaşmış və Suraxanı rayon təhsil şöbəsində çalışmışdır.*

*Hazırda təqaüddədir. İki kitab müəllifidir.*

Əzizim, bu dağa mən,
Çıxmışam budağa mən,
Yuvamdan ayrı düşdüm,
Dözmürəm bu dağa mən.

Əzizim, de nə qaldı,
İztirab mənə qaldı,
Ellər köç eylədilər,
Dağlar düşmənə qaldı.

Əziziyəm, nə dərdim,
Nə becərdim, nə dərdim?
Dağlar məni səsləyir,
Gedə bilsəm, nə dərdim!

Neçədir yaşım mənim,
Ağrıyır başım mənim.
Qalıbdı düşmənlərə,
Torpağım, daşım mənim.

Dağlarda həmdəm qaldı,
Bilmədim nədən qaldı?
Obamı qəsb etdilər,
Məzarda dədəm qaldı.

Əzizim, yenə gəlləm,
Ölərəm, yenə gəlləm,
Yurduma gedə bilsəm,
İmana-dinə gəlləm.

Əziziyəm, dolan gəl,
Külli-aləm dolan, gəl.
Qürbətdən vətən olmaz,
Vətən eşqi olan, gəl!

Nələr qaldı Qubadlıda,
Qeyli-qaldı Qubadlıda.
Ömrümüzün mənası,
İtdi, qaldı Qubadlıda.

# MƏMMƏD QUBADLI



*Məmməd **Əlibaba oğlu Babayev** 1933-cü ildə Qubadlı rayonunun Xallava kəndində anadan olub. 1955-ci ildə Bakı Ali Hərbi məktəbini bitirib. Bir çox vəzifələrdə çalışıb.*

*Ədəbi yaradıcılığa 1980-cı ildən başlayıb.*

*Altı kitab müəllifidir. Hazırda təqaüddədir.*

## QUBADLI

Ömrüm boyu adın düşməz dilimdən,
Adım-sanım, şöhrət-şanım, Qubadlı.
Səndən ayrı su da keçməz dilimdən,
Damarımda axan qanım, Qubadlı.

Sənsiz könlüm atəşlərə qalanar,
Göz yaşımdan sellər-sular bulanar.
Arzularım, diləklərim talanar,
Xəzan olar gülüstanım, Qubadlı.

Yad toxunsa torpağına, daşına,
Qərq olaram gözlərimin yaşına.
Pərvanə tək qoy dolanım başına,
Qurban olsun sənə canım, Qubadlı.

Qoç Nəbinin, mərd Həcərin yurdusan,
Çətin gündə basılmayan ordusan.
Nəsillərin əvvəlisən, ardısan,
Son mənzilim, ilk ünvanım, Qubadlı.

Bulaqların, çeşmələrin səpsərin,
Abı-həyat çeşməsidir Həkərin.
Bərgüşadla cənnət olar hər yerin,
Yenə olar xoş dövranım, Qubadlı!





# NUŞİRƏVAN ƏSƏDOV



*Nuşirəvan Əsədov 1937-ci ldə Qubadlı rayonunun Xələc kəndində anadan olmuşdur.*

*H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnsititutunun Nuxa (Şəki) filialını (1954) və Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirmişdir (1961).*

*Ömrünün sonunadək pedaqoji fəaliyyətini davam etdirmişdir. 1990-2008-ci illər Qubadlı şəhər Qara İlyasov adına orta məktəbdə direktor vəzifəsində çalışmışdır. Səmərəli fəaliyyətinə görə bir çox təltiflərə, 2007-ci ildə isə "Tərəqqi" medalına layiq görülmüşdür.*

*2010-cu ildə dünyasını dəyişmişdir. Ruhu şad olsun!*

## QUBADLIDA

Əzizim, cənnəti görmək istəsən,
Çalış bircə saat qal Qubadlıda.
Qurtarmaq istəsən dərddən, bəladan,
Dağların havasın al Qubadlıda.

Sərvlər cərgə-cərgə göyə ucalır,
Həkəri oxuyur, Bərgüşad çalır.
Çiçəklər rəqs edir, dağlar həzz alır,
Baxsa dilə gələr lal Qubadlıda.

Çəməndə diqqətlə bax hər yanına,
Çiçək bostanına, gül ormanına.
Çiyələyi boyama öz qanına,
Otu ehtiyyatla çal Qubadlıda.

Səngərdən seyr elə Azərbaycanı,
Dağları, düzləri bax, yaxşı tanı.
Hiyləgər düşməndən gözlə arxanı,
Görsən, qisasını al Qubadlıda.

Əzəldən hüsnünə olmuşam mail,
Cənnətə dəyişsən, olmaram qail.
Sorsan, cavab verər Novruz, İsmayıl,
Neçə rəngdə olur bal Qubadlıda.

Ruhları oxşayır Nazimin səsi,
Fəxrəddin, Elxanın xoş zəngüləsi.
Eşitmək istəsən bülbül nəğməsi,
Yerini bağçada sal Qubadlıda.

Bir cüt korifeydir Süleyman, Əli,
Həcərlə Nəbinin qoşa heykəli.
İrəli çağırır, Sərxan, irəli,
Əvvəl topladığın xal Qubadlıda.

Əgər yolun düşsə bahar çağında,
Qorxunc dərəsində, uca dağında,
Bulaqlar başında, çay qırağında,
Bənövşə qoxuyur kol Qubadlıda.

Sübh çağı dur yerdən, geyinmə qalın,
Yaşıl çəmənləri gəz ayaqyalın.
Tamam yaxşılaşar halın, əhvalın,
Gör necə loğmandır çöl Qubadlıda.

Eşit, ey yurdumun qoca, cavanı,
Dəyişmə heç nəyə təmiz havanı.
Əgər eşidirsən Nuşirəvanı,
Yaşa Qubadlıda, öl Qubadlıda!



***Qubadlı – Universam***





## ELBRUS ŞAHMAR



***Elbrus Şahmar oğlu Məmmədov** 11 aprel 1945-ci ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olmuşdur.*

*Bakı Mədəni-Maarif Texnikumunu (1963), Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq (1968) və hüquq (1981) fakültələrini bitirmişdir.*

*Sıravi milis nəfərliyindən polis polkovnikliyinə qədər xidməti yol keçmiş (1968-2000), təqaüdə çıxmışdır.*

*"Sovet Kəndi" və onun davamı olan "Həyat" qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri işləmişdir.*

*Yaradıcılığa tələbəlik illərindən başlasa da, 20 yanvar 1990-cı ildən mətbuatda çap olunmağa başlamışdır.*

*1996-cı ildə "İlin nüfuzlu ziyalısı" adına layiq görülüb.*

*1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 2002-ci ildən "Əsilzadələr məclisinin", Respublika Vətən Müharibəsi veteranları birliyinin üzvü, "Qızıl qələm" (1995) və "Araz" (1995) ali ədəbi mükafatları laureatıdır.*

*Otuzdan çox kitab müəllifidir.*

### CƏNGİNLƏ SƏSLƏŞƏK BƏRGÜŞAD ÇAYI

Suların həsrətdən ləpələnibdi,
Ellərin hər yana səpələnibdi,
Ələmlər ahından çin dirənibdi,
Bilinmir qəmlərin, kədərin sayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Ürəklər ümidsiz olmasın gərək,
Yağıya bu dünya dar olsun gərək,
Hər kəs ocağına yar olsun gərək,
Çoxalıb illərin hayı, harayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Ruhlara yel əsir, sazaq ələnir,
Intizar qəlblərdə bərk-bərk bələnir,
Dərd-bəla gözlərdən axır, sellənir,
Həyanın olubdur Həkəri çayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Qarlı zirvələrdən süzülən ahsan,
Haray çəkən, fəğan edən gur çaysan,
Elini həsrətlə gözləyən çaysan,
Cəmlərik üst-üstə hər günü, ayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Oğullar kam almır oğlan çağından,
Qızlar da su içmir qız bulağından,
Qocalar xoflanır el qınağından,
Əcələ əl edir ömrün hər ayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Qalmayıb bizlərdə nə tab, nə dözüm,
Yaşlılar tez gedir, ay canım, gözüm,
Bilirəm, yanında qaradır üzüm,
Kaş görək vadidə günəşi, ayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Ağlamaq da çətin, gülmək də çətin,
Yaşamaq da çətin, ölmək də çətin,
Qazanmaq da çətin, bölmək də çətin,
Yurdsuz nəyə gərək dünya sarayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Yağılar su içir bulaq gözündən,
Yanır ürəyimiz "köçgün" sözündən,
Bir belə töhmətə necə dözüm mən,
Suyunda paklanıb vuraq halayı,
Cənginlə səsləşək Bərgüşad çayı!

Zaman gələr, biz çıxarıq ağ günə,
Çox qalmayıb, az qalıbdı o günə,
Mil çəkərək yağıların gözünə,
Zəfər çalar igidlərin alayı,
Cənginlə səsləşək Bərgüşad çayı!





# MAHİRƏ ABDULLA



*Mahirə Abdulla Qubadlı rayonunun Başarat kəndində anadan olub.*

*Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib.*

*On yeddi yaşında "Kimyaçı" qəzetində əmək fəaliyyətinə başlayıb. "Kimyaçı" qəzetinin redaktoru, "Yazıçı" nəşriyyatının poeziya şöbəsinin böyük redaktoru, Respublika "Kitab evi"nin direktoru, "Azərkitab" Respublika Kitab Ticarəti Birliyi həmkarlar komitəsinin sədri, Azərbaycan Yazıçılar Birliyində məsləhətçi vəzifələrində çalışıb.*

*Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Rəssamlar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.*

*Psixologiya üzrə fəlsəfə doktorudur.*

*Ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir. 1980-1982-ci illərdə Sumqayıt şəhər Sovetinin deputatı seçilib. AYB İdarə heyətinin üzvü, AYB üzvlüyünə qəbul üzrə ekspert qrupunun sədri olub. Dünya Azərbaycanlıları Konqresinin təbliğat şöbəsinə rəhbərlik edib.*

*Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyat Fondu İdarə heyətinin üzvüdür.*

*İndiyədək 18 şeir, nəsr, publisistik kitabı çap olunub.*

*Müxtəlif janrlarda yazır. Əsas mövzusu. Vətən-millət məhəbbəti, təcavüzkar ermənilər tərəfindən işğal olunmuş torpaqlarımızın taleyi, yurd-ocaq niskilidir.*

*2006-cı ildə 300 orijinal rəsmindən və fəlsəfi esselərindən ibarət "Qatmaqarışıq Nizam" albomu nəşr olunub.*

*2008-ci ildə görkəmli Azərbaycan yazıçısı, alim, pedaqoq Mir Cəlal Paşayevin yaradıcılığını araşdıran "Əbədiyyət. An" kitabı azərbaycan, ingilis, rus dillərində çap olunub.*

*2004-cü ildə çapdan çıxan "Əvvəl. Axır" romanı Mahmud Kaşgari adına Beynəlxalq Fondun "Soyqırım və erməni təcavüzü" müsabiqəsinin Xüsusi mükafatı ilə təltif olunub.*

*Fəlsəfi-estetik əsərlərinə görə Uluslararası Mahmud Kaşgari Fondunun və Türk Törə Ocağının birgə ödülü "San Yarlığı" laureatı adına layiq görülüb.*

## KƏNDİMİ GÖRDÜM

Bu gecə kəndimi yuxuda gördüm,
Yamyaşıl sinəsi çiçəkdi, güldü,
Gözəllik gözümdən gəldi töküldü–
Şəhid Əliyarın qərib ruhunun,
Torpağın üzünə rəngi çıxırdı.

Uyub son baharın qız cilvəsinə,
Qayalar bəndlənib göy zirvəsinə,
Düşüblər namərdin girəvəsinə –
Dərə dirəklənib, dağ çataqlaşıb,
Zirvələr huylanıb cəngə çıxırdı.

Təpələr hıxlanmış dəvə kimiydi,
Çəmən füruzəyi gəbə kimiydi,
Sayrışan şimşəklər həvə kimiydi,
Dibsiz uçurumlar, dilsiz kahalar
İgid oğullara səngər çıxırdı.

Sürtdüm gözlərimə yurd torpağını,
Seçdim boz atların çaparağını,
Gözləyir ruhumun qoparağını,
Başqa millətlərə yollar açıqdı–
Mənim iqbalıma döngə çıxırdı.

Ayrılıq xəbəri dilimə gəlmir,
Sonluğu sonsuzdu, əlimə gəlmir,
Bu necə Allahdı, elimə gəlmir?
Sinəmi yarırdı yaralı ruhum–
Vətənsiz canımdan çünki çıxırdı.

*2012*

## MƏQAM

Gül xoşlanır məni görcək,
dağ yaşmanır çəni görcək,
eymənir erməni görcək,
düşmənin güdük vaxtıdı.

boz selatlar diş çıxarıb,
qıjıldayıb qış çıxarıb,
bulud gözünü sıvxarıb,
yamacın kəklik vaxtıdı.

kürəyində alası var,
sinəsində yarası var,
yuvada cüt balası var,
döyükür, təntik vaxtıdı.

ot-ələf yabanı basdı,
haramı obanı basdı,
başında papaq – qapazdı,
tüfəngin tətik vaxtıdı.

*2011*





## QINAQ YERİDİ

Demirəm cənnətə gəlmişəm, Vətən,
Yanına minnətə gəlmişəm, Vətən,
Bir üzüqaradı qapında bitən,
Alnım sıralanmış barmaq yeridi,

Hələ hay deməmiş düşmən hoylanıb,
Qışın ortasında yanıb, yaylanıb,
Göydəki almalar çoxdan paylanıb,
Yaylaq cığırları cırmaq yeridi.

Dinsizin əlinə keçibdi yaxa,
Sinirə bilmirəm bu qəmi daha,
Nə deyim, ümidim qalıb Allaha,
Gözüm qaysaqlamış irmaq yeridi.

Birinin ətəyi dolu sinidi,
Birinin papağı ağzıgünədi,
Əbası cırıqdı, donu künədi,
Boynunun arxası qarmaq yeridi.

Ahılın, qocanın yorğasına bax,
Cavanın qızıldan sırğasına bax,
Qıratın təzəkli sarğısına bax,
Qarabağ gedəndən qınaq yeridi.

Açın sərhədləri, açın yolları,
Bu yay bar gətirdi dəmir kolları,
Mahirə, qurd kimi gəmir yolları,
Sərhəd qıfılını qırmaq yeridi.

*2012*

## OVSANAT

Qantəpər, üzərrik dəst gəlir mənə,
Yuxulu dərələr məst gəlir mənə,
Didərgin olsam da, şəst gəlir mənə,
Vətənsiz insanı yaşadan ümid
Böyük Yaradanın kəramətidi.

Gözümü çəkmişəm bardan-bəhərdən,
Darılıb çıxmışam dar dərələrdən,
Qopdum bəndləndiyim bənd-bərələrdən,
Düşüb ovsanata böldüyüm tikə,
Hələ bu yolların salamatıdı.

Nə qədər qismətim yatar güdükdə,
Fateh İsgəndərin bəxti düdükdə,
Balalı əliklər çaşır gədikdə,
Dişi şaqqıldayır boylu buludun,
Aşkar qiyamətin əlamətidi.

Bircə yol dərdimə ağlaya bilsəm,
Başımı salamat saxlaya bilsəm,
Dəli inadımdan dönüb çəkilsəm,
Rahat buraxarmı məni imansız –
Yoxsa bu, bəxtimin qaramatıdı?

Gülləylə biçilir örüş-arxacı,
Boyuma ölçülür əriş-arğacı,
Ziyarət dağında bir dar ağacı –
Qurumuş qolumuz döyüş bayrağı,
Niskilli atamın nər qamətidi.

*2012*

## MƏNİM SİNƏ DAŞIM VƏTƏN

Gəzdim Qarabağ düzünü.
O dəyirman, dibək dağlar,
o tağalaq göbək dağlar,
qırçın tuman, ipək qağlar
gülünü başıma tökdü.

sonra yantardım sözünü,
sonra yandırdım özünü,
külünü başıma tökdü.

yamacına qar qarlayıb,
dibə dirənib, xarlayıb,
süzüb, başıma carlayıb,
lillənib sinəmə çökdü.

əyan olmur, daşı yatıb,
arxa laldı, qarşı yatıb,
atası-anası ölüb,
bacısı,qardaşı yatıb.

yatıb, bala, baxtım yatıb,
ala-bula vaxtım yatıb,
kim deyir sərvaxtam, yatıb,
qəmi – qəlbimin körüyü,
köçünü könlümdən çəkdi.

Mənim sinə daşım – Vətən,
başımı kəs, qanı çıxmaz.
Oğlu gorbagor olanın
öldürsən də, canı çıxmaz.

*2012*





## FƏRİDƏ HACIYEVA



*Fəridə Məcid qızı Hacıyeva 1953-cü ildə Sumqayıt şəhərində anadan olub. Əslən Qubadlı rayonunun Xocahan kəndindəndir.*

*Bakı Kitabxanaçılıq Texnikumunu bitirmiş (1971), Azərbaycan Dövlət İncəsənət Universitetində təhsil almışdır(1971-1976).*

*1992-ci ildən bugünədək M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Dövri mətbuat bölməsinə rəhbərlik edir.*

*Yeddi kitabı nəşr edilmişdir (biri tərcümədir). 1984-cü ildən Aşıqlar Birliyinin, Aşıq Pəri məclisinin, 1998-ci ildən AYB-nin üzvüdür. 1999-cu ildən Məhsəti Gəncəvi Poeziya Məclisinin və İdarə heyətinin üzvüdür. 2000-ci ildən Azərbaycan - Rumıniya Mədəni Əlaqələr Birliyinin sədr müavinidir.*

*Məhsəti Gəncəvi adına fəxri diplomla (2004), "Araz" ali ədəbi media mükafatının fəxri diplomuna (2003), "Qızıl qələm" fəxri media mükafatına (2004), Mədəniyyət və Turizm Nazirliyinin fəxri diplomuna (2009), Prezident Təqaüdünə (2010) layiq görülmüşdür.*

## QARABAĞ

Sığınıb abrıma,
Yer üzünə
baxa bilmirəm.
Yer qaçır
ayağım altdan.
Qəlbi qubar
olanların
gözlərinə
baxa bilmirəm.
Dərdin,
sərin,
əlindən
Ürəyim ağrılı.
Baxıram
sağıma,
soluma.
Allah!
Dönük ürəklərdi
dəlir bağrımı.

Qalmışam
tək-tənha,
Yol ayrıcında.
Bilmirəm
hayana,
baş alıb
gedim.
O əsir
torpaqlar
düşmən əlində.
İlahi...
hayana, hayana
gedim.
Namərdlər
əlində
qalıbdı yaxam.
Biganə
adını
qazanan da biz.

Bu da,
bir dərd olub.
Yaman qorxuram.
Hardadı
yurd dərdli,
Sevən qəlbimiz.
O xarı bülbüldü
həsrəti bəlli.
Laləli
düzlərin
Sinəsi qandı.
Cıdır düzü
qərib.
İsa bulağı,
Torpağa
üz tutub
Qovrulub, yandı.
Yoxsa unudulub
Şuşam,
Qubadlım.

Zəngilan,
Cəbrayıl
Lal sükutdadı.
Hardadı
igidim, mərdim,
Ağ atlım.
Arzular
yol gedir,
Kəhər atdadı.
"Qaçqınlar" adını
alıb Qarabağ,
"Qaçqınlar"
elə bil
yeni seçimdə.
Qara baxt
olubdu.
Allah!
Qarabağ.
Bir ümid çırağı
Sönür içimdə.

## TOY OLA XOCAHANDA

Toy ola el-obada,
Yığışaq Xocahana.
Qara zurnanın səsi,
Yayıla bu cahana.

Toy ola haylı-küylü,
Al geyinə qız-gəlin.
Hay sala masabəyi,
Haydı, yığılın gəlin.

"Heyvagülü" çalına,
Analar qol qaldıra.
Gələ bəyin nənəsi,
Hey sındıra-sındıra.

Toy ola bir yaz günü,
Güllər gülə qarışa,
Qurşaq tutub oğullar,
Deyə-gülə yarışa.

Qaynar gözlü balalar,
Düzülə düzüm-düzüm.
O günlər yada düşür,
Allah, kövrəlir sözüm!

Bəyim bəylər bəyidi,
Mağara gəlin gələ.
Aşıq sazın dindirə,
Tərifi yeyin gələ.

Toy ola Xocahanda,
Arzular gerçəkləşə.
O torpağa sığınıb,
El-obayla görüşək!





*Qaçaq Nəbi*



*Həcər xanım*



*Dəmirçilər kəndində türbə (XIV əsr )*



*Daş kitabələr*



*Göyərçik kəndində qoç abidəsi*
*(orta əsrlər)*



*Sarıyataq kəndində qoç abidəsi*
*(orta əsrlər)*



*Gürcülü kəndində türbə*
*(XVII əsr)*



*Başarat kəndində Alban məbədi*
*(VII əsr)*



*Daş karxanası*



*Dəmirçilər kəndində Hacı Bədəl körpüsü (XIX əsr)*



*Məlikəhmədli kəndində bulaq*



*Balasoltanlı nasos stansiyası*



*Məmər kəndində*
*məscid*
*(XVIII əsr)*

*Xələc kəndində*
*məscid*
*(XV- XVI əsr)*





*Məzrə kəndində*
*Alban kilsəsi*
*(VII əsr)*



*Bərgüşad*
*mehmanxanası*

*Diyarşünaslıq*
*müzeyi*





*Fərhad və Şirin*
*bulağı*



*Qubadlı şəhərində bulaq*



*Rayon xəstəxanası*



*Qubadlı şəhərindən bir görünüş*



*Xanlıq kəndində 20 yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidə*



*Aşağı Mollu və Çaytumas kəndləri*



*Dəmirçilər kəndi*



*Həkəri çayının sahilləri*



***Qara kaha - Qayalı kəndinin aşağısı, Bərgüşadın sol sahili***



***Mərmər dağı***



***Yalçın qayalar***



# ƏLİ-AĞA ASLAN



***Əli-Ağa Surxay oğlu Aslanov** 1960-cı ilin dekabrın 2-də Qubadlı rayonunun Qaracallı kəndində anadan olmuşdur.*

*Naxçıvan pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib (1978-1983).*

*Qubadlı rayonu işğal olunduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdı.*

*Səkkiz kitab müəllifidir. Şeirləri Türkiyə və Ukraynada dərc olunub. 40-dan çox şeirinə mahnı bəstələnib.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.*

*2009-cu ilin mart ayının 2-də vəfat edib. Ruhu şad olsun!*

## QUBADLIDA

Könül, gəl əl götür qəmli çağından,
Bir gün güzarını sal Qubadlıda.
Aləmi seyr elə Səngər dağından,
Beş-üç gün qonaq ol, qal Qubadlıda.

Burda göy üzündə günəş körükdü,
Həkəri, Bərgüçad qoşa hörükdü.
Elə ki, gözünə Hərtiz görükdü,
Heyrətdən olarsan lal Qubadlıda.

Gəz dolan dağları, aranı düşün,
Zəhmiylə ürəklər yaranı düşün.
Nəbini, Çingizi, Qaranı düşün,
Bir az da xəyala dal Qubadlıda.

Nəbiyə bir kimsə bata bilməyib,
Yağılar qorxudan yata bilməyib.
Boz atın tozuna çata bilməyib,
Çox köhlən tökübdü nal Qubadlıda.

Gur yanan ocaqlar köz salmayıbdı,
Könlüm gözəllikdən söz salmayıbdı.
Deyir "İrəvanda xal qalmayıbdı",
Düzülüb yan-yana xal Qubadlıda!

## DAĞLAR

Çatladı göy üzü, çatından düşdüm,
Bilmədim neçənci qatından düşdüm.
Taleyin xoşbəxtlik atından düşdüm,
Itirdim sağımı, solumu, dağlar!

Bu dərd nədən oldu, bilə bilmədim,
Gəldi ağrılarım dilə, bilmədim.
Gözümün yaşını silə bilmədim,
Fələk bağlayanda qolumu, dağlar!

Təsəlli verdilər, könülsüz aldım,
Ümidsiz qəlbimi daşlara çaldım.
Burda bir məzara sığınıb qaldım,
Deyin, gözləməsin yolumu dağlar!

## QALIBDI

Hicrana aşnayam, yaram,- demişəm,
Yurdsuz keçən ömrə haram demişəm.
Ölüncə bu dərdə varam,- demişəm,
Canım – qəm dəryası, çağlar qalıbdı.

Qandı, xına deyil, yarın əlində,
Yaxamız dilbilməz, harın əlində.
Bülbül nalə çəkir xarın əlində,
Gülüstan qalıbdı, bağlar qalıbdı.

Dərdin ağırlığın duyub gəlmişəm,
Yolları gözümdə yuyub gəlmişəm.
Bir başın felinə uyub gəlmişəm,
Yurda əmanətim dağlar qalıbdı.

Qəlbim qəm oylağı, gözüm cəhənnəm,
Dedim qəmlərinə dözüm, cəhənnəm.
Özüm dərd əhliyəm, özüm cəhənnəm,
Anam gözü yaşlı, ağlar qalıbdı.





## YOX

O qəribdi bəxti yatan,
Bəxtin vaxtı, zamanı yox.
Qürbət - dərya, qərib - batan,
Əl atmağa samanı yox.

Qəlbi qəmlə dolan bilər,
Qərib-qərib solan bilər,
Vətən, sənsiz ölən bilər,
Qəmin bundan yamanı yox..

Vardan yoxa yol bir andı,
Qəm çəkməyən qəlb virandı.
Qəribin vətəndir andı,
Özgə andı, amanı yox!

## MƏNİM

Bir zaman öz obam, elim var idi,
Elimə can deyən dilim var idi.
Solmayan çiçəyim, gülüm var idi,
Dərd özü qurbanım olardı mənim.

Necə xoşbəxt idim, ilahi, necə!
Min qəmim olsaydı almazdım vecə.
Bulbul yuvasını tapmayan gecə,
Gəlib ürəyimdə qalardı mənim.

Könlüm uzaq idi pislikdən, şərdən,
Aralı gəzərdim hər dərdi-sərdən.
Gecələr Anadil ötəndə hərdən,
Qəlbimi sehrinə salardı hərdən.

Gülüstan gülərdi gülünü üzsəm,
Güllərin ömründə itərdi qüssəm.
Lalədən inciyib, nərgizdən küssəm,
Bənövşə könlümü alardı mənim.

Yurd məni özünə həmdəm bilərdi,
Dağ yeli qəlbimdən qəmi silərdi.
Həkəri ruhuma nəğmə çilərdi,
Bərgüşüd laylamı çalardı mənim!

## BƏRGÜŞAD

Böyüdüm, başımda xata böyüdü,
Məni saflığında yudu Bərgüşad.
Ana laylasıydı, ata öyüdü,
Kim deyir adicə sudu Bərgüşad?!

Dərdi göydə Ayın dərdinə dəyər,
Nəğməsi min şeir sətrinə dəyər.
Adına çay desəm, xətrinə dəyər,
Sular sonasıdı, qudu Bərgüşad.

Ağlaya-ağlaya axıb yandırar,
Çağlaya-çağlaya baxıb yandırar,
Sazı pərdə-pərdə yaxıb, yandırar,
Sızladar kamanı, udu Bərgüşad!

Ta indi neyləyir yurdum hasarı?!
Yarama dərmandı yurdum, ha sarı!
Axıdın qanımı yurduma sarı,
Hamıya deyin ki, budu Bərgüşad!



***Ay işığında parlayan Bərgüşadım!..***
***"Darlar" deyilən yer – Qayalı kəndinin qabağı***





## QAFQAZ ƏVƏZOĞLU



*__Qafqaz Əvəz oğlu Dəmirov__ 1954-cü il aprel ayının 1-də Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdır.*

*Qarabağ müharibəsi veteranıdır.*

*"S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyi"nin təsisçisi və sədri, "Sözün sehri" ədəbi-bədii, ictimai qəzetinin təsisçisi, DİN Veteranlar Şurasının Qubadlı rayon şöbəsinin sədridir. İki kitab müəllifi, "Qızıl kitab" və "Qızıl qələm" mükafatları laureatıdır. Bir çox Diplom və Fəxri fərmanlarla təltif olunmuşdur.*

### DƏLİ KÖNÜL

Dəli könül, necə gülüm-sevinim,
Qatan qatıb, zəhər töküb şiləmə!
Bir tərəfdən zalım fələk budayıb,
Sən də düşüb bir tərəfdən şiləmə!

Nə umursan yurd-yuvası talandan,
Hər şər vaxtı didələri dolandan.
Dərdim azmı, sən də düşüb bu yandan,
Yetim qalmış quzu kimi mələmə!

Kaş meh olub o dağlara bir əsəm,
Yurd-yuvamı dolaşmağa tələsəm.
Yurd həsrətli bir quruca nəfəsəm,
Bir sağ ikən şikəstəm ə, şiləm, ə!

An demədim yurdsuz keçən bir ana,
Oğul gərək dərdlərimə dayana.
Dərdi söylə dərd bilənə, qanana,
Hər yetəndən dərdə dəva diləmə!

Yurd-yuvasız keçən ömür şən olmaz,
Namərd olan mərd dərdinə tən olmaz.
Hər dərd bölən mənim üçün sən olmaz,
Bir dəryayam, bütöv dərdəm – siləmə!!

*25.12.2005.*

## SORUŞ

***=Bir yerli "şair" biz qaçqınlara xitabən mənə: "Eh, sizin nə dərdiniz var e, bütün kommunal xərclərinizi dövlət ödəyir, üstəlik də sizlərə verilən yardımlara əlavələr də alırsız."- dedi =***

Mənə dərdsiz deyən, ay zalım oğlu,
Sən məni mən dərdli olandan soruş!
Yuvası uçandan, yurdu yanandan,
Obası virandan, talandan soruş!

Qapını kəsməyib hələ duman-çən,
Demirəm mən dərdə sən də düşəsən.
Dərdimi öyrənib bilmək istəsən,
Qəzadan qəhərin alandan soruş!

Fələk qarğayandan, evin yıxandan,
Başına qayalar, daşlar yağandan,
Gündüzlər yurd sarı durub baxandan,
Şər vaxtı gözləri dolandan soruş!

Ətirli baxçası, bəhrəli bağı,
Yarpızlı bostanı, çiçəkli tağı,
Laləli çəməni, reyhanlı dağı,
Yamyaşıl ormanı solandan soruş!

Başının üstünü kəsəndə yağı,
Qazanda qatığı, nehrədə yağı,
Ləyəndə ayranı, teştdə qaymağı,
Atıb qaça bilən nalandan soruş!

Qız-gəlin bulaqda atdı sənəyi,
Tavada xörəyi, sacda çörəyi...
Bir təhər çıxartdım anam Göyçəyi,
Yolunu bizdən sal, bir ondan soruş!

Ulağı alıxda, dəvəsi xıxda,
Sürüsü ağılda, malları mıxda,
Toyuğu-cücəsi əldə-ayaxda,
İtləri zəncirdə qalandan soruş!

Qaldı qapılarda tığla taxılı,
Tayası vurulu, kumu tıxılı...
Saydıqca birbəbir qəlbim sıxılır,
Bilmə ki, deyirəm yalandan, soruş!





Halakın çıxar e, itsə bir iynən,
Olarsan imandan, çıxarsan dindən...
Bir çöp götürməyib dolu evindən,
Yol boyu saçını yolandan soruş!

Taptaq altındadı qəbirstanlığım,
Qoparıb daşını, aparıb yağım.
Qaralıb ocağım, sönüb çırağım,
Dərd nədi, havasın çalandan soruş!

Dördgözlü açıram hər gecə danı,
Gedib yoxlayıram yurdu-yuvanı.
Hər gün xatırlayıb eli-obanı,
Şirin xəyallara dalandan soruş!..

*2004.*

## QİSMƏTİM OLSUN

Gözüm o dağlara calanıb, Allah,
Dumanı – qəhərim, çəni – göz yaşım!
İçimdə bir ocaq qalanıb, Allah,
Qurum dura-dura alışır yaşım!

İçimdə bir ocaq qalanıb, Allah,
Tüstüsü burulub təpəmdən çıxır.
Odu bir yanadı, közü bir yana,
Külünü qaldırıb gözümə soxur!

İçimdə bir məzar boylanır, Allah,
"Hərtiz"im, "Səngər"im başdaşlarıdı.
Kükrəyən Bərgüşad, coşan Həkəri,
O viran yurdların göz yaşlarıdı!

İçimdə bir niskil yurd salıb, Allah,
Qışı qərar tutub yazı dolanmır.
İndi yetim qalan gör neçə kəndin,
Ocağı çatılmır, çırağı yanmır!

İçimdə bir həsrət göyərib, Allah,
Bu gələn karvanım dönmədi geri.
Yuvasından pərən düşən durnanın,
Naləsi tutmadı bu göyü, yeri!

Eylə ki, qismətim qoy olsun, Allah,
Bir də o yerlərlə mən qucaqlaşım.
Eylə ki, qismətim qoy olsun, Allah,
Dərəsi – məzarım, dağı – başdaşım!!

*2005.*

## KƏNDİM

Yaman darıxmışam mən sənin üçün,
Kaş səni bircə yol görəydim, kəndim!
Gəlib viran qalan hər xarabanı,
Axan göz yaşıma düzəydim, kəndim!

Bir təpə olaydım, bir yal olaydım,
Bir cığır olaydım, bir yol olaydım,
Bir tikan olaydım, bir kol olaydım,
Kök atıb köksündə bitəydim, kəndim!

Su olub dönmədim şor bulağına,
Heç yoxsa, can verəm bir yarpağına.
Qışında löhməli qara zığına,
Yayında tozuna dönəydim, kəndim!

Bir qaya olaydım, bir daş olaydım,
Dönüb qənşərində bir qaş olaydım.
Çevrilib bir anda bir quş olaydım,
Uçub viranədən öpəydim, kəndim!

Gözlərim gəzəydi qəbirstanlığı,
Görəydim nə günə qoyubdu yağı?!
Bir ağı deyəydim – bir el sayağı,
Bir sarı sim kimi ötəydim, kəndim!

Demişəm, qəbrimi əmanət qazın:
- Öldü, Vətən deyə,- üstündə yazın.
Yad eldə giriftar qalıb Qafqazın,
Kaş ki, qucağında öləydim, kəndim,
Dönüb torpağına, itəydim, kəndim!!

*20.08.2003.*



***Mahmudlu kəndindən***





# YAVƏR HƏSƏN



*Yavər Həsən 1960-cı ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olub.*

*1988-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirib.*

## YURD DAĞLARI

Eli köçüb, viran qalıb obaları,
20 ildi tüstülənmir sobaları,
20 ildi dərd qaynadır samovarı,
20 ildi buludludu səmaları,
20 ildi o dağlara yağış yağır.

Bulaqlara əldə kuzə gedən yoxdu,
Dağlar baxır, bilə bilmir nədən yoxdu.
20 ildi yol bağlanıb, gedən yoxdu,
20 ildi o dağlarda VƏTƏN yoxdu,
20 ildi o dağlara yağış yağır.

Harayına yetə bilmir bir kimsəsi,
Laləsində, nərgizində qan ləkəsi,
20 ildi o dağlar bir dərd ölkəsi,
20 ildi yumulubdu bənövşəsi,
20 ildi o dağlara yağış yağır.

Bir yaralı ahu gəzir o dağlarda,
Şəhidlərin ruhu gəzir o dağlarda,
Gördüyümüz yuxu gəzir o dağlarda,
20 ildi qorxu gəzir o dağlarda,
20 ildi o YURD yeri qalıb darda,
20 ildi o dağlara yağış yağır.

## ŞƏHİDİM

*Cəngavər döyüşçü, ŞƏHİD Hüseynov Balakişi
Rəhman oğlunun unudulmaz xatirəsinə*

Ey verən qan ilə torpağa təravət, şəhidim!
Ey yazan alnına Haqq ilə şərafət, şəhidim!

Ey şirin canını Azadlığa qurban edənim,
Ey seçib Həqq yolunu Tanrıya qahmar gedənim,
Qəbrinin qənşərində heykəl olub canü-tənim,
Ruhumu dondurubdur əmri-fərağət, şəhidim!

Gözlərindən yaranan lalələrə qan çilənir,
Lalələrdən hər üfüq qoynuna bir dan çilənir.
İsmini zikr edirəm, dildə qürur qönçələnir,
Boz külümdən közərir şanlı şərarət, şəhidim!

Hər izin, hər cığırın Haqqa gedən yoldu sənin,
Ömrünün hər bir anı məna ilə doldu sənin,
Ömrün aləmdə əbədiyyət evi buldu sənin,
Dəhrdə hər bir izin oldu bir ayət, şəhidim!

Şərqə doğru dönəcək gün gələcək Qərbin üzü,
Sülh önündə qızarıb tər tökəcək hərbin üzü.
Keçdiyin hər yolu, hər bir çığırı, hər bir izi
Hər qədəm eyləyəcək gündə qiraət, şəhidim!

Tanrı pürnur elədi sevda ilə batinini,
Haqqı sevdin və unutdun zamanın batilini,
Hər iki dünya tutacaqdır əziz xatirini,
Tanrı vermiş Özü bu ömrə bəraət, şəhidim!

Gör necə sevgi ilə lalələyib qan səni,
Zülmət içrə görürəm, ey şəhidim, dan səni.
Gördü mərd, seçdi adamlar sırasından, səni
Elədi Nur yoluna Tanrı hidayət, şəhidim!





Tən özü bir libasdır əmr ilə ruha geyilən,
Bir qürur heykəlidir sidq ilə Haqqa əyilən.
Kim bilirsə nə olan şeydi şəhidlik deyilən,
Qəbrini eyləyəcək gündə ziyarət, şəhidim!

Sən qızıl dan yerisən, Taleyinə yaddı qürub,
Ömrünə lütf eləyib, Tanrı bəqa möhrü vurub.
Ruhunun şəninə Quranı mələklər oturub,
Eyləyir şamü səhər Göydə tilavət, şəhidim!

Ömrünün hər nə qədər yarpağı olmuşsa xəzəl,
Ömrünə bir o qədər güllər açılmaqda gözəl.
Haqqın izniylə o məhşər günü gəlməzdən əzəl
Sənə məhbubi-Xuda verdi şəfaət, şəhidim!

Fanidən oldun azad, baqidə köşkün əbədi,
Ölmədin, bir əbədi aləmə köçdün əbədi.
Sən ölümdən həyata bir qapı açdın əbədi,
Sənə aləmlər içrə ölüm nə darəd, şəhidim!

Təndən azad elədin sidq ilə ruhun quşunu,
Uçdu ruhun quşu, ünvan elədi Həq tuşunu.
Şəninə himn oxudu Göydə mələklər qoşunu,
"La şəhid illa şəhid!" oldu nəqarət, şəhidim!

## AY ELLƏR

Bir gözüm Bərgüşad, biri Həkəri,
Ağa çayı sinəmdədir, ay ellər!
Başımda tüstü var, bilə bilmirəm,
Yanan nədir, sönən nədir, ay ellər!

Qürbətdəyəm, qürbət gəlmir xoşuma,
Üçtəpənin qarı yağır başıma.
Ha gəzirəm, Tale çıxsın qarşıma,
Necə çıxsın? – Dünəndədir, ay ellər!

Buludludu Vətənimin Göyləri,
Gədalara nökər olub bəyləri.
Bu dünyanın ən ağrılı neyləri,
Kamanları bu məndədir, ay ellər!

Sinəm bənzər arıların şanına,
Bax bu mənin şöhrətinə, şanına.
Yavər Həsən ölüb-itmiş canına,
Ağı deyən xanəndədir, ay ellər!

***

Əl變nibdi saçlarıma Üçtəpənin gümüş qarı,
Ağrılardan çat-çat olub uçmadadı can divarı,
Nalə çəkib qışqırıram, qarışdıram yuxuları, -
Qeyrət edib, uyqusundan bəlkə bu millət ayıla,
"O dağlara dönməyincə, can verməyərəm Əzrayıla!"

O dağlarda şəhidlərin qızıl qanı lalə olub,
Anaların, bacıların nəfəsləri nalə olub,
Çiçək üzlər, gül çöhrələr, aman Allah, necə solub! –
Baxmaq olmur, ürək yanır, az qalır adam bayıla,
"O dağlara dönməyincə, can verməyərəm Əzrayıla!"

Yurdum gedib, yuvam gedib, mən özümə necə gəlim?!
Dolanır bu yer üzünü kabus kimi dərd heykəlim!
Bir cavab ver, qoca tarix, yaxandadır iki əlim! –
Vətənsiz bir Adəm oğlu olubmu adam sayıla?! –
"O dağlara dönməyincə, can verməyərəm Əzrayıla!"

Qırdım əyri güzgüləri, özümü gərək tanıyam!
Özüm boyda qıpqırmızı gəzəri şəhid qanıyam!
Mən Vətənin ağrısından fışqıran SÖZ vulkanıyam,
Deməsinlər ağlım çaşıb, bənzətməsinlər zayıla,
"O dağlara dönməyincə, can verməyərəm Əzrayıla!"





## XAN RƏSULOĞLU (Siqurd)



*Əslən Qubadlı rayonunun Qarıqışlaq kəndindən olan* ***Xanoğlan Rəsul oğlu Quluyev*** *11 oktyabr 1962-ci ildə Sumqayıt şəhərində anadan olub.*

*BDU-nun filologiya fakültəsini bitirib (1990). AYB və S. Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür.*

*Səkkiz kitab müəllifidir.*

***

Bir ölüm nədir ki, o çox azdır, az,
Yaşayıb, borcumu ödəməliyəm.
Sənsiz nəfəs dərsəm, gedər, qayıtmaz,
Vətən, əməlimdə, düz əməlliyəm.

***

Məni saydığım kimi
Sayana qurban olum.
Həyatı həyat kimi,
Duyana qurban olum.

Ürək gülsə sevincdən,
Saçıma düşərmi dən?
Səni kim sevir, Vətən,
Mən ona qurban olum!

***

Hardadı bu yurdun o boz qurdları,
Xeyrə yarımadı bazburutları.
Başının üstündən boz buludları,
Qovan, parçalayan oğlu yoxdumu?!

***

Karvan ötdü, biz dayandıq,
Yuxumuzdan gec oyandıq,
Gec oyandıq, gec də yandıq,
Günahımız dağdan ağır,
Hara gedir bəs bu cığır?

***

Sözümüz qoçaqdır, işimiz axsaq,
Hələ dərinlərə baş vurammırıq.
Dərd odur, sözü də yerə yığsaq,
Yaman ağır olur, qaldırammırıq.

***

Ruhumun beşiyi Qarabağımdır,
Yaralar bağlayan qara bagrımdır.
Ah, ötür aylarım, illərim ötür,
Sən məni şeirlə, nəğməylə dindir.
Axaram "Qarabağ şikəstəsi"nə,
İlahi duyğular zənguləsinə.

***

Boşuna öldürmür
Dərd oğulları.
Xalqı ölməsin deyə,
Ölür mərd oğulları.

***

Özgələr hay salıb, dada yetmişik,
Yadların xeyrinə ada yetmişik.
Barışıq adıyla bada getmişik,
Bizim başımıza kül ələnməli.

***

Xəlil Rza, Məmməd Araz şeirinin
Vətəndaşlıq toxumu,
Cücərdəcək elimin
İgid övladlarını.





## ASİF TALIBOĞLU



***Asif Talıb oğlu Şükürov*** *1952-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub.*

*Azrərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu (1972) və Jurnalist Sənətkarlığı kursunu (1980) bitirib.*

*Qarabağ müharibəsi veteranıdır.*

*Hazırda "Bizim Azərbaycan" qəzetinin redaktorudur.*

### QALIBDIR

Dostlar, Şeyx Mir Sədi Mirimdi mənim,
Mir Məhəmməd təkdi – birimdi mənim,
Kəbəmdi, Qibləmdi, Pirimdi mənim:
Qubadlıda din-imanım qalıbdı!

Yenə vətən dərdi bağrımı dəldi,
Mən hardan biləydim, qəfildən gəldi.
Çox da təriflədə, Bakı gözəldi,
Qubadlıda xanimanım qalıbdı!

Talıboğlu bulud kimi dolsa da,
Təbiət saçını gündə yolsa da,
Dünya özü boyda cənnət olsa da.
Qubadlıda yarı canım qalıbdı!

### BU KƏND MƏNƏ TANIŞ GƏLİR

Bir kənd gördüm heç yoxumuş,
Yayından çıxmış oxumuş,
Düşmənləri nə çoxumuş,
Bu kənd mənə tanış gəlir.

Qayalarda səsin zili,
Sanayıram ayi-ili.
Bu Müskanlı, bu Qədili,
Bu kənd mənə tanış gəlir.

Süfrə aşıb, hər yan xalı,
Meşələrdə beçə balı,
Bu Mahmudlu, bu Qayalı,
Bu kənd mənə tanış gəlir.

Ay Mahruzlu, ay Zilanlı,
Baxma mənə qanlı-qanlı.
Bu Həmzəli, bu Mərdanlı,
Bu kənd mənə tanış gəlir.

Yusifbəyli, Əfəndilər,
Görün məndən nələr dilər.
Çaytumasım gözün silər,
Bu kənd mənə tanış gəlir.

Bəzədilmiş zərli otaq,
Mollaburan, Sarıyataq,
Cəhd elə Xəndəyə çataq,
Bu kənd mənə tanış gəlir.

İrəlidə Xocik, Padar,
Qarşımızı kəsibdi qar,
Yuxarıda Başarat var,
Bu kənd mənə tanış gəlir.

Əyin ağlayır bu saat,
Nigarandır Hat, Deştahat,
Cibiklidə var bir büsat,
Bu kənd mənə tanış gəlir.

Gedək-gəzək Qaraları,
Sağalmayıb yaraları,
Kavdadıqda yaraq qarı,
Bu kənd mənə tanış gəlir.

Ta qədimdən üzü bəri,
Kim tanımır Hal-Məməri.
Xocamsaxlı gözəl pəri,
Bu kənd mənə tanış gəlir.

Yol üstündə durub Qəzyan,
Hər gün mənə deyir can-can,
Müskanlının ürəyi qan,
Bu kənd mənə tanış gəlir.

Gecə-gündüz ağlar-inlər,
Mir Sədinin yurdu Mirlər.
Hayıf sənə Dəmirçilər,
Bu kənd mənə tanış gəlir.

Dondarlıdan Göyyala çıx,
Bir gəlindi hər alaçıq,
İnsanları əliaçıq,
Bu kənd mənə tanış gəlir.

Qarağaclı, Qaracallı,
İşıqlının bağrı qanlı,
Xocahanda gedək yallı,
Bu kənd mənə tanış gəlir.

Bu Xanlıqdı sağlı-sollu,
Çərəli də hamar yollu,
Bax, bu kənd də bizim Mollu,
Bu kənd mənə tanış gəlir.

Zor, Tarovlu, Ballıqaya,
Çıx qaşına, bax o taya,
Ah-naləsi qalxıb Aya,
Bu kənd mənə tanış gəlir.

Göyərciklə Göyərabas,
O dağlarda tutubdu yas,
Davudluya bir qulaq as,
Bu kənd mənə tanış gəlir.

Qubadlıya gül göndərdim,
Təzələndi köhnə dərdim,
Gödəklərdə nəfəs dərdim
Bu kənd mənə tanış gəlir.





Gedək Məlikəhmədliyə,
Əliuşağı[1] deyə-deyə,
Görək bizdən küsüb niyə,
Bu kənd mənə tanış gəlir.

Düşmən bizə gəldi hədə,
Ulaşlıda, Əbilcədə,
Meşələrə düşüb zədə,
Bu kənd mənə tanış gəlir.

Var bu elin adı-sanı,
Bəxtiyarlı, Tatar hanı?
Göstər mənə Qilicanı.
Bu kənd mənə tanış gəlir.

Düşüb bir sağalmaz dərdə,
Qaraqoyunlu bu yerdə,
Nələr qaldı Boynakərdə,
Bu kənd mənə tanış gəlir.

Mollalının bəxti yatıb,
Qiyaslıya ünüm çatıb,
Hüseynuşağı yasa batıb,
Bu kənd mənə tanış gəlir.

Şurnuxudan yoxdu soraq,
Eyvazlını yandırıb-yax...
Talıboğlu, gəl yaxşı bax,
Bu kənd mənə tanış gəlir.



***Qaçaq Nəbinin doğulduğu Aşağı Mollu kəndi***

[1] –Əliquluuşağı kəndi nəzərdə tutulur

# MİRZƏ MEHDİ



*Mirzə Mehdi oğlu Məhərrəmov* *1940-cı ilin yanvar ayının 11-də Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdur.*

*APİ-ni bitirmiş, qırx il müəllim işləmişdir.*

*Hazırda təqaüddədir. AYB-in və S. Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür. Dörd kitab müəllifidir.*

## QUBADLIM

Doğma diyar, dolanaram başına,
Qurban olum torpağına daşına,
Mən bilirəm, nələr gəldi başına.

Ana torpaq gör kimlərə qalıbdı,
Övladların pərən-pərən olubdu,
Ölən ölüb, qalanlar da solubdu.

Bir çıxaydım dağlarının belinə,
Qarışaydım dağdan axan selinə,
Bir baxaydın çəməninə gülünə.

Bərgüşadın gecə-gündüz çağlayı
Həkəri də sızın-sızın ağlayır,
Bu sızıltı ürəyimi dağlayır.

Səngər dağın, Vəli düzün gözəl
Payız gəlib, meşələrin xəzəldi,
Hansı oğlu belə dərdə dözərdi?

Ana vətən, qəm əkib, dərd biçirə
Səndən ayrı gör bir nələr çəkirə
Yuxularda Həkərini keçirəm.

Nə olaydı, bir də səni görəydi,
Mirzə Mehdi Həkəridə üzəydi,
Öləndə də qucağında öləydi!..

## YURD BAYATILARI

*Bağları,*
*Güneydə nar bağları.*
*Dəhnəni bas, su gəlsin,*
*Yandı Saray bağları.*

*Qaralar,*
*Dağlar başın qar alar.*
*Sən döyüşə atılsan,*
*«Hay»ın günü qaralar.*

*Xallava, ay Xallava,*
*Sərin su, təmiz hava.*
*Deyirəm, yer üzündə,*
*Olmayaydı kaş dava.*

*Qayalı,*
*Sürülər aşdı yalı.*
*Nənələr yun əyirə,*
*Qızlar toxuya xalı.*

*Əyinə,*
*Gəlin gedək Əyinə.*
*Görüm qarı düşməni,*
*Qanlı köynək geyinə*





# ƏDALƏT ƏSƏDOV



*Ədalət İxtiyar oğlu Əsədov* *1959-cu ildə Qubadlı rayonunun Göyyal kəndində anadan olmuşdur.*

*APİ-nin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1977-1981). Həmin ildən fasiləsiz olaraq hal-hazıra kimi Fərcan kənd tam orta məktəbində dil-ədəbiyyat müəllimi işləyir.*

*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb.*

*"Linqvistik düşüncəlr" elmi kitabının müəllifidir. TQDK tərəfindən hazırlanan "Orfoqrafiya – orfoepiya lüğəti"nin həmmüəlliflərindəndir.*

*2011-ci ildə "Tərəqqi" medalına layiq görülmüşdür.*

*Elmi, metodiki, publisistik yazıları ilə dövri mətbuatda çıxış edir.*

## CAN, AY QUBADLI!..

İnsan doğmasına, simsarına «can» deyir. Sən mənim ən doğmam, ən simsarımsan. Səndə böyümüşəm, ömrümün 34 ili səndə keçib. Nə görmüşəm, səndə görmüşəm. 20 ildir ki, sənsizəm. Səni tez-tez yuxularımda görürəm. Can, ay Qubadlı!..

Saf təbiətin vardı, suyun təmiz, adamların zəhmətkeş, vüqarlı, etibarlı. Qıvrıl-qıvrıl axan Bərguşadın, Həkərinin, Ağaçayının laylasını, zümzüməsini nə vaxtdandır, eşitmirəm. Təmiz suların vardı. Suyun gözəlliyi onun dişgöynətməsində yox, saflığındadır. Oüz deyilən ərazidə böyük biçənəyimiz vardı. Əmiuşaqları ilə cəm olub kərənti ilə biçənəyi biçərdik. Kərəntilərin qıjıltısı, bəhsəbəs, arxaya baxanda qoyduğum vərlər adamı həvəsləndirərdi. Ağır iş olduğu üçün, çox enerji xərclədiyimiz üçün bərk tərlərdik. Yaxınlıqdakı Ağ quyu bulağından tez-tez səhənglə su daşıtdırardıq. Çoxumuz kiçik səhəngi başımıza çəkər, onu yarılardıq. Tərli olsaq da, o su bizə dəyməzdi, səsimiz kallaşmaz, xəstələnməzdik. Can, ay Qubadlı!..

Kəndçim Mikayıl Bahar uzun illər Türkiyədə, Amerikada yaşamışdı. Rəhmətlik 92-ci ildə kəndimizə gəlmişdi. Olub-keçənlərə güzgü tutduq. Dedi ki, çox yerlər gəzmişəm. Hər yerdə dağdağan görməmişəm. Kəndimizdə çox, həm də qollu-budaqlı, tarixlər görmüş dağdağanlar vardı. Qonşu kəndlərimizdə də bol idi belə dağdağanlar. Dağ dağıdan, aclıq illərində camaatımızı ölməyə qoymayan dağdağanlar. Sonralar Azərbaycanımızın bir çox yerlərini gəzdim, amma belə dağdağanlar görmədim. Can, ay Qubadlı!..

Kişilərini ər kimi, qadınlarını namuslu, sədaqətli gördüm. Yaşlı kişiləri xatırlayıram. Əksəriyyəti diplomsuz idi, ali təhsilliləri barmaqla sayılası qədər idi. Amma təcrübəli, dünyagörmüş idilər. Eşitmədim ki, kimsə yad adamın yanında qadınının adını çəksin. Müraciət zamanı deyərdilər: «Ay bizim qarı», «Ay uşaqların anası», «Ay filankəsin qızı». Can, ay Qubadlı!..

Yer-yurd adları körpəlikdən qulağımızın öyrəşdiyi, əcdadlarımızın nişanəsi, tarixin ləpirləridir. Qubadlının kəndlərindəki adlar daha çox millidir, qədimliklərə boylanır. Tayfa-etnos adları bu torpağın türk torpağı olduğunu bəlirləyən tutarqalardır. Xələc, Tatar, Qaraqoyunlu, Ulaşlı, Padar, Gödəklər, Dəmirçilər,.. Kənd adlarının əksəriyyətinin milli "–lı" şəkilçisi ilə bitməsi də yuxarıdakı ifadəmi təsdiqləyir: Muradxanlı, Gurcülü, Qayalı, Mahmudlu, Xocamsaxlı, Çərəli, Mollalı, Müskanlı, Dondarlı, Çibikli, Milanlı, Mərdanlı, Alyanlı… Can, ay Qubadlı!..

El-oba dar gündə, çətin anlarda sınanar. Bu eldə kollektivçilik, birlik güclü idi. Birisi ev tikər, bacaran əl atır, qulpundan çıxanı gətirir. Birisinin malını qurd parçalayır, alışma olur. Birisinin heyvanı ölüb, ona damazlıq bağışlanır. Biri xalça toxuyur, qız-gəlin cəm olur. Biri xeyir üçün yorğan-döşək sırıyır, qohum-qonşu kömək edir. «İşləməyə də kömək, yeməyə də kömək» deyimi bizlərdə əməli iş nümunəsi idi. Can, ay Qubadlı!..

Ən yaxşı toyları Qubadlıda görmüşəm. Toyda ilk hava çalıncaq yerləri uşaqlar tutardı. Yavaş-yavaş böyüklər toya gələr, kiçiklər ayağa durardılar. Nənələr yaşlı kişiləri görcək yaşmaqlanardı. Toyda hər kəsin öz havası vardı. Tək-tük havalar təkrarlanardı. Qız-gəlinlər rəqs edərkən əlləri çiyinlərindən yuxarı qalxmazdı. Can, ay Qubadlı!..





Yurdum ekzotikalar məkanı idi. Su dəyirmanları vardı. Yadımdadır, nənəmlə uşaqkən Zor kəndinə dəyirmana taxıl aparmışdıq. Növbə olduğundan səhəri dirigözlü açdıq. Nənəm üyüdülən taxıldan fətir bişirdi. İndi də dadı damağımdadır. Bəlkə də, belə tamlı çörək yeməmişəm. Bilənlər bilir ki, su dəyirmanının unundan hazırlanan çörəyin tamı gözəl olur. Can, ay Qubadlı!..

Əyilmək həm pis, həm də yaxşı xüsusiyyətdir. Baxır harda! Dəyirmanlarımızın qapısı alçaq olduğundan içəri girən mütləq əyilərdi. Bunu düzəldənə eşq olsun! Ruzinin, bərəkətin qarşısında baş əymək, əyilmək ucalıqdır. Kəndimizdə bulaqlar çox idi. Bulaq başında əyilib su içməyin özgə ləzzəti var. Gözəlliyin qarşısında əyilmək səcdə etməkdir. Can, ay Qubadlı!..

Uzun qış gecələrində qohum-qonşu bir-birinin evinə gedər, söhbətləşər, bununla gecənin ömrünü qısaldardı. Bu zaman evlərin zəngi olmayan həyətlərdə gedən şəxs öskürər, ya da ayağını yerə çırpar, guya ayaq təmizləyir, əslində evdə qız-gəlin olduğu üçün bu bir xəbərdarlıq idi ki, içəridəkilər özünü yığışdırsın. Əsl əxlaq! Can, ay Qubadlı!..

Vətən təkcə yaşayış yeri deyil. O həm də əcdadlarımızın görgah yeridir, məzar məkanıdır. Qubadlıda işğala qədər 30 min əhali yaşayıb. Bu, torpağın üzərindəkilərin sayıdır. Bəs torpağın altındakılar? Sayları bilinmir, çoxdur. Onlar bizim əcdadlarımızdır. Ulularımızı əziz günlərdə yad edə bilmirik, qəbirlərinin yanında durub anmağı bacarmırıq. Can, ay Qubadlı!..

Biz təkcə torpaq itirməmişik. Əsirlikdə nə qədər sözlərimiz qalıb. Tütünçülüklə, üzümçülüklə, arıçılıqla, heyvandarlıqda, əkinçiliklə bağlı. O sözlərin hər biri tarixə güzgü tuta bilərdi. Can, ay Qubadlı!..

Gör sənə nə qədər can demişəm. Hələ yüz dəfə desəm, azdır. Bu, minnət deyil, borcdur. Sən cana layiqsən. Sonda sənə, həm də «salam», «xoş gördük» deyirəm. Gedənlərin qayıtmağı olur. İnşallah, sənə dönəcəyik. Düzdür, o zaman yanında boynumuz bükük, dilimiz qısa olacaqdır. Çünki səni yağı tapdağında çox qoyduq!

## TALIB ƏZİZOV



*Talıb Salman oğlu Əzizov* *30 may 1931-ci ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*
*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdı. 30 may 2006-cı ildə doğma yurd həsrəti ilə dünyasını dəyişib. Ruhu şad olsun!*

### BAYATILAR

Yazı budur,
Baharı, yazı budur.
Mən bunu kimdən bilim,
Alnımda yazı budur.

Gün keçir pərdə-pərdə,
Qatlaşıram hər dərdə.
Yurdum-yuvam dağılıb,
Qalmışam quru yerdə.

Bostan əkili qaldı,
Çəpər çəkili qaldı.
Çox diləklər eylədim,
O da tökülü qaldı.

Qəribəm, vətənim yox,
Yolumdan ötənim yox.
Düşdüm qəm dəryasına,
Qolumdan tutanım yox.

Qoy məni el götürsün,
El yusun, el götürsün.
Oğul qəbrimi qazsın,
Çiynınə bel götürsün.

*30.X.1993*

### A KƏNDİM

Yola çıxdım, yollarını,
Deyib, a kəndim, a kəndim.
Ömrümü anama qurban,
Deyib, a kəndim, a kəndim!

Bu dünyanın qəmi-dərdi,
Sinəmdə söz-söz göyərdi.
Namərd həyat gördüm mərdi,
Əyib, a kəndim, a kəndim!

Könlümü verib dözümə,
Düz baxdım haqqın üzünə.
Ancaq gülləsi özümə,
Dəyib, a kəndim, a kəndim!

Gəzib axşam-səhər məni,
Tapdı qəmlə qəhər məni.
Gün-gün, ay-ay şəhər məni,
Yeyib, a kəndim, a kəndim!

Nə yollarım düşdü yönə,
Nə Talıb çıxdı ağ günə.
Sənsiz keçən ömrə-günə,
Heyf, a kəndim, a kəndim!

*30.V.1994*





## AKİF AMAL



*Akif Əlif oğlu Bayramov* *1957-ci ildə Qubadlı rayonunun Zor kəndində anadan olub.*
*Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Tibb Universitetini) bitirib (1980).*
*Hazırda Sumqayıt şəhər Gigiyena və Epidemiologiya Mərkəzində şöbə müdiri vəzifəsində işləyir.*
*Qarabağ müharibəsi veteranıdır. Altı kitab müəllifidir.*

### ÖLÜM QALIB QUBADLIDA

Nalə çəkən bir bülbüləm,
Gülüm qalıb Qubadlıda.
Suya təşnə bir sünbüləm,
Çölüm qalıb Qubadlıda.

Gördüyünü göz tutmayır,
Dilim şirin söz tutmayır.
Çatdığım od köz tutmayır,
Külüm qalıb Qubadlıda.

Görüb solan yanağımı,
Yollar çəkir ayağımı.
Dərd dindirir dodağımı,
Dilim qalıb Qubadlıda.

Qəmdir - içimdə dillənən,
Qandır - gözümdə göllənən.
Qollarımdır - boş yellənən,
Əlim qalıb Qubadlıda.

Gələn də yox, bir hal sorum,
Bilən də yox, bir yol sorum.
Necə qalxım, necə durum?
Belim qalıb Qubadlı

Yurdum üçün bir xəstəyəm,
Neçə ildir yan üstəyəm.
Tanrı görür can üstəyəm,
Ölüm qalıb Qubadlıda.

Vətən! Səndən sənə dönüm,
Torpağında daşa çönüm.
Akif, ən xoş ömrüm, günüm,
İlim qalıb Qubadlıda.

*03.04.1998.*

## VƏTƏN DƏRDİ ÜRƏYİMDƏ OXDU, OY...

Doğma yurdum yada düşdü bu gecə,
Ürəyimdən qara qanlar axdı, oy...
Kədər dolu baxışlarla ah, necə,
Gül-çiçəklər gözlərimə baxdı, oy..

Gözüm görən hər şey durdu qəsdimə,
Bu yer, bu göy kor oldular tüstümə...
Düzlər gəldi gözüyaşlı üstümə-
Dərdli dağlar sinəm üstə çixdı, oy...

Gördüm kəndə gedən yolda iz itib,
Cığırlarda qanqal qalxıb, kol bitib.
Bağçalarda gül üstündə sar ötüb-
Bülbüllərin dərdi məni sıxdı, oy....

Gördüm itib kəndin bütün naxışı,
Yurda yağıb yiyəsizlik yağışı..
Əsir gedən qız-gəlinin baxışı
Sinəm üstə çalın-çarpaz dağdı, oy...





...Akif, qəmin qollarını bükərdim,
Yüz kədəri kirpiyimlə sökərdim.
Hər bir dərdə sinə gərib çəkərdim-
Vətən dərdi ürəyimdə oxdur, oy...

*04.01.2002*

## ORDA BİR KƏND DURUR...

Orda bir kənd durur... Mənim vətənim,
Dünənim, keçmişim, keçib ötənim...
Daha yox hayına çatıb yetənim,
Uğrunda can verib, ölüb, itənim...

Orda bir kənd durur... Eyvansız, damsız,
İşıqsız, ocaqsiz, çıraqsiz, şamsız...
Tonqalsız, tüstüsüz, qoxusuz, tamsız,
Yaşayır yiyəsiz, durur adamsız...

Orda bir kənd durur... Uşaqlıq çağım,
Sinəmə çal-çarpaz çəkilən dağım,
Talanmış bostanım, sovrulmuş tağım,
Naxırsız, sürüsüz, çobansız dağım...

Orda bir kənd durur... Gənclik illərim,
Quruyan çaylarım,... susan sellərim,
Saralan çəmənim,... Solan güllərim,
Daş üstə son izi qalan əllərim....

Orda bir kənd durur.... Kədərli qəmli,
Baxışı qüssəli, gözləri nəmli,
Yanıb için-için inləyir bəmli,
Dərddən düşüncəsi düşübdür dəmli...

Orda bir kənd durur... Beli bükülmüş,
Başından basılmış, dizi çökülmüş,
Divarı uçulmuş, daşı sökülmüş...
Tavanı dağılmış, damı tökülmüş ...

Orda bir kənd durur... Əzgin, yorulmuş,
Yollara baxmaqdan gözü qaralmış,
Ümidi üzülmüş, səbri daralmış,
Gələni, gedəni itib, sovrulmuş...

Orda bir kənd durur... Yox bir gələni,
Nə soraq verəni, xəbər biləni...
Yox bir doğulanı, yox bir öləni,
Nə bir ağlayanı, nə bir güləni....

Orda bir kənd durur... Vətənim mənim,
Çatmır harayına harayım, ünüm...
Dağ boyda bir dərddir hər ötən günüm,
Qara saçlarıma ələnir dənim...
Yağır sinəm üstə çisginim, çənim...

*16.11.2004*



***Tənha leylək***





## MÜRVƏT QƏDİMOĞLU HƏKƏRİ



***Mürvət Qədim oğlu Məmmədli*** *1952-ci ilin may ayının 31-də Qubadlı rayonunun Zilanlı kəndində anadan olmuşdur.*
*Bakı Plan-Uçot Texnikumunu, Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) tarix fakültəsini bitirmişdir.*
*On iki kitabı çap edilmiş, AYB-nin, AJB-nin üzvü, "Araz", "Əhməd Xani", "Vətən övladı", "İlin nüfuzlu ziyalısı", "Qızıl qələm" və s. ali ədəbi mediya mükafatları laureatıdır.*

### QURBAN OLUM ELİMƏ

Sənətkarı el yaşadır - deyirlər,
Ömrüm-günüm qurban olsun eliмə.
Elim olub ilhamımın anası,
İlk gündən ki qələm aldım əlimə.

Çox gəzmişəm, bəlkə, dünya yarıdı,
Nə yarıdım - torpağımda yarıdım.
Saçımdakı Səngərimin qarıdır,
Həsrət çəkib əllərini telimə...

Səcdəgahım, qibləgahım Qubadlı,
İlk inamım, son pənahım Qubadlı,
Qəlb nisgilim, ürək ahım Qubadlı,
Ayrılığın məni salıb zülümə.

Qədimoğlu, qəlbdə qəmdi, qəhərdi,
Səhərlərim – elsiz solğun səhərdi.
Eldən ayrı yediklərim zəhərdi –
Harda, nə vaxt nə dəyibsə dilimə!

## QALIB

Düşübdür izimə qəm buralarda,
Gəzərəm gözləri nəm buralarda.
Allah, nə gəzirəm mən buralarda,
Burda nə al-verim – bazarım qalıb?

İlan, əqrəb salıb iz güllüyümdə,
Ölüb qalmalıydım öz küllüyümdə.
Axı Günəşlinin boz çöllüyündə
Mənim hansı dərdim, azarım qalıb?

Mənim o yerlərdə elim, elatım,
Meyli muğamatım, ahlı bayatım.
Toy-bayramda keçən ömrüm, həyatım,
Barlı bağ-bağatım, gülzarım qalıb.

Yurd həsrəti məni etsə də xəstə,
Öpərəm daşından lap son nəfəsdə.
Orda gözü yolda, qulağı səsdə
Bir ata ünvanlı məzarım qalıb!

Mürvətəm, ömür-gün bilmərəm elsiz,
Günüm xoş keçsə də gülmərəm elsiz.
Yüz əzrail gələ, ölmərəm elsiz,
Hələ o dağlara güzarım qalıb...

## ATA YURDU

Sənsiz darıxıram, ay ata yurdum,
Üzü payızadır ömür karvanım.
Qıjılı bulaqdan içsəm bir udum,
Bir ömür güc alar inan ki, canım.

Uçub qanadında xoş arzuların,
Səndən uzaq düşdüm, başına dönüm.
O sökük hasarın, uçuq divarın
Bir gün gələcəyəm daşına dönüm...

Keçsə də həyatım yazda, baharda,
Sənsiz keçən günüm ömür-gün deyil.
Gəzsəm də dünyanı, olsam da harda,
Öləndə qoynuna gələcəyəm, bil!





## APAR MƏNİ QUBADLIYA

*Sərhəd qoşunlarında xidmət edən oğlumun andiçmə mərasimində iştrak edən zaman məni fikirli görən bir hərbçi zabit yaxınlaşıb:- "Müəllim, niyə fikirlisiniz, sizə nə qulluq edim?" – dedi. Ona cavabım belə oldu:*

Vətən oğlu, gözü yoldadı Şuşam,
İllərdi əl-qolu bağlı qalmışam.
O elsiz-obasız qanadsız quşam,
Apar məni Qubadlıya!

Burda yaşamağım çətindir, çətin,
Köləsi olmuşam dərdin, zillətin,
Qoy mənə bu olsun ancaq hörmətin
Apar məni Qubadlıya!

Yamanca uzandı bu haqsız savaş,
Qırx arşın quyuya atılıb bu daş.
Heç nə istəmirəm, vallah, a qardaş,
Apar məni Qubadlıya!

"Şeş qoşa" - ya qarşı "yek" verdi nərdim,
Yaman susqun düşüb igidim, mərdim.
Vətəndə qəribəm – bax, budur dərdim,
Apar məni Qubadlıya!

Burda dəfn olunan qaçqın anam da,
Yaman qoyub məni təhniz – qınamda.
Rahat buraxmayır məni röyamda:
"Apar məni Qubadlıya!"

Könlümdə gül-çiçək açılsın deyə,
Üstümə nur-şəfəq saçılsın deyə,
Donmuşam, qırışım açılsın deyə,
Apar məni Qubadlıya!

Sönmüş od-ocağı qalamaq üçün,
O daşı-divarı yalamaq üçün,
Qurd olub o yurdda ulamaq üçün,
Apar məni Qubadlıya!

Mən Çinə, Dubaya özüm gedərəm,
Həccə, Kərbəlaya özüm gedərəm,
Lap Günəşə, Aya özüm gedərəm,
Apar məni Qubadlıya!

Qeyrət səngərində yarışmaq üçün,
O küskün ruhlarla barışmaq üçün,
Ölüb o torpağa qarışmaq üçün,
Apar məni Qubadlıya!

Vətən oğlu, budur son sözüm sənə,
Qoyma ki, bu ocaq sozala, sönə.
Sultan bəy eşqinə, Nəbi xatrinə,
Apar məni Qubadlıya!
Apar məni Qubadlıya!

## QARALMIŞ OCAQ

*(qardaşım Vilayətə)*

Eşit atam oğlu, eşit bu səsi,
Babamızdan qalıb o ocaq bizə.
İndi ocağının sönük düşməsi,
Əbədi ləkədir qeyrətimizə.

O hasarın, evin uçuq daşları
Yenə hörülməyə səni gözləyir.
Xiffətdən saralan ocaq daşları
Geri dönəcəyin günü gözləyir.

Sən geri dönməsən, sönük çırağı
Kimlər yandıracaq, kimlər indi bəs?
Kişiyə ləkədir dönük çıxmağı,
Kişi od yandırar, ocaq söndürməz!

Qayıt yad gözünə dağ basa – basa,
Qayıt ocağına sən gülə - gülə.
Yurdun ocağından tüstü çıxırsa,
Deməli bir nəsil yaşayır hələ.

Düşmən himə bənddir, girəvə güdür,
Yatmış inamını ayılt, inandır.
Bir ocaq sönəndə bir nəsil itir,
Qayıt o qaralmış ocağı yandır.





# FİRDOVSİ CƏFƏRXAN



***Firdovsi Cəfərxan oğlu Kazımov*** *1955-ci ilin mart ayında Qubadlı rayonunun Yuxarı Mollu kəndində anadan olmuşdur.*
*Krasnodar Politexnik İnstitutunun Texnologiya və Dərbənd Humanitar İnstitutunun filologiya fakültələrini bitirmişdir.*

*Müxtəlif vəzifələrdə çalışmışdır. Hazırda «Yeganə yol» qəzetinin təsisçisi və baş redaktoru, Azərbaycan Sosial Rifah Partiyasının Sumqayıt Təşkilatının sədri, Azərbaycan Mübariz Müharibə Veteranları Birliyinin sədr müavini, Azərbaycan Korrupsiyaya Qarşı Mübarizə Fondunun Sumqayıt Regional Nümayəndəliyinin rəhbəridir.*

*Yeddi kitabı işıq üzü görmüşdür. Bir çox şeirlərinə musiqi bəstələnmişdir. AJB-nin üzvüdür, «Qızıl Qələm», «İti qələm», «Vicdanlı qələm», Nizami Gəncəvi adına «Bəşəri Sərvət» və bir çox başqa mükafatlara layiq görülmüşdür.*

## QALX AYAĞA, AZƏRBAYCAN ÖVLADI

Qürurumuz, təpərimiz de, hanı?
Yerdə qalıb neçə şəhidin qanı.
Sipər edib düşmənə şirin canı,
Qalx ayağa, Azərbaycan övladı!

Qoç Nəbidən dərs almadıq niyə biz?
Dirənib boğaza Vətən dərdimiz,
Daha bəsdir, tükənibdir səbrimiz,
Qalx ayağa, Azərbaycan övladı!

İstər düşməninlə üz-üzə dayan,
Qatlayıb dizini diz-dizə dayan,
İstərsə, ölümlə göz-gözə dayan,
Qalx ayağa, Azərbaycan övladı!

Cəngi çaldır, cuşa gəlsin ərənlər,
Qorxusundan muma dönsün görənlər,
Qoy dərs alsın sinəsini gərənlər,
Qalx ayağa, Azərbaycan övladı!

Xalq gözləyir, deyəsən son sözünü,
Düşməninin çıxarasan gözünü,
Bu savaşda göstər bir də özünü,
Qalx ayağa, Azərbaycan övladı!

Cihada qalx, bu gün beyət günüdü,
Bugünkü gün Türkün niyyət günüdü,
Yetər artıq, namus, qeyrət günüdü,
Qalx ayağa, Azərbaycan övladı!

## "ÜÇ QARDAŞ"I ZIYARƏTƏ GƏLƏN YOX

And yeriydi Qoç Nəbiylə Həcərin,
Əhdi-peyman yeriydi hər sevənin.
Şahidiydik o sevimli günlərin,
Ömür ötdü, o çağlara dönən yox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Yaşayırdıq dost yanında üzüağ,
Süfrəmizdə pendir, lavaş, kərə yağ,
Dolu idi nemətlərlə bağça, bağ,
O günləri xatırlayıb, gülən çox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

«Üç qardaş»a söykəyərək o belin,
«Kortzan» da yurd yeriydi bir elin,
Yatağında coşub-daşan bir selin,
Qəriblikdə belləri əyilən çox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Qız-gəlinlər axşamdan un ələrdi,
Niyyət edib, hər biri kövrələrdi,
Halva çalıb, ziyarətə gələrdi,
Arzuları həqiqətlə bölən yox,
«Üç qardaş»ı ziyarətə gələn yox.





Heydi baba hərdən tikan qırardı,
Tikanlar da üst-başını cırardı,
«Üç qardaş»a üz tutub çağırardı:
-Kimsəsizəm, bir dərdimi bilən yox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Seyid Həsən zənguləsi, sədası,
Köhləninin şux yerişi, ədası,
Coşdurardı onu gənclik sevdası,
O mahalda onu candan sevən çox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Neçə insan dolanardı başına,
Baş qoyardı bircə-bircə daşına,
Qərq eyləyib gözlərinin yaşına,
O yerlərə nə vaxtdı bir gedən yox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Dağıdıldı neçə-neçə pirimiz,
İnciyibdi Mirsədimiz, Mirimiz,
Yanıb-yanıb sovrulubdu külümüz,
Müqəddəslər üçün daha ölən yox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Cəbrayıl bəy, gorun çatlayır indi,
Bizi nə danışdır, nə də ki, dindi!
Axı bu dığalar, erməni kimdi,
Onlara bir cavab verən ərən yox?
«Üç qardaş»ı ziyarətə gələn yox.

Vardır hər zülümün həddi, ölçüsü,
Ya Rəbb, qırılmasın ümid körpüsü!
Bir daha dönməsin taleyin üzü,
Dərd içində sinəsini dələn çox,
«Üç qardaş»ı ziyarətə gələn yox.

Ürəkləri sevgi, sözlə dolular,
Kədəri bir, sevinci bir yollular,
Ey Aşağı, ey Yuxarı Mollular,
Siz söyləyin, neçin geri dönən yox?
«Üç qardaş»ı ziyarətə gələn yox.

## GƏLİN GEDƏK QUBADLIYA

Qoç Nəbinin oylağına,
Mir Sədinin ocağına,
Ərənlərin yaylağına,
Gəlin gedək Qubadlıya!

Dolub-daşan dağ selidi,
Bir az küskün, gileylidi,
Dədə Süleyman elidi,
Gəlin gedək Qubadlıya!

Elim olub ağsaqqallı,
Kamran dayı şöhrət-şanlı,
O bir peyğəmbər timsallı,
Gəlin gedək Qubadlıya!

Əli Qaroğlu hardadı?
Axı Qubadlı dardadı!
Ağlar gözləri yoldadı,
Gəlin gedək Qubadlıya!

Bir anlığa, dünya, dayan!
Ildırımtək şaqqıldayan,
Bahadur pəhləvan, oyan!
Gəlin gedək Qubadlıya!

Mir Sədiyə qonaq olaq,
Ocağından biz nur alaq,
Keçənləri yada salaq,
Gəlin gedək Qubadlıya!

Əlyar elin igid oğlu,
Hər igidi Qoç Koroğlu,
Hər birisi dəli-dolu,
Gəlin gedək Qubadlıya!

Sinəmizdə həsrət izi,
Duman bürüyüb Hərtizi,
Nə vaxtdı gözləyir bizi,
Gəlin gedək Qubadlıya!

Həkəriyə bir baş vuraq,
Əlimizlə balıq tutaq,
Çır-çırpıdan tonqal quraq,
Gəlin gedək Qubadlıya!

Atlanıb, minib Boz ata,
(Yalmanına yata-yata),
Gedib çıxaq Başarata,
Gəlin gedək Qubadlıya!

Qonaq olaq Müskanlıya,
Ordan ötək Qayalıya,
Axşam enək Qundanlıya,
Gəlin gedək Qubadlıya!

Seytasdan dön Məmmədliyə,
Tamaşa et göy zəmiyə,
Sonra qalxaq Çayzəmiyə,
Gəlin gedək Qubadlıya!

Bir cənnətdi başdan-başa,
Çal-çağırı bir tamaşa,
Gir qoynuna, ömür yaşa,
Gəlin gedək Qubadlıya!





## ELBRUS QAYALI



***Elbrus Məhərrəm oğlu Dünyamalıyev*** *1954-cü ildə Qubadlı rayonunun Qayalı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitunu bitirmişdir. Yunan – Roma güləşi üzrə idman ustasıdır.*

*Məcburi köçkün kimi Sumqayıt şəhərində məskunlaşmışdır.*

*Altı kitab müəllifidir. "Dərin zəka sahibi", "İlin vətənpərvər şairi", "Vətən sənə oğul deyir", "İlin nəğməkar şairi", "Qızıl kitab", "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "Azərbaycan bayrağı" mükafatları laureatıdır. AYB-nin üzvüdür.*

### QUBADLIM

Nəbinin səngəri necə qəmlidi,
Günbəgün çöhrəsi solan Qubadlım.
Ana-bacıların gözü nəmlidi,
Ay varı-dövləti talan Qubadlım!

Mənsiz necə keçir, payızlar, yazlar?
Kollardan bənövşə üzməyir qızlar.
Həkəri, Bərgüşad gör necə sızlar,
Gözləri yollarda qalan Qubadlım!

Ürəyimdə atəş, gözümdə nursan,
Qanımda, canımda həmişə varsan,
Bir həzin nəğməsən, kamansan, tarsan,
Könül tellərimi çalan Qubadlım!

Daha qalmayıbdır məndə də dözüm,
Tükənmir söhbətim, tükənmir sözüm,
Ulu yurd yerində odlanır közüm,
Bulud tək boşalıb dolan Qubadlım!

Yadımdan çıxmayır nə dağ, nə dərə,
Dağların zirvəsi çatır göylərə,
Yenə dönəcəyəm o doğma yerə,
Elburus da sənin balan, Qubadlım!

## QUBADLIMDAN NİGARANAM

Dağım qalıb, düzüm qalıb,
Yurd yerində izim qalıb,
Bulaqlara sözüm qalıb,
Qubadlımdan nigaranam.

Viran olmuş bağım qalıb,
Həriz kimi dağım qalıb,
Orda gənclik çağım qalıb,
Qubadlımdan nigaranam.

Göy çəmənim, çölüm qalıb,
Dərilməmiş gülüm qalıb,
Külə dönmüş elim qalıb,
Qubadlımdan nigaranam.

Şum yerində xışım qalıb,
Gözəl yayım, qışım qalıb,
Bir ümidsiz işim qalıb,
Qubadlımdan nigaranam.

Bir didərgin ömür qalıb,
Əcəl payın yemir, qalıb,
Elbrus xəyala dalıb,
Qubadlımdan nigaranam.

## QUBADLIM, AĞLAMA

Qəm-kədərdən qalmaz əsər,
Yurd qismətim olsa əgər.
Bəsdir, ayrılığın yetər,
Başına qara bağlama,
Ağlama, Qubadlım, ağlama!

Qocaldır məni qəm-kədər,
Qərib ömrüm gedir hədər.
Məni burda dəfn etsələr,
Məndən ötrü yas saxlama,
Ağlama, Qubadlım, ağlama!

Sənsiz sızlar könlüm yaman,
Əcəldən istərəm aman.
Sən də qəriblik sarıdan,
Başına qara bağlama,
Ağlama, Qubadlım, ağlama!

Taleyimə gülmə nahaq,
Vədə vaxtı düşər yarpaq.
Olsam da bir ovuc torpaq,
Bərgüşad kimi çağlama,
Ağlama, Qubadlım, ağlama!

## GƏLƏ BİLMİRƏM

Ayrı düşdüm el-obamdan,
Gülə bilmirəm, bilmirəm.
Hardan düşdü belə tale,
Selə, bilmirəm, bilmirəm.

Göy çəmənlər haray salıb,
Buludların gözü dolub.
Həriz dağım yetim qalıb,
Gülə bilmirəm, bilmirəm.

Boylanıram yurda sarı,
Bir gələn də yoxdu barı.
Xatırlayıb bulaqları,
Gülə bilmirəm, bilmirəm.

Keçəmmirəm duman-çəni,
Yurd həsrəti dağlar məni,
Qınamayın dağlar, məni,
Gələ bilmirəm, bilmirəm!





## BİLMİRƏM

Aman Allah, neçə vaxtdı vətənsiz,
Danışa bilmirəm, gülə bilmirəm.
Dərd sadiq dostumdu, ayrı düşməyir,
Yaşaya bilmirəm, ölə bilmirəm.

Həsrət qaldıq cənnət-məkan çöllərə,
Əlim yetmir incik düşən güllərə.
Baş qarışıb pərən düşən ellərə,
Gözümün yaşını silə bilmirəm.

Tamarzı qalsam da buz bulaqlara,
Yad yerdə salmaram iz bulaqlara.
Deyirlər dəyibdi göz bulaqlara,
Sonu nə olacaq, bilə bilmirəm.

Gözlərimdə məskən salan qəhərdi,
Qürbət eldə bal da yesəm, zəhərdi.
Dağ oğluyam, məni sıxan şəhərdi,
Dərdimi kimsəylə bölə bilmirəm.

## A DOĞMA KƏNDİM

Yenə gələcəyəm görüşünə mən,
Deyəcəm: "Xoş gördük, a doğma kəndim."
Yenə yarıyacam hər işinə mən,
Deyəcəm: "Xoş gördük, a doğma kəndim."

Həvəslə gəzəcəm, eli, obanı,
Özüm yandıracam, sönmüş sobanı.
Təbrik edəcəyəm qoca, cavanı,
Deyəcəm: "Xoş gördük, a doğma kəndim."

Gəlib düz çıxacam Daşlı təpəyə,
İllərlə gözləri yaşlı təpəyə.
Qartallar məskəni quşlu təpəyə,
Deyəcəm: "Xoş gördük, a doğma kəndim."

Gəzib seyr edəcəm talan kəndimi,
Həsrətdən bənizi solan kəndimi.
Kövrəlib gözləri dolan kəndimə,
Deyəcəm: "Xoş gördük, a doğma kəndim."

## MƏNASIZ TƏSƏLLİ ÇATMAZ DADIMA

Zirvəsi özündən ulu dağların,
İtibdi cığırı, yolu dağların,
Sınıbdı qanadı, qolu dağların,
Qıy vuran qartallar düşüb yadıma,
Mənasız təsəlli çatmaz dadıma!

Hamıya əzizdir Miri kəlməsi,
Əlyarın nərəsi, Həsənin səsi.
Mərhum Fəxrəddinin xan şikəstəsi,
Həkəri, Bərgüşad düşüb yadıma,
Mənasız təsəlli çatmaz dadıma!

Lilparlı bulağı, çəməni, düzü,
Aylı gecələri, şehli gündüzü,
Seyr etməyə bizim Yazının düzü,
Çiçəkli yamaclar düşüb yadıma,
Mənasız təsəlli çatmaz dadıma!

Xoşdur yurdumuzun payızı, qışı,
Bahar günlərinin kəsməz yağışı,
Qələbə xəbəri, ana alqışı,
Bir «Cəngi» havası düşüb yadıma,
Mənasız təsəlli çatmaz dadıma!

Gözəldi yurdumun aranı, dağı,
Yüz dərdə məlhəmdi nehrənin yağı.
Axşamdan sərilən südün qaymağı,
Qatığı, ayranı düşüb yadıma,
Mənasız təsəlli çatmaz dadıma!

Kəsik ağacların özündən sapı,
Uçulduq, söküldük biz qapı-qapı.
Daha Elbrusun qalmayıb tabı,
Mirini ziyarət düşüb yadıma,
Mənasız təsəlli çatmaz dadıma!





## ƏDALƏT NİCAT



*__Ədalət Haqiqət oğlu Əbdüləzimov__ 1966-cı ildə Qubadlı rayonunun Hacılı kəndində anadan olub.*
*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb.*
*Qarabağ müharibəsi veteranıdır.*
*Üç kitab müəllifidir. S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin və Sumqayıt Ə.Kərim adına Poeziya klubunun üzvüdür.*

### QUBADLI

İlahi, bu nə gün, bu nə saatdı,
Mən gecədən tutqun, gecə rahatdı.
Azmış yuxularım çox narahatdı,
Elə hey yurd gəzir gözüm, Qubadlı.

Ürək ha deyil bu, olub dərd daşı,
Ölüncə içində elə dərd daşı...
O yurd bağışlamaz biz tək yurddaşı,
Hansı üznən deyim bizim Qubadlı?

Haqqın hamımızın yükdü boynunda,
Çünki uduzmuşuq böyük oyunda,
Ölüb qalmadımsa ana qoynunda,
Deməк günahkaram özüm, Qubadlı.

Tarix bağışlamaz bu qədər kəmi,
Varmı bu yurdların kimsəsi, kimi?
Ömrün səbri yoxdu, nə vaxta kimi,
Çəkib bu zülümü, dözüm, Qubadlı?

Məni öz arzumla qoşa asdırın,
Qorxmuram tonqaldan, ütün, qarsdırın.
Demişəm öləndə elə basdırın,
Olsun sənə tərəf üzüm, Qubadlı!

## GEDƏK QUBADLIYA

Kim istərsə yurda sala yolunu,
Ana torpaq orda gözlər yolunu.
Təpər ver dizinə, çırma qolunu,
Gəl birlikdə qoyaq üz Qubadlıya.

Nə inciklik varsa qoyaq qırağa,
Bir olsaq kim batar əlçatmaz dağa.
Sarılıb, ay dostlar, birgə yarağa,
Yollanaq birbaşa düz Qubadlıya.

Hər gün gözləyirik sökülə danı,
Ömürlük o yurda qaytaraq canı.
Hər addım tökülən şəhidin qanı,
Salıbdı əbədi iz Qubadlıya.

Pisliklər düşmənin özünə qalar,
Yenidən ucalar uçan qalalar.
Gün gələr görərsən qoşa yol alar,
Ədalət Nicatla söz Qubadlıya.

## VƏTƏN

Quzeydən güneyə yetişir giley,
Təklənən bir Türkəm, köməksizəm hey...
Doğma qardaşımdan gəlməyəndə hay,
Günün göy əsgiyə bükülür, Vətən!

Türkün bədöy atı, qılıncı hanı?
Nə vaxtdı tökülmür düşmənin qanı.
Namərdtək alanda top, tüfəng canı,
Gözüm haqq evinə tikilir, Vətən.

Bizi kişi sandı doğan, əkən də,
Sahib bildi yurda, obaya, kəndə,
Hərə bir tərəfə köçün çəkəndə,
Içim sərhəddin tək sökülür, Vətən.

Iti kərəntinin düşüb vərinə,
Ümid basdırılır kökü dərinə,
Bağ-bağat yerinə, çiçək yerinə,
Şəhid məzarları əkilir, Vətən.





Daş ürəkli insan, lal deyilsən, din,
Hansı canlı qalar yurd-yuvadan gen?
Ədalət Nicatam, sinəmə hər gün,
Çalın-çarpaz dağlar çəkilir, Vətən.

## AY ELLƏR

Xan çinarım, şah palıdım əsirdi,
Xoş çağların o üzündə, ay ellər.
Yaxa verdim yavaş-yavaş dərdlərə,
Dərd əhliyəm mən özüm də, ay ellər.

Yurd-yuvadan, dağ-dərədən aralı,
Mən qəribəm, ruhum isə oralı,
Özüm, dünyam, arzularım yaralı,
Kim var axı mən dözümdə, ay ellər?!

Orda güllər toxunmağa əl istər,
Yurd yerləri yurddaşlardan gəl istər,
Dilsiz yollar danışmağa dil istər,
Selə dönüb yaş gözümdə, ay ellər.

Yaşamadım göstərişlə, əmrlə,
Duyğulandım gizlicə səs-səmirlə,
Yarı qərib, yarı doğma ömürlə,
Özüm yandım öz közümdə, ay ellər.

Nə qismətdi taleyimdən sormuşam,
Yovuşmayan ürkək ruhu yormuşam...
Gecə-gündüz Vətən deyib durmuşam
Ədalət tək öz sözümdə, ay ellər.

## ÜZÜLÜR AXI

Çox da ümüdlənmə, dədə balası,
Insan qalınlıqdan nazilir axı.
Haqlı küsüb bizdən dağlar balası.
Düşmən tapdağında əzilir axı.

Yolunu gözləyən yollar yorular,
Günəş izimizi hər gün qurular.
Gözləri yol çəkən qərib qumrular,
Hər səhər yollara düzülür axı.

Öz oğul borcunu hərdən yada sal,
O ayna bulaqlar axır səssiz, lal.
Arının sevgiylə topladığı bal,
Şandan daşıb yerə süzülür axı.

Qurtarmaz şeytanın kələk oyunu,
Dağlar geniş açıb bizə qoynunu.
Güllər yetim-yetim büküb boynunu
Çiçəklər qönçəykən büzülür axı.

İçində bir qeyrət sığan can istə,
Millətin dərdinə bir əncam istə.
Ay dədə balası, qana qan istə,
Şəhidlərin ruhu üzülür axı!

## CAN QARABAĞ

Yaralanın çox dərindi,
Qaysaq tutmaz, can, Qarabağ.
Nə desəm sənə yaraşır,
Sultan, Xaqan, Xan Qarabağ.

Bəxt-tale üzünə gülsə,
Təpər daş ürəyi dəlsə,
Ağ atlılar çapıb gəlsə,
Söküləcək dan, Qarabağ.

Qatar başı yersiz güman,
Nalə çəkər dərdli kaman.
Azad olarsan o zaman,
Tökülərsə qan, Qarabağ.

Qılınclar qınında paslı,
El qürbətdə, yurd da yaslı.
Ermənidi, rusdu, farsdı,
Hər tərəf, hər yan, Qarabağ.

İgidlik torpaqdan bitmir,
Boy-buxun da dada yetmir,
Yurd sevgisi hədər getmir,
Yaşayır hər an, Qarabağ.



***Qubadlı: Xudular kəndi – Çörək zavodu***





## USTA FƏXRƏDDİN



***Fəxrəddin Oruc oğlu Şəkərallyev*** *10 oktyabr 1969-cu ildə Qubadlı rayonunun Göyyal kəndində anadan olmuşdur.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində, sonra Ceyranbatan qəsəbəsində məskunlaşıb.*

*Qarabag muharibəsi iştirakçısıdır.*

*S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür. Dövrü mətbuatda münəzəm olaraq şeirləri dərc olunur.*

### GÖYYALIM

Ey mənim cənnət üzlü, cənnət misalli Göyyalım,
Görmədim səndən gözəl qeyri mahalı, Göyyalım.

İlahi qüdrətindən var etmişdir əla səni,
Sərmişdir çöllərinə qeybindən xalı, Göyyalım.

Düşməzdi Xıdır Nəbi abi-həyat sevdasına,
Olsaydı Turş suyundan əgər ki halı, Göyyalım.

Nigari Əfəndimiz çün seçmiş Hərtiz dağını,
O da bilmiş ki səni, əhdə vəfalı, Göyyalım.

Qəfil qara buludlar aldı ki başın üstünü,
El-oban bir-birindən düşdü aralı, Göyyalım.

Yazdırıblar adını şanlı tarix yaddaşına,
Unutma Mütəllimi, Azim, Kamalı, Göyyalım.

Fəxrəddin ümid edir, inşallah, azad edərik,
Yenə dönər qoynuna bütün goyyallı, Göyyalım!

## BURAX ÇƏKİM DƏRDİMİ

Gəl yalandan adıma bəxtəvərlik sırıma,
Təzələmə, duz töküb, mənim köhnə yarama.
Dərdimə şərik olma, kədərimə yarama,
Kiminin dərdi boldu, kiminin pul-parası,
Burax çəkim dərdimi, ay zalımın balası.

Əl boyda məmləkətə çəkildi əlli sərhəd,
Bölünüb şəhər-şəhər, parçalandıq kənbəkənd,
Göyçə, Təbriz, Borçalı, Şuşa, İrəvan, Dərbənd,
Alındı bu diyarın neçə qeyrət qalası,
Burax çəkim dərdimi, ay zalımın balası.

Bir qardaşım o tayda batmış dilin ağlayır,
Bir qardaşım bu tayda itmiş elin ağlayır,
Doğranıb tikə-tikə, dilim-dilim, ağlayır,
Ağlamağla ağarmaz üzümüzün qarası
Burax çəkim dərdimi, ay zalımın balası.

Bayquşlar məskən salıb vətən bildiyim yerdə,
Başıma od ələnər deyib-güldüyüm yerdə,
Görürsən ölürəm, qoy ölüm öldüyüm yerdə,
Nə bəxtim ağarandı, nə yaram sağalası,
Burax çəkim dərdimi, ay zalımın balası.

Yetər tikanlı sözlər, yetər kinli baxışlar,
Vallah, bizi nə Allah, nə də Vətən bağışlar,
Gəlin tutaq əl-ələ, ay bacılar, qardaşlar,
Bəlkə, onda sağala bu Vətənin yarası,
Burax çəkim dərdimi, ay zalımın balası.





## GEDƏ BİLSƏM

Qoşulub uçan quşlara,
Süzə-süzə gedə bilsəm,
Baş vurub axan sulara,
Üzə-üzə gedə bilsəm.

Aşıb aşılmaz sədləri,
Kecib qanlı sərhədləri ,
Unudub butun dərdləri,
Yerimizə gedə bilsəm.

Özüm burda, könlüm orda,
Dirim burda, ölüm orda,
Evim burda, yurdum orda,
Bizdən bizə gedə bilsəm.

Yaddı elə yad yuvası,
Yaddi yolu-yolagası.
Gedər üzümün qarası,
Kəndimizə gedə bilsəm.

## ANAM ÖLMÜŞ BİLSİN MƏNİ

Di, çəkin dar ağacına,
Asın məni, kəsin məni.
Sülənməsin ac-acına,
Atın itlər yesin məni.

Acımayın göz yaşıma,
Baxmayın dost-qardaşıma,
Vurun qılıncı başıma,
İki yerə bölsün məni.

Sinəmi etmədim sipər,
Düşmənə olmadım çəpər.
Sevdiyim o nazlı dilbər,
Nə deyibən sevsin məni.

Lap dərin bir qəbir qazın,
Adımı üstünə yazın,
Yurdsuz oğul kimə lazım,
Anam ölmüş bilsin məni.

## VƏTƏN

Nə mən sənə oğul oldum,
Nə sən mənə ana, Vətən.
Talan elin, viran yurdun,
Nə gündəsən can, a Vətən.

Böylə bir dərd yaşandımı,
Göz ağladı, qəlb yandımı?
Pozdum torpaq, daş andımı,
Qıymadım bir cana, Vətən.

Həsrət bitməz, ümid sonsuz,
Yalan donlu, iman donsuz,
Günahkaram onlu, onsuz,
Qına məni, qına, Vətən.



***Göyyal kəndindən***





## MEHDİ MÜKƏRRƏMOĞLU



***Mehdi Mükərrəm oğlu Mehdiyev*** *1952-ci il aprel ayının 15-də Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur.*

*Bakı Dövlət Universitetini bitirmişdir.*

*"Azərbaycanda incəsənət biblioqrafiyası" mövzusunda bir sıra elmi məqalələrin müəllifidir. 1975-ci ildən kino sahəsində çalışmışdır. "Kino" qəzeti və "Film" jurnalının birləşmiş redaksiyasında müxbir, məsul katib, baş redaktor vəzifələrində işləmişdir. 1992-ci ildən "Azərkinovideo" İB-nin mətbuat xidmətinə də rəhbərlik etmişdir. Eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kinoşünaslıq dərsləri aparmışdır. 2002-ci ildən "Xalq qəzeti"ndə müxbir kimi fəaliyyətini davam etdirir.*

*"Lal çinar", "Bütün bunlardan sonra" kinossenarilərinin müəllifidir. "Lal çinar" ssenarisi "Son reportaj" müsabiqəsində qalib gəlmiş və 2005-ci ildə ekranlaşdırılmışdır.*

*Altı kitab müəllifidir. "Zərdabi" mükafatına layiq görülmüşdür.*

## MƏNİ QUBADLIYA APARAN YOLLAR

Ruhumdan, qəlbimdən keçirdi bir vaxt,
Məni Qubadlıya aparan yollar.
Vətən torpağından ötürdü bir vaxt,
Məni Qubadlıya aparan yollar.

Həsrətim, sevincim, kədərim mənim,
Arazdan ötənim, Kürdən ötənim.
Bir göz qırpımında gözdən itənim -
Məni Qubadlıya aparan yollar.

Sən demə, yollar da vəfasız olur,
Sağında, solunda çiçəklər solur.
Ağlayır, sızlayır, gözləri dolur
Məni Qubadlıya aparan yollar.

Yaman tez unutdun bizləri, yaman,
Bizi sərt sınağa çəkdi bu zaman.
Çəkilər üstündən o qara duman,
Məni Qubadlıya aparan yollar.

Duman çəkiləcək, gün doğacaqdır,
Bizi bu bəladan qurtaracaqdır,
Yenə Qubadlıya aparacaqdır
Məni Qubadlıya aparan yollar.

## VƏTƏNSİZLİK

Həkim qardaş, sənlik deyil bu dərdim,
Ümidim var, olmasaydı ölərdim.
Dərd qananam, dərdin olsa bilərdim,
Mənim dərdim təkcə Vətən dərdidir.

Yazıq Vətən bizə ümid bəsləyir,
Qərib yollar yolumuzu gözləyir,
Qarlı dağlar bizi ora səsləyir,
Mənim dərdim təkcə Vətən dərdidir.

Mərcanlıda daha qatar dayanmır,
Uzaq gedən sərnişinlər oyanmır,
Sərhədlərə bizimkilər dayanmır,
Mənim dərdim təkcə Vətən dərdidir.

Həkim qardaş, Tanrı bizə yar olsun,
Vətənimin igidləri var olsun.
Daha bəsdir, qorxaqlığa ar olsun,
Vətənsizlik bizim üçün şərtidir,
Mənim dərdim təkcə Vətən dərdidir.





## DAĞ OLMAZ

Bir ağrım var, ürəyimdə çəkirəm,
Qubadlının dağı boyda dağ olmaz.
Gecə-gündüz yoluna göz dikirəm,
Qubadlının dağı boyda dağ olmaz.

Torpağında nə əkildi, nə bitdi,
Nər oğullar çıxıb hayana getdi?
Üstündəki yollar, cığırlar itdi,
Qubadlının dağı boyda dağ olmaz.

Bərgüşadın gur suları dayansın,
Yatanları daha bəsdir, oyansın!
Hərtiz üstə gur tonqallar qalansın,
Qubadlının dağı boyda dağ olmaz.

Dağ görmüşük, zirvəsində qar olar,
Dağ görmüşük, üstündə qartal olar,
Dağ da var ki, ürəklərə od salar,
Qubadlının dağı boyda dağ olmaz.

Ömrümdən, günümdən ayrılıb itən,
Ürəyi yaralı, nisgilli Vətən,
Nə ünümüz çatan, nə də əl yetən,
Qubadlının dağı boyda dağ olmaz.

## AYRILIQ BU QƏDƏR UZUN OLARMI

Daha gözümüzdə yaş da qalmadı,
Ayrılıq bu qədər uzun olarmı?
Niyə Tanrı bizi yada salmadı,
Ayrılıq bu qədər uzun olarmı?

Vətənim ömrümdən uzaqda qaldı,
Bizləri özündən aralı saldı.
Nə qədər igidlər vaxtsız qocaldı,
Ayrılıq bu qədər uzun olarmı?

A yolçu, yolunu biz tərəfdən sal,
Bir gecə, sən Allah, bizim evdə qal,
Sulardan, dağlardan bizi xəbər al,
Ayrılıq bu qədər uzun olarmı?

Daha Vətən dərdi dözülməz oldu,
Demə bu yol ağır, keçilməz yoldu,
Bir gün görəcəksən, düşmən qovuldu,
Ayrılıq bu qədər uzun olarmı?

### ƏZİZLƏRİMƏ

Elə istəyirəm, hərdən quş olub,
Uçub evimizin qonum üstünə.
Bir baxım o yurddan indi nə qalıb,
Gör kimlər qızınır sənin istinə.

Elə istəyirəm, dizləri üstə,
Babamın qəbrini qucaqlayım mən.
Qoyum torpağından gözlərim üstə,
Nəsildən-nəsilə ad saxlayım mən.

Elə istəyirəm, Ağdərə boyu,
Sel gəlsin, aparsın olub-qalanı.
Hərdən də yadıma düşür kənd toyu,
Oynayıb yorasan zurna çalanı.

Bir də istəyirəm, ey əzizlərim,
Sizi o ocaqda yığım başıma.
Sevinsin ürəyim, gülsün ürəyim,
Baxıb, ləzzət alım, qardaş-bacıma.





## MEHDİ CALAL



***Mehdi Calal** 1961-ci il may ayının 20-də Qubadlı rayonunun Başarat kəndində anadan olub.*
*Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.*
*Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*
*Hazırda BPKİYİ-nin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimidir.*
*"Başın üstə dolan bulud" şeirlər kitabı çap olunub.*

### YURDUM

Hərəmiz bir yuva tapdıq,
Sığındıq, səndən uzaqda.
Guya sənə əzəlkindən
Yaxındıq, səndən uzaqda.

İl gəldi illərin üstə
Gün gəldi günlərin üstə,
Qan yağdı güllərin üstə;
Yayxandıq, səndən uzaqda.

Nə gələnnən gələ bildik.
Nə ölənnən ölə bildik,
Nə dərdini bölə bildik,
Dolandıq, səndən uzaqda.

Cadarlanmış torpaq kimi,
Düymə kimi, yarpaq kimi,
Kökdən ayrı budaq kimi,
Talandıq, səndən uzaqda.

Dərdinə yığılan ağlar,
Özündən yıxılan ağlar,
Ocağı dağılan ağlar;
Qalandıq, səndən uzaqda...

### AĞLAYAM GƏRƏK

Gözlərimə bulud enib,
Mən «mən»i ağlayam gərək.
Sabahımı saxlamağa
Dünəni ağlayam gərək.

Ya səbirdi, ya qəbirdi,
Ürək yarı, ömür birdi.
Kövşənə bir nadan girdi,
Mən «dən»i ağlayam gərək.

Nəsiminin inadını,
Babəkin «qol-qanadı»nı,
Füzulinin fəryadını,-
Min qəmi ağlayam gərək.

Yazı, tale, satan, alan,
Ömrüm, ruhum olub talan.
Illərnən düymədə qalan
Qönçəni ağlayam gərək.

Yad əllərdə parçalandı,
Vüsal bilməz gör haçandı.
Yarısı da yarımcandı,-
Vətəni ağlayam gərək.

## A KƏNDİM

Qucağına qayıtmağa üzüm yox,
Sənə layiq əməlim yox, sözüm yox,
Yaşasam da, bu yerlərdə gözüm yox,
Ilk məkanım, son gümanım, a kəndim.

Uzaqdayam, demə yadam, özgəyəm,
Arzulardı "səbr et" - deyən, "döz"-deyən.
Hələ sənət dəryasında üzdəyəm,
Həqiqətdi, niyə danım, a kəndim.

Mən demişdim... ömür belə, gün belə,
Qasırğaya ürcah oldu kim belə?
Həsrətimdən dağlarına çən gələr,
Yetər sənə ah-amanım, a kəndim.

Dərd əliylə qolazlanmış daşınam,
Kədər yağır, qəm ələnir başıma.
Misra-misra qucağına daşınam,
Ol ümüdüm, ol həyanım, a kəndim.

Ağrıların ürəyi yox, qanı yox,
Arzuların, diləklərin sonu yox,
Yol gedirəm, gecə uzun, danı yox,
Günəş olub, gərək yanım, a kəndim.

## ÖMÜRLÜK

Yurd yeri! Sozalan bir ocaq sönür,
Mənim ağrı günüm, mənim dağ günüm!
Bir gün bir dəlisov küləyə dönüb,
Qovaydım dumanı, çəni ömürlük.





İllər tufanında, illər qarında,
Sarı sim dil açıb könül tarımda.
Bərkiyib inamlı vuruşlarımda,
Olaydım kədərə qənim ömürlük.

Ömrümdən bu yana, o ocaq mənim,
Ölümdən bu yana, olacaq mənim.
Yaşadar, sönməsə o ocaq məni,
Yanmasa sinəmdə qəmim ömürlük.

Bir kimsə bu dərdi duymadı görəm,
Günahdı, günahı dünyada görəm.
Bu qəmli, əbədi dünyada görən,
Nəyim qalacaqdı mənim ömürlük?..

## DÖNƏCƏYƏM O YURDA

Yamac qalxdım, düzən keçdim, yal aşdım,
Könlüm uman çox yerləri dolaşdım,
Hər ötən gün sinəm üstdən yol açdı,
Dönəcəyəm, dönəcəyəm o yurda.

Üç qara daş nağıl başlar, nə başlar,
Ulu yurdda qəm xalıdı o daşlar.
Xatirələr, ay ağaclar, a daşlar,
Dönəcəyəm, dönəcəyəm o yurda.

Çəkmək olmur bu yolları göz ilə,
El-obadan gen düşən can üzülər.
O gəldiyim cığır ilə, iz ilə
Ya tez, ya gec dönəcəyəm o yurda.

Savabıyla günahımı yuyanlar!
Istəyimi, ürəyimi duyanlar!
Yurd yerində daş üstə daş qoyanlar,
Dönəcəyəm, dönəcəyəm o yurda!

## YOXDUMU

Səfil-səfil dolanarsan küçələr boyu,
Zalım adam, sənin yerin-yurdun yoxdumu?
Bu yağmurlu havalarda nə arayırsan,
Bir bucağın, bir ocağın, odun, yoxdumu?

Cözələnər düyün-düyün söz ürəyində,
Sən təşnəsən, tufan başda, köz ürəyində.
Qərib-qərib qovrularsan öz ürəyində,
Bu dünyada bir yaxının, yadın yoxdumu?

Perik düşmüş el səninndi, oba sənindi,
Tapdaq olmuş yurd sənindi, yuva sənindi,
Görünməmiş savaş sənin, qovğa sənindi,
Yollara çıx, dağlara qalx, dərdin yoxdumu?

Sən Tumassan, Ziyaratsan, Əmən dağısan,
Sən o taylı, sən bu taylı dərd yatağısan,
Sən ki, şəhid olanların bəndərgahısan,
Nitqin ahdı, ahın qandı, dadın yoxdumu?

Yaxın adam, uzaq adam bu nə duruşdu,
Bilmədinmi bu ömürdü, ya aldanışdı!
Mən ki, səndən ad soruşdum, ünvan soruşdum,
Yurdun viran, yerin məlum, adın yoxdumu?





## XANKİŞİ BƏXTİYAR



***Xankişi Bəxtiyar oğlu Məmmədov*** *1953-cü il iyul ayının 2-də Qubadlı rayonunun Başarat kəndində anadan olub.*

*İnşaat mühəndisləri Universitetini qurtarıb. 1989-cu ildə Moskvada Patris Lumumba adına Xalqlar Dostluğu Universitetində namizədlik dissertasiyası müdafiə edərək texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb.*

*Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.*

*İki şeir kitabının müəllifidir.*

*Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışır.*

### OĞUL İSTƏYİRƏM

Qubadlıdan, Başaratdan, Dağyurddan,
Oğul istəyirəm xəbər gətirsin.
Gəzib o yerləri başdan ayağa,
Oğul istəyirəm xəbər gətirsin.

Gedib yaylaqların otunu biçsin,
Yorulub bulaqdan doyunca içsin.
Vurub Həkəridən, Turşsudan keçsin,
Oğul istəyirəm xəbər gətirsin.

Nərgizini, laləsini qoxlasın,
Çinarın altında yatıb, yuxlasın,
Babaların məzar daşın yoxlasın,
Oğul istəyirəm xəbər gətirsin.

Durna qatarına salam söyləsin,
Bənövşəni kol dibindən iyləsin.
Öpsün gözlərindən qoca vələsin,
Oğul istəyirəm xəbər gətirsin.

Zirvədə dumandan, qardan, çovğundan,
Diş göynədən bumbuz bulaq suyundan,
Qapıda qurbanlıq qalan qoyundan,
Oğul istəyirəm xəbər gətirsin.

Yerindəmi nənəm asan salımçaq?
Kabab bişirdiyim o sönməz ocaq?
Darıxıbmı Dağyurd, Yalyurd, Əməndağ?
Oğul istəyirəm xəbər gətirsin.

...Yaxşı yadımdadı açmışdı iydə,
Kabab şişdə, tut arağı şüşədə,
Qalmışdı inəklər çöldə, meşədə,
Oğul istəyirəm xəbər gətirsin.

Bulaqda qalmışdı su dolu səhəng,
Təzə - təzə gül açırdı yelpənək.
Tədarük görürdü toya kənd – kəsək,
Oğul istəyirəm xəbər gətirsin.

Xankişi əliyi vuran bərədən,
Bərədən tutduğu çil – çil fərədən,
İtburnu yığdığım Güllü dərədən,
Oğul istəyirəm xəbər gətirsin.

## YAMAN DARIXMIŞAM DAĞLARDAN ÖTRÜ

Nə müddətdir gedib gələ bilmirəm,
Yaman darıxmışam dağlardan ötrü.
Kəklikli qayalar çıxmır yadımdan,
Yaman darıxmışam dağlardan ötrü.

Haqqım yoxdu o yurdlara yaddaşım,
Tabım yoxdu qəribliyə qatdaşım,
Gəl məni qınama, mənim qardaşım,
Yaman darıxmışam dağlardan ötrü.

Sarmaşıq saralıb cağlarda qalıb,
Dəymiş şamamalar tağlarda qalıb,
Ağzımın ləzzəti dağlarda qalıb,
Yaman darıxmışam dağlardan ötrü.





Əzəldən yazılıb dağlar adıma,
Dar gündə yetişib daim dadıma,
Mamırlı qayalar düşüb yadıma,
Yaman darıxmışam dağlardan ötrü.

Dönüb bir ovçuya durram pusquda,
Azıram dumandan tez-tez qobuda,
Bəlkə də hər gecə görrəm yuxuda,
Yaman darıxmışam dağlardan ötrü.

Elə istəyirəm gedəm dağlara,
Baş çəkəm yarpızlı buz bulaqlara,
Hələ çox borcum var o yaylaqlara,
Yaman darıxmışam dağlardan ötrü.

Kövrəlib həlimdən həlim olmuşam,
Özüm öz-özümə qənim olmuşam,
Dağlar gedən gündən yetim qalmışam,
Yaman darıxmışam dağlardan ötrü.

Neçə ildi şahmar girib qoynuma,
Baxma gülməyimə, baxma oynuma.
Bardaş qurub qəm oturub boynuma,
Yaman darıxmışam dağlardan ötrü.

Yaralarım sızım-sızım sızıldar,
Sızıltımdan oğlum, qızım sızıldar.
Kamanım sızıldar, sazım sızıldar,
Yaman darıxmışam dağlardan ötrü.

Istərəm dağlara təzə yol çəkim,
Bənövşənin yanağına xal çəkim,
Arı olub çiçəklərdən bal çəkim,
Yaman darıxmışam dağlardan ötrü.

Qeyrətim, vicdanım, karım ordadır,
Ilk eşqim, sevgilim, yarım ordadır,
Yarım bu yandadır, yarım ordadır,
Yaman darıxmışam dağlardan ötrü.

## ALLAH GÖTÜRMƏZ

Yeddi il çəkibdi Qərib qəriblik,
Mənim qəribliyim iyirmi ildi.
Ürəyi olmayan məni duyammaz,
Qürbət çəkmək, qərib olmaq zülümdü.

Deyirlər qəflətən ölmür qəriblər,
Niyyət eləmişəm, qəflətən ölüm.
Olacaq var, dönəcək var, dönüm var,
Gedib kəndimizdə bir daşa dönüm.

Qırılsın həsrətin beli, sütunu,
Çıxım Topağaca, ordan hay verim,
Süfrə açım, quzu kəsim, bal kəsim,
Gələn dostlarıma bolca pay verim.

İstəmirəm burda qalam, yaşayam,
Yer də, göy də, heçdi mənim gözümdə.
Gedim orda bir balaca saflaşım,
Allah haqqı, bezib, dözmür dözüm də.

Dünyada nə qədər dağ var, dərə var,
Dağ yurdun yerini heç biri verməz.
"Qərib" sözü silinsin qoy lüğətdən,
Bu qədər zülümü Allah götürməz.



***Başarat kəndi yaxınlığındakı bina – abidə***





# NOVRUZ QUBADLI



***Novruz Məmmədtağı oğlu Əzizov*** *1955-ci il martın 22-də Qubadlı rayonunun Həmzəli kəndində anadan olmuşdur.*

*1980-ci ildə Sovet Azərbaycanının 60 illiyi adına Xankəndi (keçmiş Stepanakert) Pedaqoji İnstitutunun Filologiya fakültəsini bitirmiş, Qubadlı rayonunda müəllim işləmişdir.*

*1983-cü ildə Bakı şəhərinə gələrək müxtəlif vəzifəlrdə işləməklə bərabər, "Vətən səsi", "Aydınlıq", "Kəndin səsi" qəzetləri ilə əməkdaşlıq etmişdir. "Mozalan" satirik jurnalında şöbə müdiri (1995), "Günün səsi" (1998l) və "Bakı Post" (2002) qəzetlərinin baş redaktoru olmuşdur. 2003-cü ildən "Bakı Press" qəzetinin təsisçisi və baş redaktorudur.*

*1995-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.*

*Bir şeirlər kitabının müəllifidir. Növbəti kitabı çapa hazırlanır. "Qızıl Qələm" Media Nükafatı laureatıdır.*

## YUXARI MOLLU

Bilmirəm qocalıq, ya hicrandımı,
Könlümə Yuxarı Mollu düşübdü.
Gedəm Üç qardaşa, içəm andımı,
Könlümə Yuxarı Mollu düşübdü.

Kəblə İsmayıllar, Yazı düzümüz,
Yel Pirinə həsrət qalıb üzümüz.
Ağlamaqdan kor olubdu gözümüz,
Könlümə Yuxarı Mollu düşübdü.

Aşağı tərəf, Yuxarı tərəf bir yana,
Qaçaq Nəbi, Həcər girə meydana,
Nurlu günəş doğa Azərbaycana,
Könlümə Yuxarı Mollu düşübdü.

Sarı yoxuş sinəsində el yolu,
Birləşə Şimalla Cənubun qolu,
Tamaşa eyləyəm gözlərim dolu,
Könlümə Yuxarı Mollu düşübdü.

Həkərimiz Bərgüşadın qardaşı,
Yaddan çıxmaz Böyük dərə, Top daşı,
Kəhriz bulaq - sevgililər sirdaşı,
Könlümə Yuxarı Mollu düşübdü.

Leysan yağa, bərələri sel oya,
Yağılar silinib tökülə çaya.
Üzün qara olsun, vəfasız dünya,
Könlümə Yuxarı Mollu düşübdü.

Kaş ki qismətimi Allahım verə,
Gedəm dizin-dizin, öpəm min kərə,
Baş qoyam şəhidlər qırılan yerə,
Könlümə Yuxarı Mollu düşübdü.

Nə yer bağışlamaz, nə ulu tanrı,
Bir belə müsibət, bir belə ağrı,
Yandı, el-obamın çatladı bağrı,
Könlümə Yuxarı Mollu düşübdü.

## QUBADLIYA DÖNƏR OLSAM

Baş qoyaram hər daşına,
Qubadlıya dönər olsam.
Dönərəm can sirdaşına,
Qubadlıya dönər olsam.

Öpüb, qucub torpağını,
Unudub hicran dağını,
Yaşaram ötən çağını,
Qubadlıya dönər olsam.

Mir Məhəmməd, Mir Sədinin,
Qucaqlayıb məbədini,
Atardım qəm həsrətini,
Qubadlıya dönər olsam.

Yandı bağrım, yandı, Allah,
Bilmədik kimdədir günah,
Aparardım ora pənah,
Qubadlıya dönər olsam.





Baş çəkərəm qəbristana,
Orda ata, orda ana,
Ağlayaram yana-yana,
Qubadlıya dönər olsam.

Nəzmə çəkib hər səsini,
Gəzərəm bənd-bərəsini,
Dağlarını, dərəsini,
Qubadlıya dönər olsam.

Ötən günü salıb yada,
Həkəridən pay-piyada,
Üz tutardım Bərgüşada,
Qubadlıya dönər olsam.

## ŞAİR OLAN QOCALMASIN, NEYLƏSİN

Deyirlər şairlər nə tez qocalır,
Şair olan qocalmasın, neyləsin?
Dünya dönüb, şairdən də bac alır,
Şair olan qocalmasın, neyləsin?

Dost-dostuna atır, qardaş qardaşa,
Qənim kəsilibdi yoldaş-yoldaşa,
Belə zəmanədə oğulsan yaşa,
Şair olan qocalmasın, neyləsin?

Vətən dərdi sinəmizdə dağ olub,
Vicdanımız üzümüzə ağ olub,
Qanqal qərənfilə göz-qulaq olub,
Şair olan qocalmasın, neyləsin?

Şuşanı axtarıb, arayan da yox,
Laçının telini darayan da yox,
Ağdamın yarasın sarıyan da yox,
Şair olan qocalmasın, neyləsin?

Qubadlımın gözü yolda qalıbdı,
Kəlbəcər kül olub, əldə qalıbdı,
Xocalının zülmü dildə qalıbdı,
Şair olan qocalmasın, neyləsin?

Füzuli köksündən qara qan axır,
Cəbrayıl boylanıb Araza baxır,
Zəngilanım məni yandırıb yaxır,
Şair olan qocalmasın, neyləsin?

## AĞLA QIZILGÜLÜM

*Əsirlikdə Vətən həsrətilə saralıb-solan soydaşlarıma həsr edirəm.*

Neçə atam, neçə anam əsirdi,
Ağla, qızılgülüm, ağla, bənövşəm!
Neçə bacım, neçə sonam əsirdi,
Ağla, qızılgülüm, ağla, bənövşəm!

Millətim didərgin, yurdum virandı,
Torpağımız yad əllərdə talandı,
Haqq dünyadan başqa nə var yalandı,
Ağla, qızılgülüm, ağla, bənövşəm!

Açan güllərini kim dərəcəkdi,
Kim səni qoxlayıb, kim hörəcəkdi,
Əllərdən əllərə kim verəcəkdi?
Ağla, qızılgülüm, ağla, bənövşəm!

Vətən həsrətində olanımız var,
Gözləri buluddək dolanımız var,
Qürbətdə saralıb solanımız var,
Ağla, qızılgülüm, ağla, bənövşəm!

Sinəmizə dağ çəkilib, dağ üstə,
Xansız, Qarabağsız qalıb şikəstə.
Ağla "Yanıq Kərəm", "Sarıtel" üstə,
Ağla, qızılgülüm, ağla, bənövşəm!





# HÜSEYN HÜSEYNOV



***Hüseyn Rəhman oğlu Hüseynov*** *1958-ci il aprel ayının 8-də Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur.*

*Rusiyanın Ryazan şəhərində SSRİ DİN-nin ali məktəbini bitirmiş (1983-87), 1990-cı ilin noyabr ayınadək Rusiya Federasiyasının Komi Respublikasında İslah Əmək Koloniyasında dəstə rəisi işləmişdir.*

*Məlum Qarabağ hadisələrinə görə 1990-cı ilin noyabr ayında könüllü olaraq Vətənin müdafiəsinə gəlmiş, Qubadlı Rayon Polis Şöbəsinə rota komandiri, sonra rəis müavini təyin edilmişdir (1992-2011).*

*Polis polkovnik-leytenantıdır.*

## DƏMİRÇİLƏRİM

Yaz yarpağı pəncərəmdən baxanda,
İldırımlar Kosa dağdan çaxanda,
Çaylar daşıb, yarğanları yıxanda,
Xəyalların qanadında vətənim,
Necə kimsəsizsən, Dəmirçilərim!

Sağın Ağa çayı, solun Bəpgüşad,
Qırılan bağların diləyir imdad.
Nə qədər gəzəcək torpağında yad,
Durur mu körpüsü Hacı Bədəlin?
Necə kimsəsizsən, Dəmirçilərim!

Qaladakı hovuzların durur mu?
Şah bağında bülbül cəh-cəh vurur mu?
Düşmən əli Zoğallığı qırır mı?
Qaya dibli həsrətini çəkəlim,
Necə kimsəsizsən, Dəmirçilərim!

Şəkil xala, pərdə gəlib gözümə,
Dərman tökmə, iynə götür, çözələ,
Qurban olum, neynəyirsən, tez elə,
Əlac yetir pöhrələnsin qeyrətim,
Axı mənim düşməndədir vətənim!..
Necə kimsəsizsən, Dəmirçilərim!

## AĞA ÇAYIM

Gül budağı iynədəndir,
Çalınmayır ney, nədəndir?
Ürəyimi göynədəndir.
Şırıl-şırıl axan çayım.
Ağa çayım,-Ağa çayım.

Yazda həddi bilinməyən,
Yayda körpələrlə çimən,
Payız xəzəli ilə gələn,
Diz üstə çökdüyüm çayım!
Saf suyun içdiyim çayım!

Cəvizlərin kölgəsiylə,
Bülbüllərin nəğməsiylə,
Şah bağından-Tülkülüyə,
Bərgüşada axan çayım,
Gələcəyəm, baxan çayım.

Gecə layla çalırmısan?
Bulaqlarla dolurmusan?
Axırmısan, dururmusan?
Mağallarsız qalan çayım!
Adamlarsız Ağa çayım!





Qayaları yalar keçər,
Bostanları sular keçər.
Yanırsanmı, Dəmirçilər?
Dəhnələrsiz qalan çayım,
Ağa çayım, Ağa çayım.

Məscid arxı, Eşik arxı,
Atlı yolu, çay qırağı,
Söyüdlərin, saçağını,
Sularında darayırmı, Ağa çayım?
Kimsə səni arayırmı, Ağa çayım?

Düşürsənmi heç yadına?
Çatacaqmı imdadına?
Ar olmazmı Türk oğluna?
Ağa ola dığa sənə, Ağa çayım,
Hayıf sənə, hayıf sənə, Ağa çayım!

Saf suların qaymağıdır,
Sevənlərin oylağıdır,
Qədim Türkün bayrağıdır.
Görməyənlər nə bilirlər nədir tayı?
Cənnət bağı, gülüstandır Ağa çayı.
Əvəzi yox, bir məkandır Ağa çayı!

## BURNUMUN UCU GÖYNƏYİR

Burnumun ucu göynəyir,
Sənə oxşar yer görəndə.
Çay görəndə şırıldayan,
Qar görəndə parıldayan,
Kolda kəklik pırıldayan.
Qartal qonan qayaları,
Pıqqıldaşan bulaqları,
Bal süzülən palıdları,
Vızıldaşan arıları.
Boz daşlarda mamır görcək,
Yarpaq kimi əsir ürək.
Burnumun ucu göynəyir!
Axtarıram oxşarını,

Bənzədirəm, sən deyilsən!
Hanı sənin cəviz kölgən?
Yanındakı qaya hanı?
Dırmaşaraq çıxam üstən
Yemlik yeyəm.
Hanı mənim Yumru təpəm?
Dirsəklənəm, fikrə gedəm.
Baxam axan Bərgüşada,
Sahilində qurbağalar
quruldaya
Ləklərində çəltikliyin.
Bir az öndə Yazı düzüm.

Sağda qarlı Savalanım.
Solda xarlı Zəngəzurum.
Hanı mənim ana yurdum?
Onu necə mən unudum?
Oxşadıram, bənzərini
tapammıram.
Sızlayıram, mən gecələr
yatammıram.
Burnumun ucu göynəyir,
Axtarıram, özümü də
tapammıram.

*25.05.96. Arayatlı.*

## AĞLADI-AĞLADI

Dərdimi dağlara dedim,
Dumandan örpək bağladı.
Süzüb gözünün yaşını,
Dağlar ağladı-ağladı!

Qar əridi həyasından,
Quşlar uçdu yuvasından,
Mən yazığın yarasından,
Əğyar ağladı-ağladı!

Bahardan çiçək istədim,
Çaylarda çimmək istədim,
Bir sıxma dürmək istədim,
Sac da, ağladı-ağladı!

*21.10.1999*





## ŞİRİN MƏMMƏDOV



***Şirin Məhəmməd oğlu Məmmədov*** *1959-cu il iyul ayının 27-də Qubadlı rayonunun Gürcülü kəndində anadan olub.*
*1984-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.*

*1979-cu ildən Daxili İşlər orqanlarında xidmət edir, polis polkovnik-leytenantıdır.*

*«Bayraq» və «Mübariz» şeirlərinə görə «Avropa Nəşr Mətbu evi»nin Qızıl medalına layiq görülmüşdür.*

*«Qızıl qələm» mükafatı laureatı, Azərbaysan Yazıçılar Birliyinin üzvüdür. Bir şeirlər kitabının müəllifidir.*

### QUBADLIM

Ay Qubadlım, mənim doğma vətənim,
Neçə-neçə qəhrəmanın var sənin.
İgid, cəsur Qaçaq Nəbin, Həcərin,
İftixarım, həm qürurum, həm andım,
İşğal oldun - bu nisgildən odlandım.

Kəpəzinin zirvəsində var pirin,
Oğlun-qızın həm qeyrətli, həm mətin!
Torpağında var neçə cür nemətin,
Qubadlım, Qubadlım ümidgah yerim,
Qubadlım, Qubadlım əlvan şəhərim!

Həkəri, Bərgüşad şırhaşır axar,
Yalçın qayalardan qartallar baxar.
Yaz ağzı - Novruzda min novrağın var,
Qalıb yamaclarda nə qədər izim.
Alışsın ocağın, sönməsin közün!

Tut, çəkül yarpağı - tülün, atlasın,
Dadlıdır armudun, heyvan, gilasın.
Qeyrət əbədilik ismət libasın!
Hüsnünü heç zaman duman almasın,
Naz-nemətin yada halal olmasın!

Ağrını-acını bir gün atarsan,
Arzu-muradına sən də çatarsan,
Günəşlə oyanıb, Ayla yatarsan,
Əriyər ürəkdən qəmin, qübarın,
Qubadlım, Qubadlım, cənnət diyarım…

## GÜRCÜLÜ

Bil cənnətdir doğulduğum o diyar,
Hər bir kəsin yaşadığı yurdu var.
Arzum odur sən olasan bəxtiyar,
Doğmalardan doğma olan Gürcülü,
Güclülərdən güclüsən sən, Gürcülü.

Adın sənin Təbriz ilə bağlıdı,
Bostanların bir-birindən tağlıdı,
Bərgüşadın amanlıdı, ahlıdı,
Gülüstana bənzərlisən, Gürcülü,
Qayalısan, səngərlisən, Gürcülü.

Təpələrin bir-birindən gözəldi,
Tarixin də əzəldən də əzəldi,
Meşələrin başdan-başa xəzəldi,
O taylısan, bu taylısan, Gürcülü,
Quzeylisən, Güneylisən, Gürcülü.





Qoruq dərə, düzlərini qoruyur,
Duman qalxır gədiklərin bürüyür.
Həsrətindən, inan, çanım çürüyür,
Həm Aranlı, həm dağlısan, Gürcülü,
Dərdli, qəmli, yaralısan, Gürcülü.

Günbəzindən təpələrə baxarıq,
Bənövşəni dərib döşə taxarıq,
Qaranlıqdan Səlk dağına çıxarıq,
Yemliyindən doymaq olmur, Gürcülü,
Sorağını almaq olmur, Gürcülü.

Qurd bulağın ləzzətlidi, tamlıdı,
Bulaqların bir-birindən dadlıdı,
Dağlarının zirvələri qarlıdı,
Sarı sünbül yetişdirən Gürcülü,
Bülbülləri deyişdirən Gürcülü.

Yaz olanda Novruzgüldən doymazdıq,
Mərövcəni kol dibində qoymazdıq,
Çəmənlikdən hər gülünü yığmazdıq,
Dahiləri yetişdirən Gürcülü,
Həm yaylaqlı, həm qışlaqlı Gürcülü.

Şax vurardıq qara tikan payasın,
Tanıyardıq hər dağının qayasın,
Yaddan çıxmır alma, armud, gilasın,
Daş-təpəli, dərə-düzlü, Gürcülü,
Sözün deyən sazlı-sözlü, Gürcülü.

Gözəl olan gölün vardı Gölqaya,
Səs salardı uçan quşlar qayaya,
Bənzərlisən həm arana, həm dağa,
Neçə ildir yaralısan, Gürcülü,
Məndən yaman aralısan, Gürcülü.

Fındıqlıqda alça, fındıq, zoğalın,
Hər bir yandan gəlir sənin sorağın,
Aylı gecə şölə saçan çırağın,
Təpələri Novruz güllü Gürcülü,
Xıncılovlu, qızıl güllü Gürcülü.

Bərgüşadın həzin səslə yan axır,
Səlk dağında Kəpəzinə tək baxır.
Övladların sənin üçün darıxır,
Zaman gələr gülərsən sən, Gürcülü,
Bir olarsan mənimlə sən, Gürcülü.

Yayın da, qışın da gözəldi sənin,
Qayan da, daşın da gözəldi sənin,
Üzün də, qaşın da gözəldi sənin,
Əqiqli daşlısan gözəl Gürcülü,
Gözləri yaşlısan qərib Gürcülü.

Kəbleyi Həsənin vardı bulağı,
Yükün daşıyardı kəndin ulağı,
Tutulubdu çoxlarının qulağı,
Harayına çatanın yox, Gürcülü,
Əllərindən tutanın yox, Gürcülü.

Şirinin qəlbində sən yaşayırsan,
Çiynində ağır yük tək daşıyırsan,
Barlı-bəhrəlisən, yaraşıqlısan,
Adınla tanınan kəndsən, Gürcülü,
Bilirəm kəlməmə bəndsən, Gürcülü.





# TƏHMƏZ ƏVƏZOĞLU



***Təhməz Əvəz oğlu Mehralıyev*** *1933-cü ilin aprel ayının 22-də Qubadlı rayonunun Qayalı kəndində dünyaya göz açıb. 1968-ci ildə qəza nəticəsində gözlərinin nurunu itirmişdir.*

*Qubadlı rayonu işğal olunduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdı.*

*2004-cü il noyabr ayının 12-də doğma yurd-yuva həsrəti ilə dünyasını dəyişib. Ruhu şad olsun!*

*Dörd kitab müəllifidir. Sözlərinə mahnılar bəstələnib, Azərbaycan televiziyası tərəfindən onun həyat və yaradıcılığından bəhs edən "Təhməz Əvəzoğlu" sənədli filmi çəkilib.*

## NƏ DƏ BİZ KÖÇDÜK

İllərimiz günü-gündən pis gəldi,
Nə torpaq alındı, nə də biz köçdük.
Ahu-zarım asimana yüksəldi,
Əzizlərim, görün nə günə düşdük,
Nə dünya düzəldi, nə də biz köçdük.

Neçə yurddaşımız dağlarda qaldı,
Kimi şəhid oldu, kimi ad aldı.
Ər oğullar günü-gündən azaldı,
Doğma el-obadan didərgin düşdük,
Nə dünya düzəldi, nə də biz köçdük.

...Soruşuram, bəs igidlər hardadı,
Bəlkə, çətindədir, bəlkə, dardadı?
Analar, bacılar intizardadı,
Dolu vurmuş cücə kimi büzüşdük,
Nə dünya düzəldi, nə də biz köçdük.

Təhməz deyər, vətənə and içərik,
Elə qayıdarıq, yurda köçərik,
Şirin bulaqların suyun içərik.
Əzizlərim, görün nə günə düşdük,
Nə dünya düzəldi, nə də biz köçdük!

## GÖRMƏK İSTƏRƏM

Dərdli ürəyimin xəstə çağında,
Elimi, obamı görmək istərəm.
Halal çörəyimi, halal tikəmi,
Qohum-övladımla bölmək istərəm.

Bir gün döyünməkdən qalar ürəyim,
Kamına yetişməz arzu, diləyim.
İnsafdımı o yerləri görməyim,
Doğma yurd, yuvamı görmək istərəm.

Zalım xəstəlikdən qəddim kamandı,
Bu dərd təzə deyil, xeyli zamandı.
Əzizlərim, sizə deyim, amandı,
Yurdum Qayalıda ölmək istərəm.

Əziz övladlarım, deyirəm sizə,
Bu ağrıya kim dayana, kim dözə,
Məni aparарsız öz kəndimizə,
Bir qədər yaşayıb, dözmək istərəm.

## VƏTƏN DƏRDİ

Məni haldan hala saldı,
Vətən dərdi, Vətən dərdi.
Ürəyimi parçaladı,
Vətən dərdi, Vətən dərdi.

Yola çıxdım, yol gözlədim,
Sən gəlmədin, artdı dərdim.
Cəfa çəkdim, bağ becərdim,
Bəhri-barın düşmən dərdi.

Ömür-günüm qara gəldi,
Qürbətdə can zara gəldi.
Ümidim bir yara gəldi,
O da məndən üz döndərdi.





## QUBADLIYA APAR MƏNİ

Qurban olum, əziz qardaş,
Qubadlıya apar məni.
Gözlərimdə quruyub yaş,
Qubadlıya apar məni.

Bir nisgilli sənətkaram,
Gəlib getmir qonaq-qaram,
Dərd-qəmimi unudaram,
Qubadlıya apar məni.

Dərdli, qəmlidi hər anım,
Vətəndə alışım, yanım.
Tut qolumdan Hürzad xanım,
Qubadlıya apar məni.

Təhməz deyər, olma zalım,
Sözümə bax, qadan alım.
Qoy gedim yurdumda ölüm,
Qubadlıya apar məni.



*Qayalı kəndindən*

# MÖHÜBBƏT MƏHƏRRƏMOĞLU



*Əhmədov Möhübbət Məhərrəm oğlu 1949-cu ildə Qubadlı rayonunda anadan olub. Qubadlı rayonu işğal olunduqdan sonra Bakı ətrafında məskunlaşmışdır.*

## CAN, AY KƏNDİM

*Əcəl mənə aman versə, nə dərdim...*
*Qayıdardım, doğma yurdu görərdim...*

Qoxlayardım laləsini doyunca,
Bəs deməzdim yemliyini yeyincə,
Dərə-təpə al-yaşılı geyincə,
Qövr edəcək köhnə dərdlər, bilirəm,
Can, ay kəndim, səndən ötrü ölürəm.

Çay yuxarı, çay aşağı gəzməyi,
Mirzəxanı boğan göldə üzməyi,
Mərövcəni üzüb közə düzməyi,
İndi xəyal, sonra gerçək görürəm,
Can, ay kəndim, səndən ötrü ölürəm.

Nənəm əlləriylə meyvə dərəydi,
O taydan bu taya pay göndərəydi.
Hümbət əmim bizə qonaq gələydi,
Deyəydi ki, Mehrilidən gəlirəm,
Can, ay kəndim, səndən ötrü ölürəm!



***Mehrili kəndi***





# SEYFƏDDİN QASIMOV



***Seyfəddin Qasım oğlu Qasımov*** *1939-cu il may ayının 5-də Qubadlı rayon Diləli Müskanlı kəndində anadan olub.*

*Qubadlı rayonu işğal olunduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdır.*

*2012-ci il avqust ayının 1-də doğma yurd-yuva həsrəti ilə dünyasını dəyişmişdir. Ruhu şad olsun!*

*Vəfatından sonra bir kitabı nəşr edilmişdir (2012).*

## AĞLARAM

Üzəmmirəm çiçəyini, gülünü,
Gəzəmmirəm çəmənini, çölünü,
Sıxammıram söyüdlərin əlini,
Düşübdü yadıma vətən, ağlaram.

Öz bağımın meyvəsinə həsrətəm,
Tənəyinə, meynəsinə həsrətəm,
Saz səsinə, ney səsinə həsrətəm,
Düşübdür yadıma vətən, ağlaram.

Eşitmirəm Bərgüşadın səsini,
Kəkliyin, turacın şən nəğməsini,
Üzümü oxşamır bahar nəsimi,
Düşübdü yadıma vətən, ağlaram.

*04.08.1994*

## NEYLƏYİM

Bağımda açardı həmişəbahar,
Şaftalı, naringi, gülövşəyi nar,
Boynunu bükübdür gəzdiyim dağlar,
Mənsiz qəribsəyir yaman, neyləyim?

İstərəm ki, hey dolanam başına,
Qurban olam torpağına, daşına,
Dizin-dizin sürünərəm qarşına,
Dönüb olammıram duman, neyləyim?

O yaşıl meşələr, o yaşıl bağlar,
Necə xatirəmi qoynunda saxlar.
Kəsibdir yolları xəbis bədxahlar,
Gedə bilməyirəm, aman, neyləyim?

Seyfəddinəm, bilməm bu necə işdir,
Keçirdiyim həyəcandır, təşvişdir.
O sərin bulaqlar yadıma düşür,
Göz yaşım olubdu ümman, neyləyim?!

*Sumqayıt – 1995*

## AĞLAMA

Ağlama, ay anam, bacım ağlama,
Bu dərd sənin deyil, elin dərdidir.
Başına, ay ana, qara bağlama,
Bu dərd sənin deyil, elin dərdidir.

Gedibdir əlindən varın, dövlətin,
Qalmayıb, yox olub olan sərvətin,
Yanıb, külə dönüb gör neçə kəndin,-
Bu dərd sənin deyil, elin dərdidir.

Tırtıllar altında əzildi onlar,
Düşmənlə vuruşan igid oğullar,
Əsir düşdü neçə gəlinlər, qızlar,
Bu dərd sənin deyil, elin dərdidir.

Körpə, gül balalar qana bələnib,
Süngülər ucunda göyə yüksəlib,
Neçə qız-gəlinin əhdi kəsilib,
Bu dərd sənin deyil, elin dərdidir.





# RZAYEV NİZAMİ



*Rzayev Nizami Yolçu oğlu 1952-ci ildə dekabrın 12-də Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdur. 1971-ci ildə APU-nun coğrafiya fakültəsinə qəbul olmuşdur. 1981-ci ildən 1992-ci ilə qədər Aşağı Mollu kənd orta məktəbində direktor işləyib.*

*1993-cü ilin avqust ayından köçkün kimi Sumqayıt şəhərində məskunlaşmışdır.*

## BİZİM DAĞLAR

Zirvən sənin qar-buz olur.
Yamacların otlaq olur.
Bulaqların bum-buz olur.
Görüm yaşa, bizim dağlar.

Qaçaq Nəbi burda gəzmiş,
Salvatlını məskən etmiş.
Çiçəklidən Həcər keçmiş.
Tək qalmısan, bizim dağlar.

El yazdan dağa köçərdi,
Qoyun -quzu bəslənərdi,
Mal-qara çox kökələrdi,
Xəyalımsan, bizim dağlar.

Tuluq-nehrə çalxanardı,
Dəriyə yağ yığılardı,
Motal pendir basılardı,
Çoxu qışa saxlanardı.
Ruzi idin, bizim dağlar.

Ayaqyalın mən gəzərdim,
Şehdə necə sürüşərdim.
Ağrı nədir heç bilməzdim.
Özün yaşa, bizim dağlar.

Göbələyə er gedərdim,
Moruğu özüm dərərdim.
Qovudu südlə yeyərdim.
Sənsiz necə dözüm dağlar.

Qovurma çox qovurardıq
Gil küpəyə doldurardıq.
Onu qışa saxlayardıq.
Onlar səndə qaldı, dağlar.

Qışda motal açılardı,
Küpdəki ət dadıxardı.
Dəridə yağ xarlanardı.
Bunlar hanı indi, dağlar?

Səndən mən ayrı düşmüşəm,
Neçə il həsrət çəkmişəm.
Özüm-özümdən küsmüşəm,
Bizdən küsmə, bizim dağlar.

Yurdumda qaçqın olmuşam,
Şəhərdən məskən salmışam.
Dərddən saralıb solmuşam.
Sən heç solma, bizim dağlar.

# ZAMAN ŞAHGƏLDİYEV



***Zaman Xanəhməd oğlu Şahgəldiyev*** *1929-cu ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olmuşdur. Qubadlının işğalından sonra Qaradağ rayonunda, sonra isə Sumqayıt şəhərində məskunlaşmışdı.*

*20 yanvar 2004-cü ildə doğma yurd-yuva həsrəti ilə dünyasını dəyişib. Ruhu şad olsun!*

## AY ZAMAN

Sinəsində boya-başa çatdığın,
Çəmənində çiçək üstə yatdığın,
Suyun içib, havasını udduğun,
O oylağı fələk aldı, ay Zaman!

Yağıların bir daş düşsün başına,
Həsrət qoydu torpağına, daşına.
Kim çıxardı öz yurdundan xoşuna?!
O oylağı fələk aldı, ay Zaman!

Neçə tufan görmüş baharı, yazı;
El qalıbdı doğma yurda tamarzı.
O qanlı gərdişin dönübdü üzü,
O oylağı fələk aldı, ay Zaman!

Dözməlisən başın daşa dəysə də,
Bənövşə düz baxır, boynun əysə də,
Bəxtindən qaçma sən səni söysə də,
O oylağı fələk aldı, ay Zaman!

İtirməsin Allah o cür zəhməti,
Çünki çox çəkmisən sən əziyyəti,
Səni saraldıbdı vətən həsrəti,
O oylağı fələk aldı, ay Zaman!

Allah qoysa gələr o şad günlərin,
Qubadlıda olar toy-düyünlərin.
Bir erməni deyil sənin düşmənin,
O oylağı fələk aldı, ay Zaman!





# YUSİF İSAYEV



***Yusif Veysəl oğlu İsayev*** *1940-cı ildə Qubadlı rayonunun Saray kəndində anadan olmuşdur.*

*Ağdam Kənd Təsərrüfatı Texnikumunu (1957), Kəncə Kənd Təsərrüfatı İnstitutunu (1967) bitirmişdir. Uzun müddət müxtəlif işlərdə və rəhbər vəzifələrdə çalışmışdır (1960-2011).*

*Qarabağ müharibəsi veteranıdır. Hazırda təqaüddədir.*

## KƏNDİMİZ

Ürək dözə bilmir, olmuşam candan,
Sumqayıtda məskunlaşıb qalandan.
Fikirləşib xəyallara dalanda,
Aman Allah, yada düşür kəndimiz.

Uşaq ikən oynayardıq, gülərdik,
Gəzib dağ-dərəni kəndə enərdik,
İsti vaxtda Bərgüşadda çimərdik,
Aman Allah, yada düşür kəndimiz.

Gəzib-dolaşardıq dağı-aranı,
Unuda bilmirəm Çaylı dərəni,
Ot-əncər basardı bizim örəni,
Aman Allah, yada düşür kəndimiz.

Barlı-bəhərliydi Bulaq dərəsi,
Ənciri, qorası, tər bənövşəsi,
Ora getmək hamımızın peşəsi,
Aman Allah, yada düşür kəndimiz.

Dağ-dərəni gəzib çaya enərdik,
Hərdən vaxt tapanda ov da edərdik,
Kəklik üçün Böyük düzə gedərdik,
Aman Allah, yada düşür kəndimiz.

Qara qaya idi çoban oylağı,
Yazı düzü xatırlardı yaylağı.
"Saray xanım" idi kəndin oylağı,
Aman Allah, yada düşür kəndimiz.

Hərdən Bərgüşaddan balıq tutardıq,
Sonra da bişirib məclis qurardıq.
Çox tutanda dost-tanışa paylardıq,
Aman Allah, yada düşür kəndimiz.

Hər gün yada düşür Dəhnə dərəsi,
Büsatıyla xoş edərdi hər kəsi.
Toy-büsat qurardıq qədr gecəsi,
Aman Allah, yada düşür kəndimiz.

Qocalı-cavanlı hamı şən idi,
Namuslu, qeyrətli gözəl kənd idi.
Düşmən yurdumuzdan bizi eylədi,
Aman Allah, yada düşür kəndimiz.

*06.11.2000.*

## NECƏ DÖZÜM

Köçkün olub var-dövləti itirdim,
Qismət məni haralara yetirdi.
Üstəlik də gül balamı itirdim,
Ay Allah, bu dərdə mən necə dözüm?!

Qohum-qardaş – hamı çaş-baş qalıbdı,
Ehtiyac onları dərdə salıbdı.
Hamı ümidlərə bel bağlayıbdı,
Ay Allah, bu dərdə mən necə dözüm?!

Məskunlaşıb bağçada yer tutmuşuq,
Az da olsa, şərait də qurmuşuq.
Gecə-gündüz yurdu anıb dolmuşuq,
Ay Allah, bu dərdə mən necə dözüm?!

Köçkünlük qoymayır ürəkdən gülək,
Vətən həsrətiylə döyünür ürək.
Ömür macal versə görüşəm gərək,
Ay Allah, bu dərdə mən necə dözüm?!





## MAMAOĞLU

***(Həmkəndlim və yaxın qohumum Hacı Nərimanoğlunun kəndmiz haqqında yazdığı şeirinə cavab)***

Kəndimiz haqqında şeir yazmısan,
Bəzi məqamları açıqlamısan.
O gözəl yerləri yada salmısan.
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Yadındamı kəndin Bulaq dərəsi,
Ənciri, qorası, tər bənövşəsi,
Gözəl idi Çaylı dərə meşəsi,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Çox vüqarlı idi Qara qayamız,
Orda məskən salmış ata-babamız,
İndi yad əldədi gözəl obamız,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Quyumuzda soyuq suyu içərdik,
Ot-əncəri Bərəherdən biçərdik.
Yay gələndə Vəli düzə göçərdik,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Qala səngər idi, çox düz deyirsən.
Bəzi məqamları yaxşı görürsən,
Niyə Səfər yerin adın çəkmirsən,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Bəy yerində hər il çəltik əkərdik,
Tirlərindən xeyli sılıf biçərdik,
Bəy yerinə çaylaqdan da keçərdik,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Nalparada qağam yonca əkərdi,
Çay daşanda su içində üzərdi,
Ancaq hər il orda kalış bitərdi,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Mal nobatı kimdə qaldı, deyirsən,
Kimdə qalıb, soraqlaşsan bilərsən.
Yaş ötdükcə çox məqamı görürsən,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Bal dadardı Toxmacanın gilası,
Alma bağın şaftalısı, alması,
Yaman dərddir yad əllərdə qalması,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Küskün qalıb orda Həsən kahası,
Görünür düşmüşük Allaha asi...
Onçün keçiririk qürbətdə yası,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Köçkün düşüb Sarayı tərk etmişik,
Hərəmiz bir yanda yuva qurmuşuq.
Qaçqınlıqda xeyli kəfən biçmişik,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!

Yaxşı günlər gördük öz kəndimizdə,
Gün olsun görüşək biz kəndimizdə.
Yenə qonşu olaq bir-birimizlə, -
Gözəl arzular var ürəyimizdə,
Gəl tərpətmə dərdlərimi, mamaoğlu!



**Saray kəndindəki Bulaq-abidə**





## SEVİNDİK MEHMAN



***Sevindik Mehman oğlu Salmanov*** *1963-cü il may ayının 8-də Qubadlı rayonunda anadan olub.*
*Ali təhsillidir. Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdır.*
*Qarabağ müharibəsi veteranıdır.*
*Beş kitab müəllifidir. S. Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür.*

### QUBADLIDAN UZAQLARDA İKƏN, YAXUD İYİRMİ İLLİK ƏSARƏTƏ GÖRƏ BİR DƏQİQƏLİK SÜKUT

*(yarımçıq esse)*

Budur, daha bir il də ötdü və biz, beləcə iyirmi illik bir ümidin arxasınca baxa-baxa qaldıq. İndi fikirləşəndə adama yuxu kimi gəlir. Sanki bunların hamısı bir göz qırpımındaca baş veribmiş. Bizimsə bu illər ərzində bolluca ümid və xəyallar içində yaşamağımız, əl üzə bilmədiyimiz inamımızın sındırılmış aynadakı inkasına oxşayır. Ortada nə görürük? Bu düyünü aça bilməyən (daha doğrusu açmağa çalışmayan) neçə-neçə siyasətçinin bol-bol vədlərindən başqa bir şey ortada yoxdu. Gözgörəsidi ki, bu saat dünya birliyi ölkələrinin əksəriyyəti,ələlxüsus da sözükeçən nəhəng dövlətlər Azərbaycan torpaqlarının bir hissəsi olan Dağlıq Qarabağın zorakı yolla Ermənistana birləşdirilməsinə qarşı deyillər. Əksinə, buna bir növ tərəfdardılar da, bu saat onları narahat edən başlıca məsələ isə bunun başqa cür yönü ilə bağlıdır. Madam ki, belədir, onda bəs biz nə etməliyik? Yenəmi onların qulaqlarımıza doldurduqları siyasi bəyanatlarını dinləyə-dinləyə qalmalıyıq?

Bir şeyi xüsusi olaraq qeyd etmək istəyirəm ki, bu saat, bizim yaşadığımız dönəmdə Yer üzünün çərxini kifayət qədər qeyri-ciddi adamların (o cümlədən də siyasətçilərin) əli ilə necə rahat bir şəkildə, gözgörəsi fırladırlar!.. Odur ki, indiki dünya

düzəminin bizim arzu və təsəvvür etdiklərimizdən ən azı yüz səksən dərəcə fərqlənməsi çox təbii bir şeydi, deyə düşünürəm.

Nə gizlədim, bu dəfə əlimə qələm alarkən, məqsədim birinci növbədə Qubadlının işğal günü sayılan 31 avqustla bağlı bir məqalə yazmaq idi, amma sonra gördüm ki, dərd-sərimiz çox böyükdür, bircə məqaləyə sığası deyil. Üstəlik yurd-yuvası yağmalanmış mən yaşda bir adamın bu barədə yazı yazması məqsədimdi,- deməsi, istər-istəməz özümə də gülməli gəldi. Yoxsa, bu gün əlimizdən çıxmış həmin o yerlərdən, onun uca dağlarından, buz bulaqlarından köks ötürə-ötürə danışmağımız da artıq mənasız bir şeydir? Yaxud bu saat uzun bir işğal statistikası sərgiləyməyə də ehtiyac qalmayıbdı?..

Mənsə, bu dəfə sizə yalnız Vətən həsrətindən söz açmaq istəyirəm və hiss edirəm ki, özümün bunları necə duyduğumu danışmağa ayrıca bir ehtiyac var.

Nə vaxtsa köhnə dostlarımdan biri, "dünyada ən ağır və ən böyük dərd vətən niskilidi",- deyəndə, bunun həqiqətən bu qədər əzablı bir şey olduğunu ağlıma da gətirməmişdim və belə hesab eləmişdim ki, bunların hamısı ötüb keçən bir şeydir. Çünki əvvəldən bu qənaətdəydim ki, heç bir işğal əbədi deyil və ola da bilməz. Onda torpaqlarımızın tezliklə azad ediləcəyinə ayrıca olaraq inanırdım. Amma indi üstündən nə az, nə çox, düz iyirmi il keçməsinə rəğmən, 93-cü ilin yayındakı dəhşətli işğallar barəsində, xüsusi ilə də həmin hadisələrin bəzi məqamlarından danışmaq istərkən, bunların hamısı həqiqətən adama yuxu kimi gəlir. Mənə qalsa, həmin yayın hadisələri həm özündən əvvəlki, həm də sonrakı hərb olaylarını təhlil etmək baxımından kifayət qədər ibratəmiz hesab edilməlidir.

Bu iyirmi illik ötən ömrümüzü andıqca, həm də fikirləşirəm ki, biz təkcə torpaqlarımızı deyil, bu illər ərzində üstəlik zamanımızı da itirmişik. Fərqinə varmadan, necə deyərlər, yata-yata, yaşaya-yaşaya hamısını fələyin xərcinə vermişik. Arxada qalmış o illərin hər məqamında nə qədər böyük vətən niskili varmış, İlahi!- deyə düşünürəm. Bunun bir ölçüsü varmı görəsən? Təssüflə deməliyəm ki, müasir dünyanın inkişaf səviyyəsi belə bunları müəyyənləşdirmək iqtidarında deyil. Üstəlik səmimiyyətdən, duyğusallıqdan dolayı, bunların konkret bənzərini təkcə sözlə ifadə eləmək həqiqətən çətindir. Məncə bu elə bir





duyğudur ki, onun bütün çalarlarını axıra kimi ifadə eləməkdən ötrü sözün gücü də kifayət etməz.

Bax, qardaşım, nə az, nə çox, dilimlə iyirmi il deyirəm. Axı zarafat deyil, ondan sonra düz bir igidin ömrünü yaşamışıq, özü də heç bir şey olmamış kimi... O illəri bir-bir aylara, həftə və günlərə, hətta saat və dəqiqələrə bölsək və hesab eləsək ki, bunların hər birindən bir həsrət daşı asılıb, onda görün Vətən niskili nə boyda bir ağır yük imiş. Necə bilirsiniz, sizcə bu niskil, bu ağrı iyirmi il ərzində ruhumuzu, şərəfimizi əzməyibmi?

Bu dəfə fikrimi bir qədər başqa cür ifadə etməyə çalışaram.

Mən orta nəslin nümayəndəsi sayılıram, çünki yaşım artıq əllini ötür. Uşaqlıqdan bəri iki şeylə məşğul olmaqdan ayrıca zövq almışam. Birinci növbədə mütailəni, ardınca da kino seyr eləmək olub xobbim. Məncə dünyanın, həyatın nə demək olduğunu ifadə etməkdən ötrü hər ikisinin imkanları üfüqlərəcəndi. Di gəl, bunların hamısı indi mənim hiss elədiklərimin yarısını da ifadə edə bilmir və bunların hamısında indiki yaşadığım, duyduğum vətən həsrətinin bir misqalı qədər ola, ya olmaya.

Bir-iki il qabaq dostlarımdan biri müjdə verirmiş kimi mənə dedi ki, o gün peyklə Qubadlıya baxırdım, sizin ev elə, bizim ev belə, filan bina, filan beşmərtəbə... hansını söküblər, hansı yanıbdı və sair və ilaxır. Bir sözlə, dediyindən belə çıxırdı ki, Qubadlı bu saat qəbirstanlığa oxşayır. Axırda mənə təklif etdi ki, ürəyin istəyirsə bir yerdə baxarıq. Dedim, istəmirəm. Ona görə ki, monitor ekranında ağlı-qaralı ləkələrin həqiqətən Qubadlıya aid olduğuna onsuz da inanmayacaqdım. Ya da xəyalımda o günə qədər yaşatdığım vətən görüntüləri birdəfəlik silinib gedər deyə, qorxurdum bundan. Öz-özümə dedim ki, qoy hər şey əvvəlki kimi qalsın. Yəni son dəfə 31-inin axşamı gördüyüm Qubadlını başqa heç nəylə dəyişmək fikrində deyildim...

Ümumiyyətlə, həmişə əsarətdə qalmış vətən haqqında fikirləşərkən ağlıma qəribə-qəribə şeylər gəlir. Misalçün, elə bil səmt yelləri əsdikcə hansısa tanış bir qoxunu gətirib burnuma doldururdu. Hər dəfə də fikirləşirdim ki, görəsən bu nə qoxudu belə? Ki, az qalır adamın ağlını başından alsın?! Siz yəqin inanmaszınız, sən demə, bu qoxu ağ akasiya çiçəyinin ətriymiş, mənə erkən məktəb illərimi xatırladırdı. Yadımdadı, qəsəbədəki köhnə səkkiz illik məktəbin həyətində bu ağaclardan on-on beşi vardı. Deyə bilmirəm bunları kim əkmişdi, amma mən gözümü

açandan bunları belə görmüşdüm. Hündür, qollu-budaqlı. Yaz vaxtları (əsasən də may ayı) barmaq boyda qızılı yarpaqları arasından üzüm salxımları kimi sallannan ağ çiçəklərinin ətri, necə deyərlər uzaqdan-uzağa adamın huşunu başından alırdı. Nə sirriydisə, mən bu iy-qoxunun lap əvvəldən vurğunuydum. Hətta neçə illər ötməsinə baxmayaraq, bu çiçəklərin ətri həmişə məni ilk məhəbbət qədər əziz və əlçatmaz olan bir ovqata qaytarırdı. Odur ki, Qubadlıdan sonra Azərbaycanın başqa bölgələrində akasiya ağaclarına rast gələrkən, necə deyərlər, unudurdum özümü, elə zənn edirdim ki, bu çiçəklərin ətri bu saat məni uzaq xatirələrimin qoynuna aparacaq. Fəqət, burdakıların nə iyi vardı, nə də qoxusu, düz sözümdü, bunlarda ordakı akasiya çiçəklərində duyduğum iy-qoxunun bir misqalı belə yox idi. Onda yaman qəribsəyirdim ordakı çiçəklərdən ötrü, o çiçəklərin ətrindən ötrü, necə deyərlər, lap burnumun ucu göynəyirdi. İnanın, məcazi mənada demirəm bunu, burnumun ucu həqiqətən də üşüməyə başlayırdı. Yəqin ona görə ki, mən o çiçəklərin qoxusunda, bir növ o yerlərin iyini duyacağıma çox inanırdım, birdən-birə başa düşdüm ki, bunların hamısı ağ akasiya çiçəyinin ətrinə bələnən, yaşanmış bir ömürmüş məndən ötrü, ta uzaqlarda qalıb, ya da ağızdan çıxan qəfil söz kimi bir də geri qayıtmayacaq... Qubadlıdan uzaqlarda ikən, ələlxüsus da işğalın ilk ayları ərzində onun iyini duymaqdan ötrü ən xırda bir təmasa, kiçicik bir işarəyə hədsiz dərəcədə möhtac olduğumu hiss edirdim. Bundan sonrakı ötən illər ərzində də tək bu duyğuyla yaşadım.

Doxsan beşinci ilin yazı idi. Bizim qərargah Haramı düzündəki Vəlixanlı dərəsi deyilən bir vadidəydi. Dörd tərəfini yamyaşıl, güllü-çiçəkli yaz otu bürümüş bu çökəkdə bir-birindən aralı beş-altı çeşmə çağlayırdı. Bunların yan-yörəsini qurd-quş yuvası kimi basmış ot lap dizə çıxırdı. Bir səhər gördüm ki, Həsənov Möhtəbər kərəntiylə otu biçib çığırları açır. Getdim yanına. Beş-altı addım aralıdan məni qəribə, tanış bir qoxu vurdu. Fərqinə varmadım, kərəntinin o birisini götürüb ot biçməyə girişdim və təxminən saat yarımdan sonra bulaqların yan-yörəsini tutmuş yaz otlarını lay-lay yerə yatızdırdıq. Qan-tər içindəydik. İşimizi qurtarmışdıq deyə, bundan sonra çeşmənin bumbuz suyunda yaxşıca yuyunduq. Geri qayıdanda isə bayaqkı tanış qoxu məni həqiqətən tutmuşdu deyə, özümü çox qəribə hiss etməyə başladım. Üst-başımdan tozlu biçənək otlarının iyi gə-





lirdi. Nə gizlədim, buna görə bir növ sehirlənmiş kimiydim də. Heç özümdə deyildim, axşamüstü, gün batandan sonra isə endim tezdən ot biçdiyimiz çökəyə. Ot laylarına sarı ehtiyatla, addım-addım yaxınlaşmağa başladım. Hər addımda mənə, ürəyimin sızıltılarına məlhəm olan bir qoxunun burnuma dolduğunu hiss edirdim. Başım sanki dumanlanırdı. Gün şüaları altında azacıq qurumuş biçənək otlarını ovcuma götürüb xışıldada-xışıldada burnuma toxundurdum. Az qaldı ağlım başımdan çıxsın. Bu, o idi, İlahi, Vətənin ətrini duyaram deyə, neçə il axtardığım o təkrarsız təmas! Bu saat yaz vaxtının erkən, təzə-tər yovşan qoxusu ilə yüngülvari qurumuş güllü-çiçəkli biçənək otlarının təkrarsız iyi bir-birinə qarışmışdı. Bilməzsiniz, o dəqiqə xəyalım haraları dolanmadı, nələri xatırlamadım?.. Çaş-baş kimiydim, bilmirdim bunlardan hansının ovqatına düşmək istəyirəm. Başım hərlənirdi. Batmağa tələsən günəş ılıq şəfəqləri ilə bu dəqiqə sanki gözlərimi qamaşdırırdı, odur ki, indi özümdəm asılı olmayaraq yummuşdum gözlərimi...

Bu dəm bütün fikir-xəyallarım bir an içində sapı qırılmış muncuq dənələri kimi tökülüb dağılmağa başladı. Bir qəfil taqqıltı duyub diksinən kimi oldum. Nədənsə o saat qorxa-qorxa yan-yörəmə boylanmaqdan özümü saxlaya bilmədim. Sən demə, bu qəfil taqqıltıya görə ağlıma min cür şey gətirməyim əbəs imiş, bayaq fikir-xəyal içində ikən bir dəqiqəlik sükuta dalmış qələmim, birdən-birə barmaqlarım arasından sürüşüb döşəməyə düşmüşdü. Nəzərlərimi bu yiyəsiz qalmış qələmdən ayırmadım, ona baxa-baxa qəfil qəhərli bir gülmək tutdu məni...

Bununla belə, mənə elə gəlirdi ki, iyirmi illik bir əsarətə görə bu bircə dəqiqəlik sükut daxilimdə tamamilə başqa bir ovqat oyadıbdı. Sözün düzü, bu yazını yazmağa başlayanda elə zənn etmişdim ki, bu niskilimi bircə dəqiqəlik də olsa ovundura biləcəyəm. Amma deyəsən tərsinəydi. Elə bil təzələnmişdi hər şey, öləziməkdə olan o tanış qoxunu təkrar olaraq duyurdum. Kim nə deyir qoy desin, məncə bu qoxu uzaqda qalmış dinc və əmin-əman bir keçmişin ətriydi. Qoy yovşan ətirli, biçənək qoxulu keçmişimiz yenidən qanımızı coşdursun deyə, ani olaraq düşündüm.

Bizim hamımızın...

# CƏMİLƏ MEHMANQIZI



***Cəmilə Mehman qızı Haqverdiyeva*** *1958-ci ildə Qubadlı rayonunda anadan olub.*

*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdır.*

*Ali təhsilli pedaqoqdur. Uzun illər dil və ədəbiyyat müəllimi işləyib. 2005-ci ildən təqaüddədir.*

*Hazırda "Dirilərə məzar yeri" adlı romanı çapa hazırlanır.*

## HƏSRƏT

***Qubadlı rayonunda İcra Hakmiyyətinın yerləşdiyi ərazidə yaşı 200 ildən çox olan qoşa çinar ağacı vardı***

Qoşa çinar -
gövdələri cadar-cadar,
budaqları qabar-qabar,
yarpaqları damar-damar.
Göydən yağan
"qırmızı" yağışdan,
Tənhalıqda canavar tək ulayan,
borandan, qışdan,
Bu çinarın çətirinə qan damar...
Əsir düşmüş qoca çinar
ətrafında həsrət, qubar,
neçə-neçə yarası var.
Gözü yolda,
Bu çinarın gözü yolda
Kürəyimi dayaq edib
gövdəsinə əvvəlki tək
bir dincimi ala bilsəm,
Həsrət dolu o yolları
Bürmələyib qucağıma sala bilsəm.
Sənin ollam, sən də mənim.
Çinar boylu,
Nəbi soylu
Qubadlım – ana yurdum,
doğma vətənim!








# MƏLEYKƏ İMAMQULUQIZI



***Məleykə İmamqulu qızı Şahmuradova*** *(Qurbanova) 1956-cı ilin may ayının 17-də Qubadlı qəsəbəsində anadan olmuşdur.*

*ADU-un kimya fakültəsini bitirib (1978) və 1982-ci ildən müəllim işləyib.*

*Gənc yaşlarından ədəbi yaradıcılıqla məşğul olur.*

*İki kitab müəllifidir və hazırda iki kitabı çapdadır.*

*Torpaqlarımızın işğalından sonra yaradıcılığı yurd sevgisi, Vətən həsrəti, torpaq yanğısı ilə köklənib. Şeirləri bir sıra şeirlər toplusunda, almanaxlarda, qəzetlərdə çap olunub. Bir çox publisistik məqalələrin müəllifidir.*

*Azərbaycan Yazıçı Qadınlar İB-nin üzvüdür.*

## MƏNİ

Allah, köksüm qəmdən qabar-qabardı,
Tale məni haralara apardı?
Yağı məndən torpağımı qopardı,
Qurtarın bu dərddən, bəladan məni.

Sinəm namərd oxlarına sipərdi,
Xainlərin çoxlarına çəpərdi,
Ürəyimdə vətən eşqi – təpərdi,
Belə yaradıbdır yaradan məni.

Kimsənin bağına daş atmamışam,
Ara qarışdırıb, baş qatmamışam,
Qurunun oduna yaş atmamışam,
Bu bəla tapıbdır haradan məni?..

Əsir torpaqlarım, bil, alınmasa,
Düşmənin gözünə mil salınmasa,
Əgər zəfər marşı tez çalınmasa,
Fələk aparacaq sıradan məni!

## QUBADLI

Hüsnünə çox heyran-heyran baxmışam,
Zirvələr eşqiylə dağa qalxmışam,
Bulaq tək durulub, sel tək axmışam,
Fəda olsun sənə gözüm, Qubadlı!

İllərdi düşmüşəm səndən aralı,
Olub nisgilindən qəlbim yaralı,
Gülmür, qan ağlayır dağlar maralı,
Yanında qaradır üzüm, Qubadlı!

Həsrətdən başımı boran-qar alıb,
Çöküb gözlərimə duman – qaralıb,
Qəlbim od püskürür, güman - qor alıb,
Necə ayrılığa dözüm, Qubadlı?!

Əl-ayaq çəkilib yamaclarından,
Nişana qalmayıb ağaclarından,
Qırqovul, kəkliyin, turaclarından,
Deməyə qalmayıb sözüm, Qubadlı!

Xəyalın canlanır dolan gözümdə,
Səni xatırlaram hər an sözümdə,
Hicran cığır salıb solan üzümdə,
Qoynundan silinib izim, Qubadlı!

Sən mənim and yerim, qibləgahımsan,
İlk ana beşiyim, sən dərgahımsan.
Ömrümün sonunda son pənahımsan,
Sənə qurban olum özüm, Qubadlı!





## QALAYDIM

Ayrılalı yarası köz olmuşam,
Aralıqda çox tənə – söz almışam,
Nadanlarla yaman üz-göz olmuşam,
Kaş Vətəndə daşa dönüb qalaydım!

Nəyə lazım soyuq künclər, bucaqlar,
Açılmayır istək dolu qucaqlar,
Sönübsə də yurd-yuvamda ocaqlar,
Kaş Vətəndə daşa dönüb qalaydım!

Yaşayaydım daş ömrümü Vətəndə,
Gözlərimdə yaş-ömrümü Vətəndə,
Açmaq üçün səhərimi Vətəndə,
Kaş Vətəndə daşa dönüb qalaydım!

Gəlişini görmək üçün baharın,
Dərələrdən aşıb-daşan suların,
Gül ətrini duymaq üçün dağların,
Kaş Vətəndə daşa dönüb qalaydım!

Mamırlanıb göyərəydim, göynəyib,
El-obamı dörd bir yanda görməyib,
Dərd içimdə alovlanıb, sönməyib,
Kaş Vətəndə daşa dönüb qalaydım!

Qalxa bilib dağlarımın qaşına,
İllər boyu zəhər qatmış aşıma,
Düşmək üçün yağıların başına,
Kaş Vətəndə daşa dönüb qalaydım!

## EY VƏTƏN

Ucalırıq - daş üstə daş qoyanda,
Qocalırıq - yaş üstə yaş sayanda,
Öc alırıq - yolunda baş qoyanda,
Uğrunda can verəm, öləm, ey Vətən!

Qoynunda gəlmişəm bu gen dünyaya,
Baharım bənzəyib şirin röyaya,
Budur, xəzan gəlib, yetiş haraya,
Üzünü bir görəm, öləm, ey Vətən!

Gərilmiş yay olam, ox kimi çıxam,
Sancılam dağına, zirvənə çıxam,
Görən harda yatıb o qaraçuxam,
Yamacına enəm, öləm, ey Vətən!

Gecələr Ayının haləsi olam,
Çəmənin xalısı, laləsi olam,
Nə ola, bir sənə dönəsi olam,
Çiçəyini dərəm, öləm, ey Vətən!

Bu qədər haradan tapdım dözümü,
Dərd üstə dərd gəlib, büküb dizimi,
Son kərə qovuşub, çatıb - özümü,
Torpağına sərəm, öləm, ey Vətən!





## ZAKİR ZAHİR



***Zakir Qaytaran oğlu İlyasov*** *1949-cu il aprelin 15-də Qubadlı rayonunun Abdalanlı kəndində anadan olub.*

*Naxçıvan Pedaqoji məktəbini bitirib (1971).*

*Hazırda Sumqayıt şəhər 33 saylı tam orta məktəbdə müəllim işləyir.*

*Azərbaycan Yazıçılar Birliyinin və S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür. Bir kitab müəllifidir.*

### GÖZƏL QUBADLIM

Sərin küləklərin, buz bulaqların,
Qoynunda gəzdiyim gözəl çağların,
Almalı, heyvalı, narlı bağların,
Yadıma düşübdür, gözəl Qubadlım.

Dumanın, çiskinin başımın tacı,
Güneyin kəkliyi, düzün turacı,
O daşlı, kəsəkli, kollu yamacın,
Yadıma düşübdür, gözəl Qubadlım.

Yaman darıxıram bənövşən üçün,
Hərdən ağlayıram mən için-için.
Yurd yerində qalan sahibsiz köçün...
Yadıma düşübdür, gözəl Qubadlım.

Nəbinin, Şirinin, Teymurun izi,
Bəzən at mindiyim Yazının düzü,
Atamın öyüdü, anamın sözü,
Yadıma düşübdür, gözəl Qubadlım.

Basılmaz qalaydın, bilənlər bilir,
Dərdin ürəyimi ox kimi dəlir.
Zakirəm, ay ellər, qəlbim göynəyir,
Yadıma düşübdür, gözəl Qubadlım.

## SÖYLƏ

***Qələm dostum, gözəl insan, şair Qafqaz Əvəzolunun qaçqınlara «Nə dərdiniz var?» deyənlərə yazdığı «Soruş» seirini oxuyarkən.***

Nadan bilməz Vətən nədi, el nədi,
Çəmən nədi, çiçək nədi, gül nədi,
Heç kəs çəkməz sən çəkdiyin o dərdi.
A qardaş, dərdini qanana söylə,
Ürəkdən halına yanana söylə.

Ağ sürüsü yad qapıda mələşmir,
Bizim kimi xeyir-şərdə görüşmür,
Vətən beləsinin yadına düşmür,
A qardaş, dərdini qanana söylə,
Ürəkdən halına yanana söylə.

Motalı qalmayıb, yağı qalmayıb,
Bağçası qalmayıb, bağı qalmayıb,
Laləli, nərgizli dağı qalmayıb,
A qardaş, dərdini qanana söylə,
Ürəkdən halına yanana söylə.

Çovğuna düşməyib, qara düşməyib,
Hələ kef eləyir, dara düşməyib,
Fələyin atdığı tora düşməyib,
A qardaş, dərdini qanana söylə,
Ürəkdən halına yanana söylə.

Ocağın üstündə sacı qalmayıb,
Didərgin olmayıb, qaçqın olmayıb,
Bir qaranlıq yerə işıq salmayıb,
A qardaş, dərdini qanana söylə,
Ürəkdən halına yanana söylə.

Zakirəm, sözümün mənası dərin,
Sözündən incimə sən hər sərsərin.
Sən şair oğlusan bizim ellərin,
A qardaş, dərdini qanana söylə,
Ürəkdən halına yanana söylə.





## QUBADLIYA GEDƏYDİK

*Şair, həkim Samir Mərdanoğlunun «Bir sevgi istəyirəm» kitabını oxuyarkən*

Qara duman o dağlardan çəkilə,
Yol qırağı xan çinarlar əkilə,
Tut yetişib öz dibinə tökülə,
Dizimizi yerə qoyub yeyəydik,
Doğma yurda – Qubadlıya gedəydik.

Qartalları zirvələrdə qıy vura,
Əlik pörtüb, gədiklərdə bir dura,
Demə şair, tələsirsən sən hara?
Kaş o yurdun keçmişini görəydik,
Doğma yurda – Qubadlıya gedəydik.

Zəngilanım xəyallara dalıbdır,
Kəlbəcərin yanaqları solubdur,
Gör, İlahi, Laçın kimə qalıbdır?
O Turşsuyun baldırğanın dərəydik,
Doğma yurda – Qubadlıya gedəydik.

Füzulinin, Cəbrayılın düzləri,
Xan əminin Şikəstəsi, sözləri,
Sinəmizdə Xocalının izləri,
Bilən varsa, desin necə dözəydik?
Doğma yurda – Qubadlıya gedəydik.

Qarabağın dərdi dünya qədərdi,
Fil də çəkməz yükləsələr o dərdi,
Görüm ölsün hiyləgəri, namərdi,
Biz sevinib, şirin şərbət içəydik,
Doğma yurda – Qubadlıya gedəydik.

Ağdam, Şuşa, Cıdır düzü, Daşaltı,
Dərman idi kəklikotu, yolotu,
Müjdə gəlib sevindirə elatı,
Dəli Kürdən, Xan Arazdan keçəydik,
Doğma yurda – Qubadlıya gedəydik.

Sənin sevgin, məhəbbətin ordadır,
Bir alagöz şirin dilli yardadır.
Samir, demə o bəxt məndə hardadır?
O toy günü, biz əl çalıb güləydik,
Doğma yurda – Qubadlıya gedəydik!

## HƏRTİZ

***(Hərtiz dağı Qubadlı rayonundadır)***

Sən də qərib, mən də qərib,
Boylanırsan hara, Hərtiz?
Qartalların uçub getdi,
Qismət oldun sara, Hərtiz.

Sərin suyun, təmiz havan,
Səni anar qoca, cavan,
Kim unudar səni bir an,
İstər axtar, ara, Hərtiz.

Ətəyində elat gəzməz,
Başın üstə qartal süzməz,
Heç bu dərdə fil də dözməz,
Oldun bəxtiqara, Hərtiz.

Ululardan yadigarsan,
Bir səngərsən, bir qalasan.
Ayrılığı sanma asan,
Sinəm olub yara, Hərtiz!

Çəmənində at otlamaz,
Gül bülbülə edərmi naz?
Kaş deyirəm bu gələn yaz,
Mən gələydim ora, Hərtiz.

Kəkliklərin yasa batar,
Durnan ötər qatar-qatar.
Yenə əlim sənə çatar,
Düşsəm də hey dara, Hərtiz!

*1997*



***Qubadlı - univermaq***





***Daş heykəllər***



***Həkəri çayı***



***Səlkin dağı və Teymur Müskanlı kəndi***



*Qubadlı rayonu, Tatar kəndi*

*Qubadlı rayonu, Aşağı Xocamsaxlı kəndi*





*Sarıyataq ərazisindən görünüş*



*Mirlər kəndi*

*Saldaş kəndi*





*Əliquluuşağı kəndi Lalazar körpüsü*



*Dağ kəndi Amuduq*



*Dondarlı kəndi*



*Əyin və Çardaxlı kəndləri*



*Bərgüşad çayı*



*Xələc kənd şəlaləsi*



*Bərgüşad çayı üzərində şəhər körpüsü*



*Diyarşünaslıq muzeyi, toxuculuq guşəsi*

*Həsrət dolu bu illərdə Qubadlı əhalisi ölkəmizdə vüsət almış tikinti-quruculuq işlərindən də kənarda qalmayıb...*



***Qubadlı rayon F. Mehdiyev adına Qaralar kənd tam orta məktəbi (Bakı şəhərində)***



***Qubadlı şəhər Q. İlyasov adına 1 saylı tam orta məktəbi (Sumqayıt şəhərində)***



***Qubadlı rayon Mərkəzi xəstəxanası (Sumqayıt şəhərində)***




***Qubadlı rayon İcra Hakimiyyətinin binası (Sumqayıt şəhərində)***



***İ. Məmmədov adına Aşağı Mollu kənd tam orta məktəbi (Abşeron rayonunda)***



***Qubadlı rayon H. Quliyev adına Texniki fənlər təmayüllü Çaytumas məktəb liseyi (Sumqayıt şəhərində)***



# ZEYNƏB NÜSRƏTQIZI



***Zeynəb Nüsrət qızı Məmmədova*** *Qubadlı rayonunun Abdalanlı kəndində dünyaya göz açıb.*

*N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. Hələ rayonda ikən dil-ədəbiyyat müəllimi işləyən Zeynəb Məmmədova 1990-cı ildən taleyini Sumqayıtla bağlayıb. Gənc nəslin təlim-tərbiyəsində onun da əməyi var.*

*Dörd kitab müəllifidir.*

## DÜŞMƏNLƏRƏ LAYLA ÇALMA, BƏRGÜŞAD

Necə düşmənlərə qaldı dövlət-var,
Hər bir zülmü tarixlərə yazan var,
Bundan belə dinclik tapmaz oğullar,
Hal-əhvalı heç olarmı bircə şad?
Düşmənlərə layla çalma, Bərgüşad!

Söyüdlərin indi salxım sallamaz,
Axşamüstü pıçıltını anlamaz,
Quşlar uçar, daha yuva bağlamaz,
Hara getdi o çal-çağır, toy-büsat,
Düşmənlərə layla çalma, Bərgüşad!

Çöl-çəməndə elin qərib izləri,
Ahın eşit atlaz donlu düzlərin,
Əməllərin gördün murdar üzlərin,
Qəlbindimi, sahilindi verən çat,
Düşmənlərə layla çalma, Bərgüşad!

Gül-çiçəklər ətirini itirər,
Dağ-dərələr çətirini itirər,
Nəğmələrim sətirini itirər,
Qubar, həsrət düzümlənər hər saat,
Düşmənlərə layla çalma, Bərgüşad!

Söyləyəsən ağır gələn ilə nə -
Elə hicran düyümlənir sinədə.
Həsən Qorxmaz nəğmə deyər yenə də,
Bu nəğmənin arzusuyla elə yat,
Düşmənlərə layla çalma, Bərgüşad.

Ərənləri var imiş bu diyarın,
Ruhu gülər şux qamətli Əlyarın,
Əlbət yurdum bir gün tapar baharın,
Yenə çapar gen düzlərdə kəhər at,
Düşmənlərə layla çalma, Bərgüşad.

Nəbi yurdu alov tutub yansa da,
Həqiqət var, düşmən onu dansa da,
Qisas alar körpəmizə qalsa da,
Belə getməz, davam etməz bu həyat,
Düşmənlərə layla çalma, Bərgüşad!

## BU YARA SAĞALMAZ

Elin igidləri gəlir tabutda,
Qəbirlər günbəgün artıq, çoxalır.
Nəydi günahımız axı həyatda,
Hər yurd şəhidlərə xiyaban salır.

Köçən Cavanşirim, Babəkim saysız,
Dəfnində səsləndi nişanı, toyu.
Köçdü igidlərim vüsalsız, paysız,
Bu yara sağalmaz min illər boyu.

Neçə qərənfillər gözləri yaşlı,
Qəbirlər üstündə şivən qopardı.
Oğullar analar basdırmalıydı,
Analar çiynində tabut apardı.





Başını dik tutdu o an analar,
Amma ömürləri oldu yamyarı.
Bu yurda çox qurban getdi çavanlar,
Qəbirə qoyuldu nişan paltarı.

Hər ölən igidlə soldu bir gözəl,
Qüssəyə büründü cavan yaşında.
Tənha bənövşə tək qaldı bir gözəl,
Namusu üstündə, ağlı başında!

Beləcə çətinmiş azadlıq yolu,
Analar Vətənin önündə çökür.
Gavur qızlarını sevən türk oğlu,
Sənin günahını bu gün el çəkir!

Bu azğın düşmənlər bilərək, qəsdən,
Yaman tapdaladı çox haqqı-sayı.
Çəkdi sinəmizə dağı dağ üstdən,
Bu yara sağalmaz min illər boyu!
Bu yara sağalmaz min illər boyu!

## QUBADLI

Qibləsi var, cığırın da, yolun da,
El hünəri, ev qüvvəsi qolunda.
Qaçaq Nəbi öz amalı yolunda,
Döşəksiz də dağda yatdı, Qubadlı.

Neçə heykəl danışdırsan dinəndi,
Elə bilmə Süleymanım öləndi,
Şair Qasım yurda bir də dönəndi,
Elə bilmə səni atdı, Qubadlı.

Düzlərində şahə qalxar kəhər at,
Sünbüllərin dalğalanar min büsat,
Laylasında bəlkə elə Bərgüşad,
Bizə azca ilham satdı, Qubadlı?!

## BƏRGÜŞADI İSTƏYİRƏM

Gümüş kimi parıladayan,
Qırıq-qırıq pıçıldayan,
Hər yana sərinlik yayan,
Bərgüşadı istəyirəm.

Zümzüməsi dodağımda,
Şirin neyi qulağımda.
Uzaq düşdüm bu çağımda,
Bərgüşadı istəyirəm.

Dəlisov at kimi çapan,
Aya hopan, ilə hopan,
Hər könülə sevinc yapan,
Bərgüşadı istəyirəm.

Təkcə xəyal gedib-gəlir,
Bağrımın başını dəlir,
Qəlbdə həsrət düyümlənir,
Bərgüşadı istəyirəm.

Həzin-həzin nəğmə çala,
Arzu, dilək qanadlana,
Qolunu boynuma sala -
Bərgüşadı istəyirəm.

Döz desə də qardaş-bacı,
Onsuz günlər olub acı.
Qubadlımın Qızıl tacı,
Bərgüşadı istəyirəm!

## BİR "CƏNGİ" ÇAL, AŞIQ QARDAŞ

Bu da ömür, bu da günmü,
Şəhidlərim yüzmü, minmi,
Babək ata niyə minmir?!
Bir "Cəngi" çal, aşıq qardaş!

Ula, Boz qurd, iki gözüm,
Özümü tapmışam özüm,
Daha çatmır səbr, dözüm,
Bir "Cəngi" çal, aşıq qardaş!

Dağ-dərələr dilə gəlsin,
Qoç Koroğlu sinə gərsin,
Qaçaq Nəbi ünə gəlsin,
Bir "Cəngi" çal, aşıq qardaş!

Səf bağlasın ərənlərim,
Gözüylə od görənlərim,
Yurd qədrini bilənlərim,
Bir "Cəngi" çal, aşıq qardaş!

Günəş dağlardan boylansın,
Ərəbzəngi oyansın,
Ərənlərin havalansın,
Bir "Cəngi" çal, aşıq qardaş!

Yenə bədöylər kişnəsin,
Misri qılınclar işləsin,
Gavur qarşıda titrəsin,
Bir "Cəngi" çal, aşıq qardaş!

Düşmən nabələd dəstinə,
Dolub yurdumun qəsdinə,
Dağ çəkilib dağ üstünə,
Bir "Cəngi" çal, aşıq qardaş!





## ELDAR XANLAROĞLU



*Eldar Xanlar oğlu Hüseynov 3 may 1954-cü ildə Qubadlı rayonunun Göyərcik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət İncəsənət Universitetini bitirmişdir.*

*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb. Hazırda Qubadlı rayon Mədəniyyət və Turizm şöbəsində çalışır.*

*S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür. İki kitab müəllifidir. Bir çox mükafat və "Fəxri fərman"larla təltif olunmuşdur.*

### BAYATILAR

*(şəhidlərimizə və el-obamıza)*

Əsən bir mehdi, hanı?
Kim pozdu əhdi, hanı?
Bir elin yiyəsiydi,
Çağırdım, Mehdi hanı?

Əzizim, içdi getdi,
Gülləri biçdi getdi.
Düşdü ömür atından,
Çingizim köçdü getdi.

Nə haldayam bil, yarım,
Gör halımı, gəl, yarım.
Əsirgəmə göz yaşın,
Şəhid oldu Əlyarım.

Əziziyəm qan ağlar,
Qul hönkürər, xan ağlar.
Dağlar da haray çəkib,
Ağlayar səni, Xanlar.

Doğmanın da, yadın da,
Yandı yanan odunda.
Bir igid itirmişik,
Kazımağa adında.

Əziziyəm, bu qəmi,
Gəlməz mənə görəmi?
Çıxıb, vətən adından,
Haraylayım Kərəmi.

Əziziyəm, çən gəlməz
Dəyirmana dən gəlməz.
Gedənlər geri döndü,
Bəhmənim nədən gəlməz?

Əzizinəm, gülməyib,
Yağı məni bölməyib.
Sağdı ürəyimizdə,
Qorxmazım ki, ölməyib.

Bitməz qorxunc nağıllar,
Qalmaz yurdda yağılar.
Bu yurda arxa olar,
Vasili tək oğullar.

Düşmənlərə daş ayır,
Vurulmağa baş ayır.
Ölümləri yalandır,
Qəhrəmanlar yaşayır.

Hər düşəndə yadına,
Sən oğul de adına.
Haray çəkdi el-oba,
Səfa yetdi dadına.

Qarağac, sulu dərə,
Hərəsi bir mənzərə.
Batıq zağlıq çala yer,
Bənzər ölməz əsərə.

Yurda yuva qarabat,
Gəz meşəni, qara bat.
Seytas viran olubdu,
Buna şahid Anabat.

Qoy açılsın bu hava,
Bitsin tezcə bu dava.
Mistan unudulsa da,
Yaddan çıxmaz Xallava,

Səbzi, soğan, maldili,
Məskənidir Cibikli.
Göyərabasa arxa,
Düşmənə ox Cibikli.

## GÖYƏRCİYİM, SƏLKİN DAĞIM

Bizdən uzaq düşən dağlar,
Dilim deyər, könlüm ağlar,
Nə şirinmiş sənli çağlar,
Göyərciyim, Səlkin dağım.

Düşmənlərlə barışmazsan,
Əsarətə alışmazsan,
Hər nə sorsam, danışmazsan,
Göyərciyim, Səlkin dağım.
ö
Meşələrin zümrüd gözlü,
Hər bir daşın ərən üzlü,
Buludların şirin sözlü,
Göyərciyim, Səlkin dağım.

Ziyarətgah ulu pirim,
İmamzadə bir and yerim,
Böyük sehrim, ulu sirrim,
Göyərciyim, Səlkin dağım.

Bu həsrəti vurub yıxım,
Yollarına bir də çıxım,
Kimi qalıb görüm, baxım,
Göyərciyim, Səlkin dağım.

Söhbətimdə, sözümdəsən,
Göz yumanda gözümdəsən,
Qırış kimi üzümdəsən,
Göyərciyim, Səlkin dağım.





Xoşdur mənə hər bir çağın,
Bərgüşaddı xoş sorağın.
Son yerimdir gül torpağın,
Göyərciyim, Səlkin dağım.

## YADDA SAXLA

Yağı düşmən, unutma sən,
Hər qarışı tarix olan,
Bu yurdumda bil ki, heçsən!
Unutma ki,
Axan sellər durulacaq,
Ayrılacaq qara ağdan
Mən gəlirəm qaçın, demə.
Verin mənə Şuşa adlı bu qalanı,
Qapısını açın demə
Qatma yenə fəsadınla dağ-aranı,
Sən Zəngilan, Laçın demə.
Bil ki, sənə qalmayacaq
Qaytaracaq qızım, oğlum,
Füzulini, həm Ağdamı, Qubadlımı,
Köhnə yurdum İrəvanı.
Sökdüyünü tikəcəyik,
Bir-bir qırıb xaçlarını
Gorun üstə tökəcəyik.
Unutma sən,
Qəzəbimlə açılacaq
sabahlar var,
Sənin qara başın üstə,
Çəkiləsi min ahın var.
Unutma sən,
Yerdə sənə qənim mənəm,
Göylərdəsə bir Allah var.
O gününə otur ağla,
Dediklərim, bil, olacaq,
Yaxşı-yaxşı yadda saxla!

## BALAKİŞİ SARIYEV



***Balakişi Qulu oğlu Sarıyev*** *1929-cu ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olmuşdur.*

*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdı.*

*7 dekabr 2009-cu ildə doğma, yurd-yuva həsrəti ilə dünyasını dəyişib. Ruhu şad olsun!*

### AĞLARAM

***həmkəndlim şair Qafqaz Əvəzoğluna***

Şair, necə dözüm, söylə, bu dərdə,
Etibar görmədim qönçə güllərdə.
Dərd əlindən mən gəzirəm çöllərdə,
Tapılmır dərdimə dərman, ağlaram!

Qadir Allah dərgahına üz tutdum,
Bu xəstə qocaya bir dərman umdum.
Axır yalvarmaqdan tamam yoruldum,
Qəmlərə qərq olub hər yan, ağlaram!

Dedim, Allah, mən qocaya rəhm elə,
Dönüb dərd əlindən göz yaşım selə.
Adilsən, Kərəmsən, göndər bir belə,
Qəlbləri şad edən fərman, ağlaram!

Oldum yar yanında mən bəxtiqara,
Sinəmə vuruldu düyünlü yara.
Təbib yox dərdimə eyləyə cara,
Tökülür gözümdən al qan, ağlaram!

Qafqaz, Başəmini gətirdin coşa,
Həsrətimiz birdi, dərdimiz qoşa.
Bizlərin bəxtləri çırpılıb daşa,
Gəl bu qədər çox üzmə can, ağlaram!

***

***(bir nəfərə)***

Ey qafil, bilmirsən hələ dərd nədir,
Gəl tərpətmə yaralanmış könlümü.
Ayrı düşdüm vətənimdən, elimdən,
Ağ görmədim qaralanmış könlümü!!





## ƏŞİR BƏŞİROĞLU



***Əşir Bəşir oğlu Fətəliyev*** *3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. Bakı Statistika Texnikumunu, sonra APİ-ni (indiki APU) bitirmişdir.*

*"Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "Azərbaycan bayrağı", "H.Z.Tağıyev", "H.B.Zərdabi" və "Şərəf" media mükafatları, diplomları ilə təltif olunmuşdur.*

*Azərbaycan KİVİHİ-nin və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. On dörd kitab müəllifidir.*

### YURD HƏSRƏTİ

Əziz vətənim, doğma Qubadlım,
Yenə bülbül oxurmu bağında?
Gül-çiçəyin açırmı dağında?
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?

Yəqin, günəş doğmur, ay da çıxmır,
Bulaqlar quruyub, daha axmır.
Çoxdan küsüb, onlar bizə baxmır,
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?

Çölündən quşlar uçub uzağa?
Cüyür-ceyranın düşüb sazağa?
Yəqin, sürülərin gəlmir duzağa,
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?

Hardadır sənin Nəbin, Həcərin?
Tezləşdirə düşmənin əcəlin,
Özünə qazdıra öz məzarın,
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?

Əşir, yaşın ötüb qocalmısan,
Sən də o torpaqdan güc almısan.
Kaş orda dünyaya göz yumasan,
Arzuya çatıb, kama yetəsən.
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?

## SƏNƏ DAĞLAR

Yağı saldı qana məni,
Bərkdə, boşda sına məni,
Sən haqlısan, qına məni,
Qorumadım səni, dağlar.

Adıma "qaçqın" deyilib,
Qamətim tamam əyilib,
Neçə yerə səpələnib,
Mənim elim, obam, dağlar.

El-obamda nərçə idim,
Qürbət eldə hey kiçildim,
Zəmitək vaxtsız biçildim,
Günüm dönüb ilə dağlar.

Gözlərim yollara baxır,
Damla-damla qanı axır.
Düşmən mənə güllə çaxır,
Mən həsrətəm sənə, dağlar.

Əşir baxır sinə dağlı,
Vətənimin yolu bağlı,
Vuqarını saxla barı,
Üzün gülər yenə dağlar.





## BƏNDALI İBRAHİMOV



***Bəndalı Məhəmməd oğlu İbrahimov*** *1947-ci ilin iyun ayının 20-də Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

*Qubadlı rayonu işğal olunduqdan sonra Bakı ətrafında məskunlaşmışdı.*

*Doğma Qubadlı, yurd-yuva həsrəti ilə 2008-ci ilin sentyabr ayının 15-də dünyasını dəyişib. Ruhu şad olsun!..*

## KÖNLÜM O YERLƏRİN SORAĞINDADIR

Ha olsun Bakı da, Xəzər də gözəl,
Könlüm o yerlərin sorağındadı.
Qubadlım gözəldir hər yerdən əzəl,
Könlüm o yerlərin sorağındadı.

Suyundan içəsən, kabab yeyəsən,
Havasın udasan, oxay deyəsən,
Adına yaraşmaz heçdir deyəsən,
Könlüm o yerlərin sorağındadı.

Ürəyim sızlayıb yadıma saldı,
İgidlər yurdunu yağılar aldı,
Mir Sədi məzarı qürbətdə qaldı –
Könlüm o yerlərin sorağındadı.

Hər yanda qaçqınlar dəstə-dəstədi,
Çoxu köç eyləyib, çoxu xəstədi.
Bəlkə qaytardılar – qulaq səsdədi,
Könlüm o yerlərin sorağındadı.

Bəndalı, kəsilsin leysanlar, sellər,
İşləsin dəryazlar, işləsin bellər...
Tanrım kömək olsun qayıtsın ellər,
Könlüm o yerlərin sorağındadı!..

*1994*

## ÜRƏYİMDƏ

Bilin, vətən, yurd həsrəti,
Dərd eyləyib ürəyimdə.
Gələcəyi Allah bilər –
Nələr əkib ürəyimdə.

Saf havası, təmiz suyu,
Aləmə bəllidir soyu.
Bayramları, hər bir toyu,
El cəmləşib ürəyimdə.

"Çay zəmi"si, buz bulağı,
Əriməzi, Keçəl dağı,
Baldırğanı, quzqulağı,
Kol-kol bitib ürəyimdə.

Yaş əllidən ötüb belə,
Qar yağıbdır qara telə.
Ay Allahım, kömək elə,
Arzum solub ürəyimdə.

İstəmirəm varım ola –
Mir İsmayıl karım ola,
Tək bir Allah yarım ola,
Şəfa tapa ürəyim də.

Zəmanə dəyişib yaman,
Bəndalı, gəl umma aman.
Dost dosta olubdu düşman,
O da qalıb ürəyimdə

*1994.*

## ÖL QUBADLIDA

Dedim, könlüm, belə cövlan eyləmə,
Çalış ki, son nəfəs al Qubadlıda.
İgid Nəbi kimi, Həcər qeyrətli,
Ərənli, gəlinli el Qubadlıda.

O avqust – 93 bizə qaradı,
Açıb ürəyimi, bir bax, yaradı.
Bilmirəm şəhərdi, yoxsa haradı...
Yaşamaq istəsən ol Qubadlıda.

Dostum, o yerləri sən məndən soruş,
Yaz gələndə qonağıdır qaranquş...
Çox da pis keçməyir o yerlərdə qış,
Yayında Əyində qal – Qubadlıda.

Seyr et Başaratı, o dağları süz,
Bərgüşad bir gözdü, Həkəri bir göz.
Adamları gözəl, əməlləri düz,
Cənnətdi, yerini sal Qubadlıda.





Hərdən "Çay zəmi"ni gəzib gələsən,
Dərdin varsa, dostlarınla böləsən.
İnsaf deyil, başqa yerdə öləsən,
Döz birtəhər, gedib, öl Qubadlıda

Bəndalı, sözlərin getməsin hədər,
Gecələr yatmırsan səhərə qədər,
Yuxular görürsən hərdən bir təhər,
Gəzirsən dağ-dərə, yal Qubadlıda!

*06.12.1995.*

## DAYANMA ÜRƏYİM

Tanrım özü sənə qoy kömək olsun,
Dayanma ürəyim, dayanma hələ.
İndi döyüş gedir, xəstəlik nədi,
Dayanma ürəyim, dayanma hələ.

Qız-gəlin çöllərdə – ayaqlar yalın,
Axan göz yaşları dönübdü selə.
Hamı sən dərdlidir – kim sorsun halın?
Dayanma ürəyim, dayanma hələ.

Füzuli, Kəlbəcər, bir də Cəbrayıl...
Tamam səpələnib Muğana, Milə.
Ay vətən övladı, gec deyil, ayıl! –
Dayanma ürəyim, dayanma hələ.

Bir kənd ha deyil ki, yasın tutasan,
Zəngilan, Qubadlı, Laçından belə...
Vətən əşya deyil alıb-satasan –
Dayanma ürəyim, dayanma hələ.

Bəndalı, az tənə eylə ellərə -
Elə bil qar yağıb qara tellərə.
Bəlkə yenə döndün doğma yerlərə,
Dayanma ürəyim, dayanma hələ.

*1994.*

## DAĞLAR

Çox şairlər olub burda,
Azdı səndən yazan, dağlar.
Əvvəl-axır gəlib yurda,
Cığırından azan, dağlar.

Uca başın dümağ qardı,
Ətəyində dövlət-vardı,
Tale özü sənə yardı,
Yaşı ulu olan dağlar.

Bir zinətdir "Qara göl"ün,
Duman-çiskin, hərdən selin,
Lalə, nərgiz, qərənfilin,
Hər bir daşın, qayan, dağlar.

İgidlərə səngər oldun,
Qış boşaldın, yayda doldun,
Həmişəlik qərib qaldın,
Mən tək qərib qalan dağlar.

"Arançı"nın buz bulağı,
Baldırğanı, quzqulağı...
Heç sağalmaz sinəm dağı,
Bəlkə dönə cahan, dağlar.

Bəndalının xoş məlalı,
Ürəyi dərddən yaralı,
Pisləşəndə onun halı,
Ola sizə mehman, dağlar.

*2000*



***Mahmudlu kəndindən***





## FLORA İBRAHİMOVA *(Nuriyeva)*



***Flora Piri qızı İbrahimova** 1947-ci ilin avqust ayının 28-də Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

### ÜMİD SƏNƏ QALIB, ALLAH!

Talandı Vətənim, yaman talandı,
Üstündə od-ocaq qalandı, yandı.
Yurddan ayrılmışıq xeyli zamandı,
Deyirlər, dönərik! Gümandı, Allah,
Ümid sənə qalıb, amandı, Allah!

Üstündə dığalar gəzir, oynayır,
Yadıma saldıqca sinəm göynəyir.
O qərib məzarlar yaman sızlayır –
Deyirlər, dönərik! Gümandı, Allah,
Ümid sənə qalıb, amandı, Allah!

Vətənim dardadır, bizi səsləyir,
Analar qurbanlıq qoyun bəsləyir,
Qocalar vətəndə ölmək istəyir –
Deyirlər, dönərik! Gümandı, Allah,
Ümid sənə qalıb, amandı, Allah!

"Qaçqınlar" deyəndə toxunur mənə,
Xəyalım dolanır çölə-çəmənə.
Nə olar, Allahım, dönək vətənə,
Deyirlər, dönərik! Gümandı, Allah,
Ümid sənə qalıb, amandı, Allah!

*1998.*

## RUHUN ŞAD OLSUN

*Dünyasını vaxtsız dəyişmiş əziz
bacım Kifayətə ithaf edirəm*

Kaş ki, mən dönəydim uçan bir quşa.
Səni ziyarətə gələ biləydim.
Xoşbəxtsən, ay bacı, qaldın vətəndə -
Mən də sənin kimi ölə biləydim!

Niskilin qəlbimdə, dərdin qəlbimdə,
Xəyalın qəlbimdə, fikrin qəlbimdə.
İncimə, ay bacım, gələ bilmirəm,
Qalıb yurd-yuvamız düşmən əlində!

Mən səni, inan ki, xoşbəxt sanıram,
Vətən qucağında qaldığın üçün.
İnşallah, vaxt gələr, dönüb vətənə,
Səni ziyarətə gələrəm hər gün.

İlahidən arzum budu,
Yurd-yuvamız azad olsun.
Bizim dərdli ürəyimiz,
Sizin ruhunuz şad olsun!

*1998.*



***Mahmudlu kəndindən:***
***Seyid Məcidin və Əmikişi müəllimin (Quliyev) evləri***





# NAİLƏ İMANLI



***Nailə Məmmədrza qızı Məmmədrzayeva*** *5 mart 1934-cü ildə Qubadlı rayonunun Qayalı kəndində anadan olmuşdur.*

*1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsini bitirmişdir. Uzun müddət – təqaüdə çıxana qədər gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur.*

*Qubadlı rayonunun işğalından sonra Bakı şəhərində məskunlaşmışdır. Dörd kitab müəllifidir.*

## QALIB YAĞIYA

İllərlə qazanıb nə var yığdığım,
O malım-dövlətim qalıb yağıya!
O dolu bostanım, o barlı bağım,
O cür ev-eşiyim qalıb yağıya!

Haçandı ürəkdən gülə bilmirəm,
Huş gedib, özümə gələ bilmirəm,
Ölmək istəsəm də, ölə bilmirəm,
Doğma yurdum-yuvam qalıb yağıya!

Heç kəsə bir qarış yer verməz idik,
Həyat-bacamızdan əsla keçməzdik,
Bunu ağlımıza heç gətirməzdik,
Aranım, yaylağım qalıb yağıya!

Mir Sədi ocağım tapdaq olubdu,
Saçlı söyüdlərim saçın yolubdu,
Barlı bağ-baxçalar indi solubdu,
Yaşıl meşələrim qalıb yağıya!

Kəklikli düzlərim, güllü dağlarım,
Sevincim, kədərim, gözəl çağlarım.
Araza qovuşan qoşa çaylarım,
Bərgüşad, Həkərim qalıb yağıya!

*12.05.1996.*

## DAŞ OLUB YURDDA QALMADIM

Yurddan didərginlik oldu bir nizə,
Ox kimi sancıldı ürəyimizə.
"Yurdu qoyub qaçan"-dedilər bizə,
Allah, alışmadım, niyə yanmadım?
Heyif ki, daş olub yurdda qalmadım!

Tənəli baxdılar dərd anlamazlar,
"Qaçqınlar" - deyərək bizi sıxdılar,
Oda qaladılar, közə yaxdılar,
Niyə lal-kar oldum, havalanmadım?
Heyif ki, daş olub yurdda qalmadım!

Qəlbimdə yaşayır Qubadlı dərdim,
Qanına bələndi nə qədər mərdim,
Acı əzablara sinəmi gərdim,
Namərd hiyləsini niyə qanmadım?
Heyif ki, daş olub yurdda qalmadım!

Nə vaxtdır yaşadır bu həsrət məni,
Çoxmu üzəcəkdir bu qismət məni?!
Qorxuram məhv edə bu zillət məni,
Nankor övlad kimi çağrıla adım,
Heyif ki, daş olub yurdda qalmadım!

## BİRLƏŞİN, AY OĞULLAR

Ya Rəb! Bu necə bəla,
Necə müsibət idi?
Bizi içdən yedilər,
Min üzlü ermənilər,
İlan kimi sürünüb,
Dondan-dona girdilər.
"Kirvə-kirvə" deyərək
Beynimizi yedilər.
"Dostuq, qardaşıq"- deyən,
Bu mənfur ermənilər,

Üzümüzə gülərək,
Dalda balta çəkdilər...
İndi bircə mətləb var,
Birləşin, ay oğullar!
"Birlik – dirilik" demiş,
Bizim ulu babalar.
Gəlin əl-ələ verin,
Düşməni məğlub edin,
Onların vuran qolun,
Danışan dilin kəsin!





## BAYATILAR

Əzizim, yada qaldı,
El-obam yada qaldı.
Tikdim özümün olsun,
Olmadı, yada qaldı.

Əzizinəm ağlaram,
Başa qara bağlaram.
Vətən gülzar olsa da,
Yurdum deyib, ağlaram.

Quzular mələr keçər,
Yamacdan enər keçər,
Yurdum yada düşdükcə,
Qəlbimi, dələr, keçər.

Çalınmamış neyəm mən,
Sözüm çoxdur deyəm mən.
Vətəndə vətənsizəm,
Sanki göylərdəyəm mən.

Aşıq, o gün olaydı,
O gün, bu gün olaydı.
Qara göl kənarında,
Çadırım qurulaydı.

Qarabağı aldılar,
Canıma od saldılar.
Dığalar zəlil olsun,
Yuvamı dağıtdılar.

Əzizim, odda yansın,
Odlansın odda yansın.
Bu savaşı salanın,
Balası odda yansın.

Əzizim, qurd ulasın,
Dağlarda qurd ulasın.
Erməni cəlladların,
Yurdunda qurd ulasın.

Əzizim, ağlar qalsın,
Sinəsi dağlar qalsın.
Yansın gavur dığalar,
Anası ağlar qalsın.

Aşıq yara bağladı,
Dərdə çara bağladı.
Elim-obam deməkdən.
Dilim yara bağladı.

Əzizim nə səfərdir,
Bu səfər nə səfərdir?
Qaçqın düşəndən bəri,
Bal da yesəm zəhərdir.

# SADİQ ƏLİYEV



***Sadiq Səmərqənd oğlu Əliyev** 2 yanvar 1961-ci ildə Qubadlı rayonunun Diləli Müskanlı kəndində anadan olub.*

*1984-cü ildə Bakı Plan-İqtisadiyyat texnikumunu biritib.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb.*

*Hazırda Sumqayıt Gigiyena və epidemiologiya mərkəzində MM qərargah rəisi vəzifəsində işləyir.*

## HARAY ELLƏRİM HARAY

El karvansız köçün qurdu,
Haray, ellərim, haray!
Bayquşlar da yuva qurdu,
Haray, ellərim, haray!

Kəhər atım kişnəyərdi,
Eli dağa səsləyərdi.
Dədəm qoçlar bəsləyərdi,
Haray, ellərim, haray!

Qarı düşmən güclü oldu,
Hər qarışın qanla doldu,
İgid Əlyar şəhid oldu,
Haray, ellərim, haray!

Dörd yanımı düşmən aldı,
Gözəl yurdum kimə qaldı,
Ahım göylərə ucaldı,
Haray, ellərim, haray!

El-obamız viran oldu,
Ana-bacın saçın yoldu.
Biz gedirik - bu nə yoldu?
Haray, ellərim, haray!

Qismətimi fələk seçdi,
Qubadlısız ömür keçdi.
Qardaş-bacı vaxtsız köçdü,
Haray, ellərim, hara

Yağı düşmən tapdağında,
İnildəyir torpağım da.
Xəstə Sadiq yatağında,
Haray, ellərim, haray!





# QİSMƏT İLDIRIMOV



***Qismət Mais oğlu İldırımov** 24 iyul 1963-cü ildə Qubadlı rayonunun Xudular kəndində anadan olmuşdur.*

*Sumqayıt Politexnik texnikumunu və Odessa kənd təsərrüfatı institutunu bitirmişdir.*

*1997-ci ildən Qazaxıstan Respublikasının Şimali Qazaxıstan vilayətində "Novruz – 2030" istehsalat mərkəzinin direktor müavinidir. İki kitab müəllifidir.*

## XARI BÜLBÜL

Xarı bülbül, səni necə unudum,
Səni yoxlayan yox, yoluxan da yox.
Dərənin düşmən, döşünə döyənin düşmən,
Elində, obasında yaşaya-yaşaya,
Elindən, obasından uzaq düşən,
Mən səni necə unudum...
İyirmi ildir əsir qaldın, Xarı bülbül,
Kimlər sənin qoxun aldı,
Kimlər səni yada saldı, Xarı bülbül?
İlahi, bu nə sevgi, bu nə ahdı,
Ahın dağlara boylandı,
İyirmi ildi axıtdığın göz yaşları,
İndi əsgərlərə səngər daşıdı...

Xarı bülbül, səni necə unudum,
Yaz gəlir torpaqdan baş qaldırırsan,

Ümidlə həsrətlə nə boylanırsan?
Bağışla, verdiyim vədlərə əməl etmədim,
Bağışla, vədlərə vədlər caladım,
Yenə qış gəldi...
Xarı bülbül, səni necə unudum?
Yastığın daş, yorğanın qar,
Anan ölsün, Xarı bülbül.
Biz unutqanlığa, sən reallığa,
Necə dözək, Xarı Bülbül?..
Daha yaddan çətin çıxa,
Haray səsin, Xarı bülbül
Biz "getmişik", sən qalmısan,
Torpağının ağasısan,
Düşmənə baş əyməmisən,
Xarı bülbül, səni necə unudum?..
Bir gün göy üzünü bulud alarsa,
Bir gün yağış leysan təki yağarsa,
Bir gün dəli-dolu ildırımlar çaxarsa,
Bütün türk dünyası ayağa qalxsa,
Bil ki, sənin harayına qalxdı oğullar,
Bil ki, bu külək Bakıdan əsdi
Bu sevgi vətən sevgisidi
And içirəm oda, günəşə
Bu sevgi qalib gələsidi
İnan, bizi qələbəyə aparan
Xarı bülbül sevgisidi!..





## TƏLƏT ƏLİYEV



***Tələt Gəncəli oğlu Əliyev*** *1928-ci il sentyabr ayının 15-də Qubadlı rayonunun Seytas kəndində anadan olmuşdur. Yalnız ibtidai təhsil almışdır.*

*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşmışdı. Üç kitab müəllifidir.*

*2011-ci ildə vətən həsrətilə dünyasını dəyişmişdir. Ruhu şad olsun!*

### DAĞLAR

Niyə çağırmırsan, a dağlar məni,
Ziyarət eyləyim qarli sinəni.
Qovaram başından dumanı, çəni,
Məzarım qazılsın döşündə, dağlar.

Dağda doğulmuşam, dağlardı yurdum,
Qaçqin oldum - o dağlardan qovuldum,
Saman olub ayaq altda ovuldum,
Vətənsizəm yetmiş yaşımda, dağlar.

Bəs niyə köməyə yetmədin darda,
Getdi ömür boyu yığdığım var da.
Mən sənə həsrətəm, qalmışam harda,
Ağlım da qalmayıb başımda, dağlar.

Dərə də bilmirəm halal gülümü,
Bu il tamamladım dördcə ilimi,
Olmayaydı çərxi-fələk ölümü,
İtibdi o ağlım, huşum da, dağlar.

Əcəl yetdi, görüsünə gəlmədim,
Çəmənində, gülşənində gəzmədim,
O saldığım bağın barın dərmədim,
Qonmaz özgə yurda quşum da, dağlar.

Kimsə unudarmı pir Seytasını,
Görən saxlayarmı Tələt yasını?
Heç təbib sağaltmaz haqq yarasını,
Bilinmir tarixin, yaşın da, dağlar.

*29.08.1997.*

## BAYATILAR

Zülüm oldu, yonuldum,
Cəfa çəkib yoruldum.
Tələt, xaliq zülm edib,
Qabıq qoyub soyuldum.

Tələt qalıb qorxuda,
Narahatdı ruhu da.
Vətənini axtarır,
Ancaq görür yuxuda.

Tələt vətən hayladı,
Xaliq qəmin payladı.
Vətəndən qovulmuşam,
Haqdan belə qaydadı?

Tələt, kökdən qonmuşam,
Bu torpağa hopmuşam.
Vətənə həsrət qalıb,
Bir yuxuda tapmışam...

Tələt, dağdan daş qopar,
Yel atın özü çapar.
Vətəndən ayrı düşdüm,
Ruhum vətəni tapar.



**Bərgüşad çayı – öndə Xudular və Hacılı kəndləri.**
***Mahmudlu kəndindən – Qara qayadan çəkiliş.***





## ŞAKİR ZEYNALOV



***Şakir Bəkir oğlu Zeynalov** 1962-ci ildə Qubadlı rayonunun Mirlər kəndində anadan olmuşdur.*
*Gəncə Avtomexaniki texnikumunun avtomobillərin istismarı fakültəsini bitirib (1986).*
*Qubadlının işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb. Qarabağ müharibəsi iştirakçısıdır. Dörd kitab müəllifidir.*

### SİZİN ÜÇÜN DARIXMIŞAM, A DAĞLAR

Qovulasan öz yurdundan, elindən,
Ayrılasan çəmənindən, gülündən,
Gözləyəsən aylar ilən, il ilən,
Nə bir xəbər, nə bir müjdə soraq var,
Sizin üçün darıxmışıq, a dağlar!

Sizdə qaldı gözəl günüm, xoş çağım,
Niyə söndü isti odum, ocağım?!
Ümidim var, bir də düşə ayağım,-
Görən bizi bağışlarmı o çağlar?
Sizin üçün darıxmışıq, a dağlar!

İlahi vermişdi o yerlərə nur,
Vardı torpağında, daşında qürur.
Gözləri yol çəkən dağlar boylanır,-
Axarmı yenə də həzin bulaqlar?!
Sizin üçün darıxmışıq, a dağlar!

Yolları ot basıb, cığırlar itib,
Qapıda, bağçada tikanlar bitib.
Təbiət elə bil yuxuya gedib,
Sanki laylay deyir, bulaqlar, çaylar,
Sizin üçün darıxmışıq, a dağlar!

Yoxdu gediş-gəliş, gəlmir səs-səmir,
Qaralıb ocaqlar, heç tüstüləmir.
Xoruzlar banlamır, quzu mələmir.
Viranə qalıbdı bağçalar, bağlar,
Sizin üçün darıxmışıq, a dağlar!

Yenə o düzlərin açırmı gülü,
Yetişibmi qarelləsi, əzgili?
Oxuyurmu, Ya Rəbb, sarı bülbülü,
Saralıbmı alma, armud, heyvalar?
Sizin üçün darıxmışıq, a dağlar!

## NƏ VAXT DÖNƏCƏYİK

Bülbül necə yaşar qəfəsdə axı,
Bağban ağlamazmı, solarsa bağı,
Necə təsvir edək zirvəsiz dağı?
Yolun azmış kimi dumanda, çəndə,
Nə vaxt dönəcəyik, ay Allah, kəndə?!

Ömrə yazılmasın bu keçən günlər,
Biz yurdsuz-yuvasız yaşadıq hədər.
Burda padşah olsan, de, nəyə dəyər?
Ruhum qərar tutmur artıq bədəndə,
Nə vaxt dönəcəyik, ay Allah, kəndə?!

Gözümüz yollarda, əlimiz göydə,
Taxtından düşübdü paşa da, bəy də.
Kaş nökər olaydım obada, eldə,
Burda əriyərəm şam kimi gündə,
Nə vaxt dönəcəyik, ay Allah kəndə?!

Öpəydim anamın ocağın, külün,
Dərəydim baxçadan çiçəyin, gülün.
Eşidəydim cəhcəhini bülbülün,
Ahu-zarım qalmaz, vallah, köçəndə,
Nə vaxt dönəcəyik, ay Allah, kəndə?!

Hərənin taleyi, bəxti bir cürə,
Mat qalmışam, vallah, mən də bu sirrə.
Dərdi-qəmi yükləyibdi Şakirə,
Ölüb qalammadım köçkün düşəndə,
Nə vaxt dönəcəyik, ay Allah, kəndə?!





## VƏFA XANLARQIZI



*Vəfa Xanlar qızı Behbudova 22 noyabr 1968-ildə Qubadlı rayonunun İşıqlı kəndində anadan olmuşdur.*

*Azərbaycan Dövlət Dillər Universitetinin ingilis dili fakültəsini bitirmişdir (1985-1990).*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində, sonra Abşeron rayonunun Saray qəsəbəsində məskunlaşmışdır.*

*Hazırda Qubadlı rayon İşıqlı kənd tam orta məktəbdə ingilis dili müəllimi işləyir.*

*S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür. Bir kitabı (tərcümə) nəşrə hazırlanır.*

## DOĞMA OBAM, GÖZƏL YURDUM, İSTİ YUVAM QUBADLIM

Mənim üçün Qubadlı haqqında yazmaq çox çətindir. Ancaq mənim uşaqlığım keçən o ellər, obalar haqqında yazmağı özümə borc bilirəm. O gözəl, səfalı yerlər yaddan çıxmasa da, daima fikirlərim, xəyallarım oralarda dolaşır. Əcdadlarımızın əzəli beşiyi, son məzarı olan Qubadlımda! Həsrəti, niskili ürəyimdə qövr edən Qubadlımda!

Böyük Allah bizdən heç nə əsirgəməyib, amma başımızın bəlası da az olmayıb. Bir əsrdə iki dəfə süfrəmizin qırıntıları ilə dolanan nankor ermənilər buranın əhalisini qaçqın salıb, ev-eşiyini talan edib, yandırıb...

Nahaq qan isə yerdə qalmaz, deyib babalar...

Bəli, Qubadli rayonunun tarixi çox qədimdir. Bu yurd özünün folklorunu da, daş əsərlərini də, musiqisini də, abidələrini də bir tarix kimi yaşatmışdır. Bir əsrdə iki dəfə ermənilərin hücumuna məruz qalan Qubadlının həsrətini çəkməmək olmur. Torpağımıza göz dikən xain ermənilər 1993-cü ildə torpaq-

larımızı işğal etdilər. Torpaq uğrunda çox igidlər qurban verdik, ailələr başsız, uşaqlar yetim qaldı. Ancaq Qubadlı həsrəti heç vaxt yaddan çıxmadı, sinəmizi göyüm-göyüm göynətdi...

Allah həsrətimizi əlimizdən alsın!

Azərbaycan elminin inkişafında Qubadlı alimlərin də zəhməti böyük olmuşdur. Onlardan geologiya-mineralogiya elmləri doktoru, akademik Ə. Əmiraslanovu, akademik Ə. Abdullayevi, iqtisad elmləri doktorları H. Şirinovu, M.Allahverdiyevi, fizika-riyaziyyat elmləri doktorları E.Eyvazovu, X.Şirinovu, tarix elmləri doktorları İ.Məmmədovu, K.Hüseynovu, H. Aslanovu, Pedaqoji elmlər doktoru Ə. Haşımovu, fizika – riyaziyyat elmləri namizədi M.Hacıyevi, M.Quliyevi, biologiya elmləri namizədi X. Babayevi və başqlarını göstərmək olar.

Müasir Azərbaycan ədəbiyyatının görkəmli və tanınmış nümayəndələri S.Rəhimov, Ə.Vəliyev, Q.Qasımzadə, C.Bərguşad, Ə.İldırımoğlu, Ş.Arif, R.Rövşən, E.Baxış, R.Yusifoğlu, Ə.Aslan, Y.Həsən, Q.Əvəzoğlu və başqaları Qubadlı torpağının yetirmələridir.

Deyim ki, bu torpağın yetirmələrinin hamısının adlarını yazsaq böyük bir siyahı alınar.

Qubadlı rayonunun təbiəti olduqca füsunkardır. Palıd bu meşələrin varı, vələs dövləti, alması, armudu, fındığı, üzümü, əzgili, zoğalı sərvəti, çayları, buz bulaqları şan-şöhrəti, xınalı kəklikləri, turacları, göyərçinləri, qaranquşları... gözəlliyidir.

Təbiət bütün gözəlliyini bu yerlərə bəxş etmişdir. Əgər bir gün tale səni Qubadlıya gətirsə, sən bu gözəllik qarşısında heyrətə gələcəksən, sehrlənəcəksən.

Mən o yerlər haqqında da danışmaq istərdim. O yerlərdə hər daşın, hər dərənin, hər bulagin belə adları vardır.

Məsələn, mənim doğulub boya-başa çatdığım və kiçik bir ərazisi olan İşıqlı kəndinə məxsus yer adlarına fikir verək:

Bu kəndin adı Şıx Şərif adlı bir şəxslə, bir ocaqla bağlıdır. Şıx Şərif babanın ocağı bu kənddə olmuşdur. Bu ocaq adlandırılan yer XX əsrin əvvəllərindən adamların şəfa tapdığı bir ocaq olmuşdur. Hasara alınmış bu yer yüzlərlə insanların ziyarət yeri olmuşdur. Sonralar bu Şıx Şərif ocağı illər keçdikcə





adını dəyişərək Şıxlı, sonradan İşıxlı şəklində deyiliş almışdı. Hal-hazırda İşiqli deyilir. Bu kənd Həkəri çayının sol sahilində yerləşir.

Və biz bu kənddən səyahətə başlayırıq. Kənddən qalxırıq Dəflər düzünə, keçirik Uzun düzə, sonra Daşlı güneyə, oradan Narcax bulağına, soyuq sulu bu bulaqdan içib, səfərimizi davam edirik. Gəlib çatırıq bu kəndin ilkin salındığı yerə – İşıqlı bulağından içirik, qoca çinarın kölgəsində dincələrik.

Həsrətli çinar! Yaşı necə yüz il oldugu bilinməyən bu çinar, görən öz sakinlərini gözləyirmi?

Biz get-gedə yüksəkliklərə qalxmalıyıq. İndi gedəcəyimiz yerlər əhalinin əkin-biçin yerləri, camaata çox fayda verən meşəliklərdir. Çinarın kölgəsində dincimizi alıb, İbadan yoxuşu deyilən yerdən Damlamaç yurduna gedirik. Yerin adı damla-aç olub. Təbiətə uyğun addır. Bir gündə neçə dəfə yağar-açar, məhsulunu yığıb-yığışdırmaq olmaz. Nəhayət babamın – Qara kişinin saqqızları deyilən yerə gedirik (saqqız - ağacdır). Rəhmətlik babam orada çox ağaclar əkdirmişdi. Çox füsunkar gözəlliyə malik bu meşəlik, cərgə ilə düzülmüş agaclara baxdıqca adam fərəhlənir. Oradan keçirik Zoğallı düzə və buradan Kiçik Həkəri deyilən çaya heyran-heyran baxırıq. Sonra istiqamətimizi sola dəyişirik, Boyaqlıya gəlirik. Çinarlının saf suyundan içib, Cirəngi deyilən yurd yerinə baş çəkirik. Kim bilir, bu yerlərdə neçə-neçə igidlərin izi qalıb.

Cirəngi meşəsi! Çinarlar! Bu yerlərin adını təəssüflə çəkirik. Ona görə ki, neçə-neçə gəncin burada yeyib içməyi, birbirilərinə xatirələr danışmağı və sonda adını bu çinara həkk etmələri bəllidir.

Yadımdadır, hər il may ayında müəllimlərimiz tələbələr ilə buraya, təhsillərini başa vurduqlarına görə dicəlməyə gələrdilər. Hərə adını bir ağaca yazardı, hətta sevdikləri qızın adını da!

Bunlar hamısı xatirələrdə qalıb. İndi oranın həsrətini çəksək də, məkanımız bu gözəl diyarın başqa səmti olub.

Hələ bu söylədiklərim azdır. Kaş baharın gözəl çağlarında dağlara qalxıb, meşələrdə doyunca gəzəsən. Al-əlvan xalıya bənzəyən o yaylaqlardan kəklikotu, qantəpər yığıb, sonra laləli

çəməndə oturub xəyala dalıb bulaq başında dincələsən. Ancaq xarı bülbüllə qarşılaşsan, heç təəccüblənmə, çiçəklər arasında onu da görəcəksən.

Oradan üzü yuxarı baxanda uca qayalıq görünür – Qızıldaş deyirlər buraya.

O tərəfdə Palıdlı dərə, bu yanda İncirli bulağı, bir də adına oxşayan - Göbələkli deyilən yer görünür. Hələ burada bir yer də var. Kəlbətin deyilən bu yerin adı da çox maraqlıdır. İki dərənin başı birləşib kəlbətin şəklində olduğuna görə bura Kəlbətin adı verilmişdir.

Bu yerlərin adlarını saymaqla qurtarmaz. İstəyirəm gəlib çıxam Qara quzeyin başına və oradan enəm İşıqlı kəndinə. Axı o yerlər üçün çox darıxmışam. Yuxularımda, xəyallarımda o yerləri gəzsəm də, o yerlərə qovuşmaq istərdim.

Qismət olsun! Allah qovuşdursun!

Bu mənim doğma Qubadlımın zərrəsindən bir zərrə idi.

Sağlıq olsun, görüşərik, ey niskilini ürəyimdə gəzdirdiyim, həsrətinə bələndiyim doğma obam, gözəl yurdum, isti yuvam Qubadlım!!



***Qubadlı – RTS məhəlləsi***





## MÜŞGÜNAZ MURADOVA



*Müşgünaz Rza qızı Muradova* *1959-cu ilin iyul ayının 1-də Qubadlı rayonunun Diləli Müskanlı kəndində anadan olmuşdur.*

*Bakı Dövlət Unversitetini kitabxanaşünaslıq və biblioqrafiya, Müəllimlər İnstitutunun tarix fakutəsini bitirmişdir.*

*Qubadlı rayonunun işğalından sonra ailəsi ilə birlikdə Xırdalan şəhəri ətrafında məskunlaşmışdır.*

*Hazırda Qubadlı MKS-in direktorudur.*

*Kitabxanada İnformasiya texnologiyaları üzrə işlərin qurulmasına, Qubadlı Mərkəzləşmiş Kitabxana Sisteminin elektron versiyasının tətbiqinə görə Moskva EBNTİN vitse-prezidenti tərəfindən Tərifnaməyə layiq görülmüşdür.*

### SƏBRƏ SÖYKƏNİBDİR BİR DƏLİ HƏSRƏT...

*(31 avqust 1993-cü il, saat 17-20 arası...)*

Ötən 20 ildən sonra Qubadlı həsrətiylə bağlı bir kitabın yazılmasını eşidəndə qəlbimdən nələr keçdiyini bir Allah bilir...

Çox təəssüf ki, Qubadlı 20 il öncə mənfur düşmənlərimiz tərəfindən işğal olundu və biz qubadlılar isə doğma dədə-baba yurdumuzdan köçkün düşmək məcburiyyətində qaldıq. Nə yaxşı ki, ağır günlərdə bizə sahib çıxan dövlətimiz və arxa duran xalqımız vardır.

Qubadlı haqqında danışmaq mənim üçün çox çətindir. Bu barədə nə isə demək istəyəndə elə bil qaysaqlamaq istəyən yaramı yenidən qoparırsan. Bu yara onsuz da bizim üçün həmişə təzədir. Axı biz qubadlıların çox ağır bir dərdi - Qubadlı həsrəti vardır.

Uşaqlıqdan hər gün gözümü əzəmətli Hərtiz dağının əsrarəngiz gözəllikləriylə açmışam. Sözündə bir, işində bir, əməlində bir olan insanların öyüd-nəsihətləriylə böyümüşəm.

Ecazkar yaraşığı ilə dağlardan ilan kimi qıvrıla-qıvrıla axıb gələn Bərgüşadın səsi ilə yuxuya getdiyimiz anları unutmaq

olarmı? Dağlar, meşələr, xınalı kəkliklər, qırqovullar, turaclar oylağıdır Qubadlım. Dağlarında Qaçaq Nəbinin, Həcərin, Əliyarın izi qalıbdı. Təbii sərvətlər, ziyarətgahlar, övliyalar vətəni idi bu torpaq. O yerləri xatırlayanda adamın ürəyinin başı göyüm-göyüm göynəyir, hönkürüb ağlamaq istəyirsən. Doğrusu 20 il bundan öncə oranı necə tərk etmişdiksə, eləcə də yuxularıma girir Qubadlım.

Bu gün dövlətin ən böyük təbliğat sahəsi olan kitabxana sistemində çalışıram. Ötən əsrin 90-cı illəri idi. Direktor müavini işlədiyim indiki Mərkəzləşmiş Kitabxana Sisteminə bir məktub daxil olmuşdu. Aktuallığını itirmiş, vaxtı keçmiş ədəbiyyatların, xüsusiylə də 1969-1990-illərdə Heydər Əliyev dövrünə aid kitabların fonddan təmmizlənməsi tövsiyyə olunurdu. Kitabxananın elmi işlərinə cavabdeh bir şəxs kimi mən qəti surətdə bu işin icra olunmasına etiraz edərək, bir neçə əməkdaşımızla 1993-cü il avqustun 31-nə kimi həmin kitabları fondda qoruyub saxladıq.

Qubadlı işqal olunanda MKS-də 812 min nüsxə kitab fondu, 82 kənd kitabxana filialı mənfur erməni vandalizminin qurbanı oldu.

Qubadlını tərk etməyə məcbur olduğumuz günü unuda bilmirəm...

1993-cü il avqust ayının axırında vəziyyətin ağırlığını dərk edərək, evdə körpə uşaq olduğunu nəzərə alaraq, doğmalarımızın bir hissəsinin yaşadığı Sumqayıt şəhərinə gəldik. 30 avqust gecə saat üç radələrində narahatçılıq keçirdiyimizə görə minik maşınıyla yoldaşımla bərabər Qubadlıya qayıtmaq məqsədiylə yola çıxdıq. Beyləqanda rayonun boşaldığını eşidəndə tanış adamlar geri qayıtmamızı təkid etdilər. Amma biz geri dönmədik. Hal kəndinə çatanda posta nəzarət edən polkovnik N.Namazov bizi geri qaytarmaq istədi. İnad edib evimizə gəldik. 5-ci mərtəbədə yerləşən mənzilimizə çıxdıq. Evdə qalmaq istəyirdik. Bu anda sanki yer-göy silkələndi. Eyvandan vertolyotun vurularaq yerə necə düşməsinin şahidi olduq. Rayonun içində atışma səslərindən qulaq tutulurdu. Kimlər idi döyüşənlər anlamaq mümkün deyildi. Həmin axşam, saat 19-20 arasında sözlə ifadə oluna bilməyən anlar yaşandı. Beşmərtəbəli binanın həyətində maşınımıza minərək körpüdən keçib, poçtun qarşısından keçmək istəyəndə poçt binasının üstünə düşən mərmilərin qulaqbatırıcı səsindən dayandıq. Maşının mühərriki





də söndü. Yoldaşımla vəziyyətin sakitləşməsini gözləyərək, Bərgüsad çayının sahilindəki beton bəndin altında gizləndik. Qəflətən yaşadığımız beşmərtəbənin üstünə düşən top mərmisinin səsindən evimizə tərəf çevrildim. Panelin dibində dizlərimi yerə qoyaraq,- "Allahım bizi bu bəladan qurtar!"- deyib, eyni zamanda – Mir Sədi Ağanın, Mir Məhəmmədin cəddini köməyə çağırdığım bu anda masının mühərrikinin səsini eşidərək ona tərəf qaçdım. Yoldaşım maşını işə salmışdı. Bu mənim doğma Qubadlıdan sonuncu gəlişim oldu...

Hörmətli İcra başçımız Malik İsaqovun təşəbbüsü və təşkilatçılığı ilə Qubadlı rayon Mədəniyyət şöbəsi və onun müəssisələri bir məkanda - "28 May" mədəniyyət evində yerləşdirilmişdir. Elektron kitabxana sistemi vasitəsiylə dünya oxucu sisteminə daxil olaraq Qubadlımızın tarixini, işğaldan əvvəlki və indiki vəziyyəti barədə dünya internet istifadəçilərini mütəmadi olaraq məlumatlandırırıq. Yaratdığımız bu sistemi Qubadlıda davam etdirməyimizi arzulayıram. Allah böyükdür! "Haqq nazilər, üzülməz"- deyib atalarımız. Mən Qubadlıya qayıdacağımıza inanıram. İnanıram ki, Ulu Tanrı milyonlarla insanın amansız fəryadına son qoyacaq, dövlət başçımızın apardığı siyasət sayəsində yenidən el-obamızda xoşbəxt və firavan bir həyat yaşayacayıq.



***Qubadlı - Kitab evi***

# LALƏ QUBADLI



*Lalə Əvəz qızı Şahverənova 1957-ci ildə Qubadlı rayonunun Qayalı kəndində anadan olmuşdur.*

*Şuşa Pedaqoji Texnikumunu bitirmiş (1971), həmin ildən pedaqoji fəaliyyətə başlamışdır.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb.*

*İki kitabı çap olunmuşdur. "Qızıl Qələm" mükafatı laureatıdır. Bir çox Diplom və Fəxri fərmanlara layiq görülmüşdür. Hazırda növbəti kitabı nəşrə hazırlanır.*

## KAŞ Kİ

Ömür köç eyləyib, karvan gedəndə,
Vətən torpağına dönəydim kaş ki.
Könlü Qubadlıda qalan kəslərin,
Məzarı vətəndə qalaydı kaş ki.

Qürbət elin cənnəti də çəhənnəm,
Vətəndən uzaqda ölüm də nakam.
Yəqin, inildəyir yaralı vətən,
Gedib bir məlhəmi olaydım kaş ki.

Biqeyrətə vətən dərdi kar etməz,
Vətən dərdlisinə heç dərdli yetməz,
Ürəyimdən nisgil, kədər silinməz,
Dərdimi vətənlə böləydim kaş ki.

Vətənsizə heç bir şeyin dadı yox,
Nə soy kökü, nə sayılan adı yox,
Alışmışam, oçağımın odu yox,
Elimdə bir məşəl olaydım kaş ki.





## QONAĞI OLAYDIM DAĞLARIN BİR DƏ

Duman-çiskin dağ başına düşəndə,
Qoyun-quzu dağlarda mələşəndə,
Qartalları qıy vurub ürküşəndə,
Qonağı olaydım dağların bir də.

Bənövşələr qalxıb boynun bükəndə,
Kəklikləri asta-asta səkəndə,
Ürəyim qürbətdə dərd-qəm çəkəndə,
Qonağı olaydım dağların bir də.

Ahıllaşıb saçıma dən düşəndə,
Qürbət eldə bağrım başı bişəndə,
Yaşım ötüb altmışa yetişəndə,
Qonağı olaydım dağların bir də.

Göy qurşağı dağlara yol çəkəndə ,
Bizim ellər zəmilərin biçəndə ,
Vidalaşıb son mənzilə köçəndə,
Qonağı olaydım dağların bir də.

## MƏNİ ƏMANƏT SAXLA

Qürbət torpaq, məni əmanət saxla,
Qayıdıb vətənə gedənə qədər.
Min güldən yarama sən məlhəm bağla,
Qubadlı gülünə yetənə qədər.

Qərib məzar ah-naləmdən alışar,
Ruhum uçar, vətənimə qovuşar.
Köçən quşlar dərd-sərimdən danışar,
Yurdun torpağına yetənə qədər.

Alın qürbət eldən, aparın məni,
Cəsədim qürbətdə uyuya bilməz.
Bütün dünya suyu yusa da məni,
Qubadlı yanğısı soyuya bilməz.

## QUBADLIDADIR

Kimə neyləmişdim, deyin, mən axı?
Sinəmə çəkiblər min yerdən dağı,
Viranə qalıbdı könlümün bağı,
Onun da dərmanı Qubadlıdadır.

Ürəyimdən aldım sağalmaz yara,
Tapılmaz dərmanı, yoxdu bir çara,
Qalmışam qürbətdə yurdsuz, biçarə,
Ömrümün dövranı Qubadlıdadır.

Göz-göz olan yaralarım qanayır,
Dərd qanmazlar məni yaman qınayır,
Dönə-dönə fələk məni sınayır,
Imtahan zamanı Qubadlıdadır.

Gözüm o yerlərin həsrətindədir,
Fələyin çəkilməz dərdi məndədir,
Sirlər Xəzinəsi bu sinəmdədir,
Fikrimin hər anı Qubadlıdadır!



***Qayalı kəndindən***





## RƏNA TƏBƏSSÜM



***Rəna Şirin qızı İmanova** 1969-cu il mart ayının 22-də Sumqayıt şəhərində anadan olub. Əslən Qubadlı rayonunun Mollalı kəndindəndir.*

*2000-ci ildə Sumqayıt Dövlət Universitetini bitirib.*

*İki kitabı nəşr edilmiş, həm də iki kitabın həmmüəllifidir. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Şərqin səsi", "Elm və təhsil" qəzetlərinin əməkdaşıdır.*

## QUBADLIYA GEDƏN YOLLAR

Qubadlı!.. Yaxınlarım, böyüklərim hər dəfə oraya gedib-gələndə danışardılar ki, rayon sanki təbiətin ən ilhamlı çağlarında yaranıbmış. Azərbaycanın dilbər guşələrindən biri olan Qubadlının uca dağları, geniş düzləri, yaylaqları, məlhəmli bulaqları, səfalı meşələrindən ayrılmaq olmur. Amma 20 ildir Qubadlının dağlarına, çöl-çəməninə, Bərgüşad və Həkəri çaylarına həsrət qalan qubadlıların gözləri yollardan yığılmır, yaraları köz bağlamaq bilmir.

Qubadlı rayonu mənim dədə-baba yurdum sayılır. Soy kökün bu torpaqdandır. Babam Bəhlul, nənəm Şərifan, əmilərim İsrayıl və Əhlul, bibilərim Suratel, Səkinə və Minayədən Qubadlının tarixinin keşməkeşli olması, bərəkətli torpağı, gözəl mənzərələri, zəhmətkeş insanları haqqında çox eşitmişəm. Atam Şirin kişi də Qubadlıda keçirdiyi günləri dönə-dönə xatırlayar, torpağının ətrinin əvəzsiz olduğunu qəbir evinə köçənədək söyləyərdi. Gənc yaşlarından dünyaya göz açdığı Mollalı kəndini tərk edən atam taleyini Sumqayıt şəhəri ilə bağlasa da, tez-tez doğma kəndinə gedər, ulularının məzarlarını ziyarət edərdi. Məlum Qarabağ hadisələri ilə bağlı Ermənistandan qaçqın düşənləri görəndə deyərdi ki, nankor ermənilərin iştahası böyükdür. Əjdaha olub Azərbaycanı udmaq istəyinə çatmaq

üçün çox fitnələr törədəcək, qanlar axıdacaqlar. Atam haqlı imiş.

Qubadlı rayonunun işğalı qubadlılılar üçün dözülməz və ağır dərddir. Qubadlılar torpaq həsrəti ilə yaşayır, torpağını yenidən qucmaq istəyirlər. İyirmi il öncə yurd-yuvasından didərgin düşən insanlar torpaqlarının azad olunacağına əmindirlər. Bu əminliyi onlarda yaradan dövlətimizin dünyanın qabaqcıl ölkələri sırasında öz gücünü göstərə bilməsidir. Qubadlı rayonu özündə 94 kənd və qəsəbəni birləşdirirdi. Zaman gəlincə mehriban, yurdsevər insanları torpaqlarımızın azad olunacağı gün yenidən bir araya toplanacaqdır. Qubadlı torpağının yetirdiyi dəyərli insanlar harada yaşamasından asılı olmayaraq torpaq qeyrətini çəkir, azadlığı uğrunda canından keçir, xeyirxah əməlləri, xoş məqsəd və amalları ilə əsl azərbaycanlı olduğunu sübuta yetirirlər. Qubadlılar torpağa bağlı insanlardır. İndiyədək təmasda olduğum hər bir kəs – fəhləsi, loğmanı, həkimi, qulluq sahibi, yazarı, alimi, professoru bildirir ki, Qubadlıya qayıtmaq arzusu ilə yaşayır. Torpaq həsrətinə tab gətirməyənlərin, dünyasını dəyişənlərin ürəyində qalan arzularının qırovunu Vətənimizə, torpağımıza olan birliyimiz, sevgimiz, məhəbbətimiz aça bilər.



***Qubadlı***





## TAHİRƏ KƏDƏRLİ



***Tahirə Ağamirzə qızı Allahverdiyeva*** *1965-ci il oktyabrın 10-da Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur.*

*1984-87-ci illərdə "Avanqard" (indiki "Bərgüşad") Qubadlı rayon qəzetində müntəzəm olaraq məqalələrlə çıxış etmiş, redaksiya tərəfindən mükafatlandırılmışdır. 1988-ci ildən "Yeddi gün", "Ana Vətən", "168 saat" qəzetlərində çalışmışdır. Üç kitab müəllifidir.*

*AKİVHİ tərəfindən "Xan qızı Natəvan" diplomu, "Qafqaz" Media İctimai Birliyi tərəfindən "Vicdanlı qələm" və "Peşəkar jurnalist" diplomlarına layiq görülüb.*

*Hazırda "Vətən səsi" qəzetinin müxbiridir.*

### YETƏR Kİ, BİR AZ DA DÖZ

Gözüm gözlərindən
İtkin düşübdü.
Əllərim, ayaqlarım,
dizlərim
Daşına, torpağına
Müqəddəs yollarına dəymir.
Yollara çəkilən o izlər,
Didəsində çatlayan
o gözlər,
köçündən ayrı düşüb...
Yumağa dönürəm,
Həsrətindən, qəmindən.
Xəbər tuta bilmirəm,
Yolundan, yolağandan,
Zülmət gecələrindən,
Hənirtisi kəsilən,
gündüzlərindən,
QUBADLIM!
Şəfəq saçmır üzünə,
Qüvvət gəlmir dizinə!
Sənin həsrətindən başqa,
Mənim qamətimi,
Heç bir dərd əymir,
Doğma diyarım,

Bağrı yaralı Qubadlım!
Payızın xəzanlı qoxusunda,
Bu uzun illərin yuxusunda,
İlan kimi sürünüb
SƏNƏ gəldim!
Sənsiz keçməyən illərdə,
Saatı ötməyən günlərdə,
yandım, əridim,
tükəndim!
Gözlərimi Sənə qurban
elərəm,
Nisgilini sinəmə köz dilərəm!
Bu ümid, bu inam,
Bu yuxu, xatirə, xəyal,
Olmasaydı, sənə
qovuşmadan ölərdim!..
Dirənirəm, yaşayıram,
Bilirəm, Sən də dirənirsən,
Bizə qovuşmaq üçün.
Əlləri qoynunda qalmısan,
Həsrətdən alışıb yanmısan,
Kül olsan da dirənirsən,
Ələnsən də dirənirsən,
Bölünsən də dirənirsən...
Bil ki, köksümdə,
Çırpınan ürəyim deyil,
SƏNsən!
Tarixi qədim, Qubadlım!
Səndən ayrılalı,
Ürəyimin yerindəsən!
İnanıram, gün gələcək,
Səninlə qol-boyun olacağıq,
Topsuz-tüfəngsiz,
Müharibəsiz, qadasız,
Bir dünya quracağıq!
Səni göz bəbəyimiz tək
Əbədi qoruyacağıq!
Yetər ki, bir az da döz...
Döz, başına dönüm, döz,
Qoy gəlim qoynunda,
can verim!
Qərib diyarda torpağa
Gömülməyim!
Sən döz ki, quruması
çaylarımız!
Sən döz ki, bizi bağışlasın
Sənsiz keçən
İllərimiz, aylarımız!
Sən döz ki, buz bulaqlarımızın
gözü tutulmasın!
Sənə baxıb toxdasınlar,
Qoy izimiz silinməsin
qoynundan, obandan?
oylağından, yaylağından,
çaylağından...
Gözlərimiz kəsilməsin?
Tarixləşən yolundan!
Tezliklə SƏNİ qurtaracağıq?





Düşmənlərin oyunundan.
Yetər ki, bir az da döz,
Yetər ki, bir az da döz!
Başına dolanım, döz!
Qadanı alım, döz!

**MƏNƏ XƏBƏR VERİN...**

Gəzib yaylaqlarda, o dağlarda mən,
Qaynar çeşməsindən, suyundan içdim.
Doğma Qubadlımdan köçkün düşəndən,
Mən nələr yaşadım, nələrdən keçdim!

Gözümü gizlədim yad baxışından,
Düşmənimə düşmən, dosta dost dedim.
Çəkildim kənara ad yarışından,
Namərdlər önündə heç əyilmədim...

Sinəmdə dərdləri boxçalamışam,
Daha özgə dərdə toxam dünyada.
O yurdum, oylağım gedib əlimdən,
O gündən sanıram yoxam dünyada.

Mir Mehdi Xəzani qəzəllərindən,
Seyid Nigarinin söz incisindən,
Mir Sədi Ağanın rübaisindən,
Mənə xəbər verin, məni görsəniz!

Torpaqdan boy verən şəhid qanından,
Əsir anaların ah-fəryadından,
Üz tutub Allaha sübh namazında,
Mənə xəbər verin, məni görsəniz!

Gəzdiyim dağlarda izim qalıbsa,
Yurduma yazdığım sözüm qalıbsa,
Vətən həsrətinə dözüm qalıbsa,
Mənə xəbər verin, məni görsəniz!



***Dəmirçilər körpüsü, rayon Yağ-pendir idarəsi, uzaqda Dəmirçilər kəndi***





## MAŞALLAH İBRAHİMOV



***Maşallah Fətullah oğlu İbrahimov*** *1953-cü ildə Qubadlı rayonunun Əliquluuşağı kəndində doğulub. Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirib (1984-90). Qubadlının işğalından sonra Bakı şəhərində məskunlaşıb. Bir kitab müəllifidir.*

### QUBADLI

Həsrətini iyirmi ildi çəkirəm,
Gör necə də utanıram, Qubadlı.
Yağı düşmən yollarını bağlayıb,
İmdadına çatammram, Qubadlı.

Əvəzin yox imiş, ey gözəl vətən,
Bu yerdə görmədik nə duman, nə çən.
Sənin yoxluğunu düşündükcə mən,
Şirin yuxu yatammıram, Qubadlı.

Nəzmə çəkdin namərdini, mərdini,
Yağı düşmən yaman aşdı həddini.
Sənin yoxluğunu, sənin dərdini,
Ürəyimdən atammıram, Qubadlı.

Elsiz kəsəm, dərdə-qəmə dalmışam,
Yalançı vədlərdən çox alçalmışam.
Bu qürbət diyarda tənha qalmışam,
Düşmənimə batammıram, Qubadlı.

Birlirəm ki, hər bir kəsdən küsmüsən,
Haqsızlığın ilgəyinə keçmisən.
Sonda Maşallahdan uzaq düşmüsən,
Əl atıram, tutammıram, Qubadlı.

## EL İTİRMİŞƏM

Mənə yad ellərdən danışma, qardaş,
Min elə bərabər el itirmişəm.
Necə doğma idi hər qaya, hər daş,
Belə bir əvəzsiz ləl itirmişəm.

Mən çəkən ağrını kim çəkər, lələ,
Ürək yarasıdır hər dağ, hər dərə.
Həsrətəm gəzdiyim doğma yerlərə,
Ocaq itirmişəm, kül itirmişəm.

Altmışa çatmışam, olmamışam şad,
Bir quru can qalıb, bir də quru ad.
Hanı Həkərimiz, hanı Bərgüşad,
Belə axar-baxar bal itirmişəm.

İnsan olan inciməsin bu sözdən,
Vədlər məni tamam salıb həvəsdən.
Maşallaham, gileyliyəm hər kəsdən,
Doğma kəndim kimi gül itirmişəm!

## QUBADLI

Gecənin birində bir qartal olam,
Uçub dağlarına qonam, Qubadlı.
İnsanam, insan tək bir nəfəs alam,
Mənim yaradanım, anam, Qubadlı.

Qürbət eldə artıq təngə gəlmişəm,
Sənsizliyin nə olduğun bilmişəm.
Hər nə görmüşəmsə səndə görmüşəm,
Bəlkə gördüyümü danam, Qubadlı.





Səni axtaracam, neçə ki, varam,
Sənsiz sağalarmı, ey vətən, yaram.
Yad odlara atsalar da yanmaram,
Alışıb oduna yanam, Qubadlı.

Zaman nəzmə çəkdi, oldum tari-mar,
Pərən-pərən oldu yazıq insanlar.
Maşallaham, ürəyimdə arzum var,
Özüm qisasını alam, Qubadlı!

## HƏSRƏTİNDƏYƏM

Mən bilə bilmirəm bu qürbət eldə,
Hansı bucaqdayam, hansı tindəyəm.
Min-min aran olsun, min-min dağ olsun,
Yenə o dağların həsrətindəyəm.

Daha söz tapmıram, düzü, dağlara,
Kaş düşə şairin izi dağlara.
Hər səhər baxıram üzü dağlara,
Bircə ovuc qarın həsrətindəyəm.

Daşlara tuş gəldi eşqim əzəldən,
Yarıya bilmədim heç bir gözəldən.
Deyin günahımı, nə etmişəm mən,
Şırşır bulaqların həsrətindəyəm.

Maşallah, ürəyimdə dağım var,
Bu bir həqiqətdir, deyirəm aşkar:
Əliquluuşağı əvəzsiz diyar,
Çiçəkli bağların həsrətindəyəm!

## BABƏK ZEYNALOV



*Babək Şahbaz oğlu Zeynalov 1963-cü ildə Qubadlı rayonunun Bəxtiyarlı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedoqoji Universtitetinin filologiya fakültəsini bitirmişdir. Hazırda müəllim işləyir.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb. Şerləri mətbuat səhifələrində dərc olunur.*

### YURD HƏSRƏTİ

Bənövşə, tər lalə bitmir bu yerdə,
Nə müddət həsrətəm gül qoxusuna.
Zəmanə başımı elə qatıbdır,
Elə bil getmişəm qış yuxusuna.

Sanki yer yarılıb yerdən çıxmışam,
O yurda, torpağa elə həsrətəm.
Sən Allah, halımı soruşma mənim,
Təpədən-dırnağa qəməm, möhnətəm.

Boylanım, hey baxım burda dağlara,
Burda görünənlər axı dağ deyil.
Mənim kədərimə kədər qarışıb,
Neçə doğmalarım daha sağ deyil.

Hər gecə o kənddən yuxu görürəm,
Görürəm Bərguşad qıvrılıb axır.
Görürəm nisgilli bir qız ağlayır,
Bir qərib məzardan bir oğlan baxır.

Hasara alınmış məzarıstanda,
O qəbir daşları durumu görən?
Zeynalın, Nəsibin şəkli vurulan,
Mərmər abidələr qalırmı görən?





Yoxsa qoparılan qapılar kimi,
Sürüyüb dibindən qopardıb dığa?
Əli-qolu bağlı əsirlər kimi,
Qatıb qabağına aparıb dığa?

Yolçu uzaqdan get, tora düşərsən,
Bu kənd tilsimlənib, açanı yoxdu.
Nə qədər döyürsən döy qapısını,
Onsuz da qapısın açanı yoxdur.

Burda bülbüllər də oxumur daha,
Dinləyən olmasa bülbül oxumaz.
O kəndin ümidi qalıb Allaha,
Burda ocaq yanmaz, fətir qoxumaz...

Üzümü tutacam dağlara doğru,
Bir tikə dözümüm qalmayıb daha.
Baxmayıb heç nəyin ağı-bozuna,
Çıxıb gedəcəyəm, pənah Allaha!
Çıxıb gedəcəyəm, pənah Allaha!

*2002*

### MƏNƏ
**(Doğma kəndim Bəxtiyarlıya)**

Yenə doğma kəndim yadıma düşüb,
Sanki əl eyləyir o yerlər mənə.
Gör neçə il keçib, sinlər ötüşüb,
Dumanlı görünür dərələr mənə

Qayadan baxasan göz işlədikcə
Lalələr, nərgizlər incədən incə,
Mən qala bilmədim burda ölüncə,
Elə bil qıymadı təpələr mənə.

Gözəldi payızı, gözəldi yayı,
Pozuldu növrağı, dəyişdi halı -
Kəsdi zümzüməsin Bərgüşad çayı,
Daha layla çalmır ləpələr mənə.

Hanı Damcılama, Ayı çınqılı,
Bəs hanı Müskanlı, Balahəsənli,
Qayalı, Mahmudlu, Ləpəxeyranlı?..
Nələr xatırlatmır o günlər mənə.

Mənim Bəxtiyarlım, a doğma kəndim,
Noğulum, şərbətim, şəkərim, qəndim,
Sənə olan sevgim, saf məhəbbətim,
Yazdırdı həmişə şeirlər mənə.

Ömrün tən yarısı geridə qaldı,
Sanki bir nağıldı, sanki xəyaldı,
Qəddim əyilmədi, saçım ağardı,
İndi baba deyir körpələr mənə.



***Dondarlı kəndi***





## ŞÜKUFƏ İSMAYILOVA



***Şükufə Cəlal qızı İsmayılova*** *1953-cü ildə Qubadlı rayonunun Yuxarı Mollu kəndində anadan olmuşdur.*

*Sovet Azərbaycanının 60 illiyi adına Xankəndi (keçmiş Stepanakert) Pedaqoji İnstitunun filologiya fakültəsini bitirmiş, Qubadlı rayonunda müəllim işləmişdir. Bir şeirlər kitabı çap edilmişdir.*

*1993-cü ildə rayon işğal edildikdən sonra müvəqqəti olaraq Bakı şəhərində məskunlaşmışdır.*

### QUBADLIM

Sənə həzin layla çalım dilimdə,
Ruhum səndə, cismim qürbət elində.
Həcər xanım Kəhər atın belində,
Yenə gəzsin dağlarında, Qubadlım.

Əyib məni qərib eldə təkliyim,
Dağlarında səkmir daha kəkliyim,
Mən sənin dərdini necə çəkmiyim?
Bülbül ötmür bağlarında, Qubadlım.

Sürünərəm dağlarında, dərəndə,
Yağı pusqu qurub hələ bərəndə.
Şükufə də səni qəmli görəndə,
Yanar ağlar çağlarında, Qubadlım.

### ÖLÜRƏM VƏTƏNSİZ, AĞLAYIN MƏNİ

Yamanca kövrəyəm, qəlbim hey sızlar,
Dərdimdən halıdır göydə ulduzlar.
Yığışın yanıma, gəlinlər, qızlar,
Ölürəm Vətənsiz, ağlayın məni.

Atılan ox heç vaxt geriyə dönməz,
Nə qədər yazsam da, sözüm tükənməz.
Sinəmin alovu heç zaman sönməz,
Ölürəm Vətənsiz, ağlayın məni.

Çalsın "Kərəmi"ni sazda ozanlar,
Dərddən-qəmdən dastan qoşub yazanlar.
Məzarımı qərib eldə qazanlar,
Ölürəm, Vətənsiz ağlayın məni.

Deməyin ki, bu da bir sərsəridi,
Şükufə də dağlar kimi əridi.
Deyəsən ömrümün son günləridi,
Ölürəm Vətənsiz, ağlayın məni.

## QUBADLIM

Neçə qurban demişəm mən adına,
Dağlar məni bir an sala yadına.
Alışıb yansam da sənin oduna,
Yenə sənə gələcəyəm, Qubadlım,
Torpağında öləcəyəm, Qubadlım.

Cığırında ayaq izim qalıbdı,
Həm suyum, çörəyim, duzum qalıbdı.
Sənə deyiləsi sözüm qalıbdı,
Yenə sənə gələcəyəm, Qubadlım,
Torpağında öləcəyəm, Qubadlım.

Babaların məzarı var sinəndə,
Nərgiz, lalə yasa batıb çəməndə.
O bağlı yolunda düşsəm kəməndə,
Yenə sənə gələcəyəm, Qubadlım,
Torpağında öləcəyəm, Qubadlım.

Nə deyəsən bizə qoyulan ada,
Dözəmmirəm "qaçqın" olan bu ada.
Sən atlı olsan da, mənsə piyada,
Yenə sənə gələcəyəm, Qubadlım,
Torpağında öləcəyəm, Qubadlım.

Fani dünyam xəlbirində ələndi,
Qələmim də bu dərdimi biləndi.
Şükufənin sözü haqdan gələndi,
Yenə sənə gələcəyəm, Qubadlım,
Torpağında öləcəyəm, Qubadlım.





## MEHBALI BABAYEV



*Mehbalı Saybalı oğlu Babayev* 1942-ci il iyul ayının 1-də Qubadlı rayonunun Xallava kəndində anadan olmuşdur.

*M.F.Axundov adına Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini bitirib.*

*Qubadlı işğal olunduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdır. Hazırda təqaüdçüdür.*

## XALLAVAM

İmamzadə Pir ocağın arxası sənsən,
Yazda çiçək açan növrağı sənsən,
Bizim Zəngəzurun vüqarı sənsən,
Yaşayam mən, səni görəm, Xallavam,
Çiçəkli düzündə gəzəm, Xallavam.

Çoxundan gözəlsən kəndlər içində,
Cənnət ətri duydum hər çiçəyində,
Yüz dərdə dərmandı bir yemiliyin də,
Arzumdur meşəndə gəzəm, Xallavam,
Əzgildən, zoğaldan üzəm, Xallavam.

Cavanlıqda ətəyindən tutmuşam,
Böyümüşəm boya-başa çatmışam,
Yadımdadır, yolda at oynatmışam,
Sən ilham vermisən mənə, Xallavam,
Çoxdandı həsrətəm sənə, Xallavam.

İnan ki, yatanda üzüm sənədir,
Dilimdən düşmürsən, gözüm sənədir,
Şeirim sənədir, sözüm sənədir,
Başımın tacısan mənim, Xallavam,
Dərdim əlacısan mənim, Xallavam.

## QUBADLIM

İyirmi ildir həsrətini çəkirəm,
Bərgüşadın balığından yemirəm,
Yuxularda mənzərəni görürəm,
Ayrılığa necə dözüm, Qubadlım?!

Bərəkətli torpaqların var sənin.
Həm aranın, həm dağların var sənin,
Durna gözlü bulaqların var sənin,
Ana yurdum, ahu-zarım, Qubadlım.

İmamzada Pir ocağa gedəydim.
Qarqışlağın bulağından içəydim,
Pir deyilən baş daşından öpəydim,
Onda bil ki, mən yaşardım, Qubadlım.

Əzəldən tarixdə adın-sanın var,
Nəbin-Həcərin var, min dastanın var,
Əliyarın, Qorxmazın, qəhrəmanın var,
Adın şöhrətlidir, inan, Qubadlım.

Mən adına, şöhrətinə qurbanam,
Əyilməyən qeyrətinə qurbanam,
Qızıl kimi sərvətinə qurbanam.
Baş əyməz yağıya, yada Qubadlım.





# MƏHƏMMƏD QƏMGÜN



***Məhəmməd Əsəd oğlu Əsədov** 1959-cu ildə Qubadlı rayonunun Çaytumas kəndində anadan olub.*
*Qubadlının işğalından sonra Qobustan qəsəbəsində məskunlaşıb.*

*Hazırda Azərbaycan Dövlət Neft Şirkətinin Qobustan nəqliyyat idarəsində çilingər işləyir.*

*Bir şeirlər kitabının müəllifidir.*

## QUBADLI

Neçə ildir sənsiz ağlar qalmışam -
Gözü yolda qalıb elim, Qubadlı.
Sənsiz yaşamıram – sürünürəm mən,
Elə bil sınıbdı belim, Qubadlı.

Məlhəmdi dərdimə öz elim, obam,
Çünki qərib eldə heç qızmır sobam.
Lal olmuşam, dinə bilmirəm, babam,
Yanıbdı ağzımda dilim, Qubadlı.

Məhəmmədəm, dağlanıram, dərdim çox,
Başa düşməz o kəsdə ki, qeyrət yox.
Ürəyimə sancılıbdı sanki ox,
Qırılıb qəlbimdə telim, Qubadlı!

## VƏTƏN HƏSRƏTİ

Deyirəm, nə böyük dərddir, ay Allah,
Öldürəcək məni Vətən həsrəti.
Dağ da dözə bilməz bu böyük dərdə,
Öldürəcək məni Vətən həsrəti.

Hanı o dağlarda gəzdiyim günlər,
Dərib qoxladığım lalələr, güllər?
Yadıma düşdükcə bağda bülbüllər,
Öldürəcək məni Vətən həsrəti.

Çağırır vətənə bizi o dağlar,
Hər gecə yuxumda gördüyüm bağlar.
Bu qərib diyarda qalmışam ağlar,
Öldürəcək məni Vətən həsrəti.

Neçə il çalışdım, özümü yordum,
O doğma yurdumda bir yuva qurdum.
Düşmən tapdağında qalıb o yurdum,
Öldürəcək məni Vətən həsrəti.

Zəngəzurum oldu başı bəlalı,
Dağ çəkməkdən, Qəmgün, sinən yaralı.
Doğma Qubadlımdan düşdüm aralı,
Öldürəcək məni Vətən həsrəti!

## OLMAYAYDI KAŞ

Yox olaydı müharibə, qan-qada,
Atəşlər, qırğınlar olmayayadı kaş.
Sülh olaydı hər eldə, hər obada,
Heç kəsin gözləri dolmayaydı kaş.

Olmayaydı dava-dalaş, nə silah,
Heç kəs bala deyib çəkməyəydi ah.
Dünyada vədəsiz heç kimsə, Allah,
Nə olar, saralıb-solmayaydı kaş.

Odlar yurdumuza göydən nur yağa,
Qəmgün, dönə yurdun çiçəkli bağa.
Dəhşətli xəbəri eşidib, qağa,
Analar saçını yolmayaydı kaş!.





# MAYİL ASİMAN



*Mayil Həsən oglu Məmmədli 2 may 1961-ci ildə Tərtər rayonunun İrəvanli kəndində dogulub.*

*M.Əliyev adına İncəsənət Universitetini bitirib (1986-1991). 1986-ci ildən Qubadlı sakinidir, Qubadlı rayon Mədəniyyət və Turizm şöbəsində işləyib.*

*Qubadlının işğalından sonra Bakı şəhərində məskunlaşıb.*

*Şeirləri bir çox qəzetlərdə dərc olunub.*

## ALLAH

O əlçatmaz, ünüm yetməz obamı,
Hər gecə yuxumda görürəm, Allah.
Gürşad Həkərini, lal Bərgüşadı,
Qoşa qulac kimi hörürəm, Allah.

Üzür bu dərd məni betərdən-betər,
Sagaltmaz yarami yüz qərinələr.
Mənə həyan olub yadlar, özgələr,
Vətəni onlardan soruram, Allah.

Qalıbdı qürbətdə dinim-imanım,
Ərşi-əladadı ahım, amanım.
Təkcə sənə qalıb bircə gümanım,
Canımı sadaga verirəm, Allah.

Çapıldı, talandı ömür bu yaşda,
Azıb itkin düşdüm bu keşməkeşdə.
Biçarə Mayiləm, o dagda, daşda
Xəyal köhlənimi yoruram, Allah!

## VƏTƏN

Səadəti səndə tapdım əzəldən,
Düşmədim xəyaldan xəyala, Vətən.
Doğmasan, əzizsən öz anam qədər,
Qoymaram şərəfin alçala, Vətən.

Döndərməz yolumdan dövlət, var məni,
Yagılar, zalımlar soysalar məni.
Kəssə şaxta məni, kəssə qar məni,
Qiymaram üstünü çən ala, Vətən.

Əgər ki, varlığın düşsə min fələ,
Mən fəda eylərəm canımı elə.
Dözərəm şimşəyə, dözərəm selə,
Dönərəm zirvəndə qartala, Vətən.

## OĞUL

Nə yaman ah çəkdin, ahından sənin
Yaram köz-köz oldu sulandı, oğul.
Sanki kainatı aldı çən, duman,
Düz-dünya gözümdə bulandı, oğul.

Artıb urəyimin qüssəsi, qəmi,
Fəryadım bürüyüb külli-aləmi.
Getmir xəyalımdan Əyin, Çayzəmi.
Könlüm o yerləri dolandı, oğul.

Dərdim boldu, hardan deyim sözümü,
İtirmişəm tapammıram özümü.
Neyləyirəm çəkəmmirəm gözümü,
Varlıgım odlara qalandı, oğul.

Hansın deyim, dərdim birmi, ikimi...
Fani dünya qoymur çəkəm yükümü.
Ömür dedikləri yarpaq tökümü...
Vaxtsız xəzan oldu, talandı, oğul.

Asimanam, aglayıram şam, səhər.
Bağ bəslədim heç görmədim bar, bəhər.
De, kimin bəxtinə güldü bu bəşər.
Həyat verdiyini alandı, oğul.





## ÇİNGİZ SALMANOV



*Çingiz İsa oğlu Salmanov* *14 may 1956-cı ildə Qubadlı rayonunun Xələc kəndində anadan olub.*
*Şuşa kənd Təsərrüfatı Texnikumunu (1975), Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu (1981) bitirmişdir.*

*Ç. Quliyev adına Çardaxlı kənd tam orta məktəbin direktorudur.*

*Bir çox dərslik, dərs vəsaiti, metodik vəsaitlərin və I-XI sinifər üçün Fiziki tərbiyə üzrə tədris proqramlarının müəlliflərindən biridir.*

*Xidmətlərinə görə "Qızl qələm" "Əsil pedaqoq" "Xalq ziyalısı" diplomlarına layiq görülmüşdür.*

*"Xələc iman yeri, möcüzələr ocağıdır"(2012) kitabının müəllifidir.*

### AY QUBADLIM

Qucağında böyümüşəm, doğma anam olmusan,
Həyatımın hər neməti - suyum, havam olmusan.
Qarı düşmən tutdu topa, yaman talan olmusan,
Gözləri yollarda qalan yuvamsan, ay Qubadlım.

Ömrümün gülşən çağında torpağıma həsrətəm,
Çiçəyimə, çəmənimə, dağlarıma həsrətəm.
Qəribçilik çəkdi dara, sağ canıma həsrətəm,
Doğma anamtək həyanım olmusan, ay Qubadlım.

Tale yazan acı yazıb, ana baladan oldu,
Hamı isti ocağından, bacı-qardaşdan oldu.
Gücüm çatmır, mən nə edim, canım canından oldu,
Bizlər sənsiz, sənsə bizsiz qalmısan, ay Qubadlım!

Ədalətsiz qarı düşmən at çapır vətənimdə
Qara qarğa yuva qurur, qartallı "Səngər"imdə.
Övladların səpələnib, səbrli ol bu dərdə,
Bir vaxt gələr yenə gültək açarsan, ay Qubadlım!

## BORC

Bu köçkün, didərgin elə-obaya,
Görən öz borcumu verəcəyəmmi?
Boy verdi bu həsrət ulduza, aya,
Bilməm doğma yurdu görəcəyəmmi?

Bəxtim bir daş olub endi başıma,
Fələk zəhər qatdı, yağlı aşıma.
Yurdda dönəmmədim bir yurd daşına,
O yurdda bir bina hörəcəyəmmi?

Ürəyim dağlıdır, qəm içindəyəm,
Elə bil dumanda, çən içindəyəm.
Şəhərdə "kefi kök, dəm" içindəyəm,
Yurdumda gül-çiçək dərəcəyəmmi?

Görürəm çoxları özcə işində,
Unudub torpağın, öz biş-düşündə...
Bilmirəm Xələcin çopur döşündə,
Sinəmi torpağa sərəcəyəmmi?

## MƏN XƏLƏCSİZ DARIXIRAM

Mən Xələcsiz darıxıram,
Xələc suyum, çörəyimdir.
Bircə kərə onu görmək,
Son arzumdur, diləyimdir.

Ey göyü-yeri yaradan,
Vara, yoxa dayaq duran.
Ümidim tək sənsən hər an,
Yurdda ölmək istəyimdir.





Qeyrətim, varım, sərvətim,
Adım-sanım, şan-şöhrətim,
İlkim, ana məhəbbətim,
O yurd mənim qeyrətimdir.

Çingizəm, altmış yaşında,
Ölüm-dirim savaşında.
Yuva qurub dərd başımda,
Ağrı çəkən ürəyimdir.

## YADIMA DÜŞDÜ

Qaldı ağzı günə "Əyin meşəsi",
Qarlı "Xələc dağı" yadıma düşdü.
Hanı Çardaxlının o ağ yolları?
Xələcin bulağı yadıma düşdü.

Kəkotu biçdiyim vərlərə hayıf,
Ceyranlı, cüyürlü yerlərə hayıf,
Bərədə ov vuran ərlərə hayıf,
İgidlər oylağı yadıma düşdü.

O "Əsgər bulağı", bir də "Yastı daş",
Həsrət gözlərimə görünəydi kaş.
Nənəmin plovu, dadlı südlü aş,
Camışın qaymağı yadıma düşdü.

Elxanın, Nazimin "qəbahətləri",
Nəriman əminin bal söhbətləri.
Əmrahın, Buludun məharətləri,
Kəkliyin ayağı yadıma düşdü.

Çingizəm, yurdumu dərd eyləmişəm,
Dolan gözlərimi dörd eyləmişəm.
Qürbəti özümə yurd eyləmişəm,
Doğma yurd çırağı yadıma düşdü.

## VAHİD ƏLİRZAYEV



***Vahid Bəşir oğlu Əlirzayev** Qubadlı rayonunun Qlican kəndində anadan olub.*

*Azərbaycan Dövlət Pedoqoji Universitetini bitirib. Uzun illər Sumqayıt şəhərində müəllim işləyib. Hazırda təqaüddədir.*

*Abşeron rayonunun Saray qəsəbəsində məskunlaşıb.*

### MURDARLARA MƏSKƏN OLDUN, QUBADLI

*(ixtisarla)*

Başın üstə qara bulud cağladı,
Gen sinəni düşmən əli dağladı,
Bərgüşadın ağı deyib ağladı,
Sinən dağlı, yolun bağlı, el atlı,
Murdarlara məskən oldun, Qubadlı.

Yazda açar sinən üstə min çiçək,
Hər çiçəyin bir gəlinə ağ örpək,
Bağlarının meyvəsindən şirə çək,
Görən desin dörd bir yanı abaddı.
Murdarlara məskən oldun, Qubadlı.

...Lalələrin bağrı dərddən qaraldı,
Bənövşənin ləçəklərin qan aldı,
Albalılar bar vermədən qocaldı,
Bülbüllərin ötür qəmli, yaralı,
Murdarlara məskən oldun, Qubadlı,

Ruhu gəzir qoç Nəbinin bu yerdə,
Tək dolanır, Aynalısı əlində.
Köməyinə gələ bilmir Həcər də,
Düşmən salıb bir-birindən aralı,
Murdarlara məskən oldun, Qubadlı.





Saf güşəydin Azərbaycan elində,
Çiçək açmaz çəmənin də, gülün də,
Oğulların dustaq olub yad eldə,
Qızlar yol gözləyir əli xınalı.
Murdarlara məskən oldun, Qubadlı.

Qaşqa Qaya hikkəsindən dağılıb,
Kaha Dərə dərddən yanıb, qaralıb,
Köhnə Qışlaq səssizlikdən karıxıb,
Vəli Düzü baxır gözləri yaşlı,
Murdarlara məskən oldun, Qubadlı.

Nəvələrin indi sənsiz böyüyür,
Övladların yad ellərdə çürüyür,
Sevənlərin qəlbi sənlə döyünür,
Gələk görüşünə o tay- bu taylı.
Murdarlara məskən oldun, Qubadlı.

...Kürlə - Araz birləşdilər, şadlandıq,
Həkəriylə Bərgüşaddan güc aldıq,
Xoş avazlı nəğməsiylə oyandıq,
Biz düşmüşük o çaylardan aralı,
Murdarlara məskən oldun, Qubadlı.

Azərbaycan, dünya boyda obamız,
Keşikçisi Murovla Şahdağımız,
Xustub olub uca, mətin qayamız,
Onlar indi neçə yerdən yaralı.
Murdarlara məskən oldun, Qubadlı.

Qədilinin igidləri, ərləri,
Eyvazlının haydı deyən gəncləri,
Tarovlunun toy-düyünlü günləri,
Tarix olub, düşüb səndən arlı.
Murdarlara məskən oldun, Qubadlı.

Kimsəsizdir dərələrin, düzlərin,
Yaşıllaşıb ləpirlərin, izlərin.
Həsrətindən qan ağlayır gözlərin,
Şahinlərin qanad çalır havalı.
Murdarlara məskən oldun, Qubadlı.

Şor Bulağın zümzüməsi kəsilib,
Qəfər Çinarının kölgəsi itib,
Yoncalıqda vecsiz gandalaş bitib,
Şənlikli kəndlərin qalıb ağılı,
Murdarlara məskən oldun, Qubadlı.

Yayda Çay Zəmiyə dağa çıxardıq,
Məhlə-məhlə alaçıqlar qurardıq,
Hərdən mərcə girib nərd oynayardıq,
Uduzanlar zəri əzib atardı,
Sabah gedib təzəsini alardı.

Çiskin gəlib dağlarına bürünür,
Bəyaz duman dərələrdə sürünür,
Kol dibində bənövşələr görünür,
Yamacların qulançarlı, çaşırlı.
Murdarlara məskən oldun, Qubadlı.

...Meh əsdikcə xumarlanır təpələr,
Həkərini qan ağlayır ləpələr,
Oğulların belə dərdə dözərlər?
Gəlinlərin yaşmaq tutub, həyalı.
Murdarlara məskən oldun, Qubadlı.

Üzün gülməz nə baharda, nə yazda,
Yanaqların qırovlayıb ayazda,
Bəlkə sən də gəlin köçdün payızda,
Oğul doğsan gələr əli yaraqlı.
Murdarlara məskən oldun, Qubadlı.

...Bir gün gələr yolun-izin alınar,
Ağacların çiçəkləyər, barlanar,
Qoynun yenə əvvəlkitək canlanar,
Sərhəddini qoruyarıq silahlı.
Murdarlara məskən oldun, Qubadlı.





## TURAL MÜRVƏTOĞLU HƏKƏRİ



*Tural Mürvət oğlu Məmmədli 6 avqust 1988-ci ildə Bakı şəhərində - əslən Qubadlıdan olan şair Mürvət Qədimoğlu Həkərinin ocağında dünyaya göz açmışdır.*

*İki şeir kitabının müəllifidir.*

### VƏTƏNƏ DEYİLMİŞ QURBANLIĞAM MƏN

*Qoşulub bu atlıya,*
*Gedəydim Qubadlıya.*
*Həkərisiz az qalır,*
*Həsrət ürək partlaya.*

Əllərimdə Quran, boynumda kəfən,
O sevinc gününü gözlərəm, Vətən.
Eşit, Ulu torpaq, eşit məni sən,
Vətənə deyilmiş qurbanlığam mən.

Hər insan yurdsevər insan olmalı,
İnsanam deyəndə vicdan olmalı.
Hamı bu Vətənə qurban olmalı,
Vətənə deyilmiş qurbanlığam mən.

İrəvan, Borçalı, Dərbənddən belə,
Göyçə, Bakı, Təbriz, Mərənddən belə,
Hər doğma obadan, hər kənddən belə,
Vətənə deyilmiş qurbanlığam mən.

Qəlbimdə çox ulu məqsəd, məram var,
Yaxşı bax, yarasız bir gör haram var!
Qubadlı adında yeni yaram var,
Vətənə deyilmiş qurbanlığam mən.

Anam namaz üstə hər gün diləsin,
Qoy Tanrı eşitsin anamın səsin,
Allah qurbanını qəbul eyləsin,
Vətənə deyilmiş qurbanlığam mən.

Müjdəçi müjdəni gətirən gündə,
Bilim ki, arzuma yetişdim mən də.
Kəssinlər başımı Xudafərində,
Vətənə deyilmiş qurbanlığam mən.

Eşitsin Turalı qoy ulu ellər,
Oğullar əliylə yadı əyərlər.
Vətənə oğulu qurban deyərlər,
Vətənə deyilmiş qurbanlığam mən.

## APARACAM SƏNİ QUBADLIYA MƏN

*(atam Mürvət Qədimoğlu Həkərinin*
*"Apar məni Qubadlıya" şerinə cavab olaraq)*

Ata, sözlərinlə qəlbimi oyma,
Onsuz da olubdur qəlb qıyma-qıyma.
Sən bizi bu qədər gəl aciz sayma,
Aparacam səni Qubadlıya mən!

Bu ağrılı günlər keçər, səthidir,
Nikbin ol, gülərik, fikrim qətidir,
Ağlamaq acizlik əlamətidir,
Aparacam səni Qubadlıya mən!

Düşməni dağlaram əməllərimlə,
Şerimlə, sözümlə, qəzəllərimlə.
Oğlun ölməyib ki, öz əllərimlə
Aparacam səni Qubadlıya mən!

Qoymaram iz düşə bir izin üstə,
Qoy məni assınlar bu sözüm üstə.
İstəyim budursa, bax, gözüm üstə,
Aparacam səni Qubadlıya mən!





Düşmənə o güclü qolunu göstər,
Qanmaza sağını, solunu göstər.
Yolun tanımıram, yolunu göstər,
Aparacam səni Qubadlıya mən!

Ata, pis günləri ömürdən soldur,
Hələ qarşımızda uzun bir yoldur.
Əl dadımı görər yaramaz, quldur,
Aparacam səni Qubadlıya mən!

Mən də Qubadlısız sızlayan neyəm,
Hələlik şimşəyi çaxmayan göyəm.
Ata, mən əsgərəm, əmrə tabeyəm,
Aparacam səni Qubadlıya mən!

Turalam, bu eli qoymaram darda,
Şeytanın ayağın basmaqçün orda,
Üç rəngli bayrağı asmaqçün orda,
Aparacam səni Qubadlıya mən!



***Qubadlı burdan başlanır***

## LƏMAN ƏDALƏTQIZI



***Ləman Ədalət qızı Qasımova*** *12 iyun 2000-ci ildə Sumqayıt şəhərində anadan olub. Əslən Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndindəndir.*

*Məlum Qarabağ hadisələri ilə əlaqədar valideyinləri Sumqayıt şəhərində məskunlaşıb.*

*Qubadlı rayon B.Əsgərov adına Xələc kənd tam orta məktəbin şagirdidir.*

### QUBADLIM

***(kaş ki, səni görəydim)***

Dağlarının başı dümağ, bəyaz qar,
Dərələrin yaşıl barlı Qubadlım.
Qışın gəldi gedər, gələndə bahar,
Nə gözəlsən, xoş baharlı Qubadlım.

Sənsiz dərd alıbdı ürəyimizi,
Xəstə eyləyibdi hər birimizi.
Həkəri, Bərgüşad gözləyir bizi,
Gecə-gündüz ahü-zarlı Qubadlım.

Nə qədər uzaqda olsan da bizdən,
Daim qəlbimizdə, könlümüzdəsən.
Şənliklər quranıq sənlə yenidən,
Gün gələr kamanlı, tarlı, Qubadlım!





## SÖHBƏT QARAYEV



***Söhbət Rəşid oğlu Qarayev*** *3 iyun 1964-cü ildə Qubadlı rayonunun Kavdadıq kəndində anadan olub.*

*1982-ci ildə Qubadlı rayon Xanlıq kənd Texniki Peşə məktəbinin mexanizator kursunu bitirmişdir.*

*1993-cü ilə qədər Şirvani adına kolxozda (Qaralar kəndi) mexanizator işləmişdir.*

*Qubadlı rayonunun işğalından sonra Sumqayıt şəhərində məskunlaşıb. 2000-ci ilədək Az.NKZT-də mexanizator işləyib.*

*Qarabağ müharibəsi veteranıdır.*

*Bir şeirlər kitabı işıq üzü görüb.*

*S. Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür.*

### HƏSRƏT QALMIŞAM

*("Qubadlı həsrəti" silsiləsindən)*

Gecələr çayların şırıltısına,
Səhərlər quşların şən nəğməsinə,
Yamacda quzular mələşməsinə,
Döşdə kəkliklərin ötüşməsinə,
Ay gözəl Qubadlım, həsrət qalmışam!

Dağlarda sürünən duman-çəninə,
Yağan yağışına, dolu səsinə,
Lalənə, nərgizə, tər bənövşənə,
Yemliyə, keşnişə, bol mərövcənə,
Ay gözəl Qubadlım, həsrət qalmışam!

Kəndimin gül açan mənzərəsinə,
Bağlarda yetişən bol meyvəsinə,
"Şirin bulağı"nın zümzüməsinə,
"Qaya Qaşqasına", "Yellicə"sinə,
Ay gözəl Qubadlım, həsrət qalmışam!

## AYRI DÜŞMÜŞƏM

Tarixlərdə şan-şöhrətin, adın var,
Çox gözəl mənzərən, qoşa çayın var.
İndi qəlbimizdə dərin dağın var,
Həsrətin bizləri vaxtsız qocaldar,
Ay Qubadlım, səndən ayrı düşmüşəm!

Səhər-səhər yaz küləyi əsməyi,
Yağış yağıb, sel qapını kəsməyi,
Körpə quzuların hey mələşməyi,
Çıxmır yaddan – daha deyim mən nəyi?
Ay Qubadlım, səndən ayrı düşmüşəm!

Yal-yamacın qoyun-quzu otlağı,
Yazı düzü – bol bərəkət torpağı.
And yerimdi Mir Sədinin ocağı,
Mən ölüncə daşıyacam bu dağı,
Ay Qubadlım, səndən ayrı düşmüşəm!

İndi mənim Bərgüşadla Həkərim,
Axıtdığım göz yaşımdı – təsəllim!
Dünyaya sığmayır qəmim, kədərim,
Yəqin belə imiş qismət-qədərim,
Ay Qubadlım, səndən ayrı düşmüşəm!



***Ana abidəsi***





# HACI HƏMDULLAH ƏFƏNDİYEV



***Hacı Həmdullah Mustafa oğlu Əfəndiyev*** *1 oktyabr 1955-ci ildə Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur.*
*Ağdam Kənd Təsərrüfatı texnikumunu (1978), Bakı İslam Universitetini bitirmişdir (1998).*
*Qubadı rayonu işğal olunduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdır.*
*Yazıları dövri mətbuatda çap olunur. Bir kitab müəllifidir.*

## QUBADLIYA QAYIDAQ

Məcburi köçkünlüyümüzdən iyirmi il ötsə də, doğma Qubadlımız heç zaman xəyalımdan çıxmayıb. Hər zaman doğmu torpaqlarımızla bir yerdəyəm. Gecələr yuxumun, gündüzlər xəyallarımın ən gözəli doğma vətənimizlədi.

Həkəri-Bərgüşad hər gün məni öz qoynuna alıb ən sevimli yerlərə aparır. Qubadlıya gedən yollar hər gün gözünü gün çıxana tutub, bu yerlərin həqiqi sakinlərini gözləyir.

Cənnət bağlarımızın qapısı açılmır, yollarımız tar-mar olub. Həkəri, Bərgüşad indi həsrətdən coşublar. Bu yerlərə doğma insanların ayağı dəymir. Doğma vətənimizin səmasında o torpaqlarda döyüşüb şəhid olanların və bir də ulu babalarımızın ruhlarıdır ki, bu yerlərin üzərində azad və qorxusuz dolaşır. O ruhların yeganə bir arzusu bu torpaqda doğulub boya-başa çatmış insanların bir də geri qayıtmasını görməkdir.

Kimlərin ayaq izləri yoxdur Qubadlımızda. Cavanşir qalası Qubadlıdadı. Babəkin qılınc səsi Qubadlıdan gəlir. Qoç Koroğlu da yağı düşmənlərlə Qubadlıda döyüşüb. Qubad xanın atlıları da Həkərinin, Bərgüşadın gur sularına qərq olub.

Qaçaq Nəbinin, igid Həcərin oylağı idi Qubadlının hər daşı, hər qayası. Həzrət Əlinin adı ilə bağlı müqəddəs yerlər – «At rizi», «Şirin bulaq» Qubadlı torpağındadır. İmamzadə piri, şıxlar, ulu övlüyalar məskənidir Qubadlı torpağı. Nadir şahdan, Qacar şahdan, Şah Abbasdan yadigar qalan qalalar, gümbəzlər, daş abidələr Qubadlı torpağındadır.

Bu gecə xəyalən doğma Qubadlımıza getmişdim, dedim bir kəndimizə də baş çəkim, görüm nə var, nə yox. Məscidə getdim, gördüm minbərdən, minarədən xəbər-əsər yox, gəlmir əzan səsi, qapılar açıq – taybatay, kitablar yerlə-yeksan. Qapının başında qalıb tək bircə cümlə – «Allahu Əkbər».

Yəqinəm ki, bizi qoymaz darda bizi yaradan Böyük Allah!

Dedim bir evə enib, xəbər bilim Mustafa babadan, Nəfisə nənədən. Gördüm həyət-baca zil qaranlıq, divarlar lay-lay olub, Səsimə səs verən olmadı. Kəsilib bu yerdən insan nəfəsi.

Bu yerin gündüzündən bir xəbər yox, gecələr zil qaranlıq, aydan, ulduzdan xəbər yox.

Açılmır bu gecənin sabahı, açılmır nədən?!

Dedim bir baş çəkim bağçaya-bağa, gördüm bağçada açmır çiçək, budaqlar qupquru.

Açılmır bu gecənin sabahı, açılmır nədən?!

Dedim bir baş çəkim uca dağlara. Hərtiz dağım, Kəpəz dağım, Tumas dağım, ulu dağlarım, qəm-kədər dağı, hicran dağı...

Açılmır bu gecənin sabahı, açılmır nədən?!

Qəlbimin ən böyük arzularını doğma Qubadlımın işğaldan azad olunduğu günə saxlayıram. Ən gözəl evləri indi mən xəyalən doğma kəndimizdə tikirəm, ən gözəl bağları doğma kəndimizdə salıram. Rayonumuz və kəndlərimiz başdan-ayağa yenidən tikilir, evlərimiz, məscidlər, minarələr, günbəzlər bərpa olur. Xalqımız ağ günə çıxır. Həkəri və Bərgüşad çayları üzərindəki körpülər, Ağa çayının üzərindəki Hacı Bədəl körpüsü, Lalazar körpüsü, yüzlərlə bəndlər, bərələr təmir olub xalqımızın ixtiyarına verilir... Arzularım çoxdur!..

Allah-Təala Qubadlıya gözəl təbiət bəxş etmişdir. Üç ay yayı dağlarda naz-nemət içində yaşayırdıq. Payızda arana qaydıb mal-qaranı, əkin-biçin işlərini yerbəyer edərdik. Payızın, qışın illik azuqəsini toplayıb, rahat həyat sürərdik. Uşaqlar məktəbə gedərdi. Atalar və analar övladları üçün toy-düyün işlərinə başlayardı. Yazda təbiətimiz ətir saçardı, hər yer gül-çiçəyə qərq olardı. Bəlkə də dünyanın ən xoşbəxt insanları biz idik.

Allah-Təala bizə hər şeyi bəxş etmişdi. İnsanlarımız uzunömürlü olardılar. Behişt idi Qubadlı torpağı!..

İnşallah qayıdarıq doğma yurdumuza. Qubadlıda bir toy-büsat qurarıq... O günü görməyi qadir Allah qismət etsin bizlərə. Bu arzu arzuların şahıdır!

*26.06.2013.*





## İMADƏDDIN SƏLİMOV



***İmadəddin Məlikəhməd oğlu Səlimov*** *1964-cü ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. Qubadlı rayonu işğal olunduqdan sonra Sumqayıt şəhərində məskunlaşıb.*

*Qarabağ müharibəsi iştirakçısıdır.*

### QUBADLIM

Buz bulaqlar, çayların ağlar qalıb,
Xəzan vurub bağbansız bağlar qalıb,
Qərib-qərib boylanan dağlar qalıb,
Ana yurdum, doğma elim Qubadlım,
Gülən gözüm, deyən dilim Qubadlım!

Tapdaq altda inildəyir hər daşın,
Talanıbdı, soyulubdu daş-qaşın.
Gəlib çatır Xəzərəcən göz yaşın,
Ana yurdum, doğma elim Qubadlım,
Gülən gözüm, deyən dilim Qubadlım!

Əlyarı yox, Həsəni yox o yurdun,
Sağ idilər, düşmən gözün oyurdu.
Neçə-neçə ac qarınlar doyurdun,
Ana yurdum, doğma elim Qubadlım,
Gülən gözüm, deyən dilim Qubadlım!

Ağaran saç dağlarının qarıdı,
Kimsə getdi, kimsə səndən yarıdı.
İmadəddin, ömrün keçib, yarıdı,
Ana yurdum, doğma elim Qubadlım,
Gülən gözüm, deyən dilim Qubadlım!

## YURDUM HEY

Bağ-baxçalar tək cənnətin özüydü,
Obaların, oymaqların gözüydü,
Dəmirçilər şairlərin sözüydü,
İndi sözsüz-sovsuz qalan, yurdum hey!

Türbələrin tarixlərin daşıydı,
Ağa çayı gözlərimin yaşıydı,
Doğma Məsçid yurdumun başdaşıydı,
Başdaşısız indi yalan, yurdum hey!

Daş körpüsü tarixin ad-sanıydı,
Bərgüşad çay damarların qanıydı.
Bərəkətli torpaqların canıydı,
İndi susuz-selsiz talan, yurdum hey!



***Məscid XIX əsr Dondarlı kəndi***





## ELVİN NAMİQOĞLU



***Elvin Namiq oğlu Allahverdiyev*** *1996-ci il fevral ayının 6-da Sumqayıt şəhərində anadan olmuşdur.*

*Valideyinləri Qubadlı rayonunun Mahmudlu kəndindəndir. Rayonun işğalından sonra Sumqayıt şəhərində məskunlaşıblar. Hazırda ilk kitabı nəşrə hazırlanır.*

## QUBADLIM

Qubadlım, gözəlsən dünya içində,
Üzünü görmədən ölməyim gərək.
Minlərlə övladın vətənsiz qalıb,
Dağılıb hər yana qaçqın düşərək!

Sənin suyun, havan dərman imiş ki,
Cana şəfa verən loğman imiş ki,
Nə var səndən başqa, yalan imiş ki,
Ölərəm yolunda candan keçərək!

Torpağın erməni tapdağındadı,
Bərgüşad, Həkəri qəm çağındadı,
Elvin igidlərin sorağındadı,
Alarıq biz səni sinə gərərək!

## VƏTƏN

Başın min bir dəhşət görsə də sənin,
Başını hər zaman dik tutdun, Vətən!
Dostların ağladı, düşmənin güldü,
Sən yenə əyilməz dağ oldun, Vətən!

Xocalın alındı, Şuşan alındı,
Qəlbinə yaralar vurdular sənin.
Qubadlın alındı, Laçın alındı,
Sinəndə ocaqlar çatdılar sənin!

Ey gözəl Vətənim, qəm-qüssə çəkmə,
Uğrunda döyüşə qalxarıq bir gün.
Alarıq geriyə Qarabağı biz,
Yenə əvvəlki tək hey gülər üzün!

## QARABAĞ

Qarabağım alındı,
Dünyamı zülmət aldı.
Haray çəkir hələ də,
Torpağım yada qaldı!

Üzünü görməsəm də,
Mən Qarabağ dərdliyəm.
Onu görmədən heç vaxt,
Ölmərəm, həsrətliyəm.

## DAĞLAR

Kaş qoynuna gələm, dağlar,
Meşələrin gəzəm, dağlar,
Qucağında öləm, dağlar,
Səxavətin azalmaya!

Başı qarlı uca dağlar,
Zirvələri haça dağlar,
Gül çiçəkli qoca dağlar,
Kaş bizlər sənsiz olmaya!

## AZƏRBAYCAN

Qalx ayağa, böyük millət,
Çiçək açsın Azərbaycan.
Meydandan çıx, qaçqının var,
Yollar açsın Azərbaycan!

Ərən olan belə olmaz,
Şəhid qanı yerdə qalmaz,
Al əlinə qılınc və saz,
Zəfər çalsın Azərbaycan!

Gir meydana oğuz kimi,
Əz düşməni qovuz kimi,
Parla parlaq ulduz kimi,
Qoy nur saçsın Azərbaycan!

Çiçəklənsin torpağımız,
Dilə düşsün sorağımız,
Dalğalansın bayrağımız,
Hey var olsun Azərbaycan!





# XÜRRƏM QAFANLI



*Xürrəm **Bədəl oğlu Bədəlov** 1960-cı ilin noyabr ayının 15-də Qafan rayonunun Həçəti kəndində anadan olub.*

*İndiki Tusi adına Pedoqoji Universitetini bitirib (1978-1982) .*

*Dörd kitab müəllifidir. AYB-nin və S.Rəhimov adına Qubadlı rayon Ədəbi-ictimai Birliyinin üzvüdür.*

*Sumqayıt şəhərində yaşayır.*

## QUBADLIYA GEDƏYDİM

Dünyanın sirr dolu bir yaz səhəri,
Gedib Qubadlıya çıxaydım, Allah!
Ziyarət edəydim doğma yerləri,
Gəzib ocaqları, gəzib pirləri,
Uzanıb torpağın öpəydim, Allah!

Dağ ətri qəlbimi bürümək üçün,
Gedib Qubadlıya çıxaydım, Allah!
Görəydim döşlərdə yenə sürüsün,
Yeyəydim balığın, həm də kürüsün,
Düşüb Həkəriyə axaydım, Allah!

Nəbinin yurduna səcdə etməyə,
Gedib Qubadlıya çıxaydım, Allah!
Yurdumu düşmənlər alıbdır deyə,
Gəlib yetişəydi Nəbi köməyə,
Qələbə bayrağın taxaydım, Allah

Xürrəmin qəlbinə yara saldılar,
Yolunu tufana, qara saldılar,
Hiylələr işlədib tora saldılar,
Bu hiylə torunu qıraydım, Allah
Gedib Qubadlıya çıxaydım, Allah.

## QAYTAR ZƏNGƏZURU

Hər gün əl açıram sonsuz səmaya,
Gündüzlər Günəşə, gecələr Aya,
Düşüb yalvarıram Uca Tanrıya,
Qaytar, Zəngəzuru, sən mənə qaytar;
Qaytar Qarabağı, sən mənə qaytar.

Çıxıb o dağları doyunca gəzim,
Enib bulaqlara – baldırğan üzüm,
Başıma çiçəkdən bir çələng düzüm.
Qaytar Zəngəzuru, sən mənə qaytar;
Qaytar Qarabağı, sən mənə qaytar.

Düşüb çəmənlikdə uzanım, yatım,
Bir anlıq dərd-qəmi kənara atım,
Sevincdən dağlarda tonqallar çatım.
Qaytar, Zəngəzuru, sən mənə qaytar;
Qatar, Qarabağı, sən mənə qaytar.

Qaytar o yerləri bir səhər çağı,
Qaytar o yerləri bayram qabağı,
Qaytar, qarşılayım yenə qonağı.
Qaytar Zəngəzuru, sən mənə qaytar;
Qaytar Qarabağı, sən mənə qaytar.

Qaytar, evimizin qapısın açım,
Xırmanda uşaq tək oynayım, qaçım.
Dayanar, ağarmaz getdikcə saçım,
Qaytar Zəngəzuru, sən mənə qaytar;
Qaytar Qarabağı, sən mənə qaytar.





## MÜNDƏRİCAT


MALİK İSAQOV *(Ön söz)* ... 3
KAMRAN HÜSEYNOV ... 15
ƏLİ İLDIRIMOĞLU ... 21
OQTAY RƏHİMOV ... 27
MİR SƏDİ MİRLƏR ... 29
TARIYEL CAHANGİR ... 33
XASAY CAHANGİROV ... 37
ÇƏRKƏZ QUBADLI ... 41
XANIŞ MƏMMƏDOV ... 45
RAFİQ YUSİFOĞLU ... 47
ELDAR BAXIŞ ... 51
TOFIQ ƏHMƏD NİZAMMÜLK ... 52
SABİR YAQUB ... 53
YAŞAR FƏTİYEV ... 59
ƏLI XANKİŞİYEV ... 61
HACI MİRHƏSƏN HADİ ... 63
SEVİ SEVDİMALIYEV ... 67
SURA XUDARQIZI ... 71
İMAMQULU ŞAHMURADOV ... 73
MƏMMƏD QUBADLI ... 74
NUŞİRƏVAN ƏSƏDOV ... 75
ELBRUS ŞAHMAR ... 77
MAHİRƏ ABDULLA ... 79
FƏRİDƏ HACIYEVA ... 83
ƏLİ-AĞA ASLAN ... 85
QAFQAZ ƏVƏZOĞLU ... 89
YAVƏR HƏSƏN ... 93
XAN RƏSULOĞLU (Siqurd) ... 97
ASİF TALIBOĞLU ... 99

MİRZƏ MEHDİ ... 102
ƏDALƏT ƏSƏDOV ... 103
TALIB ƏZİZOV ... 106
AKİF AMAL ... 107
MÜRVƏT QƏDİMOĞLU HƏKƏRİ ... 111
FİRDOVSİ CƏFƏRXAN ... 115
ELBRUS QAYALI ... 119
ƏDALƏT NİCAT ... 123
USTA FƏXRƏDDİN ... 127
MEHDİ MÜKƏRRƏMOĞLU ... 131
MEHDİ CALAL ... 135
XANKİŞİ BƏXTİYAR ... 139
NOVRUZ QUBADLI ... 143
HÜSEYN HÜSEYNOV ... 147
ŞİRİN MƏMMƏDOV ... 151
TƏHMƏZ ƏVƏZOĞLU ... 155
MÖHÜBBƏT MƏHƏRRƏMOĞLU ... 158
SEYFƏDDİN QASIMOV ... 159
RZAYEV NİZAMİ ... 161
ZAMAN ŞAHGƏLDİYEV ... 162
YUSİF İSAYEV ... 163
SEVİNDİK MEHMAN ... 167
CƏMİLƏ MEHMANQIZI ... 172
MƏLEYKƏ İMAMQULUQIZI ... 173
ZAKİR ZAHİR ... 177
ZEYNƏB NÜSRƏTQIZI ... 181
ELDAR XANLAROĞLU ... 185
BALAKİŞİ SARIYEV ... 188
ƏŞİR BƏŞİROĞLU ... 189
BƏNDALI İBRAHİMOV ... 191
FLORA İBRAHİMOVA *(Nuriyeva)* ... 195





NAİLƏ İMANLI ... 197
SADİQ ƏLİYEV ... 200
QİSMƏT İLDIRIMOV ... 201
TƏLƏT ƏLİYEV ... 203
ŞAKİR ZEYNALOV ... 205
VƏFA XANLARQIZI ... 207
MÜŞGÜNAZ MURADOVA ... 211
LALƏ QUBADLI ... 214
RƏNA TƏBƏSSÜM ... 217
TAHİRƏ KƏDƏRLİ ... 219
MAŞALLAH İBRAHİMOV ... 223
BABƏK ZEYNALOV ... 226
ŞÜKUFƏ İSMAYILOVA ... 229
MEHBALI BABAYEV ... 231
MƏHƏMMƏD QƏMGÜN ... 233
MAYİL ASİMAN ... 235
ÇİNGİZ SALMANOV ... 237
VAHİD ƏLİRZAYEV ... 240
TURAL MÜRVƏTOĞLU HƏKƏRİ ... 243
LƏMAN ƏDALƏTQIZI ... 246
SÖHBƏT QARAYEV ... 247
HACI HƏMDULLAH ƏFƏNDİYEV ... 249
İMADƏDDIN SƏLİMOV ... 251
ELVİN NAMİQOĞLU ... 253
XÜRRƏM QAFANLI ... 255

# 20 İL
# QUBADLI HƏSRƏTİ İLƏ


| | |
|---|---|
| ***Nəşriyyatın direktoru:*** | ***Ceyhun Xəlilov*** |
| *Dizayner:* | *Vüsalə Qəribova* |
| *Operator:* | *Dürdanə Qasımova* |
| *Texniki redaktor:* | *İlahə Lələyeva* |

BİLİK
Poliqrafiya Mərkəzi

*Çapa imzalanmışdır: 05.08.2013.*
*Kağız formatı 64x90. Ofset çapı 1/16.*
*Fiziki ç.v. 17,5. Tiraj: 500.*
*Ünvan: Sumqayıt şəh., 13-cü mkr. Niyazi küç.*
*E-mail: dereleyez-bilik@rambler.ru*
*bilik-2008@mail.ru*
*Tel.: (012) 408 39 51; (018) 656 50 42.*